
Ə.Ə.Qocayev, F.V.Vəliyev

BAYRAMLAR VƏ TARİXİ GÜNLƏR



85.34
Q61

Ə.Ə.Qocayev, F.V.Vəliyev

BAYRAMLAR VƏ TARİXİ GÜNLƏR

F. Köçərli adına
Azərbaycan Dövlət Uşaq
KİTABXANASI
İNV. № 52304

ÇAŞIOĞLU
2010

Ə.Ə.Qocayev, **F.V.Vəliyev.** Bayramlar və tarixi günlər. Bakı: Caşıoğlu, 2010. –224 səh.

ISBN 978-9952-27-238-3

© Ə.Ə.Qocayev, F.V.Vəliyev, 2010.

ÖN SÖZ

Hər bir xalqın tarixində xeyli bayramlar və tarixi günlər vardır. Qədim və çoxəsrlik tarixə, zəngin dövlətçilik ənənələrinə malik olan Azərbaycan xalqı da çoxlu bayram və əlamətdar günlərə malikdir. Bu bayramların bir hissəsi milli-mənəvi dəyərlərimizi özündə əks etdirir və onların qədim tarixi vardır. Orucluq, Qurban və Novruz bayramları buna misaldır. Xalqımız bu bayramları əziz tutmuş, onu böyük təntənə və sevinclə qeyd etmiş və edir. Ən sərt və amansız qadağalar, totalitar rejimlər belə bu bayramların keçirilməsinə mane ola bilməyib.

Elə bayramlarımız da vardır ki, onlar çağdaş tariximizlə, dövlətçiliyimiz və müstəqilliyimizlə bağlıdır. Belə ki, XX əsrdə Azərbaycan iki dəfə – əsrin əvvəlində və sonunda öz müstəqilliyinə qovuşmuşdur. Bu gün müstəqillik yollarında inamla irəliləyən, dünyəvi və hüquqi dövlət quran Azərbaycanın hər bir vətəndaşı üçün bütün bayramlar və tarixi günlər əzizdir. 28 may – Respublika Günü, 15 iyun – Qurtuluş Günü, 26 iyun – Milli Ordu Günü, 18 oktyabr – Müstəqillik Günü, 12 noyabr – Konstitusiya Günü, 17 noyabr – Milli Dirçəliş Günü, 31 dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü belə bayramlardandır. Bir çox peşə işçilərinin bayramlarının qeyd olunması da ənənə şəklini almışdır. Bununla əlaqədar olaraq Azərbaycan Respublikasının Prezidenti müxtəlif peşələrə aid günlərin qeyd olunması haqqında sərəncamlar imzalayır.

Dünyada qeyd olunan, ölkəmiz üçün də az əhəmiyyət daşımayan bayramlar, tarixi günlər vardır. Çünki milli-mənəvi dəyərlərlə ümumbəşəri dəyərlər vəhdət təşkil edir. Azərbaycan dünyanın bir parçasıdır. BMT və YUNESKO kimi mötəbər dünya qurumlarının qərarı ilə qeyd olunan bir çox bayram və tarixi günlər Azərbaycanın dünyaya inteqrasiyasında da əhəmiyyətli rol oynayır.

Kitabın üçüncü nəşrində müəlliflər tərəfindən müxtəlif mənbələrdən istifadə edilməklə bayram və tarixi günlərin yaranma tarixi, qeyd olunmasının səbəbləri, əhəmiyyəti geniş işıqlandırılmışdır. Əlbəttə, dünyada çoxlu bayramlar və tarixi günlər vardır. Onların hamısını bir kitabda əks etdirmək çətindir. Odur ki, müəlliflər ən əhəmiyyətli və daha geniş qeyd olunan bayram və tarixi günlər haqqında yazmışlar. Buradakı məlumatlardan müxtəlif peşə sahibləri, müəllimlər, tələbələr və şagirdlər istifadə edə bilərlər.

Kitab haqqında rəy və təkliflərinizi, **ekberqocayev@mail.ru** elektron poçt ünvanına göndərməyiniz xahiş olunur. Sizin təklif və iradlarınız gələcək nəşrlərdə nəzərə alınacaqdır.

Müəlliflər

ORUCLUQ BAYRAMI

İslamın müqəddəs bayramları arasında orucluq mühüm yer tutur. Bu bayramın tarixi müsəlman təqvimi ilə hicrinin 2-ci ilindən (miladi 623-cü il) başlanır. Oruc Ramazan ayında tutulduğu üçün ona "Ramazan orucu" da deyirlər.



İslamda ilin ayları arasında Ramazan ayı ən şəfaqətli və müqəddəs ay hesab edilir. Onu məcazi şəkildə "on bir ayın sultanı" da adlandırırlar, çünki bu ayın gecələrindən birində müqəddəs kitabımız olan Qurani-Kərim nazil olub. Həmin gecə "qədir" və ya "əhya" gecəsi adlanır. Qədir gecəsinin konkret olaraq hansı gün olduğu bilinmir. Bununla bağlı müxtəlif rəvayətlər var. Amma ümumi fikir belədir ki, qədir gecəsi Ramazan ayının son on gecəsindən biridir, həm də tək günün gecəsidir. İslamşünasların fikrincə, bu gecə Ramazan ayının 19, 21, 23, 25, 27-si gecələrindən biridir. Qurani-Kərimdə "Qədir surəsi" vardır. Bu surədə qədir gecəsi haqda belə yazılır: "Biz bu gecə həqiqətən qüdrət, əzəmət hədiyyə etmişik, bu gecə min aylardan da qüdrətlidir, mələklər aşağı enərək, Allahın əmrini gözləyirlər, bu gecə şəfəqin doğmasına qədər aləmdir, sübhdür".


Orucluq Ramazan ayında təzə ay çıxandan başlanır və 29–30 gün davam edir. Qurani-Kərimdə yazılır: "Sübh açılınca, ağ sap qara sapdan fərqlənməyincəyə qədər yeyib-için, sonra gecəyə kimi orucunuzu tamamlayın".

Ay ili biri 29, digəri isə 30 gün sürən 12 aydan ibarətdir. Ay (qəməri) təqvimi də buradan yaranmışdır. Bu təqvimə əsasən, ilin uzunluğu 354 gün sürür. İkinci xəlifə Ömərin dövründə qərara alındı ki, tarixləri Məhəmməd peyğəmbərin (s.ə.s.) Məkkədən Mədinəyə hicrəti ilindən hesablasınlar. Beləliklə, məhərrəm

ayı ilə başlanan hicri-qəməri təqvimi yarandı. Bütün müsəlman ibadətlərinin, bayram və mərasimlərinin vaxtı bu təqvimə əsasən müəyyən edilir. Ay təqvimi Günəş təqvimindən 10-11 gün qısa olduğu üçün hər bir müsəlman ibadətinin tarixi işlətdiyimiz Günəş təqviminə nisbətən 10-11 gün irəli keçir.

Ay təqvimində də tarixlər sabitdir. Bu tarixlər yalnız Günəş təqviminə nisbətən yerini dəyişir. Bizim Günəş təqviminə alış-

Qeyd: Müsəlmanlar ən mühüm ibadətlərini, o cümlədən orucu və həcci, Fitr və Qurban bayramlarını hicri-qəməri (Ay) təqviminə əsasən yerinə yetirirlər. Ayın isə Günəşə və Yerə nisbətən vəziyyətindən asılı olaraq müxtəlif səfhələri (ayın görünən xarici tərəfindən hər biri) olur. Bu səfhələrdən biri də hilaldır, yəni təzə aydır. Qurani-Kərimdə deyilir ki, "(Ya Məhəmməd!) Səndən hilallar barədə soruşurlar. De: Bunlar insanlar və həcc üçün vaxt ölçüləridir". İnsanlar vacib ibadətlərinə ayın hilalına əsasən əməl etmişlər: hilalı görəndə oruc tutmuş, onu yenidən görəndə oruclarını başa vurmuşlar. İki təzə ay arasında keçən müddət 29,5 orta Günəş gününə bərabərdir ki, bu da bir ay edir. Qədim ərəblər bunu vaxt vahidi kimi götürərək bəzi ayları 29, bəzilərini isə 30 gün qəbul etmişlər.




mış şüurumuz haradasa qeyri-müəyyənlik görür. İslam bayram və ayinlərinin müxtəlif fəsillərə təsadüf etməsində isə ilahi bir hikmət vardır.

Orucluq vaxtı gündüz yemək, içmək, siqaret çəkmək olmaz. Bunlardan yalnız uşaqlar, xəstələr, hamilə qadınlar, döyüşçülər, əsirlikdə olanlar və səyyahlar azad olunurlar. Oruclu adam sürmə çəkməməli, ətirlənməməli, tütün, gül iyləməməli və orucu pozan digər hərəkətlərdən imtina etməlidir. Orucluq dövründə adam dünya ləzzətindən çəkinir, gündəlik fəaliyyətini davam etdirsə də, özünü Allaha ibadətə həsr edir, nəfsini təmiz saxlayır və bu şeytan onun qəlbinə yol tapa bilmir. Peyğəmbərimiz (s.ə.s.) buyurur ki, Ramazan ayı gələndə cənnətin qapıları açılar, cəhənnəmin qapıları bağlanar, şeytanlar zəncirdə olar.

Döyüşdə və ya əsirlikdə olduğuna görə oruc tutmayanlar sonra münasib bir vaxtda onun əvəzini (qəzasını) tutmalı və ya fidiyə verməlidirlər. Orucu qəsdən pozanlar isə onun əvəzini tutmaqla yanaşı, tövbə etməli və kəffarəsini ödəməlidirlər. Kəffarə isə 60 gün oruc tutmaq, yaxud 60 yoxsulu yedirtməkdir. 60 günlük kəffarə orucuna bir günlük qəza orucu da əlavə olunur.

Orucluğun başa çatdığı gün fitr bayramı adlanır. Həmin gün bütün müsəlmanlar bir-birilərini təbrik edir, vəfat edənlərin qəbirlərini ziyarət edir, ruhlarına dualar oxutdururlar. Bayram günü hər kəs öz himayəsində olanlar da daxil olmaqla təqribən 3 kq buğda, yaxud xurma və ya kişmiş miqdarında kasıblar üçün fitrə zəkatı verməlidir.



Orucluq insana öz iradəsini, dözümlülüyünü yoxlamaq imkanı verir, onu paklığa, xeyirxahlığa dəvət edir.

"Qabusnamə"nin müəllifi Keykavus ibn İsgəndər oğluna nəsihət edərək yazır: "Ey oğul... bil və agah ol ki, Allah-Təalanın sə-

nin ac və ya toxluğuna ehtiyacı yoxdur. Oruc Allah tərəfindən sənin var-dövlətinə və özünə vurulan möhürdən ibarətdir. Bu möhür mal və bədənin yalnız bir hissəsinə deyil, bəlkə, bütün üzvlərinə vurulur: əl-ayağa, gözə, dilə, qulağa, qarına.

Ey oğul, bil və agah ol: Orucluğun ən böyük məqsədi ondadır ki, sən gündüz yemədiyini ehtiyacı olanlara verməlisən ki, zəhmətinin faydasını görmüş olasan, elə bu zəhmət ona görə lazımdır ki, onun xeyri ehtiyacı olana çatsın".


Orucluqla bağlı dini ayinlər əvvəlki səmavi dinlərdə də (yəhudilik, xristianlıq) mövcud olmuşdur. Amma digər dinlərdən fərqli olaraq İslamda orucluq xüsusi əhəmiyyət daşıyır. İslam qaydalarına əsasən yetkinlik yaşına çatmış hər bir müsəlmana oruc tutmaq vacibdir. Bununla bağlı Qurani-Kərimin "Bəqərə"surəsinin 183-184-cü ayələrində belə buyrulur: "Ey iman edənlər, oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib olduğu kimi, sizə də vacib edildi... Bilsəniz, oruc tutmaq sizin üçün nə qədər xeyirlidir." Bu ibadət ayini ilə bağlı Məhəmməd peyğəmbərin (s.ə.s.) xeyli hədisi var.

Həmin hədislərin birində deyilir ki, Adəm oğlunun hər bir əməli özü üçündür. Təkcə orucdan başqa – o, Allah üçündür, əvəzini də Allah verir.

Sovet hakimiyyəti dövründə İslamın başqa ayinləri və ibadətləri kimi, orucluq da qadağan idi. Lakin imanlı adamlar, gizlicə də olsa, öz borclarını yerinə yetirirdilər. Bir çoxları isə vəzifə və iş yerlərini itirməmək, təqiblərə məruz qalmamaq üçün orucluqdan imtina etməyə məcbur idilər. Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra insanların vicdan azadlığı da real həllini tapdı. İslam dininə, onun ibadət və ayinlərinə olan münasibət dəyişdi. Milli Məclisin qəbul etdiyi 1992-ci il 27 oktyabr tarixli "Azərbaycan Respublikasının bayramları haqqında" Qanuna əsasən Orucluq bayramı dövlət səviyyəsində qeyd olunmağa başladı.

Əhalinin və nüfuzlu din xadimlərinin xahişi əsasında Milli Məclis "Azərbaycan Respublikasının Əmək Məcəlləsinə dəyişiklik edilməsi barədə" 19 dekabr 2006-cı il tarixdə Qanun qəbul etmişdir. Həmin Qanuna əsasən Orucluq bayramı iki gün qeyd olunur.

QURBAN BAYRAMI




İslam dünyasının ən müqəddəs bayramlarından sayılan Qurban bayramı bütün müsəlman ölkələrində təmtəraqla qeyd olunur. Azərbaycan müstəqillik əldə etdikdən sonra Milli Məclisin qəbul etdiyi 1992-ci il 27 oktyabr tarixli "Azərbaycan Respublikasının bayramları haqqında» Qanuna əsasən Qurban bayramı ölkəmizdə də dövlət səviyyəsində bayram edilir.

Səmavi dinlərin – yəhudilik, xristianlıq və İslamın hər üçündə müxtəlif formada qurbanlıq mövcuddur. Lakin İslamda bu ayin xüsusi mahiyyət və əhəmiyyət kəsb edir. Onun əsasında Allaha sonsuz sevgi, Onun qüdrətinə dərin inam və iman işığı durur.

İnsanları halallığa, paklığa səsləyən Qurban bayramının çox maraqlı tarixi və şərtləri var.

Allaha qəlbən yaxın və sadiq olduğunu sübut etmək istəyən İbrahim peyğəmbər oğlu İsmayılı qurban kəsməyə hazır idi. Lakin uca Allah bunu elçisinə rəva bilmədi və qurbanlıq üçün ona bir qoç göndərdi. Buna görə də Qurbanlıq bayramında kəsilən qurbana "İsmayıl qurbanı» da deyirlər.

İbrahimin qoca yaşında Allah ona bir oğlan uşağı (İsmayılı) nəsib etmişdi. Çox sevdiyi balasını Allah yolunda qurban verməyə hazır olması peyğəmbərin Allah qarşısında inamının, səmimiliyinin və mütiliyinin bariz sübutudur. Odur ki, din tarixində dərin



iz salmış bu hadisə Allaha inamın, dərin etiqadın nümunəsidir. Bu hadisə onu göstərir ki, insanlar Allahı sonsuz inamla sevməli və öz sevgilərində bu cür səmimi olmalıdırlar. Çətin anlarda Allahı yada salıb, yaxşı zamanlarda Onu unutmaq mömina yaraşan hərəkət deyil.

Bu rəvayətin başqa bir fəlsəfi-əxlaqi mənası ondan ibarətdir ki, İslam dinində insanın Allah yolunda qurban kəsilməsi qəbul olunmur. İslama qədər bir çox dinlərdə insanların qurban vermə ayinlərinə rast gəlmək mümkündür. Məsələn, atəşpərəstlər insanı odda yandırırdılar. Onlar bu yolla guya Allaha yaxın olduqlarını göstərirdilər. Qədim Çində də insanları ilahlara qurban vermək adəti var idi. Bu ölkədə təbii fəlakətlərdən, daşqınlardan hifz olunmaq üçün uşaqları çaya atırdılar.

İnsan Allahın yaratdığı ən şərəfli və ən üstün məxluqdur. Allah özünün yaratdığını özü yolunda qurban kəsilməsini qəbul etmir.

İsmayıl Qurbanında kəsilən heyvanlarda bir sıra şərtlər vacib sayılır. Qurbanlıq kimi seçilən heyvan, qoç, iribuynuzlu dana, yaxud da dəvə olmalıdır. Nəsil artımında dişi heyvanların müstəsna rolu olduğuna görə qurbanlıq heyvanın erkək olması daha

üstün tutulur. Qurbanlıq qoçun yaşına gəlincə, bu ən azı altı aylıq heyvan olmalıdır. Lakin dana, yaxud dəvənin bir yaşı tamam olsa, daha yaxşıdır. İsmayıl Qurbanında kəsilən heyvanın sağlam olması da vacib şərtdir. Əzalarında hər hansı nöqsan olan, buynuzunun, yaxud qulağının biri olmayan, axtalanmış heyvanın qurban kəsilməsi İslamda məsləhət görülmür.

Bu bayramın əsas mahiyyəti Allah yolunda kəsilmiş qurbanlıq heyvanın ətini Allahın imkansız bəndələri ilə bölüşmək, onları sevindirmək və sevincinə şərik olmaqdır. Beləliklə, bu bayramın və ayinin də əsasında, orucluqda olduğu kimi, xeyirxahlıq, paklıq, Allaha inam və sevgi durur.

Bəzən bir neçə adam bir heyvan alıb onu öz aralarında bölüşməklə, yaxud gedib bazardan ət alıb gətirməklə öz qurbanını kəsmiş hesab edir. Lakin İslam dininə görə bunlar qurbanlıq hesab olunmur. Əlbəttə, bir neçə nəfər yığışıb bir dananı qurban kəsə bilərlər, bu şərtlə ki, hər bir şəxsə düşmüş ət payını ən azı üç hissəyə bölmək mümkün olsun. Bu hissələrdən biri onların öz ailəsinə sərf olunmalı, qalan hissələri isə fəqir-füqəraya paylanmalıdır.

Qurbanlığın ən gözəl xüsusiyyətlərindən biri odur ki, burada din, məzhəb ayrı-seçkiliyinə yol verilmir. Bu bayramlarda istənilən dindən olan yetimin, kimsəsizin və yoxsulun haqqı var ki, varlının imkanlarından bəhrələnsin, adi günlərdə yeyə bilmədiyi qurbanlıq ətindən dadsın. Qurbanlıq o deməkdir ki, insanlar Allahın xoşuna gələcək bir əməli icra edirlər.

Qurbanlığın şərtlərindən biri də budur ki, qurban kəsmək yalnız buna imkanı olan varlı adamların boynunda haqdır. İmkanı olmayan şəxsə isə qurban kəsmək vacib deyil. Qurbanı kəsmək üçün borc pula heyvan almaq İslamda təqdir olunmur, çünki bu bayramın əsas mahiyyəti zənginlərlə imkansızların birliyi, qardaşlığıdır. Bu bayramda hamı sevinməlidir: varlılar Allaha xoş gedən əməli icra etdikləri və kasıbları sevindirdiklərinə görə, kasıblar isə dünya naz-nemətindən əldə etdiklərinə və başqalarından mərhəmət və qayğıya görə. Əhalinin və nüfuzlu din xadimlərinin xahişi əsasında Milli Məclis 19 dekabr 2006-cı ildə qəbul etdiyi "Azərbaycan Respublikasının Əmək Məcəlləsinə dəyişiklik edilməsi barədə" Qanunla Qurban bayramının iki gün qeyd olunmasını rəsmiləşdirmişdir.

20–24 mart

NOVRUZ BAYRAMI



Hər bir xalqın tarixində müxtəlif bayramlar, el şənlikləri olmuşdur. Onlardan bəziləri xalqa yad müəyyən bir ideologiya ilə bağlı olduğundan zaman keçdikcə unudulmuş, yaddaşlardan silinmişdir. Yalnız o bayramlar əsrlərin sınağından keçir ki, onların əsasında humanist milli və bəşəri ideyalar durur. Azərbaycan xalqının uzaq qədimlərdən bu günədək sevə-sevə qeyd etdiyi belə bayramlardan biri də Novruz bayramıdır.

Çox qədim zamanlardan başlayaraq dünya xalqlarının bir çoxu yazın gəlməsini, təbiətin oyanmasını, əkin işlərinin başlanmasını bahar bayramı kimi qeyd etmişlər. Bu münasibətlə şənliklər keçirmiş, onu yeni ilin başlanğıcı kimi qarşılamışlar.

Qədimdə bir sıra Şərq xalqları, o cümlədən Mərkəzi Asiya və Azərbaycan türkləri də baharın gəlişini bayram etmişlər. Bu bayram Novruz adlandırılmışdır. Novruz bayramı martın 21-də və ya 22-də keçirilir. Bu isə yaz gecə-gündüz bərabərliyinə təsadüf edir.

Bir çox tədqiqatçılar Novruzun yaranma tarixini, onun zərdüştilik və ya müsəlman mədəniyyəti ilə əlaqələrini araşdırmış, qədim mənbələrdə bir-birini təkzib və ya təsdiq edən müxtəlif faktlar aşkar etmişlər. Lakin ümumi fikir belədir ki, Novruzu konkret bir dinlə, etiqadla bağlamaq düzgün deyil. Novruz bayramı, birlik, qardaşlıq bayramı, xalq şənliyidir. Qədim dövrlərdən bəri xalqımız Novruzu yeni ilin başlanğıcı hesab etmiş, onu bolluq, bərəkət və firavanlığın əzəli kimi rəmzləşdirmişdir.

Novruz inanclarının əsasında insana, təbiətə həyat verən dörd ünsürün – Suyun, Odun, Yelin (havanın), Torpağın isinməsi, "dirilməsi" durur. Odur ki, Novruz şənlikləri təzə ilin başlanmasına,



yəni martın 21-nə dörd həftə qalmış keçirilməyə başlayır. Bu aya Boz ay deyirlər. Həmin ayın hər çərşənbəsi təbiətin bir ünsürü ilə əlaqələndirilmiş və beləliklə, insanların təsəvvüründə ilaxır çərşənbəsi yaranmışdır. Qədim inanclara görə bu çərşənbələrin hər birində təbiətin dörd ünsüründən biri "dirilmişdir". İlin Novruzdan əvvəlki dörd axır çərşənbəsi müqəddəs sayılır. Bunlar Su çərşənbəsi, Od çərşənbəsi, Yel çərşənbəsi və Torpaq çərşənbəsi adlanır. Bu çərşənbələrdə də xalqımızın adət-ənənələri yaşayır.

Su çərşənbəsi

Bu çərşənbəyə "Əzəl çərşənbə", "Sular Novruzu" da deyirlər. Su çərşənbəsində su və su mənbələri təzələnir, arxlar qaydaya salınır, su hövzələrində abadlıq işləri görülür, su ilə bağlı müxtəlif şənliklər keçirilir.

Su çərşənbəsi suya tapınma inamı ilə bağlıdır. Hələ gün doğmamışdan bir-birinin üzərinə su çiləyir, su üstündən atlanır, yaralıların yarasına su səpirlər. Xalqın inamına görə Su çərşənbəsi günü "təzə su"dan keçənlər, azarını, bezarını ona verənlər il boyu xəstəlikdən uzaq olurlar. Həmin gün su üstündə müxtəlif mərasimlər keçirilir, qədim türklərdə su ilahları sayılan Aban və Yadanın şərəfinə nəğmələr oxunurdu.

Su çərşənbəsi ilə əlaqədar çoxlu sayda inanclar, fallar, türkəçarələr, bayatılar, əfsanələr və rəvayətlər var. Məsələn, inanclarda deyilir:

– Süfrəyə su dağılması aydınlıqdır.
– Su içən adamı qəfil vurmazlar.
– Su içən adamı ilan çalmaz.
– Lal axan sudan keçməzlər.



Bir çox atalar sözündə də suyun müqəddəsliyi əks olunur:
– Su olan yerdə dirilik olar.
– Su ehsandır.
– Su murdarlıq götürməz.
– Suyu çirkləndirənin nəşini yumağa su tapılmaz.

Od çərşənbəsi

İlaxır çərşənbələrin ikincisi Od çərşənbəsidir. Buna xalq arasında "İkinci çərşənbə" və ya "Üsgü çərşənbə" də deyilir.

Od çərşənbəsi qədimdə xalqımızın Günəşə, odu saxlayıb qorumağın vacibliyinə inamı ilə bağlıdır. Od çərşənbəsində odu təmizlik, sağlamlıq və gözəllik rəmzi kimi qeyd edərdilər.

Odla bağlı da bir çox xalq deyimləri – inanclar, atalar sözləri, andlar, alqışlar, qarğışlar və tapmacalar bu günə qədər yaşamaqdadır.

Atalar sözləri:

– Od imandandır.
– Odla zarafat eləyən ağlar qalar.
– Odla oynayan odsuz qalar.
– Od eləyəni fələk eləyə bilməz.
– Oda dərdini deyən xeyir aparar.
– Odu söyən qara günə qalar.

İnanclar:

– Ocaq yananda səslənirsə, demək kimsə sözünü danışır.
– Ocağa yanaşanda salam verərlər.
– Ocaq dağıdanın oçağı dağılar.
– Gün güzəran gətirər.

Andlar:

– Od haqqı!
– Gün haqqı!
– İşığa and olsun!
– Çıraq haqqı!

Alqışlar:

– Oduna nur çilənsin!
– Ocağın nurlu olsun!
– Ocağın qaralmasın!


Qarğışlar:

– Günəş sənə qənim olsun!
– Od-ocağa həsrət qalasan!
– Ocağın qalanmasın!
– Ocaq üzü görməyəsən!

Xalqın inamına görə odu insanlara verən ağac olub. Bununla bağlı da bir sıra inanclar var.

– Ağacın istisinə isinərlər.
– Od çərşənbəsində "ağlayan" ağacı kəsən sonsuz qalar.
– Od çərşənbəsində ocaqdan od verməzlər.
– Palıd ağacının istisi sağlamlıq gətirər.





Yel çərşənbəsi

Yel çərşənbəsi günündə isə əsən isti küləklər yazın gəlişindən xəbər verir. Xalq arasında "Külək oyadan çərşənbə", "Küləkli çərşənbə" kimi tanınan Yel çərşənbəsi ilaxır çərşənbələrindən üçüncüsüdür. İnama görə bu çərşənbədə yel, külək oyanmış suyu, odu hərəkətə gətirir.

Şifahi xalq yaradıcılığında Yelin ilah olması ilə bağlı müxtəlif nəğmə, əfsanə, rəvayət, mif, inanc, məsəl və s. yaranmışdır. Novruz şənliklərində icra olunan Yel baba mərasimi öz kökü etibarilə qədim əcdadlarımızın Yel ilahına etiqadı ilə bağlıdır.

A Yel baba, Yel baba,
Tez gəl, baba, gəl baba.
Sovur bizim xırmanı,
Atına ver samanı.
Dən dağılıb dağ olsun,
Yel babamız sağ olsun.
A Yel baba, Yel baba,
Qurban sənə, gəl baba.

İnanclar:

– Yel baba xırmana gəlməmişdən qabaq oradan buğda, dən götürməzlər. Sovrulmamış buğda götürənin oğlu ölər.
– Yeli əsdirəni söyməzlər.
– Yel çərşənbəsi gecəsi söyüd ağacının altına gedib niyyət elə və Yel babanı çağır. Əgər Yel baba sənin səsini eşidib əssə və söyüdün budaqlarını torpağa toxundursa, diləyin yerinə yetər.

Torpaq çərşənbəsi

Novruz ərəfəsində sonuncu çərşənbədə yer oyanır, torpaq nəfəs alır. Bu çərşənbə xalq arasında "Yer çərşənbəsi", "İlaxır çərşənbə" və ya "Torpaq çərşənbəsi" adlanır.

İnama görə Torpaq çərşənbəsi yetişəndə torpaq artıq əkinə hazır olur və ona toxum səpmək olar. Əfsanəyə görə adamların ərzaq qıtlığından əziyyət çəkdikləri bu gündə Su, Od və Yel Torpaq xatının yeraltı məbədinə qonaq gəlir, burada yatmış Torpağı oyadırlar. Onlar əl-ələ verib:

Zəmzəm gəldi, Atəş gəldi, Yel gəldi.

Təzə ömür, təzə məhsul, il gəldi: – deyə oxuya-oxuya işıqlı dünyaya çıxırlar.

İlaxır çərşənbələri arasında Torpaq çərşənbəsi mərasim, ayin, etiqad, oyun və şənliklərlə ən zənginidir, çünki həmin günün mərasimləri həm Suya, həm Oda, həm Yelə, həm də Torpağa inamı əks etdirir. Həmin gün insanlar əkin sahələrinə çıxır, torpağı təmizləyir, bostan və dirriklərdə müxtəlif ayinlər, kütləvi şənliklər keçirir, əmək nəğmələri oxuyurlar. Bu çərşənbələrin axşam şənlikləri daha gur olur: evlərdə üzərlik yandırılır, tonqallar qalanır, məşəllər alovlandırılır, bacalardan torbalar sallanır, qurşaq atılır, qulaq falları qurulur və s.

Yel çərşənbəsi günü təzə ilə xoş arzular, ailəyə səadət, xoşbəxtlik arzulanır. Həmin gün hamı öz evində olmalı, yalnız övladlar valideynlərinə baş çəkdikdən sonra öz evlərinə qayıtmalıdırlar.

Torpaqla bağlı atalar sözləri:

– Torpağa əyilən namərdə əyilməz.
– Torpağa xor baxsan, o, sənə kor baxar.
– Torpaq müqəddəsdir.
– Torpaqda itki olmaz, kötüksüz bitki olmaz.

İnanclar:

– Çərşənbə günü təzə evə köçən bəlaya düşər.
– Axır çərşənbə axşamı küsülülər barışarlar.
– Axır çərşənbə gecəsində nəhs danışmaq olmaz.
– Axır çərşənbə gecəsi ərə verilən qızı tonqalın başına dolandırar və deyərlər: "Qoy odlu-ocaqlı olsun!"

Çərşənbə gecəsi suyun üstündən tullanıb deyərlər:

– Atıl- ütül çərşənbə,
– Çilləm tökül çərşənbə,
– Baxtım açıl çərşənbə...

Kos-Kosa. Axır çərşənbə xalq tamaşaları ilə də zəngin olur. Bunlardan biri də "Kos-Kosa"dır. Bu tamaşada oxunan nəğmələr xalq arasında indi də məşhurdur:

A Kos-Kosa gəlmisən,
Gəlmisən meydana sən.
Almayınca payını
Çəkilmə bir yana sən.
Beş yumurta payındı.
Olmaya aldanasan.

Səməni. Baharın gəlişindən əvvəl suda isladılmış toxumdan səməni göyərdirlər. Həyat, bolluq nişanəsi olan səməni baharın ilk müjdəçisi hesab olunur. Buna görə də bayram ərəfəsində səməni göyərtmək Novruzun ən müqəddəs ayinidir. Səməni müqəddəs sayılmış, xoşbəxtlik gətirən amil kimi tərənnüm edilmişdir. Evlərdə göyərdilmiş səmənini bişirər, xəstələrə yedirərdilər.

Bayram süfrəsi. Bayram günündə qadınlar dadlı-ləzzətli şirniyyatlar bişirir, yumurta boyayırlar. Bütün evlərdə bayram süfrəsi açılır. Cürbəcür yeməklər, əsasən aş, paxlava, şəkərbura, şorqoğal, badambura və s. şirniyyatlar bişirilir. Bayram axşamı süfrəyə innab, kişmiş, püstə, badam, qoz, fındıq və müxtəlif meyvələrin qurusu qoyulur. Bayram süfrəsində bayram xonçasının olması vacibdir. Xonçanın ortasında səməni, ailə üzvlərinin sayı qədər şam və yumurta qoyulur. Süfrədə yeddi növ yemək olmalıdır. Hər yan çıraqban olur, evlərdə şamlar yandırılır.

Axır çərşənbə gecəsinin səhəri sübh obaşdan durub axar su üstünə getmək, suya salam verib üç dəfə üstündən tullanmaq lazımdır. Deyirlər ki, belədə ilin xoş gələr, ağrı-acı görməzsən. İlaxır çərşənbədə balta ilə meyvə ağaclarının kötüyünə bir-iki dəfə yüngülcə vurub, deyərlər: "nə yatmısan, oyan, bərəkət payını götür". Deyirlər, belədə həmin il ağacın bəhəri bol olar. Axır çərşənbə axşamında bir neçə parça kömürü, bir ovuc duzu, biri-iki dənə qara pulu bir qaba qoyub damdan atarlar. Deyilənə görə, kömür qara günün, duz gözdəymənin, qara pul da yoxsulluğun nişanəsidir. Onları qaba yığıb damdan atmağın niyyəti qara gündən, gözdəymədən, yoxsulluqdan qurtarmaqla bağlıdır. Bayram tonqalı yanıb sona yetəndə ocaqdakı közlərin üstünə üzərlik səpib deyirlər: "Odumuza, ocağımıza kəm baxanın gözləri, bax beləcə partlasın, özü də düşüb çatlasın".

F. Köçərli adına
Azərbaycan Dövlət Uşaq
KİTABXANASI
İNV. № 52304

İlin axır çərşənbəsində, ya da Novruz axşamı ürəyində niyyət tutub qaş qaralandan sonra xəlvətcə qonum-qonşunun qapısına gedərlər. Qapı dalında durub ayağın altına açar atıb içəriyə qulaq asarlar. İçəridən eşidilən iki kəlmə niyyətin yerinə yetib-yetməyəcəyinə işarə verir. İki kəlmə xoş sözə, yaxşı bir istəyə bağlıdırsa, demək niyyət baş tutacaq, yox pis söz, narazılıq, nigarançılıq bildirən kəlmə dilə gəlsə, onda istəyə yetmək çətin işdir. Odur ki, ulular tapşırmışlar ki, axır çərşənbə gəlib yetişəndə evdə könül açan söhbətlər edilsin. Nədən ki, birdən qapıya gəlib dilək tutan olar, qoy niyyəti xoş sözə tuş gəlsin.

Yazın gəlişi ilə əlaqədər ilin axır çərşənbə axşamı həyətlərdə tonqal qalanır, uşaqlar odun üstündən hoppanırlar. Bu adət soyuq qışın çıxması və isti yaz fəslinin gəlməsi ilə bağlıdır. Həm də tonqal üstündən atlanmaq köhnə ilin qada-balasını odda yandırmaq, yeni ilə qədəm qoymaq deməkdir. Min illər boyu gənclər əl-ələ tutub yallı gedərək göylər qızı Günəşi haraylamış, onu təbiəti isindirməyə, canlandırmağa çağırmışlar:

Gün çıx, gün çıx!
Kəhər atı min çıx!

Xalqımızın ən qədim bayramlarından biri olan Novruz evlərə sevinc, şadlıq gətirir. Novruzla bağlı nəğmələr, mərasimlər, tamaşalar isə şifahi xalq yaradıcılığımızın ayrılmaz hissəsidir.

Sovet dövründə tariximizin bu əvəzsiz yadigarına dini don geyindirməyə çalışaraq el sevincini, el şənliyini zorla yaddaşımızdan silmək istəyirdilər. Buna baxmayaraq, Novruz bayramı hətta o dövrdə də xalqımız tərəfindən qeyd olunmuşdur. Şıxəli Qurbanov kimi mütərəqqi ziyalılarımız bu bayramı xalqın mənəvi abidəsi kimi qoruyub saxlamağa çalışırdılar.

Azərbaycan müstəqilliyinə nail olduqdan sonra Novruz bayramının üzərinə qoyulmuş qadağalar aradan götürüldü. Milli Məclisin qəbul etdiyi 1992-ci il 27 oktyabr tarixli "Azərbaycan Respublikasının bayramları haqqında" Qanuna əsasən Novruz rəsmi dövlət bayramı kimi qeyd olunmağa başladı. Milli Məclisin qəbul etdiyi 19 dekabr 2006-cı il tarixli "Azərbaycan Respublikasının Əmək Məcəlləsinə dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa əsasən Novruz bayramı beş gün – 20-24 mart tarixində keçirilir.

28 mart

TƏHLÜKƏSİZLİK ORQANLARI İŞÇİLƏRİ GÜNÜ

1918-ci ildə yaradılmış Azərbaycan Xalq Cümhuriyyətinin milli təhlükəsizliyini təmin etmək başlıca vəzifələrdən biri idi. AXC-nın müdafiə naziri Səməd bəy Mehmandarov Milli Ordu quruculuğu ilə yanaşı, xüsusi xidmət orqanlarının təşkili qayğısına da qalmalı oldu. Azərbaycanın yeni, xüsusi xidmət orqanlarının yaradılması istiqamətində ilk addımlar atıldı.

Ölkədəki daxili və xarici vəziyyətin kəskinliyini nəzərə alaraq, 1919-cu il martın 28-də Müdafiə naziri S.Mehmandarovun 157 №-li əmrinə əsasən kəşfiyyat və əks-kəşfiyyat xidməti təşkil olundu. Bu təşkilatın vəzifəsi terrorizmə, casusluğa, təxribatlara qarşı mübarizə aparmaq idi. 1919-cu il iyun ayının 11-də yaradılmış Əksinqilabla Mübarizə Təşkilatının (ƏMT) ilk rəisi vəzifəsinə Azərbaycan parlamentinin üzvü Məmmədbağır Şeyxzamanov təyin olundu. Məmmədbağır bəy parlamentin üzvü olduğuna görə avqustun 20-də öz ərizəsinə əsasən tutduğu vəzifədən azad edildi. Həmin tarixdən bu vəzifəni onun qardaşı Nağı bəy Şeyxzamanov ifa etməyə başladı. Təəssüf ki, bu təşkilatın ömrü uzun olmadı və 1920-ci il martın 6-da öz fəaliyyətini dayandırdı. Təşkilatın arxiv sənədlərində ayrı-ayrı şəxslərə göndərilmiş məktublardan aydın olur ki, Bakıda Denikin ordusunun casusları sıx əlaqədə işləmiş, geniş casusluq şəbəkəsi yarada bilmişdilər. Denikin ordusunun Azərbaycana qarşı təxribatı ilə əlaqədar ƏMT-nin saxladığı və həbs etdiyi şəxslərin əksəriyyəti erməni idi.



Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan dərhal sonra bu təşkilatın üzvləri repressiyalara məruz qaldılar. Məmmədbağır bəy Şeyxzamanov güllələndi. Nağı bəy Şeyxzamanov Türkiyəyə mühacirət etməyə məcbur oldu. Təşkilatın üzvləri generallar Şahzadə Əmir Kazım Mirzə Qacar, İbrahim ağa Usubov, Əbdülhəmid Qaytabaşı, Məmməd bəy Sulkeviç, polkovnik Rüstəm bəy Şıxlinski də güllələndilər.

70 illik sovet rejimi dövründə əvvəllər Ümumrusiya Fövqəladə Komissiyasının (FK), sonralar isə Dövlət Təhlükəsizlik Komitəsinin (DTK) filialı olan Azərbaycan SSR DTK-sı SSRİ-nin siyasi, iqtisadi və sosial mənafelərinin qorunmasına xidmət etmişdi. Bu orqana başçılıq etmiş qeyri millətlərin nümayəndələri – əsasən ermənilər və ruslar xalqımızın ən layiqli övladlarını, düşünən beyinlərini məhv etməkdə xüsusi rol oynamışlar. Yalnız xalqımızın böyük oğlu Heydər Əliyevin bu orqanda rəhərliyə gəlməsi (əvvəl müavin, sonra isə sədr) nəticəsində yüzlərlə azad düşüncəli Azərbaycan övladı Sovet rejiminin repressiyalarından xilas olundu.

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən az sonra, 1991-ci il noyabrın 1-də yaradılmış Milli Təhlükəsizlik Nazirliyi təkcə ad etibarilə deyil, məzmunca da dəyişdi. MTN Azərbaycanın milli mənafelərinin və dövlət təhlükəsizliyinin təminatçısına çevrildi.

MTN-nin şəxsi heyətinin Azərbaycanın dövlət təhlükəsizliyinin möhkəmləndirilməsində və qorunmasında xüsusi rolu vardır. Milli müstəqilliyə və dövlətçiliyə qarşı yönəlmiş dövlət çevrilişlərinə cəhdlər zamanı silahlı qarşıdurmada nazirliyin çoxlu sayda əməkdaşları həyatlarını qurban vermişlər. Onlardan 4 nəfəri "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür.

Azərbaycan Respublikasının Prezidenti, ümummilli lider Heydər Əliyevin 1997-ci 11 mart tarixli fərmanı ilə 28 mart – Milli Təhlükəsizlik Orqanları İşçiləri Günü elan olunmuşdur. Milli Təhlükəsizlik orqanları üçün xüsusi təhsil almış peşəkarların hazırlanması məqsədilə 1998-ci ilin dekabrında Milli Təhlükəsizlik Nazirliyinin Akademiyası təsis edilmişdir.

10 may

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN DOĞUM GÜNÜ

1923-cü il mayın 10-da qədim Azərbaycan torpağı Naxçıvanda dəmiryolçu Əlirza kişinin ailəsində mavi gözlü, sarışın saçlı bir oğlan uşağı dünyaya gəldi. İzzət ana və Əlirza kişi imanlı adamlar idilər. Ona görə də bu övladlarının da adını müsəlman aləmində geniş yayılmış və müqəddəs hesab olunan Heydər adlandırdılar. (Heydər həm də İzzət xanımın cavan yaşlarında dünyasını dəyişmiş qardaşının adı imiş). Onda hələ heç kəs bilmirdi ki, bu körpə XX əsrin dahi şəxsiyyətlərindən, dünya siyasətinin nəhənglərindən biri olacaqdır. Heydər XX əsrin ikinci yarısı üçün ulu Tanrının Azərbaycan xalqına bəxş etdiyi ən böyük ərməğan idi.

Hələlik isə o illərə çox vardı. Balaca Heydər də ata-ana, qardaş-bacı nəvazişi ilə böyüyürdü. İzzət ana sanki nakam qardaşının ətrini balaca Heydərdən alırdı. Uşaqlıqdan dərin zəkası, ağıllı və məntiqli danışığı ilə yaşıdlarından fərqlənən Heydərin məktəb illəri də çox maraqlı və məzmunlu keçmişdir.



Pedaqoji texnikumu Naxçıvanda bitirdikdən sonra 1939–1941-ci illərdə Bakıda məşhur Sənaye İnstitutunun memarlıq fakültəsində oxudu. İkinci Dünya müharibəsi başlandı, təhsili yarımçıq qaldı, Dövlət Təhlükəsizliyi orqanlarında işləməyə başladı.

Arzusu memarlıq olan Heydər Əliyev bir daha memarlıq işi ilə məşğul ola bilmədi. Amma öz xalqının və ölkəsinin ən yeni tarixinin, müstəqil Azərbaycan dövlətinin Baş memarı oldu.

Sovet dövlətinin zəhmli, sərt strukturlarından biri olan Dövlət Təhlükəsizliyi orqanlarında işləmək çox da asan deyildi. Sərt və amansız müharibə şəraiti, müharibədən sonra tüğyan edən Stalin repressiyasının yeni dalğası gənc çekistin həyatının ən çətin səhifələri idi. Azərbaycan Təhlükəsizlik orqanlarında isti yuva salmış qeyri millətlərin nümayəndələri, xüsusilə məkrli ermənilərlə belə şəraitdə işləməyin necə çətin olduğu təsəvvüredilməzdir. Lakin qətiyyətli, əzmli, dözümlü, fitri istedadlı və ən başlıcası cəsarətli və prinsipial olması nəticəsində o, bu maneələri uğurla dəf edir, imkanı daxilində xalqın azadlıqsevər və dəyərli övladlarını qorumağa çalışırdı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsinin sədri vəzifəsinə təyin olunanda artıq bu orqanın tərkibi milliləşməyə başladı. 1967-ci ildə isə Komitə sədri vəzifəsinə irəli çəkilməklə yad ünsürlərin burada hökmranlığına son qoyuldu.

1969-cu ilin isti iyun günləri idi. Kütləvi informasiya vasitələri Azərbaycan rəhbərliyinə Heydər Əlirza oğlu Əliyevin gətirildiyi barədə xəbərləri bütün dünyaya yaydılar. Azərbaycan böyük dəyişikliklər ərəfəsində idi. Azərbaycan KP MK-nın birinci katibi, 46 yaşlı, enerjili, qətiyyətli, tələbkar Heydər Əliyev Respublika həyatının bütün sahələrində sürətli yüksəlişə nail oldu. Ölkə başdan-başa tikinti meydanına çevrildi. Totalitar sovet rejimi şəraitində partiya və dövlət lideri kimi düşünülmüş, cəsarətli qərarlar qəbul etdi və onları reallaşdırdı.

Heydər Əliyev inanmadığına heç vaxt tabe olmayıb. Sözsüz ki, onun kimi dahi bir şəxsiyyət Sovet rejiminin puçluğunu və çürüklüyünü, əvvəl-axır ölümə məhkum olacağını duymamış olmazdı. Lakin hələ zaman o zaman deyildi. Ələ düşmüş fürsətdən istifadə etmək, doğma Azərbaycanı tərəqqi etdirmək, mədəni və güclü bir respublikaya çevirmək lazım idi.

O, buna da nail oldu. Dünəni hər kəsdən yaxşı bilən Heydər



Əliyev qabağı da hamıdan yaxşı görürdü. Azərbaycan müstəqil olanda yuxarıda sadalanan nailiyyətlər ona hava, su kimi gərəkli olacaqdı. Oldu da! Tarix bu uzaqgörənliyi öz möhürü ilə təsdiq etdi.

Sovet DTK-sının sıravi əməkdaşından general rütbəsinədək, kommunistlər ordusunun sıra nəfərindən Kreml liderlərindən birinə qədər yüksəlmək hər oğulun hünəri deyildi. Üstəlik həm də müsəlman və türk olasan! Şovinist əhval-ruhiyyəli SSRİ rəhbərliyinin yuxarı eşelonunda təmsil olunmaq, dünyada gedən proseslərə təsir göstərə biləcək işlərlə məşğul olmaq – bunlar yalnız Heydər Əliyevə nəsib olmuşdu. Bunu təkcə onun soydaşları olan biz azərbaycanlılar deyil, Moskvada – Kremldə onunla çalışanlar deyil, bütün dünya etiraf edir və tarix boyu da edəcəkdir.

Erməni lobbisi, SSRİ rəhbərliyindəki ermənipərəstlər Heydər Əliyevin – qüdrətli türk oğlunun Kremldəki ucalığına dözə bilmirdi. 1982-ci ildən Sov.İKP MK Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi yüksək bir

vəzifədə çalışan Heydər Əliyevə nə bata, nə də Azərbaycan əleyhinə məkrli planlarını həyata keçirə bilirdilər.

Nəhayət elə bir məqam gəldi ki, dünyada geosiyasi vəziyyət kəskin şəkildə dəyişdi. Sovet rəhbərliyinə 1984-cü ildə erməni xislətli, türk xalqlarına kəskin və barışmaz nifrəti ilə fərqlənən Mixail Qorbaçov gətirildi. Sərkisin, Şaumyanın, Mikoyanın nəvələri əllərinə düşmüş bu fürsətdən yararlandılar. Ən müxtəlif vasitələrlə 1987-ci ildə Heydər Əliyevin Kreml rəhbərliyindən uzaqlaşdırılmasına nail oldular. Bununla da, Azərbaycanın qara günləri başlandı. Qarabağda, daşnak Ermənistanında fitnə ocağı alovlandı. Erməni separatizmi, vandalizmi, terroru, soyqırımı və deportasiyası başlandı.

Heydər Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar ertəsi gün Azərbaycanın Moskvadakı nümayəndəliyində bəyanatla çıxış edərək, Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb etdi. O, Dağlıq Qarabağda yaranmış kəskin münaqişəli vəziyyətlə bağlı SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə etiraz əlaməti olaraq, 1991-ci ilin iyulunda Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk etdi.

1990-cı ilin iyulunda Azərbaycana qayıdan Heydər Əliyev ilk əvvəl Bakıda, sonra isə Naxçıvanda yaşadı, həmin ildə də Azərbaycan Ali Sovetinə deputat seçildi. O, 1991–1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini oldu. Heydər Əliyev 1992-ci ildə Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis qurultayında partiyanın sədri seçildi.

1993-cü ilin may-iyununda hökümət böhranının son dərəcə kəskinləşməsi nəticəsində ölkədə vətəndaş müharibəsinin baş verməsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı. Azərbaycanın o zamankı rəhbərləri Heydər Əliyevi rəsmən Bakıya dəvət etməyə məcbur oldular. Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Ali So-



vetinin sədri seçildi, iyulun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. O, 1998-ci il oktyabrın 11-də xalqın yüksk fəallığı şəraitində keçirilən seçkilərdə səslərin 76,1%-ni toplayaraq, ikinci dəfə Azərbaycan Respublikasının Prezidenti seçildi. 2003-cü ilin oktyabrın 15-də keçirilən prezident seçkilərində namizədliyinin irəli sürülməsinə razılıq vermiş Heydər Əliyev səhhətində yaranmış problemlərlə əlaqədar seçkilərdə iştirak etməkdən imtina etdi.

2003-cü il dekabrın 12-də Azərbaycan xalqına, bütün türk dünyasına ağır itki üz verdi. Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, xalqımızın ümummilli lideri, Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri Heydər Əlirza oğlu Əliyev Amerika Birləşmiş Ştatlarının Klivlend Klinikasında vəfat etdi. Dekabrın 14-də mərhumun cənazəsi vətənə gətirildi və Fəxri Xiyabanda torpağa tapşırıldı. Dəfn mərasimini yüz minlərlə insan




müşayiət etdi və həmin gün ümumxalq matəminə çevrildi. Dəfn mərasimindən keçən ilk günlər ərzində ölkəmizdə və xaricdə yaşayan milyonlarla insan ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edərək, Onun şəxsiyyətinə olan xalq sevgisini və hörmətini bariz şəkildə nümayiş etdirdilər. Ümummilli liderin parlaq xatirəsi xalqımızın yaddaşına əbədi həkk olunmuş və tariximizdə heç vaxt silinməyən izlər qoymuşdur.

Böyük Azərbaycanşünas alim, London Universitetinin professoru Turxan Gəncəyinin arxayın və məmnunluqla dediyi: "Mən istiqlalımızın sabahından daha nigaran deyiləm. Çünki millətimin üçrəngli bayrağı Heydər Əliyev kimi bir rəhbərin müqtədir əlindədir" – sözləri bu günkü müstəqilliyimizin taleyindən xəbər verir.

23 may

EKOLOGİYA VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRLİYİ İŞÇİLƏRİ GÜNÜ



Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra yeni yaradılmış dövlət strukturlarından biri də Ekologiya və Təbii Sərvətlər Nazirliyidir. Bu nazirlik ümummilli lider Heydər Əliyevin 2001-ci il 23 may tarixli sərəncamı əsasında fəaliyyətə başlamışdır. Bütün peşə sahiblərinə, onların əməyinə hörmətlə yanaşan Prezident İlham Əliyevin 2007-ci il tarixli sərəncamına əsasən nazirliyin yaradıldığı gün – mayın 23-ü Ekologiya və Təbii Sərvətlər Nazirliyi işçilərinin peşə bayramı kimi qeyd olunur.

Nazirliyin yaradılmasından qısa müddət keçməsinə baxmayaraq ekoloji mühitin sağlamlaşdırılması, ətraf mühitin mühafizəsi sahəsində mühüm işlər görülmüşdür. Sovetlər dövründən qalmış ekoloji problemlərin həlli, təbii sərvətlərdən səmərəli istifadə, hidrometereoloji proqnozların verilməsi, geoloji kəşfiyyat, biomüxtəlifliyin qorunması, xüsusi mühafizə olunan təbiət ərazilərinin və meşələrin inkişafı məsələləri nazirliyin fəaliyyətinin prioritet istiqamətlərini təşkil edir.

Əvəllər bir Milli Parkı belə olmayan Azərbaycanda son 5 ildə Xüsusi mühafizə olunan təbiət ərazilərinin ümumi sahəsi 750 min hektara, yəni ölkə ərazisinin 8,76%-inə çatdırılaraq 8 Milli Park, 4 qoruq, 3 yasaqlıq yaradılmış, 5 mövcud qoruğun ərazisi genişləndirilmiş, 3 Təbiət Abidəsi təşkil edilmişdir.

Ölkə başçısının "Xəzər dənizinin çirklənmədən qorunması üzrə




bəzi tədbirlər haqqında" və "Əhalinin ekoloji cəhətdən təmiz su ilə təminatının yaxşılaşdırılması ilə əlaqədar bəzi tədbirlər haqqında" sərəncamlarına müvafiq olar Abşeron yarımadasının şimal hissəsinin 61 km-lik sahil zolağında beynəlxalq standartlara cavab verən modul tipli lokal təmizləyici qurğu işə salınmışdır. Kür və Araz çaylarının suyundan istifadə edən 50-dən artıq yaşayış məntəqəsində Beynəlxalq Səhiyyə Təşkilatının standartlarına cavab verən sutəmizləyici qurğular istifadəyə verilmişdir.

Prezidentin "Magistral avtomobil yollarının mühafizə zolaqlarının yaşıllaşdırılması haqqında" sərəncamına uyğun olaraq Atbulaq-Hacıqabul qəsəbəsi avtomobil yolunun 28 km-lik məsafəsinin hər iki tərəfində müxtəlif cinslərdən olan 100 min ağac əkilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 24 mart 2008-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunması və davamlı istifadəsinə dair Milli Strategiya və Fəaliyyət Planı"nin icrası olaraq Qızılağac və Göygöl Milli Parklarının yaradılması istiqamətində ardıcıl tədbirlər görülməkdədir. Hidrometereologiya sahəsində də bir sıra işlər görülür. Hazırda ölkədə 68 stansiya və 94 məntəqədən ibarət metereoloji müşahidə şəbəkəsi fəaliyyət göstərir. Bu stansiya və məntəqələrdə aeoroloji, radiometereoloji, hidroloji və aqrometereoloji müşahidələr aparılır.

28 may

RESPUBLİKA GÜNÜ




Azərbaycan Xalq Cümhuriyyəti 1918-ci il mayın 28-dən 1920-ci il aprelin 28-dək olan müddətdə – cəmi 23 ay mövcud olmuşdur. Lakin bu qısa müddətdə çox işlər həyata keçirildi. Hər şeydən əvvəl öz milli dövlətçiliyinə qovuşmuş xalqımız istiqlalın nə demək olduğunu bir daha gördü, onun şirinliyini daddı. Bu dövlətin yaradıcıları olan M.Ə.Rəsulzadə, F.X.Xoyski, N.Yusifbəyli, Ə.Topçubaşov, H.Ağayev və başqa vətənpərvər istiqlalçılar gecəni gündüzə qataraq milli dövlətçiliyimizin əsaslarını möhkəmləndirdilər.

Azərbaycan Milli Şurasının qəbul etdiyi "İstiqlal Bəyannaməsi" yeni yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin daxili və xarici siyasətinin başlıca prinsiplərini bütün dünyaya bildirdi. "Bəyannamə"də elan edilmiş prinsiplər – Azərbaycan xalqının öz müqəddəratını təyin etmək, insanların hüquq bərabərliyinə hörmət, bütün xarici dövlətlərlə, habelə qonşu xalqlarla dinclik və əmin-amanlıq şəraitində yaşamaq, bir-birinin suverenliyinə hörmətlə yanaşmaq prinsipləri AXC-nın beynəlxalq nüfuzunu artırdı. "İstiqlal Bəyannaməsi" Azərbaycan demokratiyası və parlamentarzim ənənələri tarixinin ən parlaq hüquqi sənədi kimi bu gün də öz tarixi və praktiki əhəmiyyətini saxlamaqdadır.



"İstiqlal Bəyannaməsi" bütün türk-müsəlman dünyasında, ümumiyyətlə bütün Şərqdə, ilk dəfə olaraq Azərbaycanda demokratik idarə üsulunun – parlamentli respublikanın yaradıldığını xəbər verirdi. Beləliklə, Birinci Dün-



ya müharibəsinin gedişində və Romanovlar monarxiyasının devrilməsi nəticəsində yaranmış çox mürəkkəb bir tarixi şəraitdə Azərbaycanın şimal torpaqlarında dövlətçilik ənənələrimiz yenidən, özü də bu dəfə parlamentli respublika formasında dirçəldi.


Gənc Azərbaycan dövləti son dərəcə mürəkkəb daxili və və beynəlxalq şəraitdə doğulmuşdu. Bakıda hakimiyyəti S.Şaumyanın başçılıq etdiyi daşnak-bolşevik güruhu ələ keçirmiş və Azərbaycanın türk-müsəlman əhalisinə qarşı dəhşətli soyqırımı başlamışdı. Rus generalları tərəfindən silahlandırılmış erməni quldur dəstələri Şərqi Anadolunun və Qərbi Azərbaycanın türk-müsəlman əhalisinə qarşı soyqırımı davam etdirirdilər. Azərbaycan xalqının cəlladları olan Şaumyan və Andronik əlbir fəaliyyət göstərirdilər. Azərbaycan xalqı fiziki cəhətdən məhv edilmək təhlükəsi qarşısında idi. Neft Bakısını ələ keçirməyə çalışan xarici qüvvələr arasında rəqabət son həddə çatmış, bütün Cənubi Qafqaz üçün yeni təhlükə – bolşevik Rusiyasının təcavüzü yaxınlaşmışdı. Azərbaycan xalqı öz tarixinin ağır yolayrıcında qalmışdı: ya milli qurtuluş, ya da ki, məhv edilərək Cənubi Qafqazın etnik-siyasi xəritəsindən tamamilə silinib götürülmək. Azərbaycanı müstəqil dövlət elan etmiş Cümhuriyyət xadimləri məhz belə bir tarixi şəraitdə çaşqın vəziyyətə



düşmüş və çıxış yolu tapa bilməyən xalqın önünə keçdilər.




Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyət dövrünü üç mərhələyə bölmək olar: Tiflis dövrü (1918-ci il 28 may – 16 iyun); Gəncə dövrü (1918-ci il 17 iyun – 16 sentyabr); Bakı dövrü (1918-ci il 17 sentyabr – 1920-ci il 28 aprel). Bu müddət ərzində dövlət quruculuğunun bütün sahələrində çox mühüm tədbirlər həyata keçirildi. AXC-nın mövcudluğu dövründə beş hökumət kabineti fəaliyyət göstərmişdir. Bunların üçünə F.X.Xoyski, ikisinə isə N.Yusifbəyli başçılıq etmişdir. Azərbaycanın üçrəngli, ay-ulduzlu dövlət bayrağı qəbul edildi. Azərbaycan-türk dili dövlət dili elan olundu. Məktəblər



milliləşdirildi. Bakı Dövlət Universiteti fəaliyyətə başladı. İlk milli muzey – "İstiqlal" muzeyi təşkil olundu. Azərbaycan vətəndaşlığı haqqında qanun qəbul edildi. Yelizavetpol və Qaryaginin tarixi adları bərpa olunaraq yenidən Gəncə və Cəbrayıl adlandırıldı. Azərbaycan Milli Ordusu və Hərbi-dəniz Donanması təşkil olundu. Ölkəmizin ərazi bütövlüyü qorunub saxlandı.

Dövlət quruculuğu sahəsində həyata keçirilmiş tədbirlərdən ən əhəmiyyətlisi Azərbaycan parlamentinin



fəaliyyətə başlaması oldu. 1918-ci ili dekabrın 7-də H.Z.Tağıyevin qızlar məktəbinin binasında (hazırda Füzuli adına Əlyazmalar İnstitutunun yerləşdiyi bina) Azərbaycan parlamentinin təntənəli açılışı oldu. Bu, bütün müsəlman Şərqində o dövrün ən demokratik prinsipləri əsasında formalaşdırılmış ilk parlament idi. Bitərəf hüquqşünas Ə.Topçubaşov parlamentin sədri, H.Ağayev isə onun müavini seçildi. Bu parlamentin demokratikliyi onda idi ki, Azərbaycanda yaşayan bütün millətlərin və xalqların nümayəndələri, hətta xəyanətkar əməllərinə baxmayaraq, ermənilərin nümayəndələri belə orada təmsil olunmuşdular. Mövcud olduğu dövrdə parlament özünün 145 iclasını keçirmişdir. Bütün iclaslarda parlament "İstiqlal Bəyannaməsi"nin müəyyən etdiyi prinsiplərə sadiq qalaraq çox mühüm qanunlar və qərarlar qəbul etmişdi. Bu qanunlar







konkret tarixi şəraiti nəzərə alaraq ölkənin ərazi bütövlüyünü təmin etmək və müstəqilliyini qoruyub saxlamaq, insan haqları və azadlıqlarının dolğun təmin olunduğu ən müasir hüquqi-demokratik dövlət yaratmaq məqsədi daşıyırdı. Bunlar nəticə etibarilə hakimiyyətin üç qolunun – qanunvericilik, icra və məhkəmə orqanlarının formalaşdırılmasına yönəlmişdi. AXC özünün siyasi quruluşuna, həyata keçirdiyi demokratik dövlət quruculuğu tədbirlərinə, qarşısına qoyduğu məqsəd və vəzifələrə görə də Avropanın ənənəvi demokratik respublikalarından geridə qalmırdı.

Sovet Rusiyasının beynəlxalq hüquq normalarını tapdalayan hərbi müdaxiləsi nəticəsində 1920-ci il aprelin 28-də AXC süqut etdi. Çox az yaşamasına baxmayaraq, AXC sübut etdi ki, ən qəddar müstəmləkə və repressiya rejimləri belə Azərbaycan xalqının azadlıq ideallarını və müstəqil dövlətçilik ənənələrini məhv etməyə qadir deyildir.

XX əsrin 80-ci illərinin sonu – 90-cu illərin əvvəllərində Azərbaycanda başlanmış milli-azadlıq hərəkatı bolşevik rejiminin süqutunu yaxınlaşdırdı. Xalqın təkidli tələbi ilə 1991-ci il fevralın 5-də Azərbaycan SSR Ali Sovetinin sessiyası dövlətin adını dəyişdirərək Azərbaycan Respublikası adlandırdı. AXC-nın üçrəngli, ay-ulduzlu bayrağı bu respublikanın da dövlət bayrağı kimi təsdiq olundu. Həmin il mayın 21-də verilmiş xüsusi fərmanla 28 May Respublika Günü elan edildi.

2 iyun

MÜLKİ AVİASİYA İŞÇİLƏRİ GÜNÜ

Azərbaycan dövlət müstəqilliyi qazandıqdan sonra təsis olunmuş bir çox peşə bayramlarının sırasına Mülki aviasiya işçilərinin peşə bayramı da əlavə olunmuşdur. Belə ki, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 18 may 2006-cı il tarixli sərəncamı ilə hər il iyun ayının 2-si Mülki aviasiya işçilərinin peşə bayramı günü kimi qeyd olunur. Bu bayramın təsis edilməsi həmin tarixdə Azərbaycanda ilk aviasiya qrupunun yaradılması ilə bağlıdır. Respublikamızda Mülki aviasiya günü rəsmən 1938-ci ildən qeyd olunsa da, milli aviasiyanın yaranma tarixi xeyli əvvələ gedib çıxır.

Azərbaycan səmasına ilk təyyarə 1910-cu il avqustun 20-də Bakıda qalxmışdı. İlk azərbaycanlı təyyarəçilər Birinci Dünya müharibəsi döyüşlərində iştirak etmiş Fərrux ağa Qayıbov və Əli bəy Verdiyev olmuşlar. 1915-ci ildə Bakıda Dəniz Aviasiya Zabitləri Məktəbi fəaliyyətə başlamışdır. Azərbaycan Xalq Cümhuriyyəti dövründə aviasiyanın da inkişafı diqqət mərkəzində saxlanmışdır. Təyyarəçilər hazırlamaq məqsədilə bir qrup gənc Tiflisə ezam olunmuş, İtaliya və Böyük Britaniya hökumətləri ilə aeroplanların alınması, mütəxəssislərin göndərilməsi barədə yazışmalar aparılmışdır.



Azərbaycanda Sovet rejimi qu-



rulduqdan sonra bu sahədə müəyyən işlər görülmüşdür. 1921-ci ildə Bakıda ilk dəfə poçt-sərnişin təyyarəsi ilə daxili uçuşlar həyata keçirilmişdir. Respublikada xalq təsərrüfatında aviasiyanın tətbiqinə 1923-cü il martın 31-də Muğan düzünün pambıq sahələrində başlanmışdır. Həmin ildə Bakı-Tbilisi mürşrutu ilə ilk mülki aviasiya əlaqəsi yaradılmış, bir qədər sonra Bakı-Pyatiqorsk hava xətti açılmışdır. 1925-ci ildə isə Keşlədə ilk müvəqqəti təyyarə limanı inşa olunmuşdur. 1937-ci ildə Bakı ilə Moskva arasında müntəzəm hava əlaqəsi yaradılmışdır. Ölkəmizdə ilk beynəlxalq təyyarə reysi isə 1927-ci ildə Bakı-Tehran marşrutu ilə həyata keçirilmişdir. Hazırda ümummilli lider Heydər Əliyevin adını daşıyan Binə beynəlxalq hava limanı 1933-cü ildə istifadəyə verilmişdir. 1939–1942-ci illərdə bölgələrdə yeni hava limanları açılmış, Yevlax və Zabrat aviamüəssisələri işə salınmışdır. XX əsrin 70-ci illərində Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan aviasiyasına "Tu-134", "Tu-154" reaktiv təyyarələri və "Mi-8" helikopterləri alınmışdır. Ölkəmiz müstəqillik qazandıqdan sonra Azərbaycan Hava Yolları Dövlət Konserni yaradılmışdır. Bu qurum Beynəlxalq Aviasiya Təşkilatının və Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyasının tamhüquqlu üzvüdür. Heydər Əliyev adına Beynəlxalq hava limanı yenidən qurulmuşdur. Mülki aviasiya kadrlarına olan tələbat nəzərə alınaraq 1992-ci ildə Mülki Aviasiya Mərkəzi



yaradılmışdır. 1994-cü ildən etibarən isə bu Mərkəz Mülki Aviasiya Akademiyasına çevrilmişdir. Pilot ixtisasını seçmiş tələbələr burada nəzəri biliklərə yiyələnməklə yanaşı, təcrübə də qazanır, yeni tipli təyyarələrdə sınaq uçuşları keçirirlər.

Azərbaycan Respublikasının hava nəqliyyatı ilə müxtəlif ölkələrdəki 80-dən çox şəhər ilə əlaqə saxlanılır, ölkə daxilində 20 istiqamətdə sərnişin və yük daşınır. Heydər Əliyev adına Beynəlxalq Hava limanı saatda 1700 sərnişinə xidmət göstərir. 1 sərnişinin orta daşınma məsafəsi 1316,3 km-dir. Sahəni inkişaf etdirmək üçün aviasiya xəttləri yeni tipli sərnişin və yük təyyarələri ilə təmin edilir. Aviasiyada yerüstü naviqasiya və radiotexnika avadanlığı ilə təmin olunmuş sistemlərdən geniş istifadə olunur.

Qısa arayış. Aviasiya və onun tarixi haqqında çoxlu maraqlı faktlar vardır. Məlum olduğu kimi hava uçuşları zamanı sərnişinlərə gözəl və cazibədar, eyni zamanda ciddi və səbrli xanımlar qulluq göstərirlər. Onları stüardessa adlandırırlar. Bu peşənin əsasını ilk dəfə 1930-cu il mayın 15-də San-Fransisko-Çikako reysi ilə "Boinq-80" təyyarəsində bələdçi kimi uçan tibb bacısı Elen Marşal qoymuşdur. Sonralar təyyarələrdə stüartlar adlanan kişi bələdçilər uçmuşlar. İkinci Dünya müharibəsinin başlanması ilə bu iş yenidən xanımların öhdəsinə buraxılmışdır.

5 iyun MELİORATOR GÜNÜ



Meliorasiya və su təsərrüfatının respublikamızın iqtisadiyyatında, regionların sosial-iqtisadi inkişafında və ölkənin ərzaq probleminin həllində rolu əvəzsizdir. 1996-cı ilin iyununda "Meliorasiya və irriqasiya haqqında" Qanunun qəbul edilməsi melioratorların məhsul bolluğu yaratmaq istiqamətində fəaliyyətinə mühüm stimul vermişdir. Ümummilli lider Heydər Əliyevin ölkədə meliorasiya və su təsərrüfatının daha da inkişafına göstərmiş olduğu diqqət və qayğı bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. MDB ölkələri arasında ilk dəfə Azərbaycanda qəbul edilmiş müvafiq dövlət sənədi bu sahənin dirçəlişi üçün hüquqi baza yaratmışdır. Respublika hökumətinin köməyi və dünyanın aparıcı maliyyə qurumlarının yardımı ilə bir sıra layihələr reallığa çevrilmişdir. Azərbaycanda su axınını bölüşdürən və tənzimləyən, texniki cəhətdən mükəmməl irriqasiya-meliorasiya kompleksi fəaliyyət göstərir. Bu komplekslə ümumi su tutumu 21,5 milyard kubmetr olan 135 su anbarı, 16 hidroqovşaq, təxminən 52 min kilometr uzunluğunda suvarma kanalları, 29,6 min kilometr kollektor-drenaj şəbəkələri, 118 min müxtəlif hidrotexniki qurğu, 931 nasos stansiyası, 1700 kilometrdən artıq mühafizə bəndləri və digər dövlət əhəmiyyətli su təsərrüfatı sistemləri və qurğuları daxildir.

Hazırda "Samur-Abşeron suvarma sisteminin yenidən qurulması layihəsi" çərçivəsində ümumi su tutumu 268 mln kubmetr və uzunluğu 111 km olan Taxtakörpü-Ceyranbatan kanalının layihələşdirilməsi və inşası uğurla davam etdirilir. Füzuli rayonunun Harami düzündə məskunlaşmış məcburi köçkünlərin suvarma suyuna olan tələbatının ödənilməsi üçün Yuxarı Mil kanalı üzərində hidrotexniki qurğular inşa olunmuşdur.

"Çaylarda selə qarşı tədbirlər" layihəsi çərçivəsində Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, Göyçay, İsmayıllı, Ağsu və Qusar rayonları ərazilərində, habelə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunda mühafizə bəndləri qurulması başa çatdırılmışdır.

Respublikanın rayonlarında torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılması və qrunt sularının səviyyəsinin aşağı salınması ilə əlaqədar Kürdəmir, Beyləqan, Ucar, İsmayıllı, Biləsuvar, İmişli, Goranboy, Lənkəran, Ağstafa, Şəmkir, Qəbələ, Saatlı, Yevlax, Ağdam, Bərdə və Tərtər rayonlarında kompleks tikinti işləri aparılmışdır.

Araz çayı üzərindəki kollektorun üçüncü hissəsinin tikintisinin başa çatdırılması Sabirabad, Saatlı və İmişli rayonlarında 60 min hektar suvarılan torpaqların meliorativ vəziyyətini yaxşılaşdırmağa, Saatlı və Kürdəmir şəhərləri arasında yeni kəsə avtomobil yolunu açmağa imkan vermişdir.

Hazırda ölkəmizin nəhəng meliorasiya və irriqasiya kompleksi vardır. Sahənin inkişaf proqramı çərəivəsində irimiqyaslı layihələr həyata keçirilir və yüksək nəticələr əldə olunur. Bütün bunları nəzərə alan Prezident İlham Əliyev melioratorların əməyini yüksək qiymətləndirmiş, 24 may 2007-ci il tarixli sərəncamla iyun ayının 5-ni Meliorator günü elan etmişdir.

15 iyun

MİLLİ QURTULUŞ GÜNÜ

1993-cü ilin may-iyun aylarında Azərbaycan öz tarixinin ən ağır günlərini yaşayırdı. Birinci Qarabağ müharibəsində böyük itkilər, hərbi uğursuzluqlar, iqtisadi tənəzzül, dövlət rəhbərliyindəki çəkişmələr xalqın səbir kasasını daşdırmışdı. Azərbaycan hökuməti xalq arasındakı dayaqlarını itirmişdi. İyunun 4-də Surət Hüseynovun rəhbərliyi altında Gəncə şəhərindəki ordu hissələri qiyam qaldırmışdı. O dövrkü hakimiyyətin səriştəsizliyi və iradəsizliyi ucbatından bu qiyam getdikcə daha geniş miqyasda yayılaraq vətəndaş müharibəsi xarakteri almışdı.

Daşnakların "Böyük Ermənistan" yaratmaq niyyətləri, Azərbaycanı Qafqazın siyasi xəritəsindən silmək planları reallaşmaq üzrə idi. Azərbaycan torpağı etnik əlamətə görə parçalanıb yox olmaq təhlükəsi qarşısında qalmışdı. Gəncədə qardaş qanı tökülmüşdü. Bakı yaxınlığında – Navahı kəndində vətəndaş müharibəsinin ilk güllələri atılmışdı.

Özünün zəifliyini hiss edən Respublika rəhbərliyi xalqın təkidi və tələbi ilə o vaxt Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə rəhbərlik edən Heydər Əliyevi Bakıya dəvət etməyə məcbur oldu. Beləliklə, dünya miqyaslı böyük siyasi xadim Azərbaycanda yenidən hakimiyyət başına gəldi. Bununla da daxili və xarici düşmənlərimizin bütün planları iflasa uğradı. 1993-cü il iyun ayının 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri vəzifəsinə seçildi. Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə hadisələrin gedişində həlledici dönüş baş verdi. Müdrik dövlət xadimi bir neçə siyasi gedişdən sonra vətəndaş müharibəsi təhlükəsini aradan qaldırdı. Qurtuluş döyüşündə qələbəyə doğru dönüş başlandı. Bu hadisənin əhəmiyyətini nəzərə alan Azərbaycan parlamenti 1997-ci il iyunun 27-də 15 iyun tarixini Milli Qurtuluş günü elan etdi.

Nəyə görə 1993-cü il iyunun 15-ni Qurtuluş Günü adlandırırıq?

Azadlıq, müstəqillik həm ayrıca bir vətəndaş üçün, həm də bütöv xalqlar, millətlər üçün ən müqəddəs, ən şirin nemətdir.



Biz azadlığımızın, müstəqilliyimizin yolunu illərlə gözləmişik, mübarizə aparmışıq, bu yolda minlərlə şəhid vermişik. Azadığı, müstəqilliyi əldə etmək nə qədər çətindirsə, onu qoruyub saxlamaq bir o qədər mürəkkəb və ağır məsələdir. Qüdrətli və möhkəm dövlət olmadan azadlıq və müstəqillik də yoxdur. Dövləti olmayan xalq ölümə məhkumdur. Dövlətçilik xalqın "ölüm, ya olum" məsələsidir.

Heydər Əliyevin xalqımız və tariximiz qarşısında ən böyük xidməti kəskin geosiyasi ziddiyyətlərin mövcud olduğu bir şəraitdə Azərbaycan dövlətçiliyini xilas etməsində, Azərbaycan varlığını parçalanıb yox olmaq təhlükəsindən qurtarmasında idi. Dövlətimizin qorunub saxlanması isə azadlığımızın, müstəqilliyimizin qorunub saxlanması deməkdir, qurtuluş deməkdir!

Azərbaycan dövlətçiliyi ona qarşı yönəlmiş qəsdlərdən uğurla çıxdı. Ümummilli liderin qətiyyəti xalqa ruh yüksəkliyi gətirdi, inamımızı özümüzə qaytardı, sabitlik və əmin-amanlıq yaratdı. Heydər Əliyev öz gücünə, təcrübəsinə arxalanan dahi siyasətçi kimi dəfələrlə söylədiyi məşhur kəlamına sadiq qaldığını sübut etdi ki, "Azərbaycanın dövlət müstəqilliyi əbədidir, sarsılmazdır, dönməzdir".

17 iyun

SƏHİYYƏ İŞÇİLƏRİ GÜNÜ



İnsan üçün çox qiymətli olan, lakin çox vaxt qayğısına qalmadığı ən böyük sərvət sağlamlıqdır. İnsan sağlamlığını qoruyan qədim peşə sahibləri isə həkimlərdir. Hələ lap qədim zamanlardan insanın sağlamlıq problemləri elmli adamları çox maraqlandırırdı. Buradan da həkimlik peşəsi meydana gəlmişdi. Qədim Misir kahinləri həm də tibb elminə bələd idilər. Kahinlər fironların və əyanların meyitlərini mumiyalamaq üçün onların bədənini yarır və insan orqanizminin quruluşu ilə tanış olurdular. Arxeoloji qazıntılar zamanı tapılmış cərrahiyyə alətləri də bunu sübut edir. Qədim şumerlər, hindlilər, çinlilər və başqa xalqlara da tibbi biliklər məlum idi. Şərq müdriki, böyük türk alimi Əbu Əli ibn Sinanın tibb kitabları uzun illər boyu Avropa həkimlərinin stolüstü kitabı olmuşdur.

Müasir dövrdə insanın sağlamlığı daha çox diqqət mərkəzindədir. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Nizamnaməsində

sağlamlıq insanın ən əsas hüquqlarından hesab edilir. Azərbaycanda tibbin inkişafı daha çox XX əsrlə bağlıdır. Azərbaycan Xalq Cümhuriyyəti yaradıldıqdan sonra onun həyata keçirdiyi sosial-mədəni tədbirlərdən biri də sağlamlığı mühafizə ilə bağlı idi. Bununla əlaqədar olaraq Nazirlər Kabinetinin 17 iyun 1918-ci il tarixli sərəncamı ilə Səhiyyə Nazirliyi təşkil edildi. İlk səhiyyə naziri Xudadat bəy Rəfibəyli oldu. Yeni təşkil olunmuş nazirliyin qarşısında o vaxtlar geniş yayılmış vəba, taun, qızılca, vərəm, malyariya kimi keçici xəstəliklərin qarşısını almaq, xəstəxanalar və feldşer məntəqələri açmaq, ixtisaslı həkimlər və tibb bacıları hazırlamaq kimi vəzifələr dururdu. Bu məqsədlə Azərbaycan hökumətinin xarici ölkələrə oxumaq üçün göndərdiyi 100 nəfər istedadlı gənc arasında həkimlik ixtisasına yiyələnənlər də var idi.

Azərbaycanda tibb elminin inkişafı Bakı Dövlət Universitetində tibb fakültəsinin (1919), Azərbaycan Dövlət Tibb İnstitutunun (1930), Həkimləri Təkmilləşdirmə İnstitutu (1935) və Səhiyyə Nazirliyinin bir çox elmi tədqiqat institutlarının yaradılması ilə bağlıdır. Tibb elminin inkişafında Mirəsədulla Mirqasımov, Mustfafa Topçubaşov (cərrahiyyə), Əziz Əliyev, Cahangir Abdullayev (daxili xəstəliklər), Sonaxanım Vəlixan, Zərifə Əliyeva, Ümnisə Musabəyova (oftalmologiya), Aleksandr Perelman, Ağazəki Feyzullayev (nevrologiya və psixiatriya) və başqalarının böyük rolu olmuşdur.

İndi Azərbaycanda öz sənətinin sirlərinə dərindən bələd olan, insanların sağlamlığı keşiyində duran minlərlə səhiyyə işçisi vardır. Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 4 iyun 2001-ci il tarixli sərəncamına əsasən 17 iyun Səhiyyə İşçiləri Günü kimi qeyd olunur.

18 iyun

AZƏRBAYCANDA İNSAN HÜQUQLARI GÜNÜ

İnsan hüquqlari tarixən bəşəriyyətin can atdığı ən ali ideallardan olmuş, insanlığın azad, firavan və layiqli cəmiyyətə qovuşmaq istəyini təcəssüm etdirmişdir. Insanın istər cəmiyyət, istərsə də dövlət tərəfindən pozula bilməyən hüquqlara sahib olması ilə bağlı ideyalar hələ qədim dövrlərdə meydana gəlmişdir. Stoiklərin və epikürçülərin adı ilə bağlı qədim yunan fəlsəfi məktəbi, eləcə də romalı Siseron və onun davamçıları insanın həyatını ictimai mənafedən və dövlətin siyasi maraqlarından üstün tutmuşlar.

Insan hüquqları anlayışının fəlsəfi əsaslarının işlənib hazırlanması isə son üç əsrin payına düşür. XVIII əsrdən etibarən Avropada insan hüquqları nəzəriyyələri təşəkkül tapmağa başlamış, Avropa ayrılmaz insan hüquqlarının (yaşamaq hüququ, azad olmaq hüququ) və vətəndaş hüquqlarının (söz və vicdan azadlığı, təhlükəsizlik və mülkiyyət hüququ) meydana çıxmasının şahidi olmuşdur. Siyasi hüquqlar (ümumi seçkilər, gizli səsvermə, respublika quruluşu, xalq özünüidarəsi, cəmiyyət və birliklərin sərbəstliyi, siyasi həyatda və hakimiyyət sistemində iştirak etmək və s. hüquqlar) XIX əsrdə əldə edilmişdir. XX əsr isə bütün bu hüquqlar sırasına sosial hüquqları əlavə etmişdir. Insan hüquqları ideyası və həmin ideyanın həyata keçirilməsi təcrübəsi bu əsrdə bütün dünyaya yayılmışdır. Insan hüquqları anlayışının bugünkü mənzərəsi İkinci Dünya müharibəsi zamanı və müharibədən sonrakı ilk illərdə formalaşmışdır.



Müasir dünyada miqyasına və əhəmiyyətinə görə insan hüquqları sahəsində ən

mühüm sənəd isə Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin 1948-ci il 10 dekabr tarixli "Ümumdünya İnsan Hüquqları Bəyannaməsi" sayılır. "Bəyannamə"də insan hüquq və azadlıqlarının ümumbəşəri səciyyə daşıdığı, heç bir dövlətin daxili işi olmadığı vurğulanmış, həmçinin yaşamaq, azadlıq, bərabərlik, mülkiyyət və təhlükəsizlik haqqı sivil cəmiyyətlərin ali məqsədləri kimi önə çəkilmişdir.

"Ümumdünya İnsan Hüquqları Bəyanmə"sinin qəbuluna qədər BMT Nizamnaməsində, bir sıra ölkələrin konstitusiyalarında insan hüquqları daha çox cəmiyyətin özülü kimi qəbul edilmişdir. Nürnberq tribunalının 1946-cı ildə çıxarılmış qərarında isə göstərilmişdir ki, insan hüquqları heç bir dövlətin müstəsna daxili siyasəti deyildir. Heç bir dövlət suverenliyini bəhanə gətirərək vətəndaşları ilə istədiyi kimi rəftar edə bilməz. Bu məqsəd sonralar da inkişaf etdirilmiş, sözügedən "Bəyannamə"nin qəbulu ilə nəticələnmişdir. "Ümümdünya İnsan Hüquqları Bəyyannaməsi" İkinci Dünya müharibəsinin törətdiyi dəhşətli cinayətlərə cavab kimi qəbul edilmişdir.

Həmin "Bəyannamə"nin prinsiplərini əsas tutan müstəqil Azərbaycanın ilk milli Konstitusiyasının da əsasında" insan hər şeyin meyarıdır" ideyası durur. Azərbaycan Respublikası beynəlxalq birliyin tamhüquqlu üzvü kimi əsrlərin sınağından çıxmış ümumbəşəri dəyərlərin üstünlüyünü qəbul edərək demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunu özünün inkişaf yolu seçmişdir.

Bu Konstitusiya ölkənin gələcək inkişaf prioritetlərini müəyyənləşdirməklə yanaşı, insan hüquq və azadlıqlarının təminatını dövlətin ali məqsədi kimi ön plana çıxarmışdır. Konstitusiyada əksini tapmış bu strateji məqsəd ilk növbədə, hüquqi islahatların və insan haqlarının qorunması prinsipinin real həyatda tətbiqini zəruri etmişdir. Azərbaycan Respublikasının Konstitusiyasında insan hüququ və azadlıqlarına geniş yer verilməsi Azərbaycan dövlətinin demokratik ənənələrə, insan hüquqları ideyasına əməl etmək istəyinin ifadəsidir.

Konstitusiyanın qəbulundan sonra Azərbaycanda hüquqi islahatların keyfiyyətcə yeni mərhələsi başlanmış, dövrün tələblərinə cavab verən bir sıra yeni qanunvericilik aktları hazırlanaraq qəbul

edilmişdir. Ölüm hökmü 1998-ci il fevralın 10-da tamamilə ləğv edilmiş, Azərbaycan bütövlükdə Şərqdə bu qətiyyətli və tarixi qərarı verən ilk ölkə olmuşdur. O vaxt hətta Avropa Şurasının üzvü olan bir sıra dövlətlər də analoji addımı hələ atmamışdılar. Yüksək humanizmin və insanpərvərliyin bariz ifadəsinə çevrilən bu addım Azərbaycanın beynəlxalq nüfuzunu yüksəltmiş, nəticədə 2001-ci il yanvarın 25-də Avropa Şurasına tamhüquqlu üzv qəbul edilmişdir. Təşkilatla səmərəli əməkdaşlıq Azərbaycanın milli qanunvericiliyinin Avropa standartlarına uyğunlaşdırılmasına, mütərəqqi məhkəmə-hüquq islahatlarının aparılmasına ciddi təkan vermişdir.

1998-ci il fevralın 22-də ümummilli lider Heydər Əliyev "Azərbaycan Respublikasında insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" fərman imzalamışdır. Bu mühüm sənəddə insan hüquqlarının təminatı yönümündə həyata keçirilən tədbirlərin mahiyyəti və konsepsiyası dəqiq şəkildə müəyyən edilmişdir. Insan hüquqları sahəsində proqram rolunu oynayan bu sənədlə insan hüquqları məsələsi ümumdövlət səviyyəsinə qaldırılmışdır. Sözügedən fərmanın müəyyənləşdirdiyi mühüm məqsəd və vəzifələrə, ümumilikdə, Azərbaycanın yeni inkişaf mərhələsinə adekvat olaraq insan hüquqlarının müdafiəsi sahəsində həyata keçirilən tədbirlərin səmərəliliyini artırmaq məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti 1998-ci il iyulunun 18-də xüsusi sərəncam imzalamışdır. Strateji əhəmiyyətli bu sərəcamla "Azərbaycan Respublikasında İnsan Hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" təsdiq olunmuşdur.

Azərbaycan Respublikasının insan hüquqlarının qorunması sahəsində əldə etdiyi mühüm nailiyyətlərdən biri də Birləşmiş Millətlər Təşkilatı və Azərbaycan hökuməti arasında 1998-ci ilin avqustunda imzalanmış "İnsan hüquqları və deiokratiyanın dəstəklənməsi sahəsində birgə lahiyə haqqında" memorandumdur. Bu memoranduma əsasən BMT insan hüquqlarını dəstəkləmək və müdafiə etmək sahəsində ümumi biliklərin və potensialın Avropa standartlarına uyğunlaşdırılması, prosedur və hesabatlar sisteminin təkmilləşdirilməsi, mülki cəmiyyətin inkişafı və digər məsələlər sahəsində Azərbaycan Respublikası hökuməti ilə birgə tədbirlər planı həyata keçirmişdir.

2001-ci il dekabrın 28-də qəbul olunmuş "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (ombudsman) haqqında"


Azərbaycan Respublikasının Konstitusiya Qanunu da respublikamızda insan hüquq və azadlıqlarının etibarlı təminatına xidmət edir. 2002-ci il iyulun 2-də Azərbaycan Respublikasının ilk ombudsmanı seçilmişdir.

Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının təmin edilməsi istiqamətində həyata keçirilən hüquqi islahatların və milli qanunvericiliyin beynəlxalq, Avropa standartlarına uyğunlaşdırılması prosesinin məntiqi davamı kimi 2002-ci il dekabrın 24-də qəbul edilmiş "Azərbaycan Respublikasının insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu da çox mühüm əhəmiyyət kəsb edir. Bu qanun Azərbaycan Respublikasının insan hüquq və azadlıqlarının həyata keçirilməsi vəziyyətini "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasına uyğunlaşdırılması məqsədi daşımışdır.

Ümummilli lider Heydər Əliyevin təməlini qoyduğu islahatları bütün sahələrdə inamla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ötən müddətdə insan hüquq və azadlıqlarının təminatı istiqamətində də kompleks tədbirlər həyata keçirmişdir. Bu müddətdə respublikada uğurla həyata keçirilən məhkəmə-hüquq islahatlarının qayəsində insanpərvərlik, humanizm, şəxsiyyətə münasibət kimi ali dəyərlər dayanmışdır. Prezident İlham Əliyev 2006-cı il dekabrın 28-də "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi sahəsində milli fəaliyyət planının həyata keçirilməsi haqqında" sərəncam imzalamışdır. Bu sərəncamda Azərbaycanın müasir inkişaf dövründə hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi sahəsində səylərin gücləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi göstərilir. Bütün bunları nəzərə alan Azərbaycan Prezidenti İlham Əliyev 17 iyun 2007-ci il tarixli sərəncamla "Azərbaycan Respublikasında İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"nın təsdiq edildiyi günü – iyunun 18-ni Azərbaycanda İnsan Hüquqları Günü elan etmişdir.

20 iyun

QAZ TƏSƏRRÜFATI İŞÇİLƏRİ GÜNÜ



Azərbaycan öz təbii qaz ehtiyatlarına görə dünyada aparıcı yerlərdən birini tutmaqdadır. Təsadüfi deyil ki, dünyada ilk dəfə təbii qazdan yanacaq kimi də Azərbaycanda istifadə edilmişdir.


Ölkəmizdə qazdan sənaye məqsədilə istifadə edilməsinə 1859-cu ildə Suraxanıdakı kiçik bir zavodda buxar qazanlarının qızdırılması ilə başlanmışdır. 1902-ci idə isə Suraxanıda "Bakı Neft Cəmiyyətinə" məxsus sahədə qaz verən quyu tapılmışdı. XX əsrin əvvəllərində Suraxanı-Balaxanı-Sabunçu ərazilərində qazın nəqli üçün ilk qaz kəmərləri çəkilmiş və xüsusi nasos stansiyaları quraşdırılmışdı.

1920-ci ildən etibarən neftçıxarmada quyuların dərinlik nasosu ilə istismarı və neftin qapalı yerə toplanması neftlə çıxan qazın yığılıb istifadə edilməsinə imkan yaratdı. 1927-ci ildə Binəqədi rayonunun ərazisindən 15 km uzunluğunda qaz xətti çəkildi.

1932-ci ildə Suraxanı, Qaraçuxur və Balaxanı rayonlarının magistral qaz xətləri "Qaraşəhər"də Bibiheybət qaz xətti ilə birləşdirildi. Həmin il Bakı Soveti nəzdində yaradılan "Bakqaz" tresti sonralar ölkədə qaz sənayesinin inkişafında müstəsna rol oynadı.

1954-cü ilədək Azərbaycanda qaz hasilatında səmt qazının həcmi üstünlük təşkil edirdi. 1949-cu ildə SSRİ-də ilk dəfə uzunluğu 45 km olan qaz kəməri vasitəsilə butan-propan fraksiyası 50 atmosfer təzyiqi ilə Sumqayıt sintetik kauçuk zavoduna ötürüldü. Bununla da qazın sənaye üsulu ilə emalı və istifadəsinə başlandı.

1976-cı ildə Azərbaycanda qaz hasilatı 11 milyard m^3 çatdırıldı. Çıxarılan qazı istehlak yerlərinə ötürmək üçün SSRİ-də ilk dəfə



Xəzər dənizinin dibi ilə böyükdiametrli qaz kəmərləri çəkildi. Qazın saxlanmasında yeraltı anbarlardan da istifadə olunurdu. SSRİ-də ilk yeraltı, ikimərtəbəli qaz anbarı Azərbaycanda yaradılmışdı.

1971-ci ildə İran-Astara-Qazıməmməd-Qazax magistral qaz xətti istifadəyə verildi. Qaz Sənayesi Nazirliyinin "Aztransqaz" İstehsalat birliyi yaradıldı. Bu qurum SSRİ-nin vahid qaz təchizatı sisteminə daxil edildi.

Azərbaycan müstəqillik qazandıqdan sonra qaz sənayesi də bir müddət tənəzzülə uğradı. Lakin "Əsrin müqaviləsi" bağlandıqdan sonra bu sahədə də əsaslı dönüş baş verdi. 1996-cı ildə "Azəriqaz" dövlət Şirkəti qapalı tipli səhmdar cəmiyyətə çevrildi.

Müstəqillik illərinin ən mühüm nailiyyətlərindən biri 1 mln m^3-dan artıq qazı, 200 mln tondan çox qaz-kondensat ehtiyatı olan "Şahdəniz" yatağının istismara başlaması oldu. 2004-cü ildə Cənubi Qafqaz qaz kəmərinin (Bakı-Tbilisi-Ərzurum) tikintisinə başlanmış və 2006-cı ildə bu iş başa çatmışdır. Uzunluğu 970 km olan bu qaz kəmərinin işə düşməsi nəticəsində Azərbaycan həm də iri qaz ixracatçısına çevrilmişdir. Bütün bunları nəzərə alaraq Azərbaycan Respublikası Prezidenti İlham Əliyev 12 iyun 2006-cı il tarixli sərəncamı ilə iyun ayının 20-sini Qaz Təsərrüfatı işçilərinin peşə bayramı günü elan etdi.

23 iyun

DÖVLƏT QULLUQÇULARI GÜNÜ

Dövlət Qulluğu hər bir dövlətin varlığının əsas dayaqlarından biridir. Məhz bunu nəzərə alan Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi özünün 7 mart 2003-cü il tarixli 277 №-li qətnaməsi ilə iyunun 23-nü BMT-nin Dövlət Qulluğu Günü elan etmişdir.

Respublikamızda demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesində dövlət qulluğunun rolunu yüksək dəyərləndirərək və BMT Baş Məclisinin tövsiyyələrini nəzərə alaraq, Prezident İlham Əliyev 2006-cı il 25 may tarixində "Dövlət Qulluqçularının Peşə Bayramı Gününün təsis edilməsi haqqında"



sərəncam imzalamışdır. Bu sərəncama əsasən hər il iyun ayının 23-ü Dövlət qulluqçularının peşə bayramı günü kimi qeyd olunur.

Azərbaycanda dövlət qulluğu və dövlət qulluqçusu anlayışları dilimizə 2000-ci il iyulun 21-də qəbul olunan və həmin ilin sentyabrın 1-də qüvvəyə minən "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə gəlmişdir.

Bu qanun dövlət qulluğunun mahiyyəti, fəlsəfi və siyasi prinsipləri, dövlətlə dövlət qulluqçuları arasında yaranan münasibətləri və dövlət qulluqçularının hüquqi vəziyyəti ilə bağlı məsələləri tənzimləyir, həyata keçirilən kadr siyasətinin əsas prinsiplərini, dövlət qulluqçularının cəmiyyətdəki yerini, onların hüquq və vəzifələrini müəyyənləşdirir, dövlət orqanlarının üzərinə düşən funksiyaların səmərəli şəkildə yerinə yetirilməsinə xidmət edən təcrübəli və peşəkar dövlət qulluqçusu korpusunun formalaşdırılması və inkişafını stimullaşdırır.

Dövlət qulluçusu olmaq şərəfli vəzifədir. Bu həm də məsuliyyətdir. Dövlət qulluqçusunun vəzifəsi dövlətin və xalqın xidmətində olmaqdan, vətənin mənafeyini hər şeydən uca tutmaqdan ibarətdir. Azərbaycan dövlətinin şərəfini və ləyaqətini qorumaq, harada işləməsindən asılı olmayaraq vicdanlı, namuslu və sədaqətli olmaq, xidməti vəzifəsini ləyaqətlə yerinə yetirmək dövlət qulluqçusunun şərəf kodeksini təşkil edir. Təsadüfi deyildir ki, dövlət qulluğuna qəbul imtahan və müsabiqə yolu ilə aparılır. Daha ləyaqətli, bacarıqlı və savadlı kadrların dövlət qulluğunda vəzifə tutmalarına hər cür şərait yaradılmışdır.

26 iyun AZƏRBAYCAN SİLAHLI QÜVVƏLƏRİ GÜNÜ



Azərbaycan Xalq Cümhuriyyətinin uğurlu addımlarından biri Milli Ordunun yaradılması oldu. Rusiya imperiyasının müsəlman xalqlarına həqarətli münasibəti, onların orduda xidmətdən "azad" edilməsi bu xalqların hərbi işləri yadırğamasına gətirib çıxartmışdı. 1917–1918-ci illərdə erməni təcavüzünün gücləmməsi bütün Qafqazda Azərbaycan türklərini fiziki cəhətdən məhv olmaq təhlükəsi ilə üz-üzə qoymuşdu. Yaranmış vəziyyət təcili olaraq ordu quruculuğuna başlamağı tələb edirdi. 1918-ci il 26 iyun tarixli fərmanla Azərbaycan Milli Ordusunun yaradılmasına başlandı. Avqustun 1-də AXC-nin Hərbi Nazirliyi təsis edildi. İstedadlı general Səməd bəy Mehmandarov dekabrın 25-də hərbi nazir, general-leytenant Əliağa Şıxlinski nazir müavini təyin edildilər.

Qısa müddətdə Milli Ordu Osmanlı dövlətinin Qafqaz İslam Ordusu ilə birlikdə Bakını və ətraf qəzaları erməni-bolşevik işğalından xilas etdi. Bu hərbi birləşmələr Muğanda və Əsgəranda milli hökumətə qarşı baş vermiş qiyamları yatırmaqda yüksək səriştəlilik göstərdi, Qazaxda Azərbaycan sərhəddini pozmuş erməni nizami ordu hissələrini darmadağın etdi. Azərbaycan ordusunun Hüseyn xan Naxçıvanski, İbrahim ağa Usubov, Həmid Qaytabaşı, Kazım Qacar, Cavad bəy Şıxlinski, Həbibbəy Səlimov kimi istedadlı generalları var idi.

AXC süqut etdikdən sonra bolşevik hökuməti Milli Ordunu ləğv etdi. Onun rəhbərlərinin əksəriyyəti Nargin adasına aparılıb güllələndi.


Sovet hakimiyyəti dövründə də Rusiya imperiyasının azərbaycanlılara qarşı hərbi siyasəti dəyişməmişdi. Çar dövründən fərqli olaraq azərbaycanlı gənclər hərbi xidmətə çağrılırdılar. Lakin



onlar döyüş üçün nəzərdə tutulmuş hərbi hissələrdə yox, əsasən tikinti batalyonlarında xidmət edirdilər. Məqsəd aydın idi – azərbaycanlılar arasında hərb elminə dərindən yiyələnən, müasir silahlarla rəftar etməyi bacaran hərbçilərin yetişdirilməsinə imkan verməmək. Bu siyasətin mahiyyətini yaxşı başa düşən Heydər Əliyev Azərbaycanda hakimiyyətə gəldikdən sonra, 1971-ci il iyunun 20-də C.Naxçıvanski adına ixtisaslaşdırılmış hərbi məktəb təşkil etdi. Dövlət başçımız azərbaycanlı gənclərin Bakı Ali Birləşmiş Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik məktəblərinə, eləcə də SSRİ-nin digər hərbi məktəblərinə güzəştli şərtlərlə qəbul olunmasına nail oldu. Bu gün C.Naxçıvanski adına Hərbi Liseyin milli zabit kadrlarımızın yetişdirilməsində və o dövrdə ali hərbi məktəbləri bitirmiş şəxslərin silahlı qüvvələrin formalaşmasında müstəsna rolu vardır. Bu məktəblərdə yetişən Azərbaycan hərbçiləri Birinci Qarabağ müharibəsində yüksək döyüş ustalığı nümayiş etdirmişlər.

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra Milli Ordunun yaradılması günün ən vacib məsələsinə çevrilmişdi. Lakin hələ 1991-ci il sentyabrın 5-də Müdafiə Nazirliyinin yaradılması barədə qərarın və həmin ilin oktyabrın 9-da Azərbaycan Respublikasının Ali Soveti tərəfindən silahlı qüvvələrin yaradılması haqqında Qanunun qəbul edilməsinə baxmayaraq, o dövrün Respublika rəhbərliyi onların həyata keçirilməsi üçün heç bir səy göstərmirdi.

Ermənistanın gündən-günə genişlənməkdə olan hərbi təcavüzü Milli Ordunun yaradılması işini sürətləndirməyi tələb edirdi. Lakin ilk vaxtlar yaradılmış hərbi hissələr müxtəlif siyasi qüvvələrin əlində alətə çevrilmişdi. Ordu quruculuğuna yalnız 1993-cü ildən başlamaq mümkün oldu. Bu dövrdən etibarən ölkədəki si-



lahlı qüvvələr dövlətin tam nəzarətinə keçdi. Görülmüş tədbirlər nəticəsində qısa zaman kəsiyində Füzuli və Ağdam rayonlarının bir sıra yaşayış məntəqələri işğaldan azad edildi, cəbhədə təşəbbüs Azərbaycan Ordusunun əlinə keçdi.

Bu uğurların müvəqqəti olduğunu güman edən düşmən öz havadarlarının köməyindən və silah-sursatından istifadə edərək 1994-cü ilin ilk aylarında bütün cəbhəboyu irimiqyaslı hücum əməliyyatlarına başladı. Lakin Azərbaycan ordu hissələrinin Füzuli, Beyləqan, Ağdam və Tərtər istiqamətlərindəki müqaviməti ilə rastlaşan və Azərbaycan əsgərinin qəhrəmanlıq nümunələrinin şahidi olan düşmən cəbhədə atəşkəsə razılıq verməli oldu.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev hərbi təhsil sisteminin daha da inkişaf etdirilməsi məqsədilə 1999-cu il yanvarın 20-də Hərbi Akademiyanın yaradılması haqqında fərman imzaladı. Prezidentin 20 avqust 2001-ci il tarixli sərəncamı ilə Silahlı Qüvvələr üçün kadr hazırlığının təkmilləşdirilməsi məqsədilə Müdafiə Nazirliyi sistemində fəaliyyət göstərən məktəblər – Azərbaycan Ali Hərbi Məktəbi, Azərbaycan Hərbi Dənizçilik Məktəbi və Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbi adlandırıldı.

Azərbaycan Silahlı Qüvvələrinin quruculuğu prosesi davam etdirilir və ordumuz inkişaf, təkmilləşmə dövrünü yaşayır. Bu ordu işğal olunmuş ərazilərimizi düşməndən azad etməli, ölkəmizin ərazi bütövlüyünü qorumalıdır.

Tarixi varislik ənənəsinə uyğun olaraq Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Azərbaycan Xalq Cümhuriyyəti dövründə Milli Ordunun yarandığı 26 iyun günü Azərbaycan Silahlı Qüvvələri Günü kimi bayram edilir.

2 iyul

AZƏRBAYCAN POLİSİ GÜNÜ



Azərbaycan polisinin tarixi çox da uzaq deyil. Azərbaycan Xalq Cümhuriyyəti yaradıldıqdan az sonra, Nazirlər Kabinetinin 1918-ci il 2 iyul tarixli sərəncamı ilə Daxili İşlər Nazirliyi tərkibində müstəqil Azərbaycanın polis orqanları yaradıldı. Azərbaycan polisi yarandığı gündən xalqın və dövlətin mənafeyinə ləyaqətlə xidmət etdi, asayişin və təhlükəsizliyin mühafizəsi, sabitliyin və əmin-amanlığın qorunması, cinayətkarlığa qarşı mübarizə kimi məsuliyyətli vəzifələri vicdanla yerinə yetirdi.

AXC süqut etdikdən sonra, bolşevik diktaturası bütün milli dövlət və hüquq-mühafizə strukturlarını, o cümlədən milli polisi ləğv etdi. Əvəzində "milis" adlandırılan bir qurum yaradıldı. Milisin vəzifəsi insanların təhlükəsizliyini qorumaq, cinayətkarlığa qarşı mübarizə aparmaqdan daha çox bolşevik rejiminin qorunmasına, azadfikirli insanların təqib və həbs edilməsinə yönəldilmişdi. Sovet milisi mövcud olduğu 70 il ərzində dövlətin repressiya aparatı rolunu oynamışdır.

Azərbaycan yenidən müstəqilliyə qovuşduqdan sonra polis adı bərpa olundu, onun funksiya və vəzifələri dəqiqləşdirildi. Azərbaycan polisi Birinci Qarabağ müharibəsi zamanı ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə fəal iştirak etmişdir. Daxili işlər orqanlarının və daxili qoşunların şəxsi heyətinin 931 nəfəri bu müharibədə şəhid olmuşdur. Polis sıralarında xeyli sayda "Milli Qəhrəman" adına, habelə orden və medallarla təltifə layiq görülənlər vardır.

Bu gün Azərbaycan polisi öz peşəkarlığını artırmaqla yanaşı, eyni zamanda beynəlxalq standartlara uyğunlaşdırılır. Prezident Heydər Əliyevin 1998-ci il 24 may tarixli sərəncamı ilə hər il iyulun 2-si Azərbaycan Polisi Günü kimi qeyd olunur.

9 iyul

AZƏRBAYCAN DİPLOMATİYASI GÜNÜ

Qədim tarixi keçmişə və zəngin dövlətçilik ənənələrinə malik olan Azərbaycan Diplomatiya tarixi illərlə deyil, əsrlərlə ölçülür. Qədim Azərbaycan dövlətləri Manna, Atropatena və Albaniyanın dövlətçilik tarixi geniş diplomatik əlaqələrin mövcudluğu ilə səciyyəvidir. Yerləşdiyi coğrafi məkanın strateji, geosiyasi əhəmiyyəti və zəngin təbii sərvətləri Qərbi Avropa dövlətlərinin ölkəmizə münasibətdə xüsusi marağına səbəb olmuşdur. Yaxın və Orta Şərqdə qüdrətli imperatorluğa çevrilmiş Azərbaycan Ağqoyunlu dövləti də öz qarşılıqlı marağını təmin etmək üçün dövlətçilik tariximizdə ilk dəfə olaraq Qərb dövlətləri ilə geniş diplomatik əlaqələr yaratmışdır. Ağqoyunlu hökmdarı Uzun Həsənin anası Sara Xatın isə diplomatiya tariximizə türk dünyasının ilk diplomat qadını kimi şərəfli bir imza atmışdır. Səfəvi imperatorluğu dövründə Azərbaycan elçiləri uzaq Skandinaviya ölkələri, İngiltərə və Portuqaliyaya qədər hər yerdə öz dövlətini maraqlandıran beynəlxalq problemlər ətrafında danışıqar aparmışdılar.



Azərbaycan dövlətçiliyinin mövcud olduğu bütün dövrlərdə milli maraqlarımızın keşiyində duran Azərbaycan diplomatlarının peşəkarlığının cilalanmasına, çevikliк və balans hissi kimi mühüm keyfiyyətlərə yiyələnməsinə daim ehtiyac duyulmuşdur.

Azərbaycan diplomatiyası özünün həqiqi yetkinliк səviyyəsinə məhz 1918-ci ildən etibarən qədəm qoymuşdur. Azərbaycan diplomatiyası əslində hələ Azərbaycanın dövlət müstəqilliyi elan edilməmişdən əvvəl Azərbaycan Milli Şurasını təşkil edən siyasi xadimlərin Tiflisdə Cənubi Qafqaz Komissarlığı və sonradan Seyminin tərkibində apardıqları fəal diplomatiк əlaqələrin məntiqi davamı idi. Onlar məhz bu qurumlarda Azərbaycanı təmsil etməklə mühüm diplomatiк təcrübə qazanmış, milli istiqlal uğrunda siyasi mübarizə aparmışdılar.

AXC-nin yaradılmasından sonra ilк diplomatiк addım kimi Azərbaycan istiqlalının elan ediməsi barədə məlumatın radioteleqrafla bütün dövlətlərin xarici işlər nazirliklərinə göndərildiyi məlumat qeyd edilməlidir. 1918-ci il iyunun 4-də Batumda qardaş Osmanlı dövləti ilə bağlanmış dostluq müqaviləsi isə gənc diplomatiyamızın uğuru idi. Bu müqavilə Osmanlı dövlətinin Qafqaz İslam Ordusunun Azərbaycana köməyə gəlməsi nəticəsində hərbi qüvvələrimizin formalaşdırılmasında, bolşevik-daşnak işğalının aradan qaldırılmasında mühüm rol oynamışdı.

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin diplomatiк məharəti o zaman Bakıda ali hakimiyyət hesab olunan Britaniya hərbi nümayəndəliyi ilə qarşılıqlı konstruktiv münasibətlərin qurulmasında da özünü göstərmişdir. Qısa müddət ərzində Britaniya hərbi nümayəndəliyi Londona göndərdiyi məlumatlarında AXC hökumətinin müasir dünyagörüşlü insanlardan təşkil olunduğunu, ölkədə inzibati sistemin və sabitliyin bərpa edilməsini bacardığını göstərirdi. Bunun nəticəsi kimi Britaniya nümayəndəliyi Azərbaycan hökumətinin bütün Azərbaycan ərazisində milli hakimiyyət qurmaq hüququnu tanımışdı.

AXC hökumətinin fəaliyyətində prioritet istiqamət kimi Azərbaycanın dövlət müstəqilliyinin beynəlxalq aləmdə tanıdılması təşkil edirdi. Bu sahədə həyata keçirilən gərgin səylərdən və böyük çətinliklərdən sonra görkəmli diplomat Ə.Topçubaşovun rəhbərliк etdiyi Azərbaycan nümayəndə heyətinin diplomatiк fəaliyyətinin nəticəsi olaraq Paris sülh konfransında Versal Ali Şurasını təşkil edən müttəfiq dövlətlər yekdilliklə 1920-ci il yanvarın 11-də Azərbaycanın dövlət müstəqilliyini rəsmən tanıdılar.

Azərbaycan bolşeviklər tərəfindən işğal olunduqdan sonra bir sıra siyasi xadimlər diplomatiк meydanda öz fəaliyyətini və Azərbaycanın mənafeyinin müdafiəsini davam etdirməyə müvəffəq oldular. Totalitar rejim Azərbaycanın formal olsa da, mövcud müstəqilliyinə son qoyduqdan sonra, bütün sahələrdə olduğu kimi, diplomatiya sahəsində də hər şey Moskvaya tabe edildi.

Diplomatiyamızın müasir tarixinin ən məsuliyyətli sınağı SSRİ-nin süqutundan sonra olmuşdur. Bu zaman dünya siyasi və iqtisadi sistemində, habelə Azərbaycanın yerləşdiyi regionda baş verən köklü dəyişikliklər, yaranmaqda olan yeni bazar münasibətləri, ictimai-siyasi vəziyyət Azərbaycan diplomatiyasından qətiyyətli və çevik olduğu qədər tarazlaşdırılmış qərarlar tələb edirdi. Aydındır ki, müstəqil, siyasi və iqtisadi cəhətdən özünü təmin edəcəк bir dövlətin qurulması çox çətin bir prosesdir. Bu baxımdan, Azərbaycandakı vəziyyət SSRİ-nin çökməsi və tənəzzülə uğaramış iqtisadiyyatı, Ermənistanın hərbi təcavüzü, siyasi-ideoloji boşluq, ordu ətrafında mövcud olan problemlər, vətəndaş qarşıdurması qorxusu və bu kimi başqa amillərlə son dərəcə gərginləşmiş və ciddiləşmişdi. Belə vəziyyət güclü nüfuza, siyasi dühaya və dərin analitiк təfəkkürə malik milli rəhbərə ehtiyac yaratmışdı. Azərbaycan tarixinin bu taleyüklü anında həmin rəhbər ümummilli lider Heydər Əliyev olmuşdur. Bu gün dönüb o illərə nəzər saldıqda Heydər Əliyev dühasının bəhrəsi olan müasir Azərbaycanın inkişaf kursunun mahir siyasi xadim, böyük diplomat tərəfindən müəyyən edildiyi aydın görünür.

Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən Azərbaycan Respublikasının xarici siyasət kursu özünün tarazlığı, dinamikası və əhatə vüsəti ilə seçilir. Müstəqilliyimizi qazandığımız vaxtdan indiyədək ötən müddət ərzində dövlətçiliyimizin, suverenliyimizin və ərazi bütövlüyümüzün möhkəmləndirilməsi, Ermənistan-Azərbaycan münaqişəsinin həlli və Ermənistanın təcavüzünün nəticələrinin aradan qaldırılması, Azərbaycan dövlətinin münaqişəsiz və təhlükəsiz mühitdə mövcudluğunu təmin etmək üçün əlverişli beynəlxalq vəziyyətin yaradılması istiqamətində çox mühüm addımlar atılmışdır.

Təbiidir ki qeyd edilən məsələlərin icrası üçün Azərbaycan Respublikasının güclü milli diplomatik orqanlarının yaradılması və tam fəaliyyət göstərməsi zəruridir. Azərbaycan buna çox qısa müddət ərzində nail ola bildi. Bu istiqamətdə müvafiq qanunverici baza yaradılmış, diplomatiya sahəsində milli kadrların hazırlanması üzrə ixtisaslaşdırılmış elm-təhsil ocağı fəaliyyətə başlamışdır. Azərbaycan diplomatiyası ilk addımlarını atarkən – 1919-cu ildə Bakıda 19 dövlətin diplomatik nümayəndəlikləri fəaliyyət göstərib. Hazırda isə paytaxtımızda xarici ölkə diplomatik nümayəndəliklərinin sayı 40-a çatmışdır. Azərbaycanın xaricdəki korpusu isə 60-a yaxın səfirlik, baş konsulluq və daimi nümayəndəliklərindən ibarətdir. Azərbaycanlı diplomatların sayı 700-ə yaxındır. Bütün bunlar səmərəli xarici siyasət kursunun gələcəkdə də həyata keçirliməsinin təmin etmişdir. Ardıcıllığın əmələ gəlməsi və ənənələrin zənginləşməsi son nəticədə isə dövlətçiliymizin möhkəmlənməsi və milli maraqlarımızın qorunması üçün güclü və sağlam zəmin yaratmışdır. Müstəqil Azərbaycan Respublikasının xarici siyasətinin başlıca xarakterik cəhəti onun balanslı və çoxvektorlu olması, müasir beynəlxalq aləmdə mövcud vəziyyətin milli maraqlarımız baxımından dəyərləndirilərək buna uyğun hərəkət edilməsidir. Ermənistan istisna olmaqla Rusiya və keçmiş SSRİ respublikaları ilə münasibətdə toplanmış nəhəng potensial və təcrübə qorunub saxlanmış və müstəqillik şəraitində yeni məna kəsb edərək daha da dolğunlaşmışdır. Eyni zamanda ABŞ və Avropa İttifaqı ölkələri ilə əməkdaşlıqda yüksək səviyyəli əlaqələrin qurulmasına nail olunmuşdur. Respublikamız Avroatlantika tərəfdaşlıq strukturlarına və təhlükəsizlik sisteminə inteqrasiya siyasəti həyata keçirməklə bərabər postsovet məkanından İslam Konfransı Təşkilatına tamhüquqlu üzv qəbul edilmiş ilk dövlətdir. Bu gün Azərbaycan bütün dünya dövlətləri tərəfindən ciddi tərəfdaş kimi qəbul olunur və Respublikamızla bərabərhüquqlu qarşılıqlı faydalı əlaqələr qurulur. Bütün bunlar xarici siyasətimizin uğurları olmaqla yanaşı, xalqımızın firavan gələcəyinə yönəlmiş müdrik siyasətin təzahürüdür.

Azərbaycan dövlətinin peşəkar diplomatik xidmətinin tarixi 1919-cu il iyulun 9-da AXC Xarici İşlər Nazirliyinin katibliyinin yaradılmasına dair qərarın qəbul edilməsi ilə başlayır. Məhz buna görə də Prezident İlham Əliyev 2007-ci il 24 avqust tarixli sərəncamla 9 iyulu Azərbaycan diplomatlarının peşə bayramı günü elan etmişdir.

22 iyul

MİLLİ MƏTBUAT VƏ JURNALİSTİKA GÜNÜ



Azərbaycan mətbuatının banisi Həsən bəy Zərdabidir. Böyük çətinliklərdən sonra o, Bakıda ana dilində "Əkinçi" qəzetinin nəşr edilməsi üçün icazə almışdı. Bu qəzetin ilk nömrəsi 1875-ci il iyulun 22-də çapdan çıxmışdı. "Əkinçi" qəzetinin nəşri bütün Qafqazda əks-səda doğurmuşdu. 1875–1877-ci illər ərzində fəaliyyət göstərmiş qəzetin 56 nömrəsi işıq üzü görmüşdü.

"Əkinçi" qəzeti xalqımızın milli oyanışında, milli birliyinin möhkəmlənməsində böyük rol oynamışdır. Qəzetin mütərəqqi ideyaları Rusiya hakim dairələrini narahat etmiş və iki il sonra qəzet bağlanmışdı.

Azərbaycan mətbuatının ilk müjdəçisi "Əkinçi"dən sonra bu sahədə xeyli irəliləyişlər olmuşdu. XIX əsrin sonlarında "Ziya", (1879), "Kəşkül" (1880), "Kaspi" (80-90-cı illər) qəzetləri nəşrə başlamışdı.

XX əsrin əvvəllərində C.Məmmədquluzadə, M.Şahtaxtinski, S.Hüseyn, Ömər Faiq Nemanzadə, Ü.Hacıbəyli və başqaları yeni demokratik mətbuatın yaranması uğrunda mübarizə aparırdılar. Bu gərgin mübarizə öz nəticəsini verdi. "Şərqi-rus" (1903), "Həyat" (1905), "Açıq söz" (1915), "Azərbaycan" (1918) kimi demokratik ruhlu, milli qayəli qəzetlər meydana çıxdı. 1906-cı ildə "Molla Nəsrəddin" jurnalının nəşrə başlaması ilə Azərbaycan mətbuatında siyasi satiranın əsası qoyuldu. Redaktoru Xədicə xanım Əlibəyova olan "İşıq" jurnalının bütün əməkdaşları qadınlardan ibarət idi.

1918-ci ilin sentyabrından işıq üzü görən ilk rəsmi qəzet "Azərbaycan" milli demokratik mətbuatımızın ən yüksək ənənələrinə



sahib çıxaraq, onun istedadlı nümayəndələrini bir yerə toplamış, milli dövlət quruculuğuna yüksək səviyyədə xidmət göstərmişdir. Bu qəzet AXC dövrünün dövlət tariximizin zəngin salnaməsinə çevrilmiş, mətbuatla cəmiyyətin sıx təmasını yaratmış, xalq və dövlət maraqlarını ilk dəfə paralel olaraq əks etdirmək təcrübəsi formalaşdırmışdır.

Sovet hakimiyyəti dövründə bütün sovet respublikalarında olduğu kimi, Azərbaycanda da, mətbuat sovet ideologiyasının ruporuna çevrilmişdi. Azad və demokratik mətbuatdan söhbət belə gedə bilməzdi. Yalnız bolşevik rejiminin, kommunist ideyalarının təbliği ilə məşğul olan qəzet və jurnallar nəşr olunurdu. Mətbuat üzərində ciddi senzura hökm sürürdü. Kommunist Partiyasının orqanı olan "Pravda" (bu qəzetin adının dilimizə tərcüməsi "Həqiqət" olsa da, səhifələri qərb demokratiyasına qarşı iftiralarla, ictimai-siyasi həyatın müxtəlif sahələrinə aid yalan informasiyalarla dolu idi) qəzetinin ilk nömrəsinin çapdan çıxdığı gün – 5 may Mətbuat Günü kimi qeyd olunurdu.

Bununla yanaşı anadilli yazarlarımız yeni sovet-kommunist mətbuatında çalışmaq məcburiyyətində qalsalar da, jurnalistikamız süqut etmədi. 1937-ci ilin amansız repressiyalarına qədər millətsevər ziyalılarımızın bir çoxu qəzetçilik işini "Kommunist",

"Yeni yol", "Gənc işçi", "Şərq qadını", "İnqilab və mədəniyyət", "Ədəbiyyat qəzeti" kimi qəzet-jurnallarda davam etdirmiş, milli-mənəvi dəyərlərimizin qorunub saxlanması, maarif və mədəniyyətin yüksəlməsi, iqtisadi inkişaf məsələləri ilə sıx bağlı olmuşdular.

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra bir çox milli-mənəvi dəyərlərə qayıdış mətbuat sahəsində də özünü göstərdi. Bu gün ölkəmizdə yüzlərlə mətbu orqan – qəzet və jurnal fəaliyyət göstərir. Bütün bunları nəzərə alaraq Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin sərəncamı ilə "Əkinçi" qəzetinin nəşrə başladığı gün – 22 iyul Milli Mətbuat və Jurnalistika Günü elan olunmuşdur.

Qısa arayış. Azərbaycan milli mətbuatının banisi Həsən bəy Zərdabinin həyat və mübarizəsi mənsub olduğu xalqa təmənnasız xidmət baxımından indiki nəsillər üçün əsil örnəkdir. Təəssüf ki, sağlığında bu nurlu şəxsiyyətin qədir-qiyməti layiqincə bilinməmiş, sovet dövründə isə ona "millətçi xadim" damğası vurulmuşdur. Onun necə böyük bir insan olduğu görkəmli diplomat və siyasi xadim Ə.Topçubaşovun yazdığı "Azərbaycan mayakı" adlı publisistik-biblioqrafik yazıda bütün çalarları ilə şərh olunmuşdur. Topçubaşov yazırdı: "Əkinçi"! Bu sözü həyəcansız, ürək çırpıntısı keçirmədən tələffüz etmək qeyri-mümkündür. Bu sözdə hər bir Azərbaycan kişisi və qadını üçün nə qədər böyük müqəddəslik və doğmalıq var!... "Əkinçi" müstəqil Azərbaycanın, onun dilinin, xalq nəğmələrinin, poeziyasının, ədəbiyyatının, tarixinin ən gözəl emblemidir. O bütün Azərbaycan xalqının əksidir, təyinatıdır, azad əməyə sevgisidir, enerjisidir, ideyaları və ideallarıdır!.

"Əkinçi" və Həsən bəy Məlik–Zərdabi, Həsən bəy Məlik–Zərdabi və "Əkinçi" – xalq yaddaşında və tarixdə elə çulğaşıb ki, onları bir-birindən ayırmaq mümkün deyil. Onlar birlikdə və ayrılmaz formada Azərbaycanın və bütün Qafqazın mədəniyyətinin və maarifinin, iqtisadiyyatının inkişafı tarixində, siyasi həyatında şərəfli yerlərdən birini tutur".

1 avqust

AZƏRBAYCAN ƏLİFBASI VƏ AZƏRBAYCAN DİLİ GÜNÜ

Azərbaycan xalqının dünya sivilizasiyasına bəxş etdiyi nadir töhfələrdən biri də Qobustan və Gəmiqaya təsvirləri, həmçinin epiqrafik abidələrdir. Tarixi faktlar sübut edir ki, bu qiymətli əsərləri yaradarkən xalqımız müxtəlif yazı növlərindən və əlifbalardan istifadə etmişdir. Qədim Manna dövlətində yerli yazı növü ilə yanaşı, heroqlif və mixi yazı növlərindən də istifadə olunduğu məlumdur. Ulu əcdadlarımız olan albanların 52 hərfdən ibarət əlifbası vardı.

Ölkəmizdə İslam dininin yayılması ilə əlaqədar ərəb əlifbasından geniş istifadə olunmuş, yüz illər boyu ərəb dili din, elm və təhsil dili rolunu oynamışdır. Lakin əsrlərlə müxtəlif xalqların mədəni əlaqələrinə xidmət etmiş ərəb əlifbası dilimizin səs sistemini bütün dolğunluğu ilə əks etdirə bilmir, onun quruluşu və xarakteri haqqında tam aydın təsəvvür yaratmırdı. Bu çatışmazlıqlar M.F.Axundov başda olmaqla dövrün mütərəqqi maarifçi ziyalılarında əlifba islahatı keçirmək ideyası yaratmışdı. Lakin o vaxt bu ideyanı həyata keçirmək mümkün olmamışdı.

Latın və Ərəb Qrafikalı Azərbaycan Əlifbası (Azerbaijani Latin and Arabic Alphabet)

Latınca	Ad	Səs	Ərəbcə	Misal (Latınca)
A a	a	a	ا آ	ata, Avar, axar, azad, Axmaqaya
B b	be	b	ب	baba, Babək, birlik, bərabər, Bəxtyr
C c	ce	c	ج	can, canbir, canlı, cavan, canub
Ç ç	çe	ç	چ	çaxır, çapar, çay, çək, çanlı, çiçək
D d	de	d	د	dədə, dalğa, dəhrə, dərc, dərd, dəstək
E e	e	e	ـه	evdə, eldaş, elat, etiraz, Eynalı, eynək
Ə ə	ə	ə	ٱ	örk, ədalət, əkinçi, əl-ələ, əzilmiş
F f	fe	f	ف	facia, fədai, fərəsət, fəhlə, Faxta
G g	ge	g	گ	gecə, güc, gələcək, geniş, göyçək, gül
Ğ ğ	ğe	ğ	غ	* dalğa, dağ, dağdibi, bağ-bağça, çağır
H h	he	h	ه ح	haqq, hamı, hecə, heç, Heyət, hicran
X x	xe	x	خ	xalq, xalı, xaric, xatirə, Xiyabani, xoş
I ı	ı	ı	ا ى	* Bakılı, bahalı, acı, dustaqcıq, alıcı
İ i	i	i	ای ى	ildırım, ikisi, ikiüzlü, indiki, iradəli
J j	je	j	ژ	jaket, jest, jurnal, jandarm, jasmin
K k	ke	k	ک	kabab, kafe, kağız, kanal, kefsiz, kod, kömür
Q q	qe	q	ق	qurşud, qabıqlı, qafalı, qanad, qarışıq, qarib
L l	el	l	ل	laçın, lahca, laləş, lazzət, lotu, luğət, lülə, lütf
M m	em	m	م	maddə, mağaza, maraqlı, Möcüz, mübarizə
N n	en	n	ن	Nizami, nağıl, nahar, nənə, namərd, nəmənə
O o	o	o	ۇ ؤ	oba, ox, oxucu, oxul, otaylı, ovçu, ot, otaq
Ö ö	ö	ö	ۆ	ödəmək, ölçü, örtük, öpüş, öyrənci, özgə
P p	pe	p	پ	paxlava, palçıq, pendir, pinəçi, protest
R r	er	r	ر	reyhan, razılıq, rəiyyət, rişə, ruh, rübab
S s	se	s	س ث ص	Səməd, Sabir, saçlı, səqi, səzaq, seçki
Ş ş	şe	ş	ش	şadlıq, şahmat, şəfəq, şüşə, şücaət, şuar
T t	te	t	ت ط	Təbriz, tamaşa, tarix, təbrik, təkrar, talaş
U u	u	u	ۇ	uğurlu, ulduz, unutmaq, uzaqlıq, uyğun
Ü u	ü	ü	ۈ	üçqat, ümid, ürək, ütülülük, üz, üzlü, üzüm
V v	ve	v	و	vağzal, vahid, varlıq, vaveyla, vəkil, vız-vız
Y y	ye	y	ی	yadelli, yağış, yol, yön, yaralı, yurd, yük
Z z	ze	z	ز ظ ض ذ	zarafat, zadəli, zibil, zır-zır, zirvə, zülm

atılmış ilk ciddi addım oldu. 1923-cü ildən etibarən latın qrafikalı əlifbaya keçmə prosesi sürətləndirildi. 1926-cı ildə keçirilmiş Birinci Ümumittifaq Türkoloji Qurultayının tövsiyəsinə əsasən, 1929-cu il yanvarın 1-dən etibarən Azərbaycanda kütləvi şəkildə latın qrafikalı əlifba tətbiq edildi. Bu hadisə Azərbaycanda savadsızlığın ləğv olunmasında mühüm rol oynadı.

Lakin Türkiyə Cümhuriyyətində də latın qrafikalı əlifbaya keçilməsi və bunun nəticəsində SSRİ-də və xaricdə yaşayan türk xalqları arasında mədəni əlaqələrin güclənməsi qorxusu Sovet imperiyası rəhbərliyində Azərbaycan əlifbasının yenidən dəyişdirilməsi planlarını yaratdı. Nəticədə 1940-cı il yanvarın 1-dən kiril qrafikalı əlifbaya keçmək haqqında qərar qəbul olundu.

Sonralar kiril qrafikalı əlifbanın Azərbaycan dilinin fonetik səs sisteminə uyğunlaşdırılması üçün Azərbaycan kiril qrafikasında müəyyən dəyişikliklər aparıldı. Yarım əsrdən çox bir müddət ərzində kiril qrafikası ilə Azərbaycan elminin və mədəniyyətinin qiymətli nümunələri yaradıldı.

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra latın qrafikalı Azərbaycan əlifbasının bərpası üçün tarixi şərait yarandı. Nəticədə 1992-ci ildə latın qrafikalı Azərbaycan əlifbasının tətbiqi barədə Qanun qəbul olundu. 2001-ci ildə isə latın qrafikalı Azərbaycan əlifbasına keçid başa çatdırıldı.

Latın qrafikalı əlifbanın tətbiqinin Azərbaycan Respublikasının siyasi həyatında, yazı mədəniyyətimizin tarixində mühüm hadisə olduğunu nəzərə alaraq Azərbaycan Prezidenti Heydər Əliyev 2001-ci il avqustun 9-da sərəncam imzalamışdır. Bu sərəncamla avqustun 1-i Azərbaycan Respublikasında Azərbaycan Əlifbası və Azərbaycan dili Günü elan edilmişdir.

2 avqust

MİLLİ KİNO GÜNÜ

Kino insanların dünyagörüşünü formalaşdıran, tariximizi, milli adət-ənənələrimizi yaşadan, həyatımızın bütün sahələrinə nüfuz edən güclü ideoloji silahdır.

Qeyd: Kinonun əsası Ögüst (1862-1954) və Lui (1864-1948) Lümye qardaşları tərəfindən qoyulmuşdur. 1894-cü ildə onlar "kinematoqraf" (yunanca: kineo - "hərəkət edirəm, hərəkətə gətirirəm", adlandırdıqları qurğu düzəltmişdilər. Artıq 1895-ci ildə qardaşlar çəkdikləri 10 ədəd filmi nümayiş etdirməklə kinematoqrafiyanın əsasını qoymuşdular.

Xüsusi qeyd edilməlidir ki, Azərbaycanda da kinonun yaranma tarixi XIX əsrin sonlarına təsadüf edir. Belə ki, 1898-ci il avqustun 2-də mənşəcə fransız olan A.Mişon tərəfindən Bakının şəhər həyatından bəhs edən ilk kinosüjet nümayiş etdirilmişdir. Sonralar isə Bakının neft mədənləri, neft fontanları, zavod və buruqları haqqında məlumat xarakterli bir sıra sənədli filmlər çəkilmişdir, Bu kinosüjetlər Parisdə keçirilən ümumdünya sərgisində nümayiş etdirilmişdi. Hazırda onlardan ikisi – "Bibiheybətdə neft fontanı yanğını" və "Balaxanıda neft fontanı" filmləri Azərbaycan Dövlət Film fondunda qorunub saxlanılır. İlk tammetrajlı bədii film – ikiseriyalı "Neft və milyonlar səltənətində" filmi isə 1916-cı ildə ekranlarda nümayiş etdirilmişdir.



1919-cu il avqustun 27-də RSFSR Xalq Komissarları Sovetinin sədri V.İ.Lenin tərəfindən imzalanmış dekretlə Rusiyadakı bütün fotoqrafiya və kinematoqrafiya ticarət və sənayesi milliləşdirilərək Xalq Maarif Komissarlığının sərəncamına verilmişdi. Azərbaycan Sovet imperiyasının tərkibinə qatıldıqdan sonra bütün müttəfiq respublikalarda, o cümlədən Azərbaycanda avqustun 27-si sovet kino günü, həm də milli kino günü kimi qeyd olunurdu.

Mədəniyyətimizin böyük himayəçisi Heydər Əliyev Sovet hakimiyyəti illərində milli kinomuzun inkişafına böyük əhəmiyyət vermişdir. Məhz onun səyi və razılığı əsasında 1976-cı il avqustun 2-də Azərbaycan kinosunun 60 illik yubileyi böyük təntənə ilə qeyd olunmuşdu. Sonralar 1998-ci il mayın 2-də Azərbaycan kinematoqrafiyasının 100 illiyinə həsr olunmuş "Festivallar festivalı"nın təntənəli açılış mərasimində Azərbaycan Prezidenti Heydər Əliyev bu barədə belə demişdi: "Bu gün biz bir kəşf etdik... biz 1916-cı ili başlanğıc hesab edirdik.... Lakin Azərbaycan kinosunun yaşını, əgər belə demək olarsa, on il, yaxud neçə il artırmaq ümumən heç sadə bir məsələ deyildir. Bu



o deməkdir ki, Azərbaycan sivilizasiyalı ölkədir, dünyada kino meydana çıxan kimi, o Azərbaycanda da peyda olmuşdur. Buna görə də bu günkü festival... mənim üçün məhz bu kəşflə dəyərə malikdir – onun həm sübutu ilə, həm də nümayiş etdirilməsi ilə..."



Bir çox kino əsərləri – "İstintaq", "Babək", "Bir cənub şəhərində", "Atları yəhərləyin", "Ulduzlar sönmür" bədii filmləri Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövründə, onun xidmətləri sayəsində ekran üzü görmüşdür. Çünki Moskvada oturan ermənilər və onların respublikamızdakı əlaltıları belə milli ruhlu filmlərin ekranlaşdırılmasına hər vasitə ilə mane olmağa çalışırdılar.




100 ildən çox şərəfli bir yol keçmiş Azərbaycan kino işçilərinin xidmətlərini yüksək qiymətləndirən ümummilli lider 18 dekabr 2000-ci il tarixli sərəncamı ilə avqustun 2-ni Milli Kino Günü – kino işçilərinin peşə bayramı günü elan etmişdir.

Ümummilli lider Heydər Əliyevin kino işçiləri ilə görüşündə dediyi sözlər onun milli kinomuza verdiyi çox böyük qiymətdir: "Kino yaşayacaq, daha da inkişaf edəcəkdir. Siz kino sənəti adamları da hələ çox işlər görəcəksiniz. Elə düşünərəm ki, xalq sizdən çox şey gözləyir. Mən də".

5 avqust

HƏRBİ–DƏNİZ DONANMASI GÜNÜ



Azərbaycan Xalq Cümhuriyyəti dövründə Azərbaycanın hərbi-dəniz donanması da yaradıldı. Belə ki, 1919-cu ilin yayında ingilislər Bakını tərk edərkən şəhər limanının idarəçiliyini və hərbi gəmilərin bir hissəsini Azərbaycan hökumətinə təhvil verdilər. Bu gəmilərin əsasında Azərbaycan Xəzər hərbi-dəniz donanması təşkil olundu. Azərbaycan hökumətinin bu tədbiri ölkənin dəniz sərhədlərinin qorunmasında mühüm addım idi. Lakin bu addım rus generalı Denikinin başçılıq etdiyi Cənubi Rusiya Silahlı qüvvələrinin ("Könüllü ordu" da deyirdilər) kəskin etirazı ilə qarşılandı. Silahlı qüvvələrin hərbi-dəniz donanmasının vitse-admiralı Gerasimovun Azərbaycan hökumətinə verdiyi notada Azərbaycan Xəzər hərbi-dəniz donanmasının ləğv edilməsi tələb edilirdi. Burada qeyd olunurdu ki, Xəzərdə hərbi donanma saxlamaq hüququ yalnız Rusiyaya məxsusdur. Bu əsassız nota Azərbaycan Dövlət Müdafiə Komitəsində müzakirə edildi. Cənubi Rusiya Silahlı qüvvələri baş komandanlığına göndərilən cavab notasında bildirilirdi ki, Xəzərdə donanma saxlamaq hüququ Azərbaycan dövlətinin suveren hüququdur. Azərbaycanın limanları və ticarət gəmiləri vardır. Bu gəmilər Azərbaycan bayrağı altında üzəcəkdir.

Azərbaycan hökumətinin qətiyyəti və göstərdiyi diplomatik səylər öz nəticəsini verdi. Denikin beynəlxalq ictimaiyyətin sərt reaksiyası ilə üzləşdiyindən öz iddialarından əl çəkməli oldu.

Azərbaycan hökumətinin Hərbi Nazirliyi hərbi donanmanın maddi-texniki bazasının gücləndirilməsinə diqqəti artırmışdı. 1919-cu ilin sonlarında general İbrahim ağa Usubovun başçılıq etdiyi Azərbaycan hərbi missiyası donanma üçün xaricdən 6 bir-




toplu qırıcı kater, 12 qırıcı kater, 6 sualtı qayıq, 92 gəmi topu, 10 sahil topu, simsiz teleqraf qurğuları və s. almışdı.

Azərbaycan hökuməti rus donanmasının admiralı, Şimal qütbünə ekspedisiyanın iştirakçısı, türk əsilli İslamovu milli donanmanın yaradılması işinə kömək göstərmək üçün 1919-cu ilin yayında Azərbaycana dəvət etmişdi. "Astrabad", "Qars" və "Ərdəhan" hərb gəmilərinin komandirliyi azərbaycanlı kapitanlara tapşırılmışdı. Hərbi donanmanın maddi-texniki bazasının və kadr təminatının gücləndirilməsi planları 1920-ci il aprel işğalı nəticəsində həyata keçirilməmiş qaldı. Az sonra bolşevik hökumətinin göstərişi ilə Azərbaycan Xəzər Hərbi-dəniz donanması ləğv olundu.

SSRİ dağıldıqdan sonra Azərbaycanda da hərbi-dəniz donanmasının təşkilinə şərait yarandı. 1992-ci il aprelin 7-də Azərbaycan Respublikası Hərbi Dəniz Qüvvələri Qərargahı, mühafizə və təminat rotası yaradıldı. Xəzər hərbi-dəniz donanmasının 25%-i və Ali Hərbi Dənizçilik məktəbi Azərbaycan Respublikasının ixtiyarına verildi. 1992-ci il iyunun 26-da "Bakılı" keşikçi gəmisində Azərbaycan Respublikasının dövlət bayrağı qaldırıldı. 1996-cı ildə Ali Hərbi Dənizçilik Məktəbi əsasında Dəniz Akademiyası təşkil olundu. Azərbaycan Prezidenti Heydər Əliyevin sərəncamına əsasən hər il avqustun 5-i Azərbaycan Respublikası Hərbi-Dəniz Donanması Günü kimi qeyd olunur.

18 avqust

SƏRHƏD QOŞUNLARI GÜNÜ



Ümummilli lider Heydər Əliyevin 2000-ci il 16 avqust tarixli sərəncamı ilə 18 avqust Sərhəd Qoşunlarının şəxsi heyətinin peşə bayramı günü kimi təsis edilmişdir. Peşə bayramının məhz bu tarixdə qeyd olunması Azərbaycan Xalq Cümhuriyyətinin həyata keçirdiyi tədbirlərlə bağlıdır. 1919-cu il avqustun 18-də Azərbaycan parlamenti "Azərbaycan Cümhuriyyətinin gömrük baxımından sərhəd mühafizəsinin təsis edilməsi haqqında" Qanun qəbul etmişdir. Ölkədə 99 sərhəd mühafizə postunun yaradılmasını nəzərdə tutan bu Qanunun 1-ci maddəsində göstərilirdi: "Azərbaycan Cümhuriyyətinin sərhədlərini qeyri-leqal ticarətdən qorumaq və qaçaqmalçılıqla mübarizə aparmaq məqsədilə Azərbaycanın sərhədləri boyu sərhəd postları təsis edilsin". Bununla da Azərbaycan tarixində ilk dəfə Sərhəd Qoşunlarının yaradılmasına başlanmışdır. Lakin 28 aprel işğalı sərhədlərimizin mühafizəsi sahəsində zəruri milli təcrübənin formalaşdırılmasına imkan vermədi. Bununla belə, 1919-cu ildə yaradılmış Sərhəd Qoşunlarının 8 aylıq xidməti vətənə və xalqa sədaqət nümunəsi oldu. Sovet hakimiyyəti illərində Azərbaycan sərhədləri sovet sərhədçiləri tərəfindən qorunurdu və həmin dövrdə azərbaycanlılar məqsədli şəkildə hərb işindən uzaq saxlanılırdı. Sovet ordusunun zabit korpusunda azərbaycanlıların sayı çox az idi və onlar yüksək hərbi rütbələrə demək olar ki irəli çəkilmirdilər. Bunlar Heydər Əliyevin diqqətini cəlb etmiş və o, bu sahədə dönüşə nail olmaq üçün bir sıra tarixi qərarlar qəbul etmişdi. O, Bakıda Cəmşid Naxçıvanski adına hərbi məktəb yaratmış, bir neçə azərbaycanlı hərbçiyə ali hərbi rütbələr verilməsinə nail olmuşdur. Müstəqillik illərin-



də Azərbaycan ordusunun yaradılması və formalaşdırılması prosesinə birbaşa rəhbərlik edən Heydər Əliyev Sərhəd Qoşunlarının yaradılması, ölkəmizin sərhədlərinin mühafizəsi işinin təşkili istiqamətində mühüm tədbirlər görmüş, milli sərhəd siyasətimizi formalaşdıran strategiya müəyyənləşdirmişdir. Bu məqsədlə o, 2002-ci il iyun ayının 31-də Sərhəd Qoşunlarının Milli Təhlükəsizlik Nazirliyinin tərkibindən ayrılaraq mərkəzi icra hakimiyyəti orqanı səlahiyyətinə malik Dövlət Sərhəd Xidmətinin yaradılması barədə sərəncam vermişdi. Bu sərəncamla ölkəmizin sərhədlərinin mühafizəsi işində ciddi dönüşün yaranmasına başlanmışdı. Sovet dövründən Azərbaycan sərhədçilərinə demək olar ki, heç nə qalmamışdı. Ölkəmizi tərk edən sovet sərhədçiləri mövcud texnika və vasitələrin bir hissəsini özləri ilə aparmış, qalanlarını isə bərbad və yararsız hala salmışdılar. Belə bir vəziyyətdə milli sərhədçilərimiz ölkəmizin sərhədlərinin mühafizəsinə sayıqlıqla yanaşmışlar. Çadırlarda, vaqonlarda, ən yaxşı halda uyğunlaşdırılmış binalarda yerləşdirilən sərhədçilərimiz öz vəzifə borclarını əsasən fiziki imkanları hesabına yerinə yetirmişlər. Cənub sərhədlərimizdən başqa heç yerdə sərhəd strukturlarının olmaması, lazımi vasitələrin, xüsusi ləvazimatların çatışmaması, yerli əhali arasında dövlət sərhəddi barədə anlayışların xeyli zəif olması müstəqillik illərinin ilk vaxtlarının sərhəd xidməti sahəsində ən böyük problemləri idi. Lakin indi həmin çətinliklər aradan qaldırılmışdır.

Dövlət sərhədlərimizin toxunulmazlığının təmin olunması, beynəlxalq terrorizmə, qeyri-leqal miqrasiyaya, narkotik vasitələrin qanunsuz dövriyyəsinə, qaçaqmalçılığa qarşı mübarizənin

gücləndirilməsi, yeni sərhəd məntəqələrinin inşası, mühəndis-texniki qurğuların bərpası və yaradılması, qoşunların döyüş və səfərbərlik hazırlığının yüksəldilməsi, idarəetmə strukturunun müasir tələblər səviyyəsinə qaldırılması, buraxılış məntəqələrində sərhəd nəzarətinin səviyyəsinin yüksəldilməsi, beynəlxalq sərhəd əməkdaşlığının inkişafı və başqa sahələr üzrə mühüm işlər görülmüşdür. Son illər Zaqatala, Horadiz, Şəki və Şəmkir sərhəd dəstələrinin, Səngəçal aviadəstələrinin qarnizon komleksləri tikilib istifadəyə verilmişdir.

Dəniz sərhədlərinin etibarlı mühafizəsini təşkil etmək üçün müasir tipli radar qurğuları və rabitə vasitələri quraşdırılır. Dəniz sərhədlərinin mühafizəsinin gücləndirilməsi, dənizdə neft-qaz infrastrukturlarının təhlükəsizliyinin təmin edilməsi, axtarış və xilasetmə işlərinin səviyyəsinin yüksəldilməsi üçün sərhəd gözətçi gəmiləri müasir naviqasiya avadanlıqları ilə təchiz olunmuşdur. Sərhədlərə havadan nəzarət etmək üçün Sərhəd Aviasiyasından istifadə edilir.

Zabitlərin hazırlanması işində Bakı Ali Birləşmiş Komandirlər Məktəbinin və Azərbaycan Ali Hərbi Məktəbinin müvafiq fakültələri ilə yanaşı, MTN-in Akademiyasının müvafiq fakültəsi xüsusi rol oynayır. Artıq üçüncü ildir ki, həmin Akademiyanın məzunları sərhədçi peşəsinin xüsusiyyətlərinə yiyələnərək milli sərhədçi kadrların sıralarına qoşulurlar. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti üçün Akademiyanın yaradılması barədə sərəncam imzalaması ölkəmizin sərhədlərinin mühafizəsinə göstərilən yüksək qayğının növbəti təzahürüdür. Bu sərəncam vətənimizin sərhəd mühafizəsi sisteminin təkmilləşdirilməsində mühüm rol oynayacaqdır. Akademiya Dövlət Sərhəd Xidmətinin ixtisaslı ali hərbi təhsilli zabit kadrlarının, komandir və qərargah zabitlərinin, hərbi elmi işçilərin hazırlanmasında mühüm rol oynamaqla yanaşı, sərhədlərimizin daha mükəmməl şəkildə qorunmasına çox böyük təsir göstərəcəkdir.

23 avqust

XÜSUSİ DÖVLƏT MÜHAFİZƏ XİDMƏTİ İŞÇİLƏRİ GÜNÜ

Ölkəmizdə mühafizə xidmətinin tarixi XX əsrin əvvəllərindən başlayır. Belə ki, Azərbaycan Xalq Cümhuriyyəti dövründə parlamentin, onun rəhbərliyinin, müxtəlif sahələrdə çalışan yüksək rütbəli dövlət məmurlarının, eləcə də, dövlət əhəmiyyətli obyektlərin mühafizəsinin təşkili üçün 1919-cu il fevralın 18-də Azərbaycan parlamenti "Azərbaycan Parlamentinin Mühafizə Dəstəsi"nin yaradılması haqqında Qanun qəbul etmişdir.

Sovetlər İttifaqı dövründə dövlət və mühafizə xidmətinin işi daha da möhkəmləndirilmiş və sərtləşdirilmişdir. Azərbaycanda bolşevik rejimi qurulduqdan sonra rəhbər işçilərin mühafizəsini Fövqəladə Komissiya, daha sonra Dövlət Siyasi İdarəsi həyata keçirmişdir. 1930-cu ildən dövlət rəhbərlərinin təhlükəsizliyi ilə Daxili İşlər Xalq Komissarlığının zabitləri məşğul olmuşlar.

Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin 1959-cu il 2 mart tarixli qərarı ilə partiya və hökumət rəhbərliyinin mühafizəsi SSRİ Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsinə (DTK) həvalə olunmuşdur.

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra Xüsusi Dövlət Mühafizə Xidmətinin də yaradılmasına başlanmışdır. Əvvəlcə Daxili İşlər Nazirliyi yanında Ali Dövlət Hakimiyyət və İdarəetmə Orqanlarının Mühafizə şöbəsi (1991 5 dekabr), Milli Qvardiya (1991 25 dekabr) yaradılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 25 fevral tarixli fərmanı ilə dövlət başçısına tabe olan Azərbaycan Respublikası Ali Dövlət Hakimiyyət və İdarəetmə Orqanları Mühafizə İdarəsi və onun tərkibində Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti yaradılmışdır.

Hazırda təhlükəsizlik xidməti Xüsusi Dövlət Mühafizə Xidməti adlanır. (2002 6 may). Birbaşa Azərbaycan Respublikasının Prezidentinə tabe olan bu xüsusi hərbi hissə eyni zamanda xarici ölkələrdən gəlmiş dövlət və hökumət nümayəndələri Azərbaycan

Respublikasında olduqları vaxt onların təhlükəsizliyinin təmin edilməsi ilə məşğul olur.

2003-cü ildən etibarən ixrac neft və qaz boru kəmərlərinin Azərbaycan ərazisindən keçən hissəsinin təhlükəsizliyinin təşkili məsələləri də XDMX-ə həvalə olunmuşdur.

Xüsusi Dövlət Mühafizə Xidməti İşçilərinin şərəfli və məsuliyyəti əməyini nəzərə alan Prezident İlham Əliyev 2009-cu il tarixli sərəncamla avqustun 23-nü Xüsusi Dövlət Mühafizə İşçiləri Günü elan etmişdir. Bu tarix ümummilli lider Heydər Əliyevin 1993-cü il tarixli 23 avqust tarixli 734 №-li fərmanı ilə Ali Dövlət Hakimiyyət və İdarəetmə orqanlarının Mühafizəsi İdarəsi və Milli Qvardiyanın bazasında Azərbaycan Respublikası Ali Dövlət Hakimiyyət və İdarəetmə orqanlarını Baş Mühafizə İdarəsinin yaradılması ilə bağlıdır.



15 sentyabr

BİLİK GÜNÜ



Tarix boyu elmə, biliyə yiyələnmək və onu tədris etmək şərəfli iş hesab olunub. İslama görə elm öyrənmək Allaha ibadət qədər əhəmiyyətlidir. Bu haqda Məhəmməd Peyğəmbərin (s.ə.s.) və onun bir çox səhabələrinin hikmətli sözləri və hədisləri vardır. İslam tarixində öz şərəfli yeri olan, dərin bilik və ağıl sahibi Həzrəti Əli müəllimə dəyər verərkən "Mənə bir hərf öyrədənin köləsi olaram" demişdi.

Xalqımız elmi, biliyi yüksək qiymətləndirmiş, öz övladlarının savadlanması üçün əllərindən gələn səyi əsirgəməmişdir. Azərbaycan elminin tarixində Nəsirəddin Tusi, Bəhmənyar, Abbasqulu Ağa Bakıxanov, Mirzə Kazımbəy, Yusif Məmmədəliyev, Heydər Hüseynov, Lütfizadə kimi yüzlərlə nəhəng alim və filosoflar olmuşdur ki, onlar dünya elminin inkişafına öz töhfələrini vermişlər.

Ölkəmizdə Bilik Günü məktəblərdə dərslərin başladığı gün qeyd edilir. 2004-cü ilə qədər həmin gün sentyabrın 1-nə təsadüf edirdi. Lakin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 21 avqust 2004-cü il tarixli sərəncamına əsasən ölkəmizin bütün təhsil müəssisələrində dərslərin sentyabrın 15-dən başlanması qərara alınmış, beləliklə, həmin gün həm də Bilik Günü elan edilmişdir.


15 sentyabr

TÜRK QARDAŞLIĞININ ZƏFƏR GÜNÜ

1918-ci il sentyabrın 15-də Bakı şəhəri Osmanlı dövlətinin Qafqaz İslam Ordusu və Əlahiddə Azərbaycan Korpusu tərəfindən erməni-bolşevik işğalından azad olundu. Nuru paşanın başçılıq etdiyi Bakının azad olunması əməliyyatı iyun ayından başlanmışdı. Azərbaycan Milli Şurasının sədri M.Ə.Rəsulzadə Azərbaycan hökumətinə ünvanladığı məktubda Bakının azad olunmasının zəruriliyindən bəhs edərək yazırdı: "Əgər Bakı azad olunmazsa hər şey bitdi. Əlvida Azərbaycan!"

Azərbaycanın dövlət müstəqilliyi elan olunsa da, ölkə ərazisinin bir hissəsi, Bakı və ətraf bölgələr erməni-bolşevik işğalı altında idi. Bunsuz isə Azərbaycanın dövlət müstəqilliyi mümkün deyildi. Azərbaycan hökumətinin müraciəti əsasında Azərbaycana daxil olan Osmanlı ordusu öz xilaskarlıq və qardaşlıq vəzifəsini şərəflə yerinə yetirdi.

Bakının azad edilməsi üçün ilk cəhd 1918-ci il avqustun 5-də göstərildi. Hücum kifayət qədər uğurla başlasa da, Gəncədən Bakıya qədər uzun və ağır döyüş yolu keçmiş Osmanlı-Azərbaycan hərbi qüvvələrinin yorğunluğu, maddi və canlı itkilərin vaxtında bərpa edilməməsi, "Sentrokaspi" hərbi qüvvələri və Bakı Kom-



munasının ermənilərdən ibarət ordusunun inadlı müqaviməti səbəbindən son nəticədə uğursuzluqla nəticələndi.

Bu döyüşün nəticələri döyüş qərargahlarında ciddi təhlil olundu, ordu hissələrinin və Azərbaycan xalqının iradəsinin reallaşdırılması, qüvvələrin düzgün istiqamətləndirilməsi üçün zəruri tədbirlər həyata keçirildi. Avqustun sonlarında Abşeron yarımadasının bir sıra strateji əhəmiyyətli məntəqələrinin ələ keçirilməsi üçün mövqe döyüşləri aparıldı. Onlardan ən əhəmiyyətlisi Binəqədi döyüşü oldu. Bu döyüşün uğurla başa çatdırılması "Sentrokaspi"-ingilis qüvvələrinin mühasirə həlqəsini daha da daraltmağa imkan verdi. Bu döyüşdən sonra Bakıdakı ingilis qüvvələrinin komandanı general Denstervil 1918-ci il sentyabrın 1-də Qafqaz İslam Ordusuna müqavimət göstərməyin faydasız olduğunu etiraf etdi.

Qafqaz İslam Ordusu və Əlahiddə Azərbaycan Korpusunun qüvvələri sentyabrın 14-nə keçən gecə başlanan hücumla qarşıya qoyulan vəzifələri uğurla yerinə yetirdi. Düşmənin quduzcasına müqavimətinə baxmayaraq, hissə və bölmələrin sürətli hücumu, əsgər və zabitlərin, habelə yerli əhalidən ibarət könüllülərin mərdlik və əzmkarlıqla vuruşması döyüşün taleyini həll etdi. Sentyabrın 15-də Bakı azad olundu.

Sentyabrın 16-da əlamətdar gün münasibətilə osmanlı-Azərbaycan hərbi hissələrinin paradı keçirildi. Şəhər bayram əhval-ruhiyyəsində idi. Hacı Zeynalabdin Tağıyev bü munsibətlə böyük ziyafət verdi, Nuru paşaya və onun sərkərdələrinə qiymətli hədiyyələr bağışladı.

Azərbaycan hökuməti sentyabrın 17-də tam tərkibdə Gəncədən Bakıya köçdü. Azərbaycan hökumətinin başçısı Fətəli xan Xoyski öz minnətdarlığını və təbrikini Nuru paşaya bu sözlərlə çatdırdı: "Komandanız altında bulunan cəsur türk əsgərlərimiz tərəfindən Azərbaycanın baş kəndi olan Bakının düşməndən təmizlənməsi münasibəti ilə millətin, zati-hakimiyyəti-pərvanələrimizə və dünyanın ən cəsur və soylu əsgərləri olan türk oğullarına minnətdar olduğumuzu ərz etməklə iftixar edirəm".

Osmanlı ordusu Bakı əməliyyatında 1130 şəhid verdi. Azərbaycan xalqı osmanlı əsgərinin qəhrəmanlığını heç vaxt unutmur, onu qəlbində yaşadır və yaşadacaqdır. 15 sentyabr şanlı tariximizə Türk Qardaşlığının Zəfər Günü kimi daxil olmuşdur.

20 sentyabr

NEFTÇİLƏR GÜNÜ



Azərbaycan xalqının milli sərvəti olan neft, müstəqilliyimizə qədər əvvəl Rusiya, sonra isə SSRİ imperiyalarının mənafeyinə xidmət etmişdir. Bu sahədə milli strategiya yalnız müstəqillik illərində işlənib hazırlanmışdır.

1994-cü il sentyabrın 20-si müstəqil Azərbaycan dövlətinin inkişafında tarixi, mühüm bir gün oldu. Həmin gün xalqımızın ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış və bütün dünyada "Əsrin müqaviləsi" adı ilə tanınmış neft kontraktları imzalandı. Bu kontraktlar Azərbaycanın neft və yeni iqtisadiyyat tarixinin şanlı səhifəsini açdı.

Azərbaycan ilk dəfə idi ki, 6 ölkəni təmsil edən dünyanın məşhur 10 xarici neft şirkəti ilə belə böyük miqyasda saziş imzalayırdı. Bu saziş Xəzər dənizində beynəlxalq əməkdaşlığın əsasını qoydu, xarici sərmayədarların Azərbaycana axınını sürətləndirdi. "Əsrin müqaviləsi" həm də Azərbaycanda yeni neft-qaz kontraktlarının bağlanmasına güclü təkan verdi.

"Əsrin müqaviləsi" tezliklə öz bəhrəsini verdi. 1997-ci il noyabrın 12-də "Çıraq-1" platformasında "Əsrin müqaviləsi» üzrə ilkin neftin hasilatına başlandı. 2005-ci ilin fevralında isə "Azəri-Çıraq-Günəşli" yataqlarının Mərkəzi Azəri hissəsində ilkin neftin hasilatı həyata keçirildi.

"Əsrin müqaviləsi"nə ilkin qoşulan şirkətlər bunlardır: "AMOKO", "Yunokal", "Pennzoyl" (ABŞ), "Britiş Petroleum", "Remko" (Böyük Britaniya), "Statoyl" (Norveç), "LUKoyl" (Rusiya), "Türk Petrolları" (Türkiyə), "Delta" (Səudiyyə Ərəbistanı). Sonradan

müqaviləyə "İtoçu" (Yaponiya), "Eksson", "Amerida Hess" (ABŞ) şirkətləri də qoşuldu. Azərbaycan Respublikasının Milli Məclisində ratifikasiya olunduqdan dərhal sonra neft-qaz əməliyyatlarının idarə edilməsi və əlaqələndirilməsi məqsədi ilə Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) yaradıldı.

Ölkəmizin neft strategiyasının əsas istiqamətlərindən biri Azərbaycan neftinin və qazının dünya bazarına nəql edilməsindən ibarətdir. Bu sahədə "Bakı-Tbilisi-Ceyhan" Əsas İxrac Boru Kəməri layihəsinin hazırlanması və reallığa çevrilməsi mühüm rol oynayır. Bu layihənin də baş memarı, onun bünövrəsini qoyan, həyata keçirilməsinə şəxsən rəhbərlik edən Heydər Əliyev olmuşdur.

1998-ci ildə Ankarada Azərbaycan, Türkiyə və Gürcüstan Prezidentləri "Bakı-Tbilisi-Ceyhan" Əsas İxrac Boru Kəmərinin inşa edilməsi haqqında ilk saziş imzaladılar. ATƏT-in İstanbul sammitində (1999, 18 noyabr) ABŞ prezidenti Bill Klintonun iştirakı ilə Azərbaycan, Qazaxıstan, Gürcüstan və Türkiyə Prezidentləri tərəfindən layihənin dəstəklənməsinə və qısa müddətdə həyata keçirilməsinə yönəlmiş İstanbul Bəyannaməsi imzalandı.

2002-ci il avqustun 18-də Səngəçal terminalında "Bakı-Tbilisi-Ceyhan" Əsas İxrac Boru Kəmərinin təməli qoyuldu. Bu



böyük layihə artıq reallığa çevrilmişdir. 2005-ci il mayın 25-də kəmərin Azərbaycan, 13 oktyabrında isə Gürcüstan hissələrinə ilkin neftin doldurulması mərasimləri keçirildi. 2006-cı il iyulun 13-də kəmərin Türkiyə hissəsinin istifadəyə verilməsi ilə bağlı keçirilən mərasim neft strategiyasının təntənəsinin zirvəsinə çevrildi. Azərbaycanın "qara qızılı"nın dünya bazarına ən qısa və strateji yolla çıxarılması təmin olundu.

"Bakı-Tbilisi-Ceyhan" Əsas İxrac Boru Kəməri dünyada bənzəri olmayan mühəndis qurğusudur. Bu layihə Şərq-Qərb enerji dəhlizinin əsasını təşkil edir. Ümumi uzunluğu 1762 km olan kəmərin 443 kilometri Azərbaycan, 249 kilometri Gürcüstan, 1070 kilometri isə Türkiyə ərazisindən keçir. Kəmər ildə 50 milyon ton, sutkada isə 1 milyon barrel xam neft ötürmək qabiliyyətindədir. Heydər Əliyevin bu layihənin gerçəkləşdirilməsində əvəzsiz xidmətləri yüksək qiymətləndirilərək "Bakı-Tbilisi-Ceyhan" Əsas İxrac Boru Kəmərinə və Ceyhan terminalına onun adı verilmişdir. Bu kəmər Azərbaycan, Gürcüstan və Türkiyə arasında əbədi qardaşlıq simvoluna çevrilmişdir.

Neft strategiyasının həyata keçirilməsi ilə əlaqədar Xəzər dənizində kəşfiyyat işləri aparmaq üçün 1996–1998-ci illərdə "Dədə Qorqud" və "İstiqlal" yarımdalma üzən qazma qurğuları dünya standartlarına uyğun modernləşdirildi. Xəzərin Azərbaycan sektorunda axtarış-kəşfiyyat işlərini genişləndirmək üçün daha iki yeni üzən qazma qurğusu – özüqalxan "Qurtuluş" və Heydər Əliyev adına yarımdalma "Lider" qurğusu istifadəyə verildi. 2004-cü ildə Xəzərin 740 m dərinliyində ilk dəfə olaraq ümumi dərinliyi 7087 m olan "Zəfər-Məşəl" strukturunda kəşfiyyat quyusu da "Lider" qurğusu vasitəsilə qazılmışdır.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin sərəncamı ilə hər il sentyabrın 20-si "Neftçilər Günü" kimi qeyd olunur.

Hər il oktyabr ayının 1-də Azərbaycan Respublikası Prokurorluğunun əməkdaşları öz peşə bayramlarını təntənə ilə qeyd edirlər. Bu günün qeyd olunması tarixi zərurətdən yaranmışdır.

1 oktyabr

PROKURORLUQ İŞÇİLƏRİ GÜNÜ

Ümummilli lider Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Kabinetinin 1 oktyabr 1918-ci il tarixli qərarı ilə Bakı Dairə Məhkəməsinin tərkibində prokurorluq orqanlarının fəaliyyətə başlamasını əsas tutaraq hər il oktyabr ayının 1-nin Azərbaycan Respublikası Prokurorluğu işçilərinin peşə bayramı günü kimi qeyd edilməsi barədə 17 iyul 1998-ci il tarixli sərəncam imzalamışdır.

Məhkəmə orqanlarından fərqli olaraq, bir çox dövlətlərdə prokurorluq müstəqil institut kimi xeyli sonralar yaranmışdır. Dövlət idarəetmə mexanizminin tərkib hissəsi kimi prokurorluğun əsası ilk dəfə XIV əsrin əvvəllərində Fransada kral IV Gözəl Filipp tərəfindən qoyulmuşdur. Onun vaxtında kral mənafelərinin prokurorluq tərəfindən təmsil edilməsi Qanunla (25 mart 1302) təsbit edilmişdi. Həm Qərb ölkələri, həm də Rusiya prokurorluqlarına bir nümunə kimi təsiri olan Fransa prokurorluğunun təşkili və fəaliyyəti haqqında qanun isə 1586-cı ildə qəbul olunmuşdur.



AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN

SƏRƏNCAMI

AZƏRBAYCAN RESPUBLİKASI PROKURORLUĞU İŞÇİLƏRİN PEŞƏ BAYRAMİ HAQQINDA

Azərbaycan Demokratik Respublikası Nazirlər Şurasının 1918-ci il tarixli qərarı ilə Bakı Dairə Məhkəməsinin tərkibində prokurorluq orqanlarının fəaliyyətə başlamasını əsas tutaraq

Qərara alıram:

1. Hər il Oktyabrın 1-i Azərbaycan Respublikası Prokurorluğu işçilərinin peşə bayramı günü kimi qeyd edilsin.

2. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

Heydər Əliyev
Azerbaycan Respublikasının Prezidenti

Müstəqil Azərbaycan dövlətində prokurorluq orqanlarının yaranma tarixi Azərbaycan Xalq Cümhuriyyəti dövrünə (1918–1920) təsadüf edir. 1918-ci il noyabr

ayının 18-də Nazirlər Kabineti tərəfindən "Azərbaycan Məhkəmə Palatası haqqında Əsasnamə" təsdiq edilmişdir. F.Xoyski, X.Xasməmmədov, A.Səfikürdski, T.Makinski AXC-nın ədliyyə nazirləri, eyni zamanda baş prokurorları olmuşlar. Olduqca mürəkkəb və ağır şəraitdə fəaliyyət göstərən AXC-nın Məhkəmə palatasında, Bakı və Gəncə dairə məhkəmələrinin tərkibində olan prokurorluq orqanları öz səlahiyyətləri daxilində böyük işlər görmüşlər.

AXC-nın süqutundan sonra dövlət orqanları ilə yanaşı, prokurorluq və istintaq orqanları da ləğv olundu. Sovetləşmənin ilk illərində bütün hakimiyyət orqanlarının fəaliyyətinə nəzarət funksiyasını həyata keçirməli olan xüsusi orqanın yaradılması zəruriliyini nəzərə alaraq Azərbaycan SSR MİK-in 11 iyul 1922-ci il tarixli "Azərbaycan SSR-nin dövlət prokurorluğu haqqında" Dekreti ilə Azərbaycan SSR-də sovet prokurorluğunun əsası qoyuldu. Xalq ədliyyə komissarları Ə.Qarayev, S.Çivanov, B.Vəlibəyov, B.Talıblı, H.Hacıyev, A.Sultanova və başqaları həm də Azərbaycan SSR-in Baş prokurorları olmuşlar. 1936-cı ilin iyulunda Azərbaycan SSR Prokurorluğu Xalq Ədliyyə Komissarlığının tərkibindən çıxarılaraq birbaşa SSRİ Prokurorluğuna tabe edildi. Bununla da Azərbaycan SSR Prokurorluğu ayrıca qurum kimi fəaliyyətə başladı. Kommunist partiyasının mütləq hakim olduğu Sovet hakimiyyəti dövründə prokurorluq bu rejimə və partiya liderlərinə xidmət edən bir orqan olmuşdur.

Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikasının Prokurorluğu sinfi mənafelərə xidmət edən orqandan qanunun aliliyinin, insan hüquq və azadlıqlarının təmin olunmasına, cinayətkarlıqla mübarizəyə, qanunçuluğun qorunmasına xidmət edən orqana çevrilmiş, sivil və demokratik inkişaf yoluna qədəm qoymuşdur.

13 oktyabr

DƏMİRYOLU İŞÇİLƏRİ GÜNÜ

Dəmiryolu ölkəmizin nəqliyyat sistemində mühüm yer tutur. Hazırda respublikada ümumi istifadədə və uzunluğu 2122 km olan dəmiryol xətləri vardır. Onların 60%-ə qədəri elektrikləşdirilmişdir.

Azərbaycanda dəmiryol xəttinin tarixi o qədər də uzaq deyil. İlk dəmiryol xətti kimi, Abşeronun neftli torpağı olan kəndlərini, kerosin zavodlarını Bakı limanı ilə birləşdirən Bakı-Sabunçu-Suraxanı neft xətti 1890-cı ildə istifadəyə verilmişdir. 1893-cü ildə isə Bakı neftinin Avropa bazarlarına çıxmasını təmin edən Bakı-Batumi dəmiryol xəttinin Bakı-Tiflis hissəsi başa çatdırıldı. 1892-ci ildə Biləcəri-Dərbənd xəttinin istifadəyə verilməsi Cənubi Qafqazı Rusiyanın mərkəzi rayonları ilə birləşdirdi. Artıq 1913-cü ildə Azərbaycanda dəmiryolların ümumi uzunluğu 837 km təşkil edirdi.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə Bakı-Culfa dəmiryol xəttinin inşasına başlansa da, onun Ələt-Bəhmənli hissəsi 1924-cü ildə, Bəhmənli-Mincivan hissəsi 1936-cı ildə tikilib istifadəyə verildi. SSRİ-də ilk dəfə olaraq dəmiryolunun elektrikləşdirilməsi də Azərbaycanda həyata keçirildi. Belə ki, 1926-cı ildə Bakı-Sabunçu-Suraxanı dəmiryol xətti elektrikləşdirildi.





İkinci Dünya müharibəsi dövründə Azərbaycanın dəmiryol nəqliyyatı cəbhənin ərzaq, silah, sursat, habelə canlı qüvvə ilə təchiz edilməsində böyük rol oynadı. Taqanroq, Novoçerkassk və Rostov şəhərlərindəki zavodlar şərq rayonlarına məhz Azərbaycan dəmiryolu vasitəsilə köçürüldü. Benzin və kerosinlə dolu sisternləri Azərbaycan dəmiryolçuları böyük əziyyət və hünərlə döyüşən orduya çatdırırdılar.

Müharibədən sonrakı dövrdə də dəmiryollarının çəkilişi xüsusi diqqətdə saxlanılırdı. Yevlax-Bərdə (1962), Qaradağ-Güzdək (1963), Bərdə-Ağdam (1967), Ağstafa-İcevan (1974), Ağdam-Xankəndi (1978) xətlərinin çəkilişi Respublikanın sosial-iqtisadi inkişafında mühüm rol oynadı. Uzunluğu 162 km olan və 1986-cı ildə inşası başa çatdırılan Yevlax-Balakən dəmiryol xətti Respublikanın şimal-qərb bölgəsinin inkişafına, buradakı zəngin iqtisadi və təbii ehtiyatların təsərrüfat dövriyyəsinə qatılmasına öz töhfəsini verdi.

Müstəqillik dövrünün ilk illərində tənzzül dövrü keçirən Azərbaycan dəmiryolu 1999-cu ildən etibarən müsbət istiqamətdə irəliləməyə başladı. Dəmiryol stansiyaları yenidən quruldu. Neft sənayesinin inkişafı ilə əlaqədar neft və neft məhsulları daşıyan sisternlərin sayı artırıldı, bir sıra stansiyalarda müasir konteyner parkları yaradıldı. Sərnişin vaqonları modernləşdirildi. TRASEKA Proqramı çərçivəsində Poylu-Salahlı, Tovuz-Qovlar körpüləri və Biləcəri buxarla yuma stansiyası bərpa olundu. 2002-ci ildə dəmir-beton şpallar zavodu istifadəyə verildi.

Dəmiryolunun ölkəmizin sosial-iqtisadi həyatında mühüm rol oynadığını nəzərə alan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 7 oktyabr 2005-ci il tarixli sərəncamı ilə 13 oktyabrı Dəmiryol İşçilərinin peşə bayramı günü elan edilmişdir.

18 oktyabr

MÜSTƏQİLLİK GÜNÜ

Tarix dəfələrlə sübut edib ki, müstəqilliyi qoruyub saxlamaq onu qazanmaqdan qat-qat çətindir. Gərək sınaqlara hazır olasan, hər bir əziyyətə və çətinliyə dözməyi bacarasan. Tale elə gətirdi ki, Azərbaycan bir əsrdə iki dəfə müstəqillik əldə etmək, özünün suveren dövlətini yaratmaq imkanı qazandı. Təəssüf ki, birinci imkan xarici müdaxilə, daxili çəkişmələr və beynəlxalq dəstəyin olmaması səbəblərindən itirildi. 1918-ci ildə qurulmuş Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşadı. İkinci tarixi imkan bir də 70 il sonra yarandı. Sovet imperiyasının dağılması Azərbaycan xalqına öz milli müstəqilliyini bərpa etmək imkanı verdi. 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında "Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul olundu. Bu mühüm tarixi sənədlə xalqımız uzun illərdən bəri həsrətində olduğu azadlığına qovuşdu.

1991-ci il... Meydanlar kükrəyirdi. Azadlığın yaxınlaşdığını



duyan xalq öz əzəli və əbədi arzusuna qovuşmaq, həmin tarixi anı tezləşdirmək üçün hər şeyə hazır idi. Bu xalq artıq meydan hərəkatında bərkimiş, 20 Yanvar faciəsini görmüşdü. İmperiyanın tankları da artıq azadlığa gedən yolun qarşısını kəsməyə qadir deyildi. Özünün istiqlal mübarizəsində neçə-neçə şəhid və qurbanlar vermiş Azərbaycan addım-addım, inadla müstəqilliyə doğru gedirdi. 1991-ci ilin bir payız günü uzun-uzadı və qızğın müzakirələrdən sonra "Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul olundu. Bununla da Azərbaycanın tarixində yeni dövrün başlanğıcı qoyuldu.

Bir tərəfdən imperiyanın dağılmağa başlaması, digər tərəfdən xalqın artmaqda olan təzyiqi Respublika iqtidarını manevr etmək məcburiyyətində qoymuşdu. Yuxarılarda belə hesab edirdilər ki, bu sənədin qəbul edilməsi xalqı sakitləşdirəcək, hakimiyyətin ömrünü uzatmağa imkan verəcəkdir. Ona görə də təsadüfi deyildi ki, "Konstitusiya Aktı" ilkin mərhələdə yalnız quru kağız olaraq qalır, Azərbaycan yenə də Moskvadan idarə edilir, rejim Kremlin dikтəsi ilə oturub-dururdu. Lakin indi bunlar arxada qalmışdır.

Azərbaycan Respublikasında 1991-ci il dekabrın 29-da ümumxalq səsverməsi – referendum keçirildi. Referendum bülleteninə bir cümlə yazılmışdı: "Siz "Azərbaycanın dövlət müstəqilliyi haqqında Azərbaycan Respublikası Ali Sovetinin qəbul etdiyi Konstitusiya Aktı"na tərəfdarsınızmı?" Səsvermə hüququ olanların 95%-indən çoxu referendumda iştirak etdi. Azərbaycan xalqı yekdilliklə Respublikanın dövlət müstəqilliyinə tərəfdar çıxdı.

Müstəqilliyi elan edilmiş Azərbaycan Respublikası çox mürəkkəb tarixi şəraitdə fəaliyyət göstərməyə başlamışdı. Onun müstəqilliyini dünya dövlətləri tanıdı. Azərbaycan Respublikasını ilk olaraq 1991-ci il noyabrın 9-da Türkiyə Cümhuriyyəti, sonra Rumıniya (11 dekabr 1991), Pakistan (13 dekabr 1991), İsveçrə (23 dekabr 1991), İran (25 dekabr 1991), ABŞ (23 yanvar 1992), Rusiya (10 aprel 1992) və b. dövlətlər tanıdılar.

2 mart 1992-ci ildə Azərbaycanın BMT-yə daxil olması ilə onun beynəlxalq aləmdə de-fakto tanınmasına başlandı.

1991–1992-ci illərdə Azərbaycan bir çox beynəlxalq qurumlara, o cümlədən İslam Konfransı Təşkilatına, İqtisadi Əməkdaşlıq

Təşkilatına (EKO), habelə Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına (ATƏT), Qara Dəniz İqtisadi Əməkdaşlıq Birliyinə daxil olmuş, 1995-ci il Helsinki Yekun Aktına qoşulmuşdu.

Lakin müstəqilliyini qazandıqdan iki il sonra xalqımız yenidən onu itirmək təhlükəsi ilə üzləşdi. Bir tərəfdən Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində geniş miqyas almış Birinci Qarabağ müharibəsi, digər tərəfdən dövlət rəhbərliyində olan səbatsız, səriştəsiz adamların yeritdikləri səhv siyasət və daxildə gedən siyasi çəkişmələr, separatçılıq hərəkatı müstəqilliyin beşiyindəcə boğulması təhlükəsini reallaşdırdı. Lakin böyük siyasi təcrübəyə malik olan Heydər Əliyevin ölkədə yenidən hakimiyyətə qayıdışı ilə bu təhlükə sovuşdu.

İndi müstəqilliyimizin siyasi və iqtisadi sütunları getdikcə möhkəmlənir. Xalqın öz dövlətçiliyi sarıdan heç bir narahatçılığı yoxdur. Müstəqilliyin taleyini müəyyənləşdirən əsas amillər qorunub saxlanır, inkişaf etdirilir. Dövlətçiliyin möhkəmləndirilməsinə, iqtisadiyyatın inkişafına, milli-mənəvi dəyərlərin qorunub saxlanmasına xüsusi diqqət yetirilir.

Azərbaycan bu gün həm siyasi, həm də iqtisadi cəhətdən dünyanın nüfuzlu dövlətlərindən birinə çevrilmişdir. Nəhəng şirkətlərin Azərbaycana marağı artmışdır. Xarici sərmayə qoyuluşuna və iqtisadi inkişaf sürətinə görə ölkəmiz 2005-ci ildə nəinki regionda, həm də dünyada liderlər sırasına çıxdı. Qeyri-neft sektoruna – rabitə, maşınqayırma, yeyinti, xidmət sahələrinə xarici sərmayə qoyuluşu durmadan artdı. Regionda heç bir irimiqyaslı layihə Azərbaycanın iştirakı və razılığı olmadan həyata keçirilmir. "Əsrin müqaviləsi" çərçivəsində reallaşmış Heydər Əliyev adına "Bakı-Tbilisi-Ceyhan" Əsas İxrac Boru Kəməri artıq tam gücü ilə işləyərək neftimizi dünya bazarına çıxarır. Bu kəmər və inşası başa çatdırılmış "Bakı-Tbilisi-Ərzurum" qaz kəməri həm Cənubi Qafqazda təhlükəsizliyin təmin olunmasında, həm də xalqımızın daha firavan yaşmasında mühüm rol oynamaqdadır. Bölgələrdə modul tipli elektrik stansiyalarının istifadəyə verilməsi, "Əsrin müqaviləsi" əsasında neft və qaz istehsalının genişlənməsi ölkəmizin enerji təhlükəsizliyini təmin etmişdir. Bakı-Tbilisi-Qars dəmiryol xəttinin inşası Yaponiya və Çin mallarını Qərbi Avropaya daşımaqda mühüm rol oynamaqla yanaşı, Azərbaycanın nəqliyyat təhlükəsizliyinin təmin olunmasına öz töhfəsini verəcəkdir.

1 noyabr

KƏND TƏSƏRRÜFATI İŞÇİLƏRİ GÜNÜ




Azərbaycan qədim kənd təsərrüfatı ölkəsidir. Bu onun malik olduğu təbii-iqlim şəraiti ilə bağlıdır. Arxeoloji qazıntı materialları sübut edir ki, ölkəmiz taxılçılığın, üzümçülüyün, meyvəçiliyin, tərəvəzçiliyin və heyvandarlığın əsas mərkəzlərindən biri olmuşdur.

XIX əsrin 70-ci illərindən etibarən daxili və xarici bazarların genişlənməsi, nəqliyyat kommunikasiyalarının inkişafı Azərbaycanda kənd təsərrüfatı məhsullarının sürətlə artmasına, aqrar inkişaf səviyyəsinə yüksəlməsinə təkan vermişdi. Pambıqçılığın, tütünçülüyün, üzümçülüyün nümunəsində sənaye əkinçiliyinin əsası qoyulmuşdu. Taxıl, barama, mal-qara istehsalı əmtəə xarakteri almışdı. 1909–1913-cü illərdə əsas bitkiçilik məhsulu olan taxıl üzrə Azərbaycanın dünya istehsalında payı onun ərazi üzrə payını 2 dəfədən çox qabaqlamış və əhali üzrə payı eyni səviyyədə olmuşdu.

Kənd təsərrüfatının inkişafı baxımından Azərbaycan Xalq Cümhuriyyəti dövründə mühüm tədbirlər planlaşdırılmışdı. Hökumətin iqtisadi platformasında aqrar məsələ xüsusi yer tuturdu. İslahatları həyata keçirmək üçün bir neçə qanun layihəsi hazırlanmışdı. Bu qanun layihələrində xüsusi torpaq mülkiyyətinin ləğvi yox, istifadəsiz torpaqların əvəzsiz və ya əvəzi ödənilməklə kəndlilərə paylanması nəzərdə tutulurdu. Sahibində saxlanacaq torpaq sahəsi norması şəraitdən asılı olaraq kənd yerləri üçün 7-50 desyatin, şəhər yerləri üçün 1,5-12 desyatin idi. Lakin 28 aprel işğalı bu islahatın həyata keçirilməsinə mane oldu.

Azərbaycan Sovet imperiyasının tərkibinə qatıldıqdan sonra



burada kənd təsərrüfatının inkişafı tamamilə başqa bir istiqamət aldı. Zorakı kollektivləşdirmə siyasəti aqrar bölmədə bazar sistemini dağıtdı, mərkəzləşdirilmiş planlaşdırma sistemi yaratdı. Torpaqların, istehsal vasitələrinin, məhsul və iş heyvanlarının kəndlilərdən alınaraq kolxozların "bölünməz fondları"na verilməsi ilə kəndli mülkiyyətdən məhrum edildi. Kəndlilərin təsərrüfata olan marağı azaldı.

Dövlət müstəqilliyinin bərpasından sonrakı ilk illərdə ölkədə yaranmış qeyri-sabitlik, Birinci Qarabağ müharibəsi, keçmiş müttəfiq respublikalar arasındakı əlaqələrin qırılması, idarəetmə orqanlarında rəhbər işçilərin səriştəsizliyi aqrar sahədə böhranı daha da dərinləşdirdi.

Yaranmış vəziyyət aqrar sahədə əsaslı islahatların keçirilməsini tələb edirdi. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş aqrar islahatlar proqramının müvəffəqiyyətlə həyata keçirilməsi, əmlakın özəlləşdirilməsi, yeni mülkiyyət və təsərrüfatçılıq formalarının inkişaf etdirilməsi, sahibkarlığın inkişaf üçün geniş şərait yaradılması kənd təsərrüfatında bazar münasibətlərinin daha sürətlə formalaşmasına imkan yaratdı.

1998-ci ildə torpaq mülkiyyətinə dövlətin inhisarçılığı ləğv olundu. Ölkədə kollektiv müəssisələr, icarə müəssisələri, fermer təsərrüfatları, istehsal kooperativləri, kiçik müəssisələr, fiziki şəxslər kimi sahibkarlıq formaları yaradıldı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev kənd təsərrüfatı işçilərinin əməyini yüksək qiymətləndirərək 8 oktyabr 2008-ci il tarixli sərəncamı ilə noyabrın 1-ni Kənd Təsərrüfatı İşçilərinin peşə bayramı Günü elan etmişdir.

6 noyabr

TELEVİZİYA VƏ RADİO İŞÇİLƏRİ GÜNÜ

Milyonlarla insan hər gün radio və televiziyanın köməyi ilə dünyanın müxtəlif yerlərində baş vermiş mühüm hadisələrdən xəbər tutur. Səs və görüntülər uzaq məsafələrə xüsusi cihazlar və peyk antenaları vasitəsilə ötürülür.

Radionun ixtirası iki alimin adı ilə bağlıdır: rus ixtiraçısı Aleksandr Popov və italyan ixtiraçısı Qulleylmo Markoni. 1895-ci il mayın 7-də A.Popov Rusiya Fizika-Kimya Cəmiyyətinin iclasında yaratdığı radiorabitə (məftilsiz sim) sistemini nümayiş etdirdi.

Təxminən eyni vaxtda Hertsin elektrodinamikaya dair tədqiqatlarından yararlanan Q.Markoni kabelsiz və simsiz radiodalğaların köməyi ilə bir nöqtədən digər nöqtəyə məlumat göndərməyə nail oldu: radio dalğaları vasitəsilə 9 metrlik məsafədə elektrik zəngini səsləndirdi. O vaxtdan radio zəruri rabitə vasitəsinə çevrilmişdir.

Televizorun (yunanca "tele"-uzaqlıq, latınca "vizor"-görmə sözlərindəndir) ixtirası isə bir qədər sonraya – XX əsrin 20–30-cu illərinə təsadüf edir. 1923-cü ildə ABŞ mühəndisi Çarlz Cenkins radio ilə Vaşinqtondan Filadelfiya və Bostona əşyanın rəsmini ötürməyə nail oldu. 1926-cı ildə şotlandiyalı ixtiraçı Con Lodci Börd ilk dəfə olaraq insanın təsvirini televiziya vasitəsilə əldə etdi. Onun şirkəti ilk mexaniki televizorların istehsalına başladı.



Rusiyadan ABŞ-a mühacirət edən Vladimir Zvorikin 1933-cü ildə televizorun əsas hissələrindən biri olan ötürücü qurğunu ixtira etdi. 30-cu illərin ortalarından

televiziya verilişlərinin yayımı başlandı. İlk televiziya verilişi 1936-cı ildə Londonda olmuşdur. 1939-cu ildə ABŞ mühəndisləri A.Roze və X.Yoms tərəfindən televiziya ötürücü trubkası (optikon) ixtira edildi. Avropada yalnız XX əsrin 50-ci illərində televiziya geniş yayılmağa başladı.

Azərbaycanda radionun tarixi Azərbaycan Xalq Cümhuriyyəti dövründən başlayır. Belə ki, ölkəmizdə ilk radiostansiya 1918-ci ildə Gəncədə quraşdırılmışdır. 1919-cu ildə bu radio hətta beynəlxalq arenaya çıxma imkanlarına malik olmuşdu. Belə ki, 1919-cu ilin noyabrında Ə.Topçubaşov Fransadan – Eyfel qülləsindəki radiostansiyadan birbaşa Gəncə radiostansiyasına teleqram göndərmişdi. Azərbaycanda radiostansiyanın fəaliyyətə başlaması münasibətilə göndərilən təbrik teleqramında deyilirdi: "Əziz həmvətənlilərimin iqtisadi və mədəni tərəqqisində böyük rol oynayacaq ilk Azərbaycan radiostansiyasının fəaliyyətə başlaması münasibətilə sizi təbrik edirəm". 1926-cı il isə ilk radiostansiyanın fəaliyyətə başlaması ilə əlamətdardır. Məhz həmin il noyabrın 2-də ilk radio verilişi efirə çıxmışdır. O dövrdə radioverilişlərinin gündəlik efir vaxtı cəmi 2 saat təşkil edirdi. Sonradan bu vaxt 4 saata, daha sonra 6 saata çatdırıldı.

Azərbaycanda ilk televiziya verilişi isə 1956-cı il fevralın 14-də efirə çıxmışdır. Azərbaycan müstəqillik əldə etdikdən sonra müstəqil teleradioşirkətlərin sayı da artmışdır. Hazırda ölkədə dövlət milli radio və televiziyası ilə yanaşı ANS, Lider, Space, Azad Azərbaycan, Xəzər kimi özəl televiziyalar və bir çox radio kanallar müxtəlif məzmunlu verilişlər yayırlar.


2005-ci il avqustun 31-də İctimai Televiziyanın yayıma başlaması Azərbaycan teleməkanını daha da genişləndirmişdir. Azərbaycanda hər il noyabrın 6-sı Radio və Televiziya İşçilərinin peşə bayramı günü kimi qeyd olunur.

8 noyabr

BAKI METROPOLİTENİ İŞÇİLƏRİ GÜNÜ

XX əsrin 30-cu illərinin əvvəllərində Respublikamızın paytaxtı Bakı şəhəri təkcə Cənubi Qafqazın deyil, həm də SSRİ-nin əhalisi çox olan sənaye, mədəniyyət və elm mərkəzlərindən birinə çevrilmişdi. Buna görə də Moskva və Leninqrad şəhərlərində metropoliten tikintisi başa çatdırıldıqdan sonra Bakı şəhərinin baş planının ilkin variantları hazırlanarkən burada da metropoliten inşası nəzərdə tutulmuşdu. Lakin İkinci Dünya müharibəsinin başlanması bu planın həyata keçirilməsinə mane oldu. Müharibə qurtardıqdan 2 il sonra – 1947-ci ildə layihə-axtarış işlərinin aparılmasının başlanmasına dair qərar qəbul edildi. 1949-cu ildə metropolitenin tikinti bazası yaradıldı. 1951-ci ildə isə birinci xəttin texniki layihəsi hazırlandı və metropolitenin 12,1 km-lik xəttinin inşası başlandı. 1953-cü ildə tikinti işləri müvəqqəti olaraq dayandırıldı və yalnız 1960-cı ildə yenidən bərpa olundu. 1966-cı ildə tərkibində hərəkət, hərəkət qatarları, yol və tunel qurğuları, sanitariya texnikası və elektromexanika, işarəvermə






və rabitə, material-texniki təminat xidmətləri olan Bakı Metropoliteni idarəsi yaradıldı.

1967-ci il noyabrın 6-da Bakı şəhərində metropolitenin 5 stansiyası və 9,2 km-lik yeraltı xətləri olan birinci növbəsi istismara verildi. İlk qatarı maşinist Salman Ələkbərov idarə etmişdir.

Birinci sahədən sonra 2,3 km-lik ikinci sahə, sonra isə 6,4 km-lik üçüncü sahə istismara verildi. 9,1 km-lik ikinci növbənin tikintisi 1985-ci ildə başa çatdırıldı. "28 May" stansiyasına keçid kimi tikilmiş "C.Cabbarlı" stansiyası 1993-cü ildə istismara verilmişdir. 2002-ci ildə "H.Aslanov" stansiyası və ona gələn tunelin, 2008-ci ildə "Nəsimi" stansiyasının istismara verilməsindən sonra Bakı Metropoliteni 21 stansiya və uzunluğu 31,5 km xətdən ibarət oldu. Gələcəkdə metropolitenin xətlərinin uzunluğu 52 km-ə, stansiyaların sayı isə 32-yə çatdırılacaqdır. Keçmiş "Bakı Soveti" stansiyası əsaslı şəkildə yenidən quruldu və 2009-cu ildə "İçərişəhər" stansiyası adlandırılaraq istifadəyə verildi.

9 noyabr

DÖVLƏT BAYRAĞI GÜNÜ



9 noyabr Dövlət bayrağı Günüdür. Dövlət bayrağı ölkənin dövlət rəmzlərindən biridir. Dövlət bayrağı hər birimiz üçün Vətən, millət və dil qədər müqəddəsdir.

Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Kabinetinin 1918-ci il 9 noyabr tarixli qərarı ilə qəbul edilmiş dövlət bayrağımızdakı mavi rəng türklük, qırmızı rəng azadlıq, demokratiya və insan hüquqları, yaşıl rəng İslam sivilizasiyasına məxsusluq deməkdir.

Məhz həmin tarixi hadisəni əsas götürərək Prezident İlham Əliyev 17 noyabr 2009-cu il tarixli sərəncamı ilə 9 noyabr Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü elan etmişdir.

1920-ci ilin 28 aprel işğalından sonra bayrağımız dövlət qurumlarının üzərindən ürəklərə köçdü. Xalqımız üçrəngli bayrağı başımız üzərində dalğalandırmaq arzusunu uzun illər qəlbində yaşatdı.

1988-ci ildə Ermənistanın Qarabağın dağlıq hissəsini işğal etmək cəhdi xalqın ayağa qalxmasına səbəb oldu. Noyabrın 17-də Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı Bakının Azadlıq meydanında qaldırıldı. Bu bayraq rəsmi olaraq ilk dəfə Naxçıvan Muxtar Respublikası Ali Sovetinin 1990-cı il 19 yanvar tarixli qərarı ilə bu qurumun binası üzərində ucaldıldı. Bu qərar səkkiz gün sonra Azərbaycan SSR Ali Soveti tərəfindən ləğv edilsə də, 1990-cı il noyabrın 17-də Naxçıvan Ali Məclisinin ümummilli lider Heydər Əliyevin sədrliyi ilə keçirilən sessiyasında Azərbaycan Xalq Cümhuriyyətinin bayrağının Muxtar Respublikanın rəsmi bayrağı kimi qəbul edilməsində mühüm rol oynadı. Belə ki, xalqın tələbi ilə 1991-ci il fevralın 5-də Azərbaycan SSR Ali Soveti Dövlət bayrağı haqqında Qanun qəbul etdi və üçrəngli bayrağa Azərbaycan Respublikasının Dövlət Bayrağı statusu verildi. Həmin il oktyabrın 18-də

dövlət müstəqilliyini bərpa edən Azərbaycan Respublikası özünü Azərbaycan Xalq Cümhuriyyətinin varisi elan edərkən, onun dövlət rəmzlərini, o cümlədən dövlət bayrağını da qəbul etdi.

"Dövlət bayrağının istifadəsi haqında" Qanunun 1.3-cü maddəsində deyilir ki, dövlət "əhali arasında Azərbaycan Respublikasının Dövlət Bayrağının mahiyyətinin və əhəmiyyətinin geniş təbliğ olunması, gənc nəslin Azərbaycan Respublikasının Dövlət bayrağına hörmət ruhunda tərbiyə edilməsi məqsədi ilə tədbirlər görür". Bu Qanunun tələbinə uyğun olaraq, Azərbaycanın müxtəlif guşələrində bayraq komleksləri yaradılır. Respublikamızda dövlət bayrağının mahiyyətini və əhəmiyyətini geniş təbliğ etmək və gənc nəsli ona hörmət ruhunda tərbiyə etmək məqsədi ilə tədbirlər görülür.

Bu tədbirlərdən biri də Prezident İlham Əliyevin 2007-ci il 17 noyabr tarixli sərəncamı ilə Bakı şəhərində Dövlət bayrağı meydanının yaradılmasıdır. Sərəncamda dövlət bayrağının Azərbaycan Respublikasının müstəqilliyini təcəssüm etdirən rəsmi dövlət rəmzi olması və hər bir vətəndaşın üçrəngli bayrağımıza ehtiram göstərməsi müqəddəs borc kimi vurğulanır. Sənəddə deyilir: "Azərbaycan əsgəri vətənin suverenliyinin və ərazi bütövlüyünün qorunması ilə bağlı ali missiyanı öz üzərinə götürərkən dövlət bayrağına and içir. Dövlət bayrağının Azərbaycan Respublikasının dövlət qurumlarının və diplomatik nümayəndəliklərinin binaları üzərində dalğalanması, ən mötəbər məclislərdə, rəsmi tədbirlərdə və yarışlarda qaldırılması hər bir azərbaycanlının qəlbini qürur hissi ilə doldurur".


Sərəncamda Dövlət bayrağı meydanının yaradılmasının iki zərurətdən irəli gəldiyi də vurğulanmışdır. Bunlardan birincisi, dövlət bayrağının Azərbaycan vətəndaşlarının milli həmrəyliyinin, vahid məfkurə ətrafında sıx birləşmələrinin başlıca amillərindən biri olmasıdır. İkincisi isə, dövlət bayrağının təbliğatının daim diqqət mərkəzində saxlanmasıdır.

Ölçüsü 35x70 metr olacaq və 162 metr hündürlükdə dalğalanacaq bayrağımız daim hər kəsin diqqətini özünə cəlb edəcəkdir.

Böyük iftixarla öpüb altından keçdiyimiz dövlət bayrağımızın müqəddəsliyini və zərb-məsələ çevrilmiş bu sözləri heç vaxt unutmamalıyıq: "Bayraqları bayraq edən üstündəki qandır, Torpaq əgər uğrunda ölən varsa, Vətəndir".

12 noyabr

KONSTİTUSİYA GÜNÜ



1995-ci il noyabrın 12-də Azərbaycan xalqı referendum yolu ilə öz dövlətinin Əsas Qanununu – Konstitusiyasını qəbul etdi. Bu Konstitusiya müstəqilliyini bərpa etmiş Azərbaycan dövlətinin ilk milli konstitusiyasıdır.

"Konstitusiya" latın sözü olub "quruluş", "təsisat" mənası verir. Dövlətin ali hüquqi qüvvəyə malik olan əsas qanunlar məcəlləsi belə adlanır. Demokratik dövlət olan ABŞ-da nümayəndəli demokratiyanın yaranması hökumətin qərar qəbul etmək üçün istinad edə biləcəyi müəyyən qaydaların olmasına zərurət yaratdı. Nəticədə dünyada ilk dəfə olaraq dövlət quruculuğunu, hakimiyyət strukturlarını, eləcə də qərar qəbul etmə qaydalarını müəyyənləşdirən ali qanun – Konstitusiya yaradıldı.

Müasir dövlətlərin çoxunun konstitusiyası var. Konstitusiyası olmayan dövlətlərdə isə idarəetmə adət-ənənələrə, dini qaydalara əsaslanır. Bir qayda olaraq, konstitusiyalar uzun müddətə qəbul edilir və nadir hallarda dəyişdirilir. Belə dəyişikliklər, adətən, müharibələr, inqilablar və ya ölkənin siyasi kursunun kəskin surətdə dəyişilməsi nəticəsində baş verir. Məsələn, Almaniya Federativ Respublikasının, İtaliya və Yaponiyanın konstitusiyaları bu ölkələrin II Dünya müharibəsində məğlubiyyətindən sonra yenidən qəbul edilib. ABŞ Konstitusiyası isə, əksinə, 200 ildən çoxdur ki, fəaliyyət göstərir. Böyük Britaniyada isə məsələ başqa cürdür. Burada konstitusiya tipli ali qanun yoxdur. Ölkənin idarə olunması çoxəsrlik tarixi olan ənənələrin və ayrı-ayrı qanunların əsasında həyata keçirilir.

Azərbaycan Xalq Cümhuriyyəti Konstitusiya qəbul etməsə



də, Miili Şurada qəbul edilmiş "İstiqlaliyyət Bəyannaməsi" onu əvəz edirdi. Aprel işğalından sonra Azərbaycanın ictimai və dövlət quruluşunda mövcud olmuş qaydalar dəyişdirildi və sovet rejiminin formalaşmasına başlandı. Sovetləşmə başa çatdıqdan sonra 1921-ci il mayın 19-da Bakıda keçirilən Azərbaycan SSR-in Birinci Sovetlər qurultayı Azərbaycan SSR-in birinci Konstitusiyasını qəbul etdi. Əsasən RSFSR Konstitusiyasının təkrarı olan bu Konstitusiya xalqa geniş hüquqlar vəd etsə də, formal səciyyə daşıyırdı. Çünki Sovetlərin fəaliyyətinə bütün mərhələlərdə Moskvadan Rusiya Kommunist (bolşeviklər) Partiyası tərəfindən istiqamətləndirilən Azərbaycan Kommunist (bolşeviklər) Partiyası rəhbərlik edirdi. Üstəlik ölkədə fəaliyyət göstərən bütün siyasi partiyalar qadağan olunmuş, bununla da Kommunist Partiyasının diktaturası yaranmışdı. Sovetlər bu partiyanın itaətkar alətinə çevrilmişdi.

Beləliklə, bolşeviklərin qanlı qırğınlarla müşayiət olunan zorakı tədbirləri nəticəsində Şimali Azərbaycanda guya Konstitusiyaya əsaslanan hakimiyyət orqanları formalaşdırıldı. Sovet sosialist demokratiyası bərqərar oldu. Əslində isə, AXC və onun parlamenti ilə müqayisədə yeni yaradılan demokratiya formal və yalançı demokratiya idi.

1937-ci il martın 14-də IX fövqəladə Azərbaycan Sovetlər qurultayı Azərbaycan SSR-in ikinci Konstitusiyasını təsdiq etdi. Bu Konstitusiya 1936-cı ildə qəbul edilmiş SSRİ Konstitusiyasının təkrarı idi. Azərbaycan SSR-in sonuncu Konstitusiyası 1978-ci il aprelin 21-də qəbul edildi. Bu Konstitusiyanın 73-cü maddəsinə görə Azərbaycan SSR-in dövlət dili Azərbaycan dili idi.

Bu, o dövr üçün çox cəsarətli addım idi, çünki SSRİ-nin milli siyasətinin şovinist zəmində qurulduğu bir dövrdə respublikanın ali qanununa belə bir maddənin daxil edilməsi Sovet milli siyasətinin tələblərinə uyğun deyildi. Bu çətin vəzifənin öhdəsindən o zamanlar Azərbaycana rəhbərlik edən Heydər Əliyev gəlmişdi.

1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul edildi. Bu sənədə görə Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisi elan olunurdu. SSRİ-nin təşkili haqqında 1922-ci il 30 dekabr tarixli müqavilənin Azərbaycana aid hissəsinin imzalandığı andan etibarsız olduğu göstərilirdi.

Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının layihəsini hazırlamaq üçün Prezident Heydər Əliyevin sədrliyi ilə 33 nəfərdən ibarət komissiya yaradılmışdı. Yeni Konstitusiya 1995-ci il noyabrın 27-də qüvvəyə minmişdir.

Yeni Konstitusiya ölkədə demokratik, hüquqi, dünyəvi və unitar dövlət qurulması işinə hüquqi zəmin yaratdı. Əsas Qanunda dövlətin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq, cəmiyyətin demokratikləşdirilməsinə və vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq, qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq, bazar iqtisadiyyatına xas olan münasibətlərin formalaşmasını təmin etmək və s. kimi nailiyyətlər təsbit olunmuşdu.

Artıq zaman Əsas Qanunumuzun nə qədər güclü, kamil və həyati sənəd olduğunu təsdiqləmiş və o, demokratik sənəd kimi özünü doğrultmuşdur. Bu möhkəm bünövrə üzərində ucalan dövlətçiliymiz öz demokratik mahiyyəti ilə ümumavropa dəyərlərindən faydalanmış, xalqımız öz həqiqətlərini dünyaya bəyan etmək imkanı qazanmışdır. Əsas Qanunumuzda dilindən, dinindən, irqi mənsubiyyətindən asılı olmayaraq, Azərbaycanda yaşayan bütün vətəndaşların hüquq və azadlıqları geniş təsbit olunmuşdur. Konstitusiyanın 158 maddəsindən 48-i insan hüquqlarına və onların təminatlarına həsr edilmişdir.

Xalqın Qanunların aliliyini təmin edən hüquqi, dünyəvi

dövlət qurmaq iradəsinin ifadəsi kimi hüquqi, dünyəvi dövlət qurmaq müddəası Konstitusiyanın 7-ci maddəsində ətraflı olaraq açıqlanmışdır.

Ədalətli iqtisadi və sosial dayaqlara uyğun olaraq, hamının layiqli həyat səviyyəsini təmin etmək müddəası sosial dövlətə aid olan cəhətləri özündə əks etdirir. Bu müddəa ilə Azərbaycan dövlətinin başlıca vəzifələrindən biri kimi, ölkənin sosial sahədə siyasətini müəyyən etmək, əhalinin rifahının gündən-günə yaxşılaşdırılmasına yönəldilən tədbirlər həyata keçirmək əhatə olunmuşdur.

Ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək müddəası xalqımızın dünya xalqları içərisində öz mövqeyini müəyyən etməsi kimi anlaşılmaqla yanaşı, həm də Azərbaycan dövlətinin dünya xalqları sisteminin tam hüquqlu üzvü və onun ayrılmaz tərkib hissəsi kimi başa düşülür.

Konstitusiyanın 24-cü maddəsinin 1-ci hissəsində deyilir: "hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları vardır". Azadlıq – digərlərinə zərər yetirməyən hər şeyi etmək imkanıdır. Azadlığın sərhədləri yalnız qanunla müəyyənləşdirilə bilər. Qanun insan hüquqlarını istənilən pozuntudan qorumağa yönəldilmişdir. İnsan hüquqlarının və əsas azadlıqlarının beynəlxalq hüququn prinsiplərinə uyğun olaraq təmin edilməsi Azərbaycan Respublikasında dövlətin ali məqsədi kimi təsbit edilmişdir. Bir çox beynəlxalq hüquqi sənədlər Azərbaycan Respublikası Konstitusiyasının insan hüquq və azadlıqlarını təsbit edən üçüncü fəslinin əsasını təşkil etmişdir.

Milli Konstitusiyamızın qəbul edilməsindən sonrakı dövr ərzində Milli Məclis tərəfindən ölkə həyatının bütün sahələrini əhatə edən, dünya standartlarına cavab verən bir sıra qanunlar qəbul edilmişdir. Azərbaycan Respublikası bir sıra beynəlxalq konvensiyalara qoşulmuş, Avropa Şurasına üzv qəbul olunmuşdur.

Baş vermiş bu dəyişikliklərdən, demokratik dəyərlərin inki-

şafına yönəldilmiş bir sıra islahatlardan irəli gələn hüquqi tənzimləmə öz əksini Konstitusiyada tapmalı idi. Bununla əlaqədar olaraq, Azərbaycan Prezidenti Heydər Əliyevin fərmanına əsasən 2002-ci il avqustun 24-də Azərbaycan Respublikasının Konstitusiyasına dəyişikliklər edilməsinə dair referendum keçirildi. Xalqın iradəsinin nəticəsi olaraq Konstitusiyaya 24 dəyişiklik və əlavə edildi. Bunlar insan hüquqları və azadlıqları, Azərbaycanın Avropa Şurası qarşısında götürdüyü öhdəliklərlə, seçki sistemi, hakimiyyət bölgüsü və s. bağlı dəyişiklik və əlavələrdir.

Həmin tarixi referendumdan ötən müddətdə Azərbaycanda hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu yolunda inamlı addımlar atılması, dövlətin iqtisadi siyasətində sosialyönümlü məsələlərin prioritetə çevrilməsi, insan hüquq və azadlıqlarının maksimum müdafiəsinə xidmət edən təkmil qanunverici bazanın formalaşması Konstitusiyaya zamanın tələbi ilə səslənən bir sıra əlavə və dəyişikliklərin edilməsini də zərurətə çevirmişdir. Buna görə də Milli Məclisin qərarı ilə 2009-cu il martın 18-də Azərbaycan Respublikasının Konstitusiyasına əlavə və dəyişikliklər edilməsinə dair ümumxalq səsverməsi – referendum keçirildi. Böyük əksəriyyətlə qəbul olunan 29 əlavə və dəyişikliklərin mühüm bir qismi Azərbaycan dövlətinin insan və şəxsiyyət amilini yüksək tutaraq yeritdiyi sosialyönümlü siyasət strategiyasının daha dolğun, hərtərəfli ifadəsinə, vətəndaşların bu sahədə hüquq və səlahiyyətlərinin genişləndirilməsinə, hökumətin sosial məsuliyyətinin artırılmasına xidmət edir.

Konstitusiyaya əlavə və dəyişikliklərin digər qismi isə respublikamızın hazırkı inkişaf tempinə adekvat olaraq insan hüquq və azadlıqlarının müdafiəsi mexanizmlərinin daha da təkmilləşdirilməsi ilə bağlıdır. Üçüncü qism isə məhkəmə hakimiyyətinə, bələdiyyələrin statuslarının möhkəmləndirilməsinə aid edilmişdir.

17 noyabr

MİLLİ DİRÇƏLİŞ GÜNÜ



17 noyabr dövlətimiz və xalqımız tərəfindən "Milli Dirçəliş Cünü" kimi bayram edilir. 1988-ci il noyabrın 17-də xalq Bakı şəhərində Azadlıq meydanına axışmaqla 70 il Azərbaycanı müstəmləkə əsarətində saxlayan Sovet imperiyasına qarşı ilk kütləvi etiraz səsini qaldırdı. Azərbaycanın keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətində başlamış erməni separatizmini və terrorunu dəstəkləyən, ermənilərin Azərbaycana qarşı torpaq iddialarına rəvac verən, Azərbaycan xalqının hüquq və mənafelərini qorumayan bir rejimə qarşı kütləvi xalq hərəkatı məhz 17 noyabrda başlandı. Həmin gün Azərbaycan xalqı bir yumruq kimi sıx birləşərək bütün dünyaya sübut etdi ki, o, azad olmağa layiq xalqdır.

XX əsrin 80-ci illərinin ortalarından etibarən keçmiş SSRİ-də baş verən ictimai-siyasi proseslər nəticəsində Azərbaycanın müstəqillik qazanması üçün geniş imkanlar yaranmışdı. Ermənistanda və Qarabağın dağlıq hissəsində azəri türklərinə qarşı yönəldilmiş soyqırımı Sovet ordusu tərəfindən dəstəklənirdi. Təpədən-dırnağadək silahlanmış erməni quldurları əliyalın, dinc əhalini müdhiş bir amansızlıqla qətlə yetirirdilər. Qaniçən vəhşilər heç kimə – qocalara, körpələrə, hətta hamilə qadınlara belə aman vermirdilər. Vəzifə kreslosunu qoruyub saxlamaq naminə Moskva qarşısında yaltaqlanan və acizlik göstərən o zamankı kommunist rəhbərliyi xalqın və vətənin həqiqi mənafeyi keşiyində dura bilmirdi.

Bütün bu ədalətsizliklər və ərazi bütövlüyünə edilən qəsdlərlə razılaşmayan Azərbaycan xalqı 17 noyabrda ayağa qalxdı. Həmin günlərdə "Meydan hərəkatı" adını almış bu hərəkatla Sovet müstəmləkə rejimi şəraitində repressiyalara məruz qalmış milli şüur yenidən oyandı, özünüdərkə doğru bir dönüş başlandı.

Xalq hərəkatı təkcə Bakıda deyil, Naxçıvan, Gəncə və Lənkəranda da kütləvi xarakter aldı. Respublikamızın bütün şəhər və rayonlarını bürümüş qüdrətli xalq hərəkatı kommunist rejimini Azərbaycandan süpürüb atmaq təhlükəsi yaratmışdı. Xalq hərəkatı bütün əzəməti ilə göz qabağında idi. Bundan qorxuya düşən imperiya başçıları noyabrın 24-dən 25-nə keçən gecə Bakıya qoşun yeritdilər. Komendant saatı tətbiq olundu. Lakin xalq geri çəkilmədi. Sovet rejimindən Ermənistanda və Qarabağın dağlıq hissəsində erməni separatçılığına və terrorizminə son qoymaq, Azərbaycanın ərazi bütövlüyünü təmin etmək, sərvətlərimizin talan edilməsini dayandırmaq kimi tələblərlə başlamış "Meydan hərəkatı" tezliklə Azərbaycanın müstəqilliyinə çağıran şüarlara keçdi. Meydanda Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli, ay-ulduzlu bayraqları dalğalandı.

Lakin qüvvələr hələ qeyri-bərabər idi. İmperiya daxildən laxlasa da, hərbi iqtidardan düşməmişdi. Qüvvələri gələcək azadlıq mübarizəsi üçün qoruyub saxlamaq lazım gəlirdi. Dekabrın 4-dən 5-nə keçən gecə Sovet ordusu "Meydan hərəkatı"nı yatırmağa nail oldu. Minlərlə azadlıqsevər insanlar həbs edilərək zindanlara salındı. Lakin xalqın mübarizə əzmini qırmaq mümkün deyildi. Azərbaycanın müstəqilliyinə doğru uzanan yol 17 noyabrdan – Azadlıq meydanından başlanırdı. Az sonra tarix öz sözünü dedi. Azərbaycan yenidən öz müstəqilliyinə qovuşdu. 17 noyabr isə xalqın milli-azadlıq hərəkatının başlanğıc günü – Milli Dirçəliş Günü kimi qeyd olunmağa başladı.

22 noyabr

ƏDLİYYƏ İŞÇİLƏRİ GÜNÜ

Ümummilli lider Heydər Əliyev tərəfindən ədliyyə orqanlarının müasirləşən cəmiyyətimizdə artan rolu nəzərə alınaraq 11 noyabr 2000-ci il tarixdə imzalanmış sərəncamla Azərbaycan Xalq Cümhuriyyəti dövründə Ədliyyə Nazirliyinin Əsasnaməsinin təsdiq edildiyi gün – 22 noyabr Ədliyyə işçilərinin peşə bayramı günü kimi təsis edilmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti yarandığı zaman Fətəli xan Xoyskinin rəhbərliyi ilə 9 nəfərdən ibarət Birinci hökumət kabineti təşkil olunmuşdu. Bu zaman yeni təşkil edilmiş dövlət qurumlarından biri də Ədliyyə Nazirliyi olmuş və Xəlil bəy Xasməmmədov ilk ədliyyə naziri kimi fəaliyyətə başlamışdır. Azərbaycan Xalq Cümhuriyyəti müstəqil respublikanın ədliyyə, məhkəmə və prokurorluq orqanlarının formalaşdırılmasına xüsusi əhəmiyyət vermişdir. Gənc Azərbaycan dövlətinin o vaxtkı rəhbərləri ədalətli və demokratik dövlət qurulmasında ədliyyənin və ədalət mühakiməsinin vacibliyini dərk edərək, bu sahədə xeyli işlər görmüşlər. Heç də təsadüfi deyil ki, Baş nazir Fətəli xan Xoyski o zaman parlamentdəki çıxışında qətiyyətlə vurğulamışdı: "Ölkədə ədliyyə nəzarəti olmalıdır. Bu olmazsa, heç bir dövlətin



işi yürüməz, nə qədər tənbeh və cəza olsa da, yenə də ədliyyə nəzarəti olmalıdır... ədliyyəsi olmayan məmləkətdə tərəqqi dəxi olmaz, məmləkət irəliləməz". Həmin dövrdə Ədliyyə Nazirliyinin Əsasnaməsinin qəbul olunması ilə nazirliyin əsas səlahiyyətləri və strukturu müəyyən edilmiş, bir sıra vacib təşkilati məsələlər öz həllini tapmışdır. Nazirlik tərəfindən öz dövrü üçün çox aktual olan 30-dan artıq qanun layihəsi, o cümlədən Azərbaycan vətəndaşlığı, məhkəmə işçiləri vəzifələrinə namizədlər, xarici dövlətlərin məhkəmə qərarlarının icrası qaydası, amnistiya haqqında və digər qanunvericilik aktlarının layihələri hazırlanaraq ölkə parlamentinin müzakirəsinə çıxarılmışdır.

Ədliyyə nazirinin təşəbbüsü əsasında hökumət tərəfindən qəbul olunmuş 1919-cu il 11 avqust tarixli qərarla həbsxana işinin düzgün qurulması, cəzaların məqsədinə nail olunması nəzərə alınaraq, onlar Daxili İşlər Nazirliyinin tərkibindən çıxarılıb Ədliyyə Nazirliyinin tabeliyinə verilmişdir. Məhkəmənin əhaliyə daha da yaxınlaşdırılması məqsədilə nazirlik məhkəmə orqanlarına dövlət dilini – Azərbaycan (türk) dilini bilən şəxslərin cəlb edilməsi üçün tədbirlər həyata keçirmişdi. Bunun da nəticəsində məhkəmə idarələrində bütün iclasların Azərbaycan (türk) dilində aparılması təmin olunmuşdur. Ədliyyə Nazirliyi öz fəaliyyətində milli kadrların formalaşdırılmasına xüsusi diqqət yetirərək, pulsuz müvəqqəti xüsusi hüquq kursları təşkil etmişdir.

Azərbaycanda Sovet rejiminin bərqərar olmasından 1970-ci ilə kimi Azərbaycan Ədliyyəsi çətin dövrünü yaşamış, hətta bir müddət ədliyyə qurumlarının funksiyalarını digər orqanlar icra etmişlər. 1969-cu ildə Heydər Əliyevin respublikamızda hakimiyyətə gəlişi ilə ədliyyə sisteminin inkişafında mühüm mərhələ başlanmışdır. Ədliyyə Nazirliyi bir qurum kimi yenidən təşkil olunmuş və həmin dövr üçün səciyyəvi olan funksiyaları yerinə yetirmiş, onun gələcək inkişafı üçün zəruri şərait yaradılmışdır. Azərbaycan yenidən dövlət müstəqilliyini əldə etdikdən sonra isə Heydər Əliyevin rəhbərliyi ilə ölkəmizdə əsaslı hüquqi islahatlar aparılmış, məhkəmə və ədliyyə sahəsində

mühüm əhəmiyyət kəsb edən bir çox qanunlar qəbul edilmişdir. Heydər Əliyevin humanizmə, qanunun aliliyinə və ədalətə əsaslanan siyasətini bu gün uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ədliyyə sisteminin inkişafı və beynəlxalq standartlara uyğun qurulması sahəsində zəruri tədbirlər həyata keçirir. Belə ki, ölkə Prezidentinin 18 aprel 2006-cı il tarixli fərmanı ilə nazirliyin yeni Əsasnaməsi təsdiq olunmuşdur. Ədliyyə orqanlarında qulluq keçmə haqqında Azərbaycan Respublikasının 26 may 2006-cı il tarixli qanunun qəbul olunması və dövlət başçısı tərəfindən Ədliyyə orqanlarının inkişafı haqqında 17 avqust 2006-cı il tarixli fərmanının imzalanması ilə ədliyyə orqanlarının fəaliyyətini tənzimləyən normativ hüquqi baza tamamilə yeniləşmişdir.

6 dekabr RABİTƏ VƏ İNFORMASİYA TEXNOLOGİYALARI İŞÇİLƏRİ GÜNÜ

XX əsr dünyada rabitə və informasiya texnologiyalarının dinamik inkişaf dövrü kimi səciyyələndirilir. Azərbaycanda da bu dövr ərzində rabitə müəyyən inkişaf səviyyəsinə çatmışdır. Ölkəmizdə rabitənin və onun inkişafının tarixi qədimdir. Belə ki, qədim zamanlardan məlumatların çatdırılması yüksəkliklərdə tonqal yandırmaqla, poçt göyərçinləri və qasidlər vasitəsilə həyata keçirilmişdir. 1501-ci ildə Şah I İsmayıl tərəfindən poçt rabitəsinin dövlət səviyyəsində təşkilinin təməli qoyulmuşdur. Bu rabitə dövrünə görə müntəzəm fəaliyyət göstərmiş, ölkənin müdafiəsinin möhkəmləndirilməsində, beynəlxalq aləmdə baş verən hadisələrdən xəbər tutulmasında və dövlət idarəçiliyinin səmərəli təşkilində mühüm rol oynamışdır. O, ölkəni yadelli təcavüzündən qorumaq, mühüm dövlət idarəetmə sistemi yaratmaq məqsədilə, ucqar əyalətlərdən və xarici ölkələrdən məlumatlar toplamaq üçün öz dövrünə görə müntəzəm fəaliyyət göstərən poçt rabitəsi yaratmışdı. Mühüm dövlət xəbərləri və hərbi məlumatların





ünvanlarına çatdırılması üçün kuryer və qasidlərdən istifadə edilirdi. Fərman və digər sənədlərin çatdırılması üçün estafet üsulu da tətbiq olunurdu.

Azərbaycanda poçt rabitəsinin tarixi qədim və zəngin olsa da, onun nizamlı təşkili XIX əsrin birinci yarısına təsadüf edir. 1818-ci ildə Yelizavetpolda ilk poçt rabitəsi təşkil edildi. Ölkəmizdə teleqraf rabitəsinin yaranması XIX əsrin 60-cı illərinə təsadüf edir. İlk olaraq Stavropol-Bakı-Tiflis teleqraf xətti çəkilib istismara verilmiş, 1868-ci ildə isə Gəncə–Tiflis teleqraf rabitəsi yaradılmışdır. Dünyada ilk sualtı rabitə kabellərindən biri 1879-cu ildə Xəzər dənizinin dibi ilə Bakı ilə Krasnovodsk arasında çəkilmişdir.

Az sonra telefon rabitəsi sahəsində ilk addımlar atılmışdır. "Qafqaz və Merkuri" şirkəti tərəfindən 1880-ci ildə Bakıda telefon xətti çəkilsə də, Azərbaycanda rəsmi olaraq ilk telefon xətti "Nobel qardaşları" şirkəti tərəfindən 1881-ci il noyabrın 23-də (yeni tarixlə dekabrın 6- da) istismara verilən 6 km uzunluğunda telefon xətti hesab edilir. Həmin gün Azərbaycanda telefon rabitəsinin başlanğıc tarixi hesab olunur.

Azərbaycanda rabitənin, elektron avadanlıqları və telekommunikasiya texnologiyaları sahəsinin daha sürətli inkişafı isə müstəqilliyimizin yenidən bərpası ilə əlaqədardır. Bu gün regionun ən dinamik inkişaf edən ölkəsi kimi Azərbaycan informasiya və kommunikasiya texnologiyaları sektorunun inkişafı üçün böyük imkanlara malikdir. Ümummilli lider Heydər Əliyevin 2003-cü il fevralın 17-də imzaladığı "Azərbaycan Respublikasının inkişafı naminə informasiya-kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)" Azərbaycan Respublikası üçün

bu istiqamətdə 10 il müddətində görüləcək işlərin ümumi xəttini müəyyənləşdirmişdir. Azərbaycan Cənubi Qafqazda bu sahə üzrə Milli Strategiya qəbul edən ilk ölkə olmuşdur.

Hazırda Azərbaycanda informasiya-kommunikasiya texnologiyaları sektorunun inkişafı üçün mühüm addımlar atılır. Azərbaycan İKT üzrə beynəlxalq tədbirlərin fəal iştirakçısına və təşkilatçısına çevrilmişdir. Bunun nəticəsidir ki, dünyada sürətlə inkişaf edən və perspektivli sahə hesab olunan informasiya-kommunikasiya texnologiyaları sektoru potensial imkanlarına görə Azərbaycanda energetika sektorundan sonra ikinci prioritet sahədir.

Bu gün dünyanın inkişaf etmiş ölkələrində müasir informasiya texnologiyalarının cəmiyyətə inteqrasiya səviyyəsi ölkənin iqtisadi inkişaf dərəcəsini əks etdirən əsas amilə çevrilmişdir. Azərbaycan Respublikası da biliyə əsaslanan iqtisadiyyat formalaşdırmaq barədə qərarını 2003-cü il dekabrın 12-də Cenevrədə keçirilən İnformasiya Cəmiyyəti üzrə Dünya Sammitində "Qara qızılı insan qızılına çevirək" tezisi ilə bəyan etmişdir. Tunis Sammitində isə İKT sektorunda əldə etdiyi nailiyyətlərini və strateji məqsədlərini nümayiş etdirərək ölkə iqtisadiyyatında yeni inkişaf mərhələsinin əsasının qoyulduğunu əyani olaraq təsdiq etdi.

Bu istiqamətdə atılan ilk addımlardan biri 2004-cü ilin fevralında Respublika Prezidentinin fərmanı ilə ölkədə İnformasiya Cəmiyyətinin qurulması məsələləri ilə bilavasitə məşğul olan mərkəzi icra hakimiyyəti orqanının – Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin yaradılması oldu.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 02 dekabr 2006-cı il tarixli sərəncamı ilə Azərbaycan Respublikasında telefon rabitəsinin yaradılmasının 125 illiyi ilə əlaqədar olaraq hər il dekabrın 6-sı Rabitə və informasiya texnologiyaları işçilərinin peşə bayramı günü kimi qeyd olunur.

16 dekabr FÖVQƏLADƏ HALLAR NAZİRLİYİ İŞÇİLƏRİ GÜNÜ

Bəşəriyyətin tərəqqisinə mane olan amillər çoxdur. Lakin bu amillər içərisində daha əhəmiyyətlisi təbii və texnogen mənşəli fövqəladə hadisələrdir. Belə hadisələrin qarşısının alınması, nəticələrinin yüngülləşdirilməsi və aradan qaldırılması hər bir ölkənin qarşısında duran mühüm problemlərdəndir. Elm və texnologiyanın sürətli inkişafı, olduqca təhlükəli yeni silah növlərinin ixtirası və sınaqdan keçirilməsi, ozon qatının deşilməsi təhlükəsinin yaranması, təbii və texnoloji risklərin artması, fəlakətlərin intensivləşməsi və nəticələrinin getdikcə ağırlaşması ilə müşaiyət olunur. Zəngin karbohidrogen ehtiyatlarına malik olan Azərbaycan dövləti də texnogen qəzaların baş verməsindən sığortalanmayıb. Bütün bunları nəzərə alan Prezident İlham Əliyev 2005-ci il dekabrın 16-da Fövqəladə Hallar Nazirliyinin yaradılması haqqında sərəncam imzaladı. Dövlətçilik tariximizdə ilk dəfə olaraq belə bir qurumun yaradılmasında məqsəd ölkəmizdə təbii fəlakətlərin, texnogen xarakterli qəzaların və yanğınların qarşısının alınması, onların nəticələrinin aradan qaldırılması, bəzi hallarda xilasetmə və bərpa işləri üzrə müvafiq orqanların fəaliyyətinin vahid mərkəzdən idarə olunması, mülki müdafiə işinin təşkili və həyata keçirilməsi, su hövzələrində insanlarının təhlükəsizliyinin təmin edilməsi idi.

Bu gün ölkə əhalisinin təhlükəsiz yaşaması, işləməsi və istirahət etməsi üçün Fövqəladə Hallar Nazirliyi bütün tədbirləri həyata keçirmək gücündədir. Hazırda ölkə ərazisində fövqəladə halların yaranma ehtimalı böyük olduqda, yaxud baş verdikdə çevik reaksiya verilir, tibbi, texnogen və terror təhlükələrinə



məruz qalan strateji əhəmiyyətli müəssisələr, obyektlər və qurğular ciddi şəkildə mühafizə olunurlar.

Fövqəladə Hallar Nazirliyinin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində Azərbaycan dövləti səmərəli tədbirlər həyata keçirir. 2008-ci ilin dekabrında Nazirliyin əzəmətli binasının istifadəyə verilməsi, Prezident İlham Əliyevin açılışda iştirak etməsi və Fövqəladə Hallar Nazirliyinin fəaliyyətini yüksək qiymətləndirməsi buna sübutdur: "Azərbaycanda təhlükəsizliyin təmin olunmasında, xilasetmə işlərinin düzgün qurulmasında çox böyük işlər görülmüşdür."

Hazırda fövqəladə halların proqnozlaşdırılması, qabaqlayıcı tədbirlərin görülməsi, əhalinin operativ məlumatlandırılması və digər kompleks tədbirlərin həyata keçirilməsi üçün xüsusi təyinatlı avtomatlaşdırılmış informasiya sistemi fəaliyyət göstərir. Fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılmasının operativliyini təmin etmək üçün bütün ölkə ərazisini əhatə edən fövqəladə halların idarə olunmasının coğrafi informasiya sistemi yaradılmışdır.

31 dekabr DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ GÜNÜ

Tarix dəfələrlə sübut edib ki, milli özünüdərk, milli birlik və həmrəylik kimi keyfiyyətlərdən məhrum olan xalqlar gec-tez daha güclü xalqların təsiri altına düşərək, assimiliyasiya olunur və öz simasını itirir. Müasir dünyanın qabaqcıl xalqlarından, millətlərindən biri olmaq üçün milli əzm, siyasi iradə nümayiş etdirmək, bir millət kimi beynəlxalq nüfuz qazanmaq lazımdır. Bu mənada həm Azərbaycanda yaşayan, həm də müxtəlif səbəblərdən dünyaya səpələnmiş azərbaycanlılar xalqımızın, millətimizin gələcəyi naminə möhkəm həmrəylik və mütəşəkkillik nümayiş etdirməlidirlər. Dünya azərbaycanlılarının harada məskunlaşmalarından asılı olmayaraq, ən mühüm, ən müqəddəs vəzifələrindən biri Azərbaycan xalqının tarixi nailiyyəti, bütün dünya azərbaycanlılarının mənəvi-siyasi iradəsinin nəticəsi olan müstəqil dövlətçiliymizi qoruyub saxlamaqdan, milli dövlətimizin dünya birliyində özünəməxsus yer tutmasına çalışmaqdan ibarətdir.

Unutmaq olmaz ki, müstəqil Azərbaycan dövlətinin mövcudluğu, onun demokratik, dünyəvi, hüquqi dövlət quruculuğu yolu ilə irəliləməsi yalnız Azərbaycan Respublikası vətəndaşlarının deyil, bütün azərbaycanlıların müstəqillik və dövlətçilik təfəkküründün inkişafına, onların həmrəyliyinə təkan verir, mədəni bir etnos kimi Azərbaycan xalqına beynəlxalq nüfuz gətirir. Dünyanın müxtəlif ölkələrinə səpələnmiş azərbaycanlıların mədəni-siyasi birliyi, həmrəyliyi müstəqil Azərbaycan Respublikasının və bütün dünya azərbaycanlılarının mənafeyinə uyğundur, onun əsas strateji məqsədlərindən biridir. Vətənindən ayrı düşmüş hər bir azərbaycanlı əmin olmalıdır ki, onun nüfuzunu, şərəfini qorumağa həmişə hazır olan bir dövlət – Azərbaycan Respublikası vardır.

Soydaşlarımızın əksəriyyəti başqa xalqlar içərisində azərbaycançılığı, milli xüsusiyyətlərimizi, adət-ənənələrimizi, dilimizi qoruyub saxlaya bilmiş və övladlarına ötürmüşlər. Amma bir





həqiqət də qeyd olunmalıdır ki, ayrı-ayrı cəhdlərə baxmayaraq, uzun bir tarixi dövr ərzində dünya azərbaycanlıları mütəşəkkillik nümayiş etdirə bilməmiş, təşkilatlanmamış, icmalar, diaspora şəklində təmsil olunmamış, dağınıq şəkildə yaşamışlar. Bu da sözsüz ki, milli əlaqələrin və müvafiq olaraq milli varlığın zəifləməsinə şərait yaratmışdır.

Xoşbəxtlikdən bu gün dünya azərbaycanlılarının əsil milli özünüdərk və ümummilli ideya – azərbaycançılıq, müstəqil dövlətçilik və milli-mənəvi dəyərlər ətrafında birləşməsi prosesi başlamışdır.

XX əsrin 80-ci illərinin axırlarında dünyada baş verən qlobal dəyişikliklərlə əlaqədar bir çox xalqların, o cümlədən Azərbaycan xalqının özünüdərki, həmrəylik hissi gücləndi. İctimai həyatın demokratikləşməsi istiqamətində genişlənən xalq hərəkatı zəminində ilk olaraq Naxçıvan Muxtar Respublikasında 1989-cu ilin noyabrında Şimali və Cənubi Azərbaycan arasında humanitar, mədəni, iqtisadi və qohumluq əlaqələrini bərpa etmək məqsədilə əsassız çəkilmiş sərhəd çəpərlərinə qarşı xalqın etirazı başlandı. Beləliklə, "Sərhəd hərəkatı" adı ilə başlanan bu siyasi aksiya 1989-cu il dekabrın 31-də azərbaycanlıların həmrəylik hərəkatına çevrildi.

1990-cı il noyabrın 3-5-də Türkiyədə keçirilən Birinci Millətlərarası Azərbaycan Türk dərnəkləri qurultayı isə Naxçıvan Muxtar Respublikasında başlamış hərəkatın davamı kimi milli birlik və həmrəylik yolunda atılan mühüm addım oldu. Qurultayın qəbul etdiyi qərarda 31 dekabr gününün hər il Həmrəylik



günü kimi qeyd edilməsinin vacibliyi irəli sürüldü. Bütün bunları nəzərə alaraq ümummilli liderimiz Heydər Əliyevin başçılıq etdiyi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1991-ci il 16 dekabr tarixli iclasında 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan edilməsi qərara alındı.

Naxçıvan MR Ali Məclisinin bu qərarını əsas tutaraq Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası 1991-ci il dekabrın 25-də qərara gəldi ki, hər il dekabrın 31-i dünyada yaşayan azərbaycanlıların Həmrəylik Günü kimi qeyd edilsin.

Müstəqillik qazanıldıqdan sonra əldə olunan nailiyyətlər sayəsində bütün dünya azərbaycanlılarının milli hüquqlarının, beynəlxalq haqlarının həyata keçirilməsinə geniş imkanlar açılmışdır. Azərbaycan Prezidenti Heydər Əliyevin sərəncamına müvafiq olaraq 2001-ci il noyabrın 10-da Bakı şəhərində Dünya azərbaycanlılarının birinci qurultayı keçirildi. Qurultayda 36 ölkədən gəlmiş 1105 nümayəndə, 906 qonaq iştirak edirdi. Qurultayda Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin söylədiyi

proqram səciyyəli nitqinin aparıcı xəttini belə bir tezis təşkil edirdi: "Biz azərbaycançılığın dövlət rəmzlərini yaşadan müstəqil dövlətimiz ətrafında daha sıx birləşməli, onun tərəqqisi üçün əlimizdən gələni əsirgəməməliyik".

Qurultay göstərdi ki, qüdrətli Azərbaycana gedən yol bütün azərbaycanlıların milli birliyindən keçir. Qurultay dünyanın müxtəlif qütblərinə səpələnmiş soydaşlarımızın bir araya gətirilməsi vəzifəsinin həyata keçirilməsi istiqamətində atılmış ilk ciddi və qəti bir addım idi. Qurultay Azərbaycanın Avroatlantika məkanına inteqrasiyasına kömək edəcək diasporumuzun inkişafında həlledici əhəmiyyətə malik qərarlar qəbul etdi.

Türk dünyasının böyük lideri Heydər Əliyev çoxminillik tariximizdə dünya azərbaycanlılarını ilk dəfə bir araya gətirən böyük dövlət xadimi oldu. Azərbaycan dövləti Dünya azərbaycanlılarının I qurultayının qərarlarının əməli surətdə həyata keçirilməsi üçün bir sıra işlər gördü. O cümlədən, 2002-ci il iyulun 5-də Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla iş üzrə Dövlət



Komitəsi yaradıldı. 2008-ci ildə isə bu qurumun adı dəyişdirilərək Diaspora ilə iş üzrə Dövlət Komitəsi adlandırılmışdır.

Ümummilli liderin ideya və prinsiplərinə sadiq qalan Respublika Prezidenti İlham Əliyev 2006-cı il fevralın 8-də Dünya azərbaycanlılarının II qurultayının keçirilməsi haqqında sərəncam imzaladı. Həmin il martın 16-da dünya azərbaycanlılarının II qurultayı böyük təntənə ilə keçirildi. Qurultay xaricdə yaşayan azərbaycanlıların problem və qayğılarını, onların birliyi və təşkilatlanması sahəsindəki mövcud vəziyyəti təhlil etdi. Qurultayda xaricdə yaşayan azərbaycanlıların ölkəmizlə əlaqələrinin daha da möhkəmləndirilməsinə, Azərbaycanla bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasına, diaspor quruculuğu işinin təkmilləşdirilməsinə dair qərarlar qəbul edildi. Dünya azərbaycanlılarının II qurultayı müxtəlif ölkələrdə yaşayan soydaşlarımızın bir bayraq altında birləşməsi istiqamətində irəliyə doğru atılmış növbəti bir qətiyyətli addım oldu.

Hazırda dünyada 50 milyondan çox azərbaycanlı yaşayır. Müxtəlif ölkələr üçün onların sayı göstərilən kimidir.



Dünya ölkələrində yaşayan azərbaycanlıların sayı:

ABŞ	-1000000
Avstraliya	-8000
Avstriya	-19000
Albaniya	-12000
Argentina	-12000
Əlcəzair	-26000
Əfqanıstan	-50000
Banqladeş	-175000
Belçika	-13000
Birma	-8000
BolQarıstan	-65000
Braziliya	-75000
Butan	-1500
Böyük Britaniya	-170000
Macarıstan	-27000
Yunanıstan	-13000
Danimarka	-60000
Misir	-900000
Hindistan	-300000
İndoneziya	-44000
İordaniya	-450,000
İraq	-1000000
İran	-30000000
İrlandiya	-4000
İspaniya	-14000
İtaliya	-33000
Yəmən Ərəb Respublikası	-35000
Yəmən Demokratik Respublikası	-27000
Kanada	-170000
Çin	-30000
Küveyt	-19000
Malta	-2500

Meksika	-27000
Monqolustan	-5000
Norveç	-50000
Birləşmiş Ərəb Əmirlikləri	-55000
Omman	-19000
Pakistan	-650000
Polşa	-12000
Portuqaliya	-7000
Rumıniya	-45000
Səudiyyə Ərəbistanı	-40000
Suriya	-95000
Sudan	-17000
Türkiyə	-3000000
Finlandiya	-12000
Fransa	-7000
Almaniya	-300000
Çexiya	-2000
Slovakiya	-2000
İsveç	-2000
Yuqoslaviya	-6000
Yaponiya	-10000
Ukrayna	-500000
Belorus	-7000
Rusiya Federasiyası	-3,000,000
Özbəkistan	-60,000
Qazaxıstan	-100000
Gürcüstan	-600000
Litva	-2000
Moldova	-5000
Latviya	-4000
Qırğızıstan	-16000
Tacikistan	-14000
Türkmənistan	-45000
Estoniya	-3000
Azərbaycan Respublikası	-8000000

20 yanvar

ÜMUMXALQ HÜZN GÜNÜ

1990-cı ilin yanvarında Azərbaycan tələtümlü günlərini yaşayırdı. Separatçı-terrorçu ermənilər getdikcə azğınlaşırdılar. Sovet dövləti isə bunlara göz yumur, Azərbaycan torpaqlarının işğalına, azərbaycanlılara divan tutulmasına aşkar və gizli yolla himayədarlıq edirdi.

Azərbaycan xalqı artıq dərk edirdi ki, SSRİ dövləti ona heç bir kömək göstərməyəcək. Nicat yolu imperiya boyunduruğunu atmaqda və müstəqillik əldə etməkdədir. İmperiya isə azadlıq əldə etmək istəyən xalqa divan tutmağa hazırlaşırdı. Azərbaycanda xalqdan uzaq rəhbərlər Moskvanın göstərişi ilə hərəkət etdiklərindən xalqın etimadını tamamilə itirmişdilər.

Xalq hərəkatını boğmaq, Azərbaycanın müstəqilliyinə doğru gedən yolunu bağlamaq üçün imperiya başçıları müdhiş bir qırğın planı hazırlamışdılar. M.Qorbaçovun başçılıq etdiyi Sovet rəhbərliyi SSRİ-nin dağılmasının qarşısını almaq, azadlığını tələb edən başqa xalqlara da "dərs vermək" üçün SSRİ ərazisində azadlıq hərəkatının ən güclü mərkəzi olan Bakını qan içində boğmaq qərarına gəlmişdi. Odur ki,



Bakı ətrafına ən müasir silahlar və texnika ilə təchiz olunmuş müxtəlif qoşun hissələri gətirilmişdi. 1990-cı il yanvarın 19-da SSRİ Ali Soveti Rəyasət Heyəti yanvarın 20-də saat 00-dan "Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında" fərman verdi. Xalqı qəflətən yaxalamaq, ona divan tutmaq, qırğın törətmək məqsədilə qoşunlardan istifadə etmək niyyəti, aman verilməyəcəyi, fövqəladə vəziyyətin elan olunduğu vaxt gizli saxlanıldı. Fövqəladə vəziyyət, komendant saatı vaxtının əvvəlcədən elan edilməsi Moskvanın qanlı planlarını poza bilərdi.

"Bakı əməliyyatı"na SSRİ Müdafiə naziri D.Yazov şəxsən rəhbərlik edirdi. Bakı qarnizonunun qoşunları, başqa yerlərdən gətirilən hərbi hissələr, hərbi gəmilərdən desant hücuma keçdi. Ağır hərbi texnika cox asanlıqla barrikadaları dağıtdı. Əsgərlər gözyaşardıcı qazdan istifadə edir, eyni zamanda adamları avtomat silahdan güclü atəşə tuturdular. Adamların gizlənməsi üçün bir sıra yerlərdə elektrik stansiyalarının işçiləri küçə fənərlərini söndürmüşdülər. Lakin qaçıb müxtəlif sığınacaqlarda gizlənən adamlar döyüş texnikasındakı projektorların köməyi ilə tapılır, atəşə tutulurdular. Şəhərin küçələri yüzlərlə ölmüş və yaralanmış günahsız adamların – qocaların, qadınların, uşaqların qanına qərq olmuşdu. Hərbçilər təsadüfən yoldan keçənləri, yaralıları öldürür, meyitləri yandırır, təhqir



edir, eybəcər hala salırdılar. Adamları ağır hərbi texnikanın tırtılları altına salır, əzabla öldürürdülər. Onlar tibb müəssisələrini dövrəyə alaraq yaralı mülki şəxslərin buraya gətirilməsinə, habelə tibbi heyətin yaralılara köməyə getməsinə mane olurdular.

Bakıda və Respublikanın digər yaşayış məntəqələrində sovet ordusunun təcavüzü nəticəsində 131 nəfər, o cümlədən 117 azərbaycanlı, 6 rus, 3 yəhudi, 3 tatar öldürülmüş, 744 nəfər yaralanmış, 400 nəfər həbs olunmuş, 4 nəfər itkin düşmüşdü. Şəhər təsərrüfatına və əhalinin mülkiyyətinə külli miqdarda ziyan dəymişdi.

Cəlladlar bizim şəhidlik şərəfimizdən xəbərdar deyildilər. Əliyalın, lakin sinəsində Azərbaycan sevgisi yaşayan yüzlərlə oğul və qızlarımız – 13 yaşlı İlqardan tutmuş, 73 yaşlı Vəfadar kişiyə kimi neçə-neçə soydaşımız şəhid oldu. Həmin gün düşmən gülləsinə tuş olan İlhamla bu ölümü qəbul etməyib özünə qəsd edən Fərizənin dastanı dillərə düşdü.

Xalqın bu ağır günlərində, yanvarın 21-də Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək təşkil olunmuş yığıncaqda çıxış etdi, xalqla birgə olduğunu bildirdi, 20 yanvar faciəsinə siyasi qiymət verdi, onun hüquqa, demokratiyaya, humanizmə zidd əməl, mərkəzin və Respublika rəhbərlərinin günahı üzündən yol verilmiş kobud siyasi səhv olduğunu göstərdi. Bütün dünya Azərbaycan xalqının böyük oğlunun əzəmətli çıxışını heyrətlə dinlədi: "Azərbaycanda baş vermiş hadislərə gəlincə, mən onları hüquqa, demokratiyaya yabançı, humanizmə və ölkəmizdə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm...

...Bunun törətdiyi faciələr hamımıza məlumdur. Belə qərar qəbul etmiş adamların hərəkətini siyasi qəbahət sayıram. Bəli, kobud siyasi səhv buraxılmışdır. Onlar sadəcə olaraq, respublikadakı əsl vəziyyəti qiymətləndirə bilməmiş, Azərbaycan xalqının psixologiyasını anlamamış, əhalinin müxtəlif təbəqələri ilə əlaqələri zəiflətmişlər. Onlar görünür ki, bu işlərin belə ağır faciəyə çevriləcəyini əvvəlcədən düşünməmişlər." Bu tarixi çıxışın mətni dünyaya, respublikaya ge-



niş yayıldı. Təklənən, əli heç nəyə çatmayan xalqın qəlbində ümid çırağı yandı. Xalq doğma oğlunun – dünya siyasətinin Heydər Əliyev kimi nüfuzlu şəxsiyyətinin onunla olduğunu görüb ürəkləndi.

Fövqəladə vəziyyət olmasına baxmayaraq, Bakı yanvarın 22-də azadlıq şəhidləri ilə vidalaşdı. Şəhər matəm libası geyinmişdi. Respublikada üç gün matəm elan olunmuşdu. "Azadlıq" meydanında böyük matəm mitinqi keçirildi. Bu, azadlıq yolunda müqəddəs şəhidlərə ehtiramın, habelə imperiyanın qanlı əməllərinə qarşı etirazın ifadəsi idi. Şəhidlər şəhərin ən uca yerində dəfn edildi. İndi həmin yer Şəhidlər xiyabanı adlanır. 20 yanvar şəhidlərinin və 31 mart soyqırımı qurbanlarının müqəddəs ruhları bir-birinə qovuşdu. Həmin vaxtdan etibarən xalqımız 20 yanvarı Ümumxalq Hüzn Günü kimi böyük ehtiramla qeyd edir.

İmperiya qanlı əməlləri ilə Azərbaycan xalqının azadlıq hərəkatını boğa bilmədi. Bu böyük faciə Azərbaycan xalqını daha sıx birləşdirdi, müstəqilliyə gedən yolu yaxınlaşdırdı.

29 yanvar

GÖMRÜK İŞÇİLƏRİ GÜNÜ

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən az sonra – 1992-ci il yanvarın 29-da müstəqil gömrük sisteminin əsası qoyuldu.

Gömrük dövlət xəzinəsini gəlirlə təmin edən ən mühüm dövlət atributlarından biridir. Gömrük sistemi həm də ölkəyə qeyri-qanuni yolla müxtəlif malların gətirilməsinin, habelə ölkənin ən mühüm strateji sərvətlərinin aparılmasının qarşısını alır.

Azərbaycanda gömrük sisteminin təşkili tarixi çox qədimdir. Tarix boyu mövcud olmuş bütün Azərbaycan dövlətlərində gömrük xidməti ilə məşğul olan xüsusi təsisatlar fəaliyyət göstərmişdir. Lakin gömrük sisteminin elmi-hüquqi əsaslarla təşkili ilk dəfə Azərbaycan Xalq Cümhuriyyəti dövründə olmuşdur. Azərbaycan ərazisini qeyri-qanuni ticarətdən və qaçaqmalçılıqdan qorumaq məqsədilə hökumətin 1918-ci il 12 iyul tarixli qərarı ilə Qazax qəzasının Salahlı və Şıxlı kəndlərində, Poylu dəmiryol stansiyasında ilk gömrük postları yaradılmışdı. Azərbaycan hökuməti gömrük sisteminin fəaliyyətə başlamasını təmin edən sənədi 1918-ci il avqustun 10-da qəbul etmişdi.

Azərbaycan parlamentinin 1918-ci il 18 avqustda qəbul etdiyi Qanuna əsasən, qaçaqmalçılıqla mübarizə, ölkənin ərazisini qeyri-qanuni ticarətdən qorumaq məqsədilə Azərbaycanın sərhədlərində 99 gömrük postu yaradılmışdı və burada 992 gömrük işçisi keşik çəkirdi.

Aprel işğalı digər sahələrdə olduğu kimi, gömrük sistemində də işlərin başa çatdırılmasına imkan vermədi. SSRİ dövründə Azərbaycanda gömrük sistemi mövcud olmamışdır. Bu iş yalnız ittifaq orqanları tərəfindən həyata keçirilirdi.

Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin sərəncamı ilə 29 yanvar Gömrük işçilərinin peşə bayramı günü elan olunmuşdur.

2 fevral

RESPUBLİKA GƏNCLƏRİ GÜNÜ

Son illər Azərbaycan gənclərinin ictimai-siyasi həyatda rolu artmaqdadır. İndi ölkə iqtisadiyyatının, siyasətinin, mənəvi həyatının elə bir sahəsi yoxdur ki, orada gənclər mühüm mövqe tutmamış olsun. Gənclərimiz fəal həyat mövqeyi tutmaqla cəmiyyəti irəliyə doğru aparan hərəkətverici qüvvəyə çevrilmişdir. Bütün bunlar ölkəmizdə həyata keçirilən gənclər siyasətinin düzgün istiqamətləndirilməsi ilə bilavasitə bağlıdır.

Azərbaycanda təşəkkül tapmış yeni tipli məktəb, demokratik mətbuat və yüksək mənəvi mühit gənclərimizin ictimai şüurunun inkişafına çox müsbət təsir göstərir. Hələ XX əsrin 70-ci illərindən formalaşan gənclik, tədricən təkmilləşdi, xüsusilə Azərbaycan müstəqillik qazandıqdan sonra daha fəal və çevik bir qüvvəyə çevrildi. Bununla əlaqədar olaraq Azərbaycan gəncliyinin gələcək taleyinə dövlətimizin qayğısı xeyli artırıldı. Bu yol-



da atılan ilk addım isə 1994-cü il iyulun 26-da Gənclər və İdman Nazirliyinin yaradılması oldu. 1996-cı il fevralın 2-də keçirilən Gənclərin birinci Respublika forumu ölkəmizdə gənclərlə aparılan işin prioritet istiqamətlərinin müəyyənləşdirilməsinə təkan verdi. Azərbaycan gəncliyinin tərəqqisinə böyük diqqət yetirən ümummilli lider Heydər Əliyev 1999-cu il iyulun 29-da "Dövlət gənclər siyasəti haqqında" fərman imzaladı. Həmin fərmanda deyilirdi: "Dünyada, o cümlədən Azərbaycanda baş verən hadisələr dəyişdikcə, gənclər qarşısında duran problemlər və onların həlli yolları dəyişməyə başlamışdır".

Ümummilli lider Heydər Əliyevin sərəncamı ilə 1997-ci ildən etibarən hər il fevralın 2-nin Respublika Gəncləri Günü elan olunması müasir gəncliyimiz üçün stimul rolunu oynadı. Artıq ictimai həyatın bütün sahələrində gənclərə etimad göstərilir, onlar irəli çəkilir və daha fəal mövqe tutmaları üçün şərait yaradılır. İkinci forumun keçirilməsi isə böyük bir dövlət sənədinin – Gənclər haqqında Qanunun qəbul edilməsi ilə nəticələndi. Məhz bu qanun XXI əsrə hesablanmış sənəd oldu.

Ümummilli lider Heydər Əliyev gənclərin dövlət hakimiyyəti və idarəetmə orqanlarında iştirakının vacibliyini həmişə vurğulamış, hakimiyyətdə olduğu illərdə bu məsələni öz nəzarətində saxlamışdır.

Böyük öndərin gənclər siyasəti bu gün uğurla davam etdirilir. Respublika Prezidenti İlham Əliyev Azərbaycan gəncliyinə daha bir töhfə vermişdir. 2007-ci ildə Gənclərin üçüncü Resbublika forumunun keçirilməsi buna parlaq sübutdur. Forumun nəticəsi olaraq Prezidentin 9 fevral 2007-ci il tarixli sərəncamı ilə 2007-ci il "Gənclər ili" elan olunmuşdur. Bunun başlıca məqsədi sərəncamda deyildiyi kimi, gənclərin ölkənin ictimai-siyasi həyatında fəal iştirakı, sosial problemlərin həlli və hüquqlarının müdafiəsinin təmin edilməsi, gənclər siyasətinin bütün istiqamətləri üzrə müvafiq dövlət proqramlarının səmərəli həyata keçirilməsi, gənc istedadlara dövlət qayğısının artırılması, elm, təhsil, iqtisadiyyat, mədəniyyət, dövlət idarəçiliyi və digər sahələrdə gənclərin xidmətlərinin qiymətləndirilməsindən ibarətdir.

11 fevral

VERGİ XİDMƏTİ İŞÇİLƏRİ GÜNÜ



"Vergi" anlayışı dövlətin yaranması ilə bir vaxta düşür. Azərbaycanın qədim dövlətçilik ənənələrinə malik olduğunu nəzərə alsaq, ölkəmizdə də verginin 5 minillik tarixə malik olduğu fikrinə gələ bilərik. Dövlətin iqtisadi inkişafında, dövlət xəzinəsinin formalaşmasında çoxlu sayda məcburi ödəmələr – vergilər mühüm rol oynayırdı. Əvəllər natura şəklində ödənilən vergilər sonradan pulla da ödənilməyə başlanmışdır. Pulun, qiymətli daşların və metalların ödəniş vasitəsi olması daxili bazarın, əmtəə-pul münasibətlərinin inkişafına, təsərrüfatın natural qapalılığının aradan qaldırılmasına müsbət təsir göstərmişdir. Vergilər növlərinə görə də müxtəlif idi: torpaq vergisi, otlaq vergisi, məhsul vergisi, sudan istifadə üçün vergi və s. Bir çox Azərbaycan hökmdarları əhalinin vəziyyətini yaxşılaşdırmaq, dövlət xəzinəsinə daxil olan gəlirləri artırmaq üçün vergi islahatları da keçirmişdilər. Azərbaycanın şimal torpaqları Rusiya imperiyasının tərkibinə qatıldıqdan sonra burada həmin dövlətin vergi sistemi tətbiq olundu. Azərbaycanın Xalq Cümhuriyyəti dövründə dövlət büdcəsi müstəqil vergilər, dolayı vergilər, hökumət inhisarına aid vergilər və möhür haqqı hesabına formalaşırdı.

Sovet hakimiyyəti dövrünün əvvəllərində Azərbaycanda da ərzaq vergisi tətbiq olunurdu. 1930-cu ildən başlayaraq SSRİ-də vergilərin əhəmiyyəti getdikcə azalmağa başladı. Dövlətin gəliri

vergilər hesabına deyil, ümummilli məhsulun birbaşa məcburi alınması hesabına formalaşdırılırdı.

Azərbaycan Respublikasının vergi sistemi müstəqil inkişaf yoluna bazar münasibətlərinə keçid dövründən sonra – 1991-ci ildən təşəkkül tapmışdır. Keçən illər ərzində vergi qanunvericiliyində əsaslı dəyişikliklər aparılmış, Respublikanın vergi sisteminin inkişaf etmiş ölkələrin vergi sistemlərinin səviyyəsinə çatdırılması sahəsində ciddi işlər görülmüşdür. Azərbaycan Respublikasının Prezidenti, ümummilli lider Heydər Əliyevin 11 fevral 2000-ci il tarixli Fərmanı ilə Baş Dövlət Vergi Müfəttişliyi ləğv edilmiş, onun bazasında ölkədə vergi siyasətinin həyata keçirilməsini, dövlət büdcəsinə vergilərin və digər daxilolmaların vaxtında və tam yığılmasını təmin edən və bu sahədə dövlət nəzarətini həyata keçirən mərkəzi icra hakimiyyət orqanı – Vergilər Nazirliyi yaradılmışdır. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 1 fevral 2005-ci il tarixi sərəncamı ilə fevralın 11-i Vergi Xidməti İşçilərinin peşə bayramı günü kimi təsis edilmişdir.

Müasir mərhələdə vergilərə olan münasibət kökündən dəyişmişdir. Artıq, vergilərin ödənilməsinin məcburi deyil, könüllü şəkildə yerinə yetirilməsi geniş yayılmaqdadır. Bu baxımdan məşhur iqtisadçılar və siyasi xadimlər qeyd edirlər ki, hər bir vətəndaş vergi ödəməkdən şərəf duymalıdır. Sözügedən tendensiya Azərbaycanda da müşahidə edilməkdədir. Təsadüfi deyil ki, vergilərin ödənilməsinin zəruriliyi və əhəmiyyəti Azərbaycan Respublikasının Konstitusiyasında da öz əksini tapmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 73-cü maddəsinə əsasən, qanunla müəyyən olunmuş vergiləri və başqa dövlət ödənişlərini tam həcmdə və vaxtında ödəmək hər bir kəsin borcudur. Heç kəs qanunla nəzərdə tutulmuş əsaslar olmadan və qanunla göstərilmiş həcmdən əlavə vergiləri və başqa dövlət ödənişlərini ödəməyə məcbur edilə bilməz.

Odur ki, vergilərin ödənilməsi Azərbaycan vətəndaşının konstitusiya öhdəliyidir və bu öhdəliyin düzgün yerinə yetirilməsi hər bir şəxsin ali vəzifəsi sayılmalıdır.

22 fevral

AVTOMOBİL YOL İŞÇİLƏRİ GÜNÜ

Prezident İlham Əliyevin 20 fevral 2008-ci il tarixli sərəncamı bir neçə ildir ki, fevral ayının 22-si Azərbaycan Respublikası avtomobil yol işçilərinin peşə bayramı günü kimi qeyd olunur.

Qısa arayış. Insanların həyatında mühüm rol oynayan avtomobil – "atsız araba" bu günkü inkişafına görə onu ixtira etmiş Karl Bens və Qotlib Daymlerə minnətdar olmalıdır. Lakin bu ixtiradan təqribən 100 il əvvəl, 1770-ci ildə fransız mühəndisi və ixtiraçısı N.J.Künyo arabaya at əvəzinə buxar maşını qoşdu və yeni ixtirasını "avtomobil" adlandırdı. Onun qabağına bağlanmış mis qazandakı buxar qurtardıqda araba dayanırdı. Sürücü arabadan düşüb ocağı yandırır, qazandakı su qaynayıb buxar əmələ gətirirdi. Ona görə də sürücünü fransızca "şofer" adlandırmışlar. Tərcümədə bu söz "ocaqçı" mənasını daşıyır.

1899-cu ildə avtomobil həvəskarı Emil Yelinsk "Daymler" maşınında ilk avtomobil yarışında qalib gəldi. Bundan sonra o, "Daymler" zavoduna 36 ədəd avtomobil sifariş etdi. Razılaşmaya əsasən zavodun buraxdığı avtomobillərə "Mersedes" adı verildi. Mersedes Emil Yelinskinin 10 yaşlı qızının adı idi.

Avtomobilin ixtirası, insanların həyat və məişətinə çox geniş





nüfuz etməsi avtomobil yollarına olan tələbatı da artırmış oldu. Ölkəmizdə bu yolların çəkilişinə əsasən XX əsrin əvvələrindən başlanmışdır. Ilk yollar əsasən torpaq və çınqıl örtükdən ibarət idi. 1937-ci ildə Yolmaşın stansiyalarının yaradılması şose yolların salınması işini sürətləndirdi.

XX əsrin 50 – 60-cı illərində bərkörtüklü yolların çəkilməsində qudrondan və asfalt-betondan istifadə edilməsi bu sahədə əsaslı dönüş yaratdı. 2005-ci ildə ölkəmizdə avtomobil yollarının uzunluğu 18,9 min km-ə çatdırıldı ki, bunun əsas hissəsini bərkörtüklü yollar təşkil edirdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkədaxili və ölkələrarası avtomobil yollarının bərpa və yeniləşdirilməsinə xüsusi qayğı və diqqət göstərir. Bu qayğı iqtisadiyyatın bütün sahələrində olduğu kimi, nəqliyyat-yol kompleksinin dinamik inkişafı üçün də böyük imkanlar yaratmışdır. Bu barədə İlham Əliyev belə demişdir: "Neft sektorundan sonra nəqliyyat ölkə üçün ən mühüm sahədir və burada inkişaf perspektivləri çox gözəldir. Biz bütün imkanlardan istifadə edərək nəqliyyat sektorunu daha sürətlə inkişaf etdirəcəyik". Hazırda Bakı-Ələt-Qazıməmməd-Kürdəmir-Yevlax-Gəncə-Qazax-Qırmızı körpü-Gürcüstan dövlət sərhədi, Bakı-Quba-Rusiya dövlət sərhədi və Bakı-Ələt-Astara-İran dövlət sərhədi avtomobil yolları beynəlxalq standartlar əsasında bərpa olunur və yeniləşir.

Respublikamızda bütün şəhərləri, rayon mərkəzlərini, şəhərtipli qəsəbələri, hava və dəniz limanını, dəmiryol stansiyalarını, istirahət zonalarını, həmçinin dövlət sərhədinin keçid məntəqələrini əlaqələndirən avtomobil yolları şəbəkəsi formalaşmışdır.

5 mart

BƏDƏN TƏRBİYƏSİ VƏ İDMAN GÜNÜ



Sağlamlığın qorunması və möhkəmlənməsində, gənclərin fiziki inkişafında, ölkənin idman şərəfinin beynəlxalq aləmdə daha da uca tutulmasında bədən tərbiyəsinin əhəmiyyəti və rolunu nəzərə alan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2005-ci il 4 mart tarixli sərəncamı ilə hər il martın 5-i Azərbaycan Respublikasında Bədən təbriyəsi və İdman Günü kimi qeyd olunur. 5 mart Azərbaycan idmanı üçün xüsusilə əlamətdar bir gündür. 1995-ci il martın 5-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin imzaladığı fərmana əsasən əhali arasında sağlam həyat tərzinin təbliği, bədən tərbiyəsinin maddi-texniki bazasının möhkəmləndirilməsi, bu sahəyə ümumxalq yardımının təşkil olunması məqsədilə gənclərin idmana marağını artırmaq və Azərbaycan idmanının beynəlxalq miqyasa çıxmasına real zəmin yaratmaq üçün Azərbaycan Prezidenti yanında İdman Fondu yaradılmışdır.

İlham Əliyevin 1997-ci ildə Milli Olimpiya Komitəsinin rəhbəri seçilməsi Azərbaycanda bədən tərbiyəsi və idmanın sürətlə inkişafına yeni təkan vermişdir.

2008-ci ildə ölkəmizin idman həyatı üçün ən önəmli hadisə isə, şübhəsiz ki, böyük uğurlar ilə yadda qalmış Pekin olimpiadası olmuşdur. Müstəqil ölkəmizin tarixində 4-cü dəfə Azərbaycan idmançıları dünyada ən ali idman tədbiri olan Olimpiya Oyunlarında 11 idman növündə 44 nəfər idmançı ilə iştirak etmişlər. Azərbaycan yığma komandasının hər bir üzvü XXIX Yay Olimpiya Oyunlarıda ölkəmizi ləyaqətlə təmsil etmiş, vətənimizin tanınması, təbliğ olunması, Azərbaycanın beynəlxalq nüfuzunun yüksəldilməsi və ən başlıcası, olimpiya medallarının qazanılması uğrunda əzmlə mübarizə aparmışdır. Belə ki, Azərbaycan Milli Olimpiya Komitəsi 1 qızıl, 2 gümüş, 4 bürünc medal qazanaraq 204 iştirakçı dövlət arasında 27-ci yeri, keyfiyyətinə görə isə



39-cu yeri tuta bilmişdir. Avropa ölkələri arasında Azərbaycan kəmiyyətinə görə 15-ci, keyfiyyətə görə isə 20-ci yeri tutmuşdur. Müqayisə üçün onu da deyək ki, idmançılarımız 1996-cı ildə Atlantada 1, 2000-ci ildə Sidneydə 3, 2004-cü ildə Afinada 5 medal qazanmışdılar. Pekin Olimpiya oyunları tarixə çevrilsə də, Elnur Məmmədlinin möhtəşəm qələbəsi hələ bir neçə illər bundan sonra da xatirələrdən silinməyəcəkdir.

Digər fərəhli hadisələrdən biri də XIII Pekin Yay Paraolimpiya Oyunları olmuşdur. Azərbaycan dünyanın 147 ölkəsinin cərgəsinə qatılmış və oyunlarda respublikamız 18 idmançı ilə təmsil olunmuşdur. 2008-ci ildə XIII Pekin Yay Paraolimpiya Oyunlarında idmançılarımız misli görünməmiş qələbələr qazanmışdılar. Belə ki, Azərbaycan idmançıları uğurlu çıxış edərək 2 qızıl, 3 gümüş və 5 bürünc medal qazanaraq 148 iştirakçı dövlət arasında medalların sayına görə 32-ci, keyfiyyətinə görə isə 38-ci yeri tuta bilmişdir.

Milyonlarla insan Olimpiya oyunlarında Azərbaycan himninin səslənməsini, bayrağının ucalmasını, qələbələrini izləyib. Bu bizim üçün olduqca böyük şərəfdir. Ümummilli liderimiz Heydər Əliyevin bu barədə bir fikri var: "Ümumiyyətlə, idman, bədən tərbiyəsi xalqın sağlamlığı ilə bağlı olan mühüm bir sosial sahədir. Belə ki, Azərbaycan bayrağı dünyada, demək olar ki, iki dəfə qaldırılır. Bu, bir Azərbaycan dövlət başçısı hər hansı bir ölkəyə gələrkən və bir də idmançılarımız beynəlxalq yarışlarda çempion adını qazanarkən olur. Azərbaycan himni səslənir, dövlət bayrağı qaldırılır".

Ölkəmizdə, idmanın inkişafına ən yaxşı şərait yaratmaq məqsədilə paytaxt Bakı ilə yanaşı Gəncə, Naxçıvan, Lənkəran, Şəki şəhərlərində, Quba, Qazax, Masallı, Salyan, Oğuz, Şamaxı, Kürdəmir, Sabirabad, Qusar, Biləsuvar, Ağdam rayonlarında müasir tələblərə cavab verən Olimpiya idman kompleksləri fəaliyyət göstərir. İndi onların sayı 19-a çatmışdır.

10 mart

MİLLİ TEATR GÜNÜ

XIX əsrin 70-ci illərində Azərbaycanda milli teatrın yaranması mədəniyyətimizin tarixində çox böyük hadisə oldu. 1873-cü il martın 10-da Bakı realnı məktəbinin teatr həvəskarları truppası tərəfindən M.F.Axundovun "Sərgüzəşti-vəziri-xani Lənkəran" komediyası tamaşaya qoyuldu. Bu şərəfli işdə H.Zərdabi və N.Vəzirov mühüm rol oynamışdılar. Bu tamaşa ilə Azərbaycanda milli teatrın əsası qoyuldu.

Azərbaycanda teatr sənəti qədim ənənələrə malikdir. Xalq arasında müxtəlif meydan tamaşaları, kukla teatr tamaşaları ("Maral oyunu", "Kilimarası"), bayram tamaşaları ("Kos-Kosa"), dini səciyyəli tamaşalar ("Şəbih") və s. geniş yayılmışdı. Hələ XVII əsrin ikinci yarısında Azərbaycanda olmuş fransız səyyahı Jan Şarden, Çuxursəd bəylərbəyisinin İrəvan şəhərindəki iqamətgahında qonaq olarkən burada ona üç hissəli bir tamaşa göstərmişdilər. Bu tamaşa Şardenə o qədər xoş təsir bağışlamışdı ki, onu "Şərqin operası" adlandırmışdı.

Milli teatrın inkişafında məşhur xeyriyyəçi-mesenat H.Z.Tağıyevin böyük xidməti olmuşdur. O, Bakı şəhərində ilk teatr binası inşa etdirmişdi. Tezliklə Azərbaycan səhnəsinin Cahangir bəy Zeynalov, Hüseynqulu Sarabski, Mirzağa Əliyev, Hüseyn Ərəblinski, Ülvi Rəcəb, Abbas Mirzə Şərifzadə, Sidqi Ruhulla, Mustafa Mərdanov, Məmmədrza Şeyxzamanov, Ağasadıq Gəraybəyli, Əliağa Ağayev, Lütfəli Abdullayev, Nəsibə xanım Zeynalova, Mərziyə xanım Davudova, İsmayıl Dağıstanlı, Ələsgər Ələkbərov, Hökümə Qurbanova



kimi yüzlərlə simaları yetişdi. Azərbaycanda teatr sənətinin inkişafında Uzeyir bəy və Ceyhun bəy Hacıbəyli qardaşlarının da böyük əməyi olmuşdur.

AXC-nın yaranması milli teatrın fəaliyyətində də canlanmaya səbəb oldu. Dövlətin fəal köməyi və yardımı ilə Azərbaycan teatrının inkişafında mühüm keyfiyyət dəyişiklikləri baş verdi. Teatrın repertuarına Azərbaycan tarixi və milli-azadlıq mübarizəsi ilə bağlı yeni əsərlər gəldi. Cümhuriyyət hökumətinin bu sahədə məqsədyönlü addımlarından biri də Azərbaycan Dövlət Teatrının təşkili oldu. Bu, Azərbaycan professional teatrının dövlət teatrı statusu alması demək idi. Teatrın pərdələri ilk dəfə 1918-ci il noyabrın 4-də N.Nərimanovun "Nadir şah" faciəsinin tamaşası ilə açılmışdı.

Sovet hakimiyyəti illərində Azərbaycanda teatr sənəti daha da inkişaf etdi. Sovet ideologiyasını və rejimini tərənnüm edən əsərlərlə yanaşı, xalqın həyatı, güzəranı, tarixi keçmişi ilə bağlı əsərlər də repertuarlarda geniş yer almışdı.

Şəxsiyyətə pərəstiş dövrünün təqibləri Azərbaycan teatrına da ağır zərbə vurdu. H.Cavid, A.M.Şərifzadə, Ü.Rəcəb kimi sənətkarlar məhv edildi. Repertuarda yeknəsəqlik yarandı. Bununla belə, Azərbaycan teatrı realist və romantik ənənələrini davam etdirdi və sonrakı illərdə də bir sıra uğurlu tamaşalar hazırlandı.

Müstəqillik dövründə teatrın inkişafında yeni bir mərhələ başlandı. 1989–2006-cı illərdə ölkədə 10 yeni teatr yaradıldı və qısa müəddətdə yaradıcılıq uğurları nəzərə alınaraq onlara dövlət teatrı statusu verildi. Sümqayıt Dövlət Teatrının profili dəyişdirilərək ona Dövlət Musiqili Dram Teatrı statusu verildi.

Məhz martın 10-unu (köhnə stillə 22-si) – Azərbaycan milli teatrının əsasının qoyulduğu günü teatrsevərlər Milli Teatr Günü kimi qeyd edirlər.

12 mart

DAXİLİ QOŞUNLAR GÜNÜ

Azərbaycan öz dövlət müstəqilliyini elan etdikdən sonra ölkəmizdə Daxili Qoşunların hərbi hissələrinin yaradılması zərurəti meydana çıxdı. Bir tərəfdən Ermənistan ordusunun Qarabağa və sərhəd bölgələrimizə təcavüzünün getdikcə geniş miqyas alması, digər tərəfdən ölkə daxilində Azərbaycanın müstəqilliyinə qənim kəsilmiş qüvvələrin fəallaşması bunu tələb edirdi. Ona görə də 1991-ci il mart ayının 12-də Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi hissələrinin yaradılmasına başlandı.

Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə bu hərbi hissələr yüksək döyüş qabiliyyəti nümayiş etdirdilər və möhkəmləndilər. Daxili Qoşunların sıralarından yüzlərlə vətən oğlu şəhid oldu. Onlardan 9 nəfərinə (8-inə ölümündən sonra) ölkə-



mizin ən yüksək adı olan "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmişdir. Daxili Qoşunların 1738 nəfər döyüşçüsü göstərdikləri döyüş şücaətlərinə görə Azərbaycan Respublikasının orden və medalları ilə təltif olunmuşlar.

...Mikayıl Vətən torpaqlarının müdafiəsinə yollananda 18 yaşı təzəcə tamam olmuşdu. O, Daxili Qoşunların hərbi hissələrindən birində xidmət edirdi. Onun gənc qəlbi erməni işğalçılarını məhv etmək arzusu ilə yanırdı. Mikayıl hələ uşaq yaşlarından onların vəhşiliklərinin şahidi olmuşdu. 1992-ci ilin dekabrında Ağdam-Ağdərə cəbhəsində gedən şiddətli döyüşlərdə həmişə ön cərgədə döyüşərək Güneytəpə, Çıldıran, Qalayçılar və başqa yaşayış məntəqələrində onlarla erməni quldurunu məhv etmişdi. Doğma Vətən uğrunda vuruşduğunu yaxşı dərk edən Mikayılın idarə etdiyi zirehli transportyor düşmənə aman vermirdi. Canyataq əməliyyatında şəxsi igidlik göstərən Mikayıl yaralanmış yoldaşlarını atəş xəttindən çıxardı. Lakin özü düşmən güllələsinə tuş gəldi. İndi Daşkəsən rayonunun mərkəzində Şəhidlər xiyabanında şəhid, Daxili Qoşunların döyüşçüsü Mikayıl Mustafayev əbədi uyuyur. O, tarixin yaddaşına həmişəlik həkk olunmuşdur.

Sonrakı dövrlərdə Azərbaycanın müstəqilliyinə qarşı yönəlmiş qəsdlərin qarşısının alınmasında Daxili Qoşunların böyük rolu olmuşdur. Daxili Qoşunlar şəxsiyyətin, cəmiyyətin və dövlətin mənafeyini, vətəndaşların konstitusiya hüquqlarını və azadlıqlarını cinayətkar qəsdlərdən qoruyan, mühüm dövlət obyektlərinin, kommunikasiya qurğularının mühafizəsini həyata keçirən, kütləvi ixtişaşların qarşısının alınmasında fəal iştirak edən Daxili İşlər Nazirliyinin vahid sisteminin mühüm struktur hissələrindən biridir. Bütün bunları nəzərə alaraq Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1995-ci il 9 mart tarixli sərəncamı ilə martın 12-sini Daxili Qoşunlar Günü elan etmişdir.

BEYNƏLXALQ BAYRAMLAR VƏ TARİXİ GÜNLƏR

1-2 yanvar

YENİ İL BAYRAMI



Dünya xalqlarının böyük əksəriyyəti yeni ilin başlanğıcını dekabrın 31-dən yanvarın 1-nə keçən gecə qeyd edirlər. Yeni il Yer kürəsinin bütün guşələrində dini etiqadlarından asılı olmayaraq müxtəlif xalqlar tərəfindən geniş qeyd olunan ən məşhur bayramlardandır. Yeni ili bayram etməklə insanlar belə hesab edirlər ki, bütün uğursuzluq və kədərli anlar köhnə ildə qalır, yeni il yeni arzular və ümidlər gətirir.

Yeni ilin yanvarın 1-dən hesab olunması xristianlığın tarixi ilə bağlıdır. Rəvayətə görə, xristian dininin yaradıcısı İsa peyğəmbər dekabrın 24-də anadan olmuşdur. Ona görə də xristianlar bu günü İsa peyğəmbərin doğulması şərəfinə Milad bayramı kimi qeyd edirlər. Milad bayramının ilkin mənbəyi hər il qış günəş duruşu zamanı (21–25 dekabr) "xilaskar allahın doğulması"ilə əlaqədar keçirilən qədim bütpərəst mərasimi olmuşdur. Milad bayramını ilk dəfə Roma xristian icmaları keçirmişdir. Bu bayram 431-ci ildə qanuniləşdirilmişdir. Bizim istifadə etdiyimiz təqvim də məhz miladi təqvim adlanır. Bu təqvimə əsasən yeni il yanvarın 1-dən başlanır.

Yeni ilin rəmzlərindən biri də Şaxta babadır. Onun haqqında çoxlu rəvayət və əfsanələr yaranmışdır. Şaxta babanı müxtəlif ölkələrdə müxtəlif cür adlandırırlar. Məsələn, ABŞ-da və Avstraliyada o, Santa Klaus, Rusiyada – Ded Moroz, Türkiyədə – Noyel baba, Avstriyada – Silvestr, Britaniyada – Miladi baba, Yunanıstanda Müqəddəs Vasili adlanır.

Bütün hallarda Şaxta baba uşaqların sevimlisidir. Yeni il gecəsində onlar evlərə heç vaxt əliboş gəlmirlər. Torbalarındakı

müxtəlif hədiyyələrlə uşaqları sevindirirlər.

Dekabrın 31-i gecəsi insanlar bayram süfrəsi ətrafında toplaşırlar. Artıq həmişəlik vidalaşdıqları ilin son anlarında musiqini dayandıraraq sükut içərisində saat 12^{00}-u gözləyirlər. İlin başa çatdığını göstərən saat zənginin təntənəli səsləri altında sağlıqlar söyləyir, sonra isə şampan şərabı ilə dolu qədəhləri toqquşdurur, yeni ildə bir-birinə xoş günlər və sağlamlıq arzulayırlar.

Böyük Britaniyada ənənəyə uyğun olaraq əllərini yuxarı qaldırır və "Mərhəmətli köhnə il" mahnısını oxuyurlar. Bayram günü evlərdə ideal təmizlik və qayda-qanun hökm sürməlidir. Gecə düşərkən ailənin başçısı illərin yerdəyişməsi üçün evin bütün qapılarını geniş açır. Daha sonra qapılar bağlanır və evə girəcək qonaq həyəcan və səbirsizliklə gözlənilir. İnanca görə ilin necə keçəcəyi içəri girən adamın kimliyindən çox asılıdır. Qadınlar, sarışınlar və əsmər bənizlilər o qədər də arzu olunan deyillər. Ən uğurlu qonaq kürən kişi hesab olunur. Dəhşətli hadisəyə – çatmaqaş adamın içəri girməsinə qarşı isə ehtiyat tədbirləri görülür. Ocağa duz atılır, qapıdan xaç asılır. Gələn qonaq özü ilə viski, şirin çörək və kömür gətirməlidir. Kömür ocağa atılır ki, yeni ildə ailə ocağı daha gur yansın.

ABŞ-da da ilin son gecəsində şənlənir, ayağa duraraq sağlıqlar söyləyirlər.

İtaliyada köhnə ili yola salarkən pəncərələri açır, evdəki köhnə əşyaları çölə atırlar. Bunun mənası isə köhnədən xilas olmaq, onu yenisi ilə əvəz etməkdən ibarətdir. Bu ölkədə yeni ili bərkdən qışqıraraq qarşılamaq adəti var. Bununla onlar köhnə illə vidalaşırlar.

Çində yeni il yanvarın ortalarında və fevralda qeyd olunur. Bu, Çin bayramlarından ən əlamətdarıdır. Yeni ilə bir həftə qalmış bütün evlər səliqə ilə yığışdırılır. Guya bununla ailə ocağının ilahı Tszao-van digər ilahlara mənzilin qaydada olması haqqında məlumat verir. Sonra isə onun təsvirini yandırırlar. Onun yerinə Tszao-vanın yeni təsvirini qoyurlar. Bu hadisəni atəşfəşanlıq keçirmək və ətirli maddələr yandırmaqla qeyd edirlər.

Yaponiyada yeni il O-seqaytsu adlanır və yanvarın 1-dən başlayaraq üç gün davam edir. Ailə ibadətgahının önünə çiçək dəstələri və hikmətli sözlər yazılmış lövhəciklər qoyurlar. Bayram ərəfəsində evləri yeni il atributları ilə bəzəyirlər: şam budaqlarından hörülmüş çələng, xüsusi formalı yeməli moti və danqo, quru xurma, xərçəng və s. Yeni ili qarşılayarkən paqodalarda (buddist məbədlərində) 108 dəfə zəng çalınır. Yaponların inamına görə insanın çəkdiyi 108 əziyyət son zəng ilə keçmişdə qalır. Bundan sonra yaponlar dağa və ya dəniz sahillərinə gedərək təzə doğan günəşi alqışlamaq ayinini icra edirlər.

Heç də bütün ölkələrdə yeni il yanvar ayında qeyd olunmur. Hindistanda yeni il bayramı elm və bilik ilahı Sarasvatinin şərəfinə Sarasvatipudca bayramı keçirilməsi ilə qeyd olunur. Bayram günlərində küçələrdə ilahın təsvirləri gəzdirilir, uşaqlar bu təsvirləri gül-çiçək dəstələri ilə bəzəyirlər. Onlar belə hesab edirlər ki, ilaha ibadət etməklə dərslərini yaxşı oxumaqda onun köməyini qazanacaqlar.

Yəhudilərin bayramı Tu Be-Svat – yeni il yanvarda və ya fevralda qeyd olunur. İsti və quru iqlimi olan ölkələrdə, xüsusilə İsraildə ağac insanları və bitkiləri yandırıcı günəş şüalarından qoruyur. Buna görə də bu ölkələrdə ağaca böyük ehtiram vardır. Bütün dünyada yəhudi uşaqları Tu Be-Svat günü anadan olan uşaqların şərəfinə ağac əkirlər. Əgər yeni doğulan uşaq oğlan olarsa sidr ağacı, qız olarsa sərv ağacı əkirlər. Ağac əkilərkən uşaqlar xüsusi ayin də icra edirlər.

Rusiyada isə yeni il əvvəllər martın 1-də qeyd olunurdu. XIV əsrdə Moskva kilsə şurasının qərarına əsasən bu bayram sentyabrın 1-nə keçirildi. Rus çarı I Pyotr 1699-cu ildə Avropa səyahətindən qayıtdıqdan sonra yeni ilin yanvarın 1-dən qeyd olunması barədə fərman vermişdi.

2 fevral ÜMUMDÜNYA SU–BATAQLIQ ƏRAZİLƏRİ GÜNÜ

1971-ci il fevralın 2-də İranın Ramsar şəhərində keşirilmiş beynəlxalq əhəməyyətli tədbirdə əsasən su quşlarının məskəni olan su-bataqlıq sahələri haqqında Konvensiya imzalanmışdır. Bu sənəd tarixə Ramsar Konvensiyası adı ilə daxil olmuşdur. 1956-cı ildə Konvensiyanın daimi komitəsi Ramsar Konvensiyasının imzalandığı 2 fevral tarixini Su-batqlıq əraziləri günü kimi qeyd etməyi qərara almışdır.

Bu günün qeyd olunmasında məqsəd su-bataqlıq sahələrinin insan üçün əhəmiyyətini və ondan şüurlu, məqsədyönlü istifadənin zəruriliyini ictimaiyyətin diqqətinə çatdırmaqdır. Çünki su-bataqlıq sahələri biomüxtəlifliyin tərkib hissəsidir. Ona görə də onları yaxşı qorumaq lazımdır.

Azərbaycanda ümumi sahəsi 200 min hektardan artıq olan su-bataqlıq əraziləri mövcuddur. Sahəsi 1000 hektardan böyük olan bu sahələrin sayı təqribən 17-yə yaxındır. Qızılağac Dövlət Təbiət Qoruğu, Ağgöl və Şirvan Milli parkları, Mahmudçala, Hacıqabul gölü, Kür çayının deltası, Sarısu, Dəvəçi limanı və Xəzər sahili boyu belə ərazilərə aiddir. Hər il bu ərazilərə qışlama və köç mövsümündə 100 minlərlə müxtəlif quş növləri toplanır. Azərbaycan Ramsar Konvensiyasına 2001-ci il iyulun 18-də Milli Məclis tərəfindən ratifikasiya edilməklə qoşulub. 2003-cü il iyulun 5-də isə Azərbaycan Prezidentinin sərəncamı ilə Ağgöl Dövlət Təbiət Qoruğunun sahəsi 17924 hektara qədər genişləndirilib və ona Milli Park statusu verilib. Eyni zamanda Ağgöl, böyük və kiçik Qızılağac körfəzləri mühüm su-bataqlıq ərazisi kimi 2001-ci il 25 may tarixindən Ramsar Konvensiyasının Ramsar siyahısına daxil edilib. Hazırda Sarısu gölünün bu siyahıya salınması istiqamətində sistemli iş aparılır. Gələcəkdə su-bataqlıq quşlarının məskunlaşma ərazisi kimi əhəmiyyəti olan digər böyük su-bataqlıq ərazilərinin də bu siyahıya daxil edilməsi nəzərdə tutulur. Eyni zamanda Qızılağac Dövlət Təbiət Qoruğunun ərazisinin genişləndirilməsi və Dəniz kənarı Milli parkın yaradılması istiqamətində tədbirlər həyata keçirilir.

14 fevral

SEVGİLİLƏR GÜNÜ

Müqəddəs Valentinin adı ilə bağlı bir çox əfsanələr mövcuddur. Belə əfsanələrin birində deyilir ki, o, Roma şəhəri yaxınlığında yerləşən Terni kilsəsinin ruhanisi olmuşdur. İmperator II Konstantinin zamanında, xristianlığın kütləvi təqibi dövründə bu insanın faciəvi həyatı başlamışdı. Bu zaman Roma legionerlərinə evlənmək qadağan olunduğu üçün keşiş Valentin "gizli olaraq" sevənlərə nikah kəsirdi. Buna görə də onu həbsə məhkum etmişdilər. Bir əfsanədə deyilir ki, o, məhbuslardan birinin qızını sevmişdi. Edam ərəfəsində gənc keşiş sevgilisinə məktub yazır və ona "Sənin Valentinin" imzasını qoyur. Məhəbbət simvolu olan "Valentin" adı da məhz buradan götürülmüşdür.

İşgəncə ilə öldürülmüş Valentin müqəddəslər sırasına daxil edilmişdir. Onun cəsədinin qalıqları günümüzədək gəlib çatmış və hazırda Şotlandiyanın Qlazqo şəhərində müqəddəs Con Dansin Katolik kilsəsində xüsusi qutuda saxlanmaqdadır. Hər il fevralın 14-də müxtəlif yaşlı insanlar buraya gələrək dizi üstə çökür və Müqəddəs Valentindən məhəbbət diləyirlər.

Avropada 14 fevral – Müqəddəs Valentin Günü çox yüksək səviyyədə qeyd edilir. Mağazalar açıqcalar, suvenirlər, ətirlər, konfetlər, al rəngli çiçək formalı qiymətli zinət əşyaları ilə dolu olur. Əlbəttə ki, qırmızı rəngli qızılgüllər məhəbbət rəmzi kimi hədiyyə edilir. İnsanların simalarında da səmimiyyət, sevinc və məhəbbət hökm sürür.

Valentin Günü ərəfəsində xüsusi hazırlıq görülür. Hər yerdə insanların ünsiyyətində nəzakətli təbəssüm, şirin sözlər, səmimi münasibətlər hiss olunur. Bütün bəşər boyu məhəbbət haqqında çoxlu sözlər deyilsə də, yetərli deyildir, çünki onun haqqında sonsuz sayda danışmaq mümkündür. Məhəbbət insanlar arasında münasibətlərin təməli olub kiməsə səadət və ya kədər, kiməsə fərəh və ya pərişanlıq gətirə bilər, bir sözlə heç kimi özünə biganə qoymaz. Sevgi bütün hallarda gözəldir.

21 fevral

BEYNƏLXALQ ANA DİLİ GÜNÜ

1999-cu ilin noyabrında YUNESKO Banqladeş səfirinin təşəbbüsü ilə fevralın 21-ni Beynəlxalq Ana Dili günü elan etmişdir. Hadisənin tarixi isə bir qədər əvvələ gedir. 21–22 fevral 1952-ci ildə Pakistanda Benqal dilinin qadağan edilməsinə etiraz olaraq keçirilən aksiyada polis və silahlı qüvvələrin müdaxiləsi nəticəsində 3 nəfər həlak olmuşdu. Banqladeş nümayəndələri YUNESKO-ya fevralın 21-nin məhz həlak olanların xatirəsinə ehtiram əlaməti kimi Ana dili günü adlandırılması xahişi ilə müraciət etmişlər. YUNESKO 1999-cu ilin noyabrında keçirilmiş iclasında fevralın 21-ni Beynəlxalq Ana Dili Günü elan etmişdir.

Dil hər bir millətin maddi və mənəvi irsini qoruyan və inkişaf etdirən ən mühüm, ən güclü vasitədir. Dildə dərin fəlsəfi zəka, şairanə hisslər, gözəl, heyrətamiz həqiqi zövq, təbiətin ən incə dəyişikliklərinə qeyri-adi həssaslıq, müşahidəçilik, ən ciddi məntiq ifadə olunmuşdur. Dil insanlar arasında ünsiyyətin qüdrətli vasitəsidir.

Ən sadə dildə desək dil millətin simasını səciyyələndirən amillərdən biri, bəlkə də birincisidir. İnsanın doğulması ilə ona verilmiş bu nemətin hər hansı bir bəhanə ilə qadağan olunması isə cinayətdir. Beynəlxalq Ana dili Günü bütün bəşəriyyəti bu cinayətə qarşı birləşməyə səsləyir. Millətin dilinin dövlət statusuna yüksəlməsi isə tarixi hadisə, milli dövlətçilik tarixinin qızıl səhifəsidir. Bu məqam millətin millət olaraq təsdiqidir. Çünki dilin dövlət statusuna yüksəlməsi xalqın öz taleyinə sahibliyinin, dövlət qurmaq və qorumaq qüdrətinin, eyni zamanda dilinin zənginliyinin sübutudur.

Böyük şairimiz Səməd Vurğun dili xalqın namusu, tarixi, vicdanı, böyük bir sərvəti və dövləti kimi qiymətləndirmişdir.

Hər bir insan öz ana dilini yaxşı bilməli və onu qorumalıdır. Ana dili insanın mənəvi aləminin zənginləşməsində, dünyagörüşünün genişlənməsində, mükəmməl təhsil almasında, öz soydaşları ilə ünsiyyət qurmasında mühüm rol oynayır.

Ana dili millətin özünəməxsusluğunu qorumaqla yanaşı, tərcümə vasitəsilə başqa xalqların mədəni irsi ilə tanış olmağa, onlarla ünsiyyət qurmağa imkan yaradır. Ümummilli liderimiz Heydər Əliyev həmişə Ana dilimizin inkişafına böyük qayğı göstərmiş, onu yüksək dəyərləndirmiş, qorumağı tövsiyə etmişdir: "İnkişaf etmiş zəngin dil mədəniyyətinə sahib olan xalq əyilməzdir, böyük gələcəyə malikdir. Ona görə də xalqımıza ulu babalardan miras qalan bu ən qiymətli milli sərvəti hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalı, daim qayğı ilə əhatə etməlidir. Bu onun müqəddəs vətəndaşlıq borcudur".

XIX–XX əsrlər Azərbaycan dilinin ən sürətli tərəqqi və çiçəklənmə dövrü olmuş, bunun nəticəsində də Ana dilimiz müasir dünyanın funksional baxımdan ən inkişaf etmiş dillərindən birinə çevrilmişdir.

Rusiya imperiyasının hakim dairələri dil sahəsində olduqca sərt və şovinist siyasət həyata keçirirdilər. Bu siyasətin ən səciyyəvi xüsusiyyətləri bir tərəfdən rus dilinin dövlət dili elan olunaraq onun zorla qeyri-rus xalqlara qəbul etdirilməsi, digər tərəfdən isə əsarətdə olan xalqların ana dillərinin inkişafı qarşısında müxtəlif süni əngəllərin yaradılmasından ibarət idi. Bu siyasət Azərbaycanda xüsusilə kobud və amansız formada həyata keçirilirdi. Lakin buna baxmayaraq müstəmləkə əsarəti dövründə Azərbaycan dili inkişafda olmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti dövründə milli dilin itirilmiş mövqelərini bərpa etmək və rus dilini tədricən cəmiyyətin əsas sahələrindən sıxışdırıb çıxarmaq hökumətin fəaliyyətinin əsas prioritet istiqamətlərindən biri idi. 1918-ci il iyunun 27-də milli hökumətin qərarı ilə yeni və ən yeni dövrdə ilk dəfə olaraq Azərbaycan dilinə dövlət dili statusu verildi.

Sovet rejimi dövründə də Azərbaycan dili müəyyən təzyiq və qadağalara məruz qalmışdı. SSRİ-nin bütün ərazisində olduğu kimi, Azərbaycanda da dövlət dili de-fakto rus dili idi. Lakin XX əsrin 50-ci illərinin ortalarından başlayaraq milli dillərin inkişafına diqqət artırıldı. 1956-cı il avqustun 21-də Azərbaycan SSR Ali Sovetinin sessiyasında Azərbaycan dili haqqında Qanun qəbul olundu. Bu qanuna əsasən bütün dövlət idarələrində Azərbaycan dilinin tətbiqi üçün real addımlar atılmağa başlasa da, az sonra mərkəzi hakimiyyətin təzyiqi ilə bu proses dayandırıldı. Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra dil sahəsində də bir sıra vəzifələr yerinə yetirilməli oldu. 2002-ci ildə qəbul olunmuş dövlət dili haqqında Qanun bu məqsədlərin həyata keçirilməsi istiqamətində mühüm addım idi.

8 mart

BEYNƏLXALQ QADINLAR GÜNÜ



Qadın günü hələ qədim Roma imperiyasında mövcud olmuşdur. Həmin gün matronlar adlanan azad Roma qadınları üçün bayram günü hesab olunurdu. Belə ki, bu gündə matronlar nikah əlaqəsinə girir, öz ərlərindən hədiyyələr alır, yaxınlarının diqqət və qayğısı ilə əhatə olunurdular. Hətta qul qadınlara da həmin gün istirahət verilirdi. Özlərinin ən yaxşı və bahalı paltarlarını geyinmiş, başlarına əlvan çələnglər qoymuş romalı qadınlar ailə ocağının hamisi hesab olunan Vesta ilahının məbədində ibadət edirdilər.

Türk etnoslarında, Azərbaycanda–Oğuz ellərində qadın, ana müqəddəs sayılmış, ona böyük ehtiram göstərilmişdir. Ana haqqı Tanrı haqqına bərabər tutulmuşdur. Uzaq səfərdən yurda dönən oğul əvvəlcə anasına təzim edib görüşməli, sonra isə atasına yaxınlaşmalı idi. Azərbaycan qadını qəhrəmanlıq göstərmiş, hökmranlıq etmiş, diplomat kimi fəaliyyət göstərmişdir. Massaget hökmdarı Tomiris torpaqlarımıza qəsbkar yürüş etmiş Əhəməni hökmdarı II Kiri məğlub etmişdi. E.ə. 66–65-ci illərdə Azərbaycana hücum etmiş romalılar döyüşdə həlak olanların içərisində cəngavər geyimli çoxlu qadın meyiti görərək heyrətə gəlmişdilər. Ağqoyunlu hökmdarı Uzun Həsənin anası Sara xatın qonşu dövlətlərin hökmdarları ilə danışıqlar aparmış, siyasət və diplomatiya meydanında onlara qalib gəlmişdir. İgid Tuti Bikə Dərbəndi hiylə ilə tutmaq istəyən qardaşına inanmamış, şəhəri mərdliklə müdafiə edərək əri Fətəli xana sadiq qalmışdır. Bu gün Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva beynəl-

xalq miqyaslı ictimai-siyasi xadim, təhsil və mədəniyyət təəssübkeşi kimi fəaliyyət göstərir.

Yeni dövrdə qadınlar Qərbi Avropanın ictimai həyatında fəal iştirak edirdilər. XVIII əsr Fransa burjua inqilabının qələbəsində qadınlar da böyük rol oynamışdılar. Məhz həmin vaxt qadınların hüquq bərabərliyi uğrunda hərəkat–feminizm hərəkatı başlandı. Həmin hərəkatın əsasını fransız yazıçısı və ictimai xadimi Olimpiya de Quj qoymuşdur. O, qadınlara seçki hüququ verilməsi, onların dövlət vəzifələrinə seçilməsi hüquqlarını təsbit edən "Avropa qadınlarının hüquqları haqqında Bəyannamə"nin müəllifi idi. Tezliklə dünyanın bir çox ölkələrində – ABŞ, Fransa və İngiltərədə feminist təşkilatları yarandı.

Sənaye sivilizasiyasının coşğun vüsət aldığı bir şəraitdə qadınların hüquqi statusu onların iqtisadi vəziyyəti ilə birgə artmağa başladı. Onlar kişilərlə yanaşı fabriklərdə çalışırdılar, hətta istehsalın bir çox sahələrində qadınlar üstünlük təşkil edirdilər. Ona görə də qadınlar kişilərlə bərabər əmək haqqı, bütün sahələrdə eyni hüquqlar tələb edirdilər. 1857-ci il martın 8-də Nyu–York toxucuları şəhərin küçələrində yürüş edərək, aşağı əmək haqqı və pis iş şəraitinə qarşı çıxış etdilər. 1908-ci ildə isə onların nəvələri həmin gün uşaq əməyinin qadağan edilməsi, fabriklərdə iş şəraitinin yaxşılaşdırılması, qadınlara seçki hüququnun verilməsi tələblərini irəli sürdülər. Növbəti ildə Amerika Sosialist Partiyası fevralın sonuncu bazar gününü Milli qadın Günü elan etdi. 1910-cu ildə qadınların Kopenhagendə keçirilmiş beynəlxalq konfransında Klara Setkinin təşəbbüsü ilə Nyu–York hadisələrini yad etmək məqsədilə 8 martın beynəlxalq qadınlar günü kimi qeyd edilməsi qərara alındı. O vaxtdan etibarən dünyanın bir çox ölkələrində 8 mart Beynəlxalq Qadınlar Günü kimi bayram edilir. Azərbaycan Respublikasında da 8 mart Beynəlxalq Qadınlar Günü kimi qeyd olunur. Həmin gün qeyri-iş günüdür.

Bu bayram ilk dəfə 1911-ci ildə Almaniya, Avstriya, İsveçrə və Danimarkada qeyd olunmuşdu. 1914-cü ilə qədər bu bayram müxtəlif ölkələrdə mart ayının ayrı-ayrı günlərində qeyd olunurdu. 1914-cü ildən isə Avstriya, Macarıstan, Niderland, Rusiya, ABŞ, İsveçrə və digər ölkələrdə qadınlar günü məhz martın 8-də bayram edilməyə başladı.

İlk dəfə seçki hüququ qazanan ingilis qadınları oldular. XX əsrin 20-ci illərinin əvvəllərində ABŞ-da da analoji qanunlar qəbul edildi. Qeyd olunmalıdır ki, bundan daha əvvəl, 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti hökuməti qadınlara kişilərlə bərabər hüquqlar elan etmişdi. Türkiyədə qadın hüquqları uğrunda mübarizənin ilk carçıları ziyalı qadınlardan Xalidə xanım, Fatma Aliyə və Nigar xanım olmuşlar. Qadınların oyanması və mədəniyyətə qovuşması tərəfdarları Türkiyədə "Taleyi nisan cəmiyyəti" adlı təşkilat da yaratmışdılar. Türkiyədə respublika idarə üsulu yarandıqdan sonra keçirilən "Mustafa Kamal islahatları" nəticəsində qadınlar siyasi hüquq və azadlıqlar əldə etmişdilər.

İkinci Dünya müharibəsindən sonra gender hüquqları problemi (cinslərin bərabərliyi) aktual əhəmiyyət kəsb etdi. Qadınlarla kişilərin hüquq bərabərliyi BMT-nin Nizamnaməsində təsbit olunmaqla beynəlxalq hüquqi normaya çevrildi. 1948-ci ildə qəbul olunmuş İnsan Hüquqları haqqında Ümumi Bəyannamədə cinsi bərabərlik bir daha əsaslandırılırdı. Lakin bu Bəyannamə qadınların həyatına nəzərə çarpacaq bir dəyişiklik gətirmədiyi üçün BMT Baş Məclisi tərəfindən 1967-ci ildə Qadınlar barəsində Ayrı-seçkiliyin Bütün formalarının ləğv edilməsi Bəyannaməsini qəbul etdi. BMT-yə üzv dövlətlər bəyannamələrin yerinə yetirilməsi ilə bağlı öhdəlik daşımadıqlarından bu Bəyannamə də cinslər arasında qarşılıqlı münasibətlərin yeni, daha ədalətli modelini yarada bilmədi. Nəticədə BMT Baş Məclisi tərəfindən 1979-cu ildə "Qadın Konvensiyası" adlı sənəd qəbul olundu. Azərbaycan Respublikasının Milli Məclisi 1995-ci ildə bu sənədi ratifikasiya etdi.

15 mart

ÜMUMDÜNYA İSTEHLAKÇILAR GÜNÜ

İnsanlar istənilən mal alarkən və ya pullu xidmət növlərindən istifadə edərkən istehlakçı kimi çıxış edirlər. Qanun istehlakçı anlayışını dəqiq müəyyənləşdirir. İstehlakçı gəlir əldə etmək məqsədi güdmədən əmtəələri alan və istifadə edən, xidmət və iş sifariş verən vətəndaşdır.

İstehlakçı aldığı əşyanın, məhsulun, ona göstərilən xidmətin keyfiyyətli olmasında maraqlıdır. Bu, istehlakçının keyfiyyət hüququdur. Biz əmin olmalıyıq ki, aldığımız qida məhsulları ekoloji və gigiyenik cəhətdən sağlamlığımız üçün heç bir təhlükə törətmir. Yaxud hər hansı bir elektrik cihazı mənzildə yanğına səbəb olmayacaqdır. Bu, istehlakçının təhlükəsizlik hüququdur. İstehlakçı əmtəə, xidmətlər və s. haqqında məlumat almaq–informasiya hüququnu özündə əks etdirir. İstehlakçı dəymiş ziyanın ödənilməsi hüququna malikdir. Belə ki, aldığımız hər hansı bir əşya sağlamlığımıza və yaxud əmlakımıza ziyan vurarsa, onda onun əvəzini bərpa etməyi tələb etmək hüququmuz vardır. Beləliklə, istehlakçının hüquqlarının qorunması zəruridir.

Hər birimizin istehlakçı kimi hüquqlarımızın pozulduğu hallar azmı olub?

Ümumdünya İstehlakçılar İttifaqı dünyada istehlakçıların hüquqlarını qorumaqla məşğuldur. Hər bir ölkədə olduğu kimi Azərbaycanda da "İstehlakçıların hüquqlarının qorunması haqqında" Qanun qəbul olunmuşdur. Bu qanunla vətəndaşların istehlakçılıq hüququ qorunur, eyni zamanda ticarət təşkilatlarının və xidmətlə məşğul olan sistemin hüquq və vəzifələri müəyyənləşdirilir.

Ümumdünya İstehlakçılar Gününün elan edilməsi ABŞ prezidenti Con Kennedinin 1961-ci il martın 15-də Konqresdə etdiyi çıxışla bağlıdır. Kennedi çıxışında yuxarıda göstərilən məşhur dörd hüququ sadalamış, onu istehlakçının hüquqları adlandırmışdı. Kennedi demişdir: "İstehlakçılar biz hamımızıq. İstehlakçılar böyük iqtisadi gücdür və demək olar ki, istənilən özəl və dövlət

iqtisadiyyatında həlledici rol oynayırlar. Lakin belə bir yekdil səs təəssüf ki, həmişə eşidilmir". Ümumdünya İstehlakçılar İttifaqı Təşkilatı həmin sözləri özünün manifestinə çevirmişdir.

İstehlakçıların Hüquqlarını Müdafiə Günü ilk dəfə 1983-cü il martın 15-də qeyd olunmuşdur. İki il sonra – 1985-ci il aprelin 9-da BMT Baş Məclisi istehlakçıların hüquqlarının müdafiəsi üçün rəhbər prinsipləri müəyyənləşdirdi. Bu prinsiplərin qəbul olunması nəticəsində istehlakçı hüquqları beynəlxalq səviyyədə tanınaraq qanuniləşdirildi.

15 martın Ümumdünya İstehlakçılar Günü kimi qeyd edilməsi beynəlxalq ictimaiyyəti istehlakçıların hüquqlarının qorunması problemlərinin həllinə yönəldir. Ümumdünya İstehlakçılar İttifaqı müstəqil, qeyri-kommersiya, gəlirsiz, qeyri-siyasi təşkilat kimi 1961-ci ildə Niderlandda qeydiyyatdan keçmişdir. Bu təşkilat özündə 72 ölkədən istehlakçıların hüquqları problemləri ilə məşğul olan 180 ictimai və dövlət təşkilatını birləşdirir. Azərbaycanda da belə bir qeyri-hökumət təşkilatı XX əsrin 90-cı illərinin ortalarından fəaliyyət göstərir.


21 mart

İRQİ AYRI-SEÇKİLİYİN (DİSKRİMİNASİYA) LƏĞV EDİLMƏSİ UĞRUNDA BEYNƏLXALQ MÜBARİZƏ GÜNÜ

Etnik hökmranlıq nəticəsində irqi ayrı-seçkilik (diskriminasiya) əhalinin müəyyən qrupunun hüquq və azadlıqlarının məhdudlaşdırılmasına və ya onlardan məhrum edilməsinə gətirib çıxarır. Gündəlik həyatda bu, həmin qrupun restoranlara, çimərliklərə, kinoteatrlara və ya şəhərin bəzi rayonlarına getməyinə qadağa qoyulmasında, istehsal sahəsində bəzi peşələrlə məşğuliyyətin məhdudlaşdırılmasında, hamı kimi təhsil almaq, uğurlu karyera yaratmaq imkanının olmamasında, psixoloji planda – lağlağı ləqəblərdə, "geridə qalmış" xalqlar haqqındakı lətifələrdə və s. özünü göstərir.

Diskriminasiyanın bir forması da aparteiddir. Aparteid yerli əhalinin bir-birilə əlaqəsini kəsmək məqsədilə onların müstəmləkəçilər tərəfindən insan həyatı üçün yararsız yerlərə köçürülməsidir. Bu cür sistem uzun müddət ABŞ-da hindulara qarşı, Cənubi Afrika Respublikasında (CAR) isə zəncilərə qarşı hökm sürmüşdür.

Bu siyasətin əsasında rasizm ("rasa"irq deməkdir) – insan irqlərinin qeyri-bərabərliyi şəraitinə əsaslanan ideologiya və siyasət durur. Rasistlər (irqçilər) iddia edirlər ki, "tam dəyərli" və "natamam dəyərli" irqlər vardır. Onlar bununla öz ölkələri daxilində irqi diskriminasiyaya və başqa ölkələrə münasibətdə işğalçı müstəmləkə siyasətinə haqq qazandırmağa çalışırlar.



Diskriminasiyanın insanlığa sığmayan forması – hər hansı millətin və ya etnik qrupun nümayəndələrinin yararsız, dəyərsiz və ya düşmən kimi elan olunaraq məhv edilməsidir ki, bu da soyqırım (genosid) və holokost adlanır. XX əsr milli zəmində ehtirasların coşması və bunun nəticəsində baş verən faciəvi

hadisələrlə doludur. Nasist Almaniyası insanların bir qrupunun başqaları üzərində hakimiyyətə malik olması və xüsusi ali irqin– bütün dünyanı idarə etməli olan ayrıca seçilmiş millətin mövcudluğu haqqında nasist ideya ilə silahlanaraq dünyaya ən dəhşətli soyqırım nümunəsi göstərmişdir. Bu ideyanın həyata keçirilməsi ona gətirib çıxarmışdır ki, faşistlər yəhudiləri, qaraçıları tamamilə məhv etməyə (holokost), digər xalqları (məsələn, slavyanları) "əsil arilərə" tabe etməyə cəhd göstərmişlər.

XX əsr tarixində Azərbaycan xalqına qarşı ən dəhşətli soyqırımları ermənilər törətmişlər. Terrorçu erməni təşkilatı olan "Daşnaksütyun" partiyasının rəhbərliyi ilə 1905–1907, 1918–1920, 1937–1940, 1948–1953 və nəhayət, 1988–1994-cü illərdə erməni vəhşiləri azərbaycanlılara qarşı misilsiz soyqırımlar törətmişlər. Məhz onların bu qanlı etnik təmizləmə siyasətinin nəticəsidir ki, indi Ermənistan adlandırılan, əslində Azərbaycanın qərb torpaqları olan ərazilərdə bir nəfər də olsun azərbaycanlı qalmamışdır.

Bəs BMT-ni irqi ayrı-seçkiliyin (diskriminasiyanın) ləğv edilməsi uğrunda Beynəlxalq mübarizə Günü təsis etməyə vadar edən nə olmuşdur? Cənubi Afrika Respublikasının hakim dairələri tərəfindən Afrikanın yerli əhalisi və Hindistandan köçürülmüşlərə qarşı dözülməz irqi diskriminasiya siyasəti bəşəriyyəti narahat etmişdi. 1960-cı il oktyabrın 26-da Cənubi Afrikanın Şarpevil şəhərində polis aparteid rejiminin afrikalı əhalinin məcburi pasportlaşdırılması haqqında qanununa qarşı keçirdiyi dinc etiraz nümayişinə divan tutmuşdu. Nəticədə 69 nəfər öldürülmüşdü.

1966-cı il oktyabrın 26-da BMT Baş Məclisinin XXI sessiyası İrqi Diskriminasiyanın Ləğvi Uğrunda Beynəlxalq Mübarizə Gününün təsis edilməsi haqqında qərar qəbul etdi. BMT Baş Məclisi bununla beynəlxalq ictimaiyyəti irqi ayrı-seçkiliyin bütün formalarının ləğvi uğrunda səyləri birləşdirməyə çağırdı. 1979-cu ildə Baş Məclis rasizmə və irqi diskriminasiyaya qarşı mübarizə onilliyi elan etdi. Baş Məclis bütün dövlətlərə müraciət edərək hər il martın 21-dən başlayaraq rasizmə və diskriminasiyaya qarşı mübarizə aparan xalqlarla həmrəylik həftəsi keçirməyə çağırdı. İndi Cənubi Afrika Respublikasında 21 mart İnsan Hüquqları Günü kimi qeyd olunur.

23 mart

ÜMUMDÜNYA METEREOLOGİYA GÜNÜ



Hər il martın 23-də Ümumdünya Metereologiya Təşkilatında (ÜTM) və onun üzvü olan 188 ölkədə Ümumdünya Meterologiya Günü qeyd edilir. Bu gün 1950-ci ildən – yəni ÜMT-nin yaradılması barədə konvensiya qüvvəyə minəndən etibarən ənənəvi olraq hər il bir deviz altında keçirilir. Dünya üzrə hidrometeroloji fəaliyyəti əlaqələndirən ÜTM-nin əsas vəzifələrindən biri onun üzvü olan dövlətlərin müvafiq qurumları ilə sıx əlaqədə işləmək, ayrı-ayrı ölkələrdə hidrometeroloji sistemin inkişafına kömək göstərmək, bununla da hidrometeroloji proseslərdən dəyən zərərləri minimuma endirməkdir.

Bu fakt danılmazdır ki, hava şəraitini idarə etmək mümkün deyil və demək olar ki, bütün ölkələr təbii fəlakət qarşısında eyni dərəcədə həssasdırlar. Lakin müntəzəm olaraq müşahidələrin aparılması və daha yüksək dəqiqliklə qabaqcadan verilən proqnoz və xəbərdarlıqlar bəzi sahələrdə fəsadları minimuma endirməklə nisbətən rahat və təhlükəsiz həyat üçün zəmin yarada bilər.

Azərbaycanda hidrometeroloji müşahidələrin tarixi XIX əsrin birinci yarısına təsadüf edir. Belə ki, 1830-cu ildə Xəzər dənizinin səviyyəsini müşahidə etmək üçün Bakı buxtasında metereoloji stansiya qurulmuşdur. Belə qurğular Naxçıvan, Şuşa, Gəncə, Zaqatala və Nuxa şəhərlərində də işə salınmışdı. Kür çayında müşahidələrə isə 1861-ci ildən başlanmışdır.

Hidrometeoroloji xidmət XX əsrin 70-ci illərində coşğun inkişaf dövrünü yaşamışdır. Bu həmin dövrdə respublikanın aqrar-sənaye kompleksində gedən sürətli inkişafla bağlı idi.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra bu sahənin də

inkişafına xüsusi dövlət qayğısı göstərilməyə başladı. 1993-cü il sentyabrın 3-də ölkəmiz Ümumdünya Metereologiya Təşkilatına üzv qəbul olundu. Ümummilli lider H.Əliyev bu hadisəni yüksək qiymətləndirərək demişdir: "Azərbaycanın Ümumdünya Metereologiya Təşkilatının sıralarına qoşulması təbiidir, çünki biz özümüzü dünyanın bir hissəsi hesab edirik." Ölkənin hidrometereoloji şəbəkəsi özündə 83 hidrometereoloji və radiometeroloji stansiyanı, 141 hidroloji, aviametereoloji, dəniz, aqrometereoloji, arxeoloji müşahidə məntəqəsini birləşdirir. 13 metereoloji stansiya qlobal və regional müşahidə sisteminə, 18 stansiya isə iqlim üzrə qlobal müşahidə sisteminə cəlb edilmişdir. Prezident İlham Əliyevin 2004-cü il 28 yanvar tarixli sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında hidrometereologiyanın 2004–2010-cu illərdə Milli İnkişaf Proqramı" əsasında müşahidə şəbəkəsi genişləndirilir, avtomat metereoloji stansiyalar alınır.

Respublika ərazisində, o cümlədən Xəzərin Azərbaycana aid akvatoriyasında fasiləsiz olaraq hidrometereoloji radiolokatorlar vasitəsilə şimşək, dolu prosesləri izlənilir. Maştağa aeroloji stansiyasından hava atmsoferinin aşağı 30 km-lik təbəqəsini tədqiq edən radiozondlar buraxılır.

Hazırda Azərbaycan hidrometereologiyası dünya hidrometereologiya sisteminə sürətlə inteqrasiya edir.

27 mart

BEYNƏLXALQ TEATR GÜNÜ

Teatrın vətəni qədim Yunamstandır. Bu söz də yunan sözüdür, "tamaşa yeri" mənasını verir. Yunanıstanda qədim zamanlarda şərabçılıq ilahı Dionisin şərəfinə təntənəli bayramlar keçirilirdi. Azad yunanlar şəhər və kəndlərin küçələrində təntənəli gəzintilər təşkil edir, Dionis haqqında əfsanələrdən bütöv səhnələr oynayırdılar. Əvvəllər tamaşalar açıq havada, təpənin ətəyində göstərilirdi. Tamaşaçılar isə yamacda yer tutub otururdular. Təpənin ətəyində yunanca "skena" adlanan çadır qurulurdu. Burada aktyorlar paltarlarını dəyişirdilər. Sonralar çadır əvəzinə kiçik bina tikdilər. Tamaşa vaxtı burada dekorasiyalar asırdılar. Binanın qarşısında aktyorların və xorun çıxış etməsi üçün meydança–orkestra düzəldirdilər. Beləliklə, e.ə. IV əsrdə Yunanıstanda teatr binaları tikməyə başladılar.

Qədim yunanlar teatrı çox sevir, onu "böyüklər üçün məktəb" adlandırırdılar. Tamaşalar yarış səciyyəsi daşıyırdı. Aktyorlar tamaşanın məzmununa uyğun maskalar taxırdılar. Parlaq rəngli maskaları ən arxa cərgələrdə belə oturanlar yaxşı görürdülər. Aktyorlar səhnədə hündür görünməkdən ötrü qalın altlığı olan xüsusi ayaqqabılar geyirdilər. Qadın rollarını da kişilər oynayırdılar. Hər il iki-üç teatr tamaşası göstərilir və hər tamaşa üç gün



səhərdən axşamadək davam edirdi.



Qədim yunan əfsanələri teatra olduqca zəngin mövzu verirdi. Əfsanələr əsasında tragediyalar adlanan pyeslər yaranırdı. "Tragediya" sözü yunanca "keçilər mahnısı" deməkdir. Tragediyalarda qəhrəmanlar arasında gedən kəskin mübarizə, onların iztirabları, faciəsi, çox vaxt isə ölmələri təsvir olunurdu. İlk tragediyaları "faciənin atası" adlandırılan Esxil yazmışdır. Esxillə bir dövrdə yaşamış digər faciə ustası olan Sofokl "Antiqona" tragediyasının müəllifdir.

Gülməli səhnəciklərdən şən və məzəli pyeslər – komediyalar yarandı. "Komediya" yunan sözü olub, "şən sakinlərin mahnısı" mənasını verir. Yunanlar tamaşa günündə səhər tezdən yemək-içmək götürüb teatra toplaşardılar. Tamaşa qurtardıqda xüsusi komissiya tamaşaçıların rəyini nəzərə alaraq qələbəni ən yaxşı pyes müəllifinə və ən yaxşı aktyorlara verirdi. Onlar çələnglə və qiymətli hədiyyələrlə mükafatlandırılırdılar. Pyes müəllifləri son dərəcə böyük hörmətə malik idilər. Afina teatrında Esxilə və Sofokla heykəl qoymuşdular. Onları "müdriklik dahiləri" adlandırırdılar. Aristofan teatrın rolunu belə qiymətləndirirdi: "Müəllimlər oğlanlara ağıl öyrətdikləri kimi, şairlər də böyükləri tərbiyə edirlər".

Teatr sonralar qədim Romada, Şərq ölkələrində – Çində, Hindistanda, Yaponiyada geniş yayıldı. 1948-ci ildə teatr ictimaiyyəti rəsmi olaraq YUNESKO-nun himayəsi altında Beynəlxalq Teatr İnstitutunda birləşdi.


1 aprel

ÜMUMDÜNYA GÜLÜŞ GÜNÜ



Avropada və bir sıra Asiya ölkələrində aprelin 1-i gülüş, zarafat günü kimi qeyd olunur. Böyük Britaniyada 1 apreli "Səfehlər Günü", Fransada isə "Aprel balığı Günü" adlandırırlar. Məsələ burasındadır ki, əvvəllər Fransada yeni il bayramı məhz aprelin 1-də qeyd olunardı. Həmin gün insanlar bir–birlərini təbrik edər və hədiyyə olaraq təzə balıq göndərərdilər. XVI əsrdən etibarən kralın fərmanı ilə yeni il dekabrın 31-i – yanvarın 1-i günlərində bayram edilməyə başlamışdı. Lakin "Aprel balığı Günü" də unudulmamışdı. Həmin gün fransızların gülüş gününə çevrilmişdi.

Qədim zamanlarda bir çox ölkələrdə ildə bir dəfə – məhz aprelin 1-də "İtaətsizlik bayramı" keçirilirdi. Həmin gün adamlar cəzasız olaraq öz hökmdarlarını lağa qoya, gündəlik davranış qaydalarını poza bilər, öz mənfi emosiyalarını "söndürə" bilərdilər. Eyni zamanda Səfehlər kralı və ya Zarafatlar kralı təyin edər, şənlənər, lətifələr söyləyərdilər. "Səfehlər Günü"ndə maska geyinmək qayda idi. Çünki belə etdikdə daha təhlükəsiz halda "xuliqanlıq" etmək mümkün idi.



Bizim ölkəmizdə isə bu gün daha çox insanların bir-birlərini aldatması ilə müşayiət olunur. Özü də bundan heç kəs incimir. Amma hamı çalışır ki, aprelin 1-i günü aldanmasın. Lakin bu, çox az adamlara müyəssər olur.

2 aprel

BEYNƏLXALQ UŞAQ KİTABI GÜNÜ



Hər il aprelin 2-si bütün dünyada Beynəlxalq Uşaq Kitabı Günü kimi qeyd olunur. Bu bayramın keçirilmə tarixi 1953-cü ildən başlayır. Aprelin 2-si gününün seçilməsi də təsadüfi deyildir. Məhşur nağılçı Hans Xristian Anders məhz həmin gündə dünyaya göz açmışdır. Beynəlxalq Uşaq Kitabı Gününün keçirilməsinin təşəbbüskarı dünya uşaq ədəbiyyatının görkəmli nümayəndəsi, alman yazıçısı Yella Lermandır.

O, 1953-cü ildə uşaq ədəbiyyatı üzrə "balaca nobel mükafatı"nın – H.X.Andersen mükafatının təsis edilməsini təklif etmişdi. Həmin ildən etibarən də məhşur nağılçının adını daşıyan bu mükafat dünya uşaq ədəbiyyatının ən maraqlı incilərinin müəlliflərinə təqdim edilir. Mükafata bu illər ərzində dünyanın 20 ölkəsindən 23 yazıçı və uşaq kitabları üçün rəsmlər çəkən 17 illüstrasiyaçı-rəssam layiq görülmüşdür. Mükafatın ilk laureatı 1956-cı ildə ingilis nağılçısı Eleanor Fardcon olmuşdur. 1958-ci ildə isə mükafat isveç yazıçısı Astrid Lindqrenə təqdim edilmişdir. Sonra bu sırada alman yazıçısı Erix Kestner və Ceyms Kruyss, italyan Conni Rodari, çex Boqumila Rciqi, avstriyalı Kristina Nestlinger və başqalarının adı yer almışdır. Beynəlxalq aləmdə uşaq kitabı üzrə daha bir mükafat var: bu son illər nəşr olunan ayrı-ayrı uşaq kitablarının illüstrasiyasına və onların dünyanın müxtəlif dillərinə tərcüməsinə görə təqdim edilən Fəxri diplomdan ibarətdir. Hər il bütün dünyanın bu günü qeyd etməsində məqsəd cəmiyyətin diqqətini uşaq ədəbiyyatına, onun problemlərinə və kitab mədəniyyətinə cəlb etməkdir. Çünki alman pedaqoqları deyirlər ki, nağıllara inamın öldüyü gün uşaqların inkişafı dayanacaqdır. Bu inamı yaşatmaq üçün isə uşaq ədəbiyyatının nəşrini gücləndirmək, səmərəli təcrübədən yararlanmaq zəruridir.

12 aprel ÜMUMDÜNYA AVİASİYA VƏ KOSMONAVTİKA GÜNÜ



Ümumdünya Aviasiya və Kosmonavtika Günü 1961-ci il aprelin 12-də kosmosa uçmuş ilk insanın – Yuri Qaqarinin adı ilə bağlıdır. Məhz həmin tarixdə Sovet kosmonavtı Yuri Qaqarin dünyada ilk dəfə kosmosa uçmuşdur. Bu əlamətdar hadisə münasibətilə Beynəlxalq Aviasiya Federasiyası 12 aprelin Ümumdünya Aviasiya və Kosmonavtika Günü kimi qeyd olunması barədə qərar qəbul etmişdir.

Azərbaycan keçmiş SSRİ-nin tərkibində olsa da, kosmonavtika ilə bağlı keçirilmiş bir sıra mühüm tədbirlərin iştirakçısı olmuşdur. Bu işdə o dövrdə Azərbaycana rəhbərlik etmiş ümummilli lider Heydər Əliyevin böyük əməyi vardır. Məhz onun təşəbbüsü ilə 1973-cü ildə Bakıda XXIV Beynəlxalq Astronavtika Konqresi keçirilmişdir. Bu tədbir kosmik elm və texnologiyaların Azərbaycanın elmi mühitinə yol açmasında həlledici rol oynamışdır. Az sonra Heydər Əliyev SSRİ Hərbi Sənaye Kompleksinin rəhbərliyinə kosmik texniki vasitələrdən istifadə etməklə Yaxın Şərq, Xəzər dənizi hövzəsi və Kiçik Asiya regionlarının təbii ehtiyatlarının tədqiqi üzrə elmi mərkəzin yaradılmasını təklif etmişdir. Nəticədə 1974-cü ildə Bakıda "Kaspi" Elmi Mərkəzi yaradılmışdı. Sonralar elmi müəssisənin əhatə dairəsi getdikcə genişlənmişdir.



Onun bazasında 1982-ci ildə Kosmik Tədqiqatlar Elm-İstehsalat Birliyi yaradılmışdır. "İnterkosmos" proqramı çərçivəsində keçmiş sosialist ölkələrinin iştirakı ilə beynəlxalq peykaltı eksperimentləri Azərbaycan ərazisində keçirilmişdir. Azərbaycanlı mütəxəssislər tərəfindən hazırlanmış rentgen spektrolmetrik cihazı 15 ilə yaxın müddətdə SSRİ-nin "Salyut" və "Mir" orbital komplekslərində istifadə olunmuşdur.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra 1992-ci ildə bu müəssisə Azərbaycan Milli Aerokosmik Agentliyi (AMAKA) kimi fəaliyyət göstərməyə başlamışdır.

Kosmosun fəthi tarixinə ilk Azərbaycan səhifələri isə 1932-ci ildə Moskvada "Reaktiv Hərəkəti öyrənmə qrupu"nun Bakı filialının yaradılması ilə yazılmışdır. Qrupun buraxdığı ilk raket Azərbaycan ixtiraçılarının yerli neft məhsullarından hazırladıqları qatılaşdırılmış benzinlə işləmişdir.

1954-cü il noyabrın 19-da görkəmli kimyaçı alim Yusif Məmmədəliyev dünya kosmonatika elminə yeni töhfə vermişdi. Onun ixtira etdiyi bərk raket yanacağının köməyi ilə sovet kosmik raketləri atmosferi yararaq orbitə çıxmış, ballistik raketlər quyulara endirilərək Qərbə doğru tuşlanmışdı. Dünyada ilk dəfə 1957-ci il oktyabrın 27-də Sovet süni peyki çəkisizliyə çıxmışdı. Buna görə Yusif Məmmədəliyevin Nobel mükafatına təqdim olunması qərara alınsa da, SSRİ rəhbərliyində təmsil olunan erməni A.Mikoyanın və digər hərbçilərin fitvası ilə bu qərar baş tutmamışdı.


18 aprel

TARİXİ ABİDƏLƏRİN MÜHAFİZƏSİ GÜNÜ

Bu gün YUNESKO-nun abidələrin və diqqətəlayiq yerlərin mühafizəsi məsələləri üzrə Beynəlxalq Şurasının 1983-cü ildə qəbul edilmiş qərarı əsasında qeyd olunur. Məqsəd dünya ictimaiyyətinin diqqətini maddi-mədəniyyət abidələrinin qorunmasına yönəltməkdir.

Tarixi abidələr–məqbərələr, saraylar, məbədlər, məscidlər, qəbristanlıqlar, körpülər, ovdanlar, günbəzlər, minarələr və s. tarixi keçmişimizin maddi yadigarlarıdır. Onlar zamanın sərt sınaqlarına sinə gərərək bu günümüzə gəlib çatmışlar. Hər bir ölkənin tarixinin qədimliyi onun maddi-mədəniyyət yadigarlarının çoxluğu və qədimliyi ilə ölçülür.

Bu sahədə ölkəmizin bəxti gətirmişdir. Qobustan, Zəngəzur Gəmiqaya, İstisu qayaüstü təsvirləri, Çıraqqala, Oğlanqala, Cavanşir, Gülüstan, Əlincə, Buğurd, Gələsən–Görəsən kimi qalalarımız, Mömine xatın, Yusif ibn Küseyr, Olcaytu Xudabəndə kimi məqbərələrimiz, Göy məscid, Şah Abbas məscidi, Gövhərağa məscidi, Cümə məscidi, Təzəpir məscidi kimi dini ibadətgahlarımız, Həşt-behişt, Şirvanşahlar, İrəvan sərdar sarayı, Şəki xan sarayı kimi nadir memarlıq abidələrimiz bu qəbildəndirlər.



XIX əsrdə Azərbaycandakı ictimai-siyasi



dağınıqlıq bütövlükdə mədəniyyətə, o cümlədən muzey və kolleksiyaçılıq ənənələrinə ciddi ziyan vurdu. Ara çəkişmələri, müharibələr nəticəsində bir çox maddi-mədəniyyət abidələri məhv edildi, qalanları isə yad ölkələrə aparıldı. XIX əsrin əvvəllərində Rusiya imperiyasının Azərbaycana təcavüzü nəticəsində Gəncə, Qarabağ, İrəvan və Lənkəran xanlıqlarının xəzinəsi qarət olundu, buradakı qiymətli əşyalar, nadir kitab nümunələri talan edildi.

Hazırda işğal altında olan dünya əhəmiyyətli mədəni-tarixi abidələrimiz–Azıx və Tağlar mağaraları dünyanın ən qədim insan yaşayan məskənlərindəndir. YUNESKO-nun siyahısına düşmüş bu mağaralardan tapılmış maddi-mədəniyyət nümunələri hələ 1981-ci ildə Parisin İnsan muzeyində "Avropanın ilk sakinləri" adlı sərgidə nümayiş etdirilmişdi.

Bir çox ölkələrdə tarixi abidələrin qorunması işi çox ciddi təşkil edilir. Məsələn, Fransada hətta arxeoloji qazıntılar aparıldıqdan sonra tarixi yerlərin təbii landşaftı olduğu kimi bərpa olunur. Böyük Britaniyanın şimalında da Roma imperatoru Adrianın dövründə imperiyanın sərhədlərini qorumaq məqsədilə çəkilmiş məşhur Adrian sədləri olduğu kimi qorunub saxlanır.

Sovet hakimiyyəti illərində Azərbaycanda tarixi memarlıq abidələrinə dövlət səviyyəsində laqeyd münasibət olmuşdur. Bir çox nadir memarlıq abidələri baxımsızlıq və tamah üzündən sökülüb-dağıdılmış, xeyli memarlıq abidələri, maddi-mədəniyyət nümunələri erməni saxtakarlığına məruz qalaraq özgəninkiləşdirilmişdir. Hazırda erməni işğalı altında olan ərazilərimizdəki memarlıq abidələri üzərində də bu cür saxta "əməliyyatlar" aparılmaqdadır. Erməni vandalları Şuşa şəhərini işğal edərkən Üzeyir bəyin, Natəvanın, Bülbülün tunc heykəllərini belə avtomat atəşinə tutmaqdan çəkinməmişlər.

Azərbaycan müstəqillik əldə etdikdən sonra tarixi abidələrə münasibət kökündən dəyişmişdir. Beynəlxalq İnkişaf Assosiasiyası ilə Azərbaycan hökuməti arasında imzalanmış "Mədəni irsin qorunmasına yardım haqqında" sazişə uyğun olaraq, Bakıda Şirvanşahlar saray-kompleksində, Naxçıvanda Möminə Xatın və Qarabağlar türbələrində, Şəki xanlarının sarayında bərpa və yenidənqurma işləri aparılmışdır. 2002-ci ildə Respublikamız Abidələrin Bərpası və Tədqiqi Beynəlxalq mərkəzinə üzv qəbul olunmuşdur. Azərbaycan tarixində ilk dəfə olaraq Şirvanşahlar saray-kompleksi və Qız qalası da daxil olmaqla İçərişəhər Dövlət Tarixi-memarlıq kompleksi YUNESKO-nun "Dünya mədəniyyəti irsi" siyahısına daxil edilmişdir.

Tarixi arayış. Birinci Qarabağ müharibəsi nəticəsində Ermənistanın işğalı altında qalan torpaqlarımızda 500-dək tarixi-memarlıq, 100-dən çox arxeoloji abidələr, on minlərlə eksponatı olan 22 muzey, 4 rəsm qalareyası, 46 milyon kitab və əlyazmalar saxlanılan 927 kitabxana, 808 klub, 10 istirahət və mədəniyyət parkı, 85 musiqi və incəsənət məktəbi, 20 mədəniyyət sarayı, 4 dövlət teatrı qalmışdır. İşğal altında olan ərazilərimizdə xalqımızın keçmişi və bu gününü əks etdirən 1852 mədəniyyət və incəsənət abidəsi erməni vandalizmi ilə üzləşmişdir. Nəticədə tariximiz üçün mühüm əhəmiyyət kəsb edən, milli özünəməxsusluğu özündə əks etdirən minlərlə tarixi-memarlıq abidələri, xatirə-memorial kompleksləri və muzey-qoruqlar tamamilə dağıdılmışdır.

22 aprel

BEYNƏLXALQ YER KÜRƏSİ GÜNÜ

Beynəlxalq Yer Kürəsi Günü əvvəllər "Ağac Günü" adı ilə qeyd olunmuşdur. Bu bayramın keçirilmə tarixi XIX əsrin 70-ci illərinə təsadüf edir. ABŞ-ın Nebraska ştatının sakini Corc Sterlinq Mortona ştatın yaşıllaşdırılmasına başlamaq üçün əhaliyə müraciət etmişdi. Onun özü və ailəsi ilk olaraq ağac əkməyə başlamışdı. Tezliklə bu təşəbbüs geniş əks-səda doğurmuşdu. İlk "Ağac Günü"ndə ştatın əhalisi təqribən bir milyon ağac əkmişdi.

1882-ci ildə Nebraska ştatında Mortonanın şərəfinə onun doğulduğu 22 aprel günü rəsmi olaraq ştatın bayramı elan olundu. 1970-ci ildə "Ağac Günü"nün adı dəyişdirilərək Yer Kürəsi Günü adlandırıldı. Senator Heylord Nelsanın təşəbbüsü ilə keçirilən bu bayramda məqsəd insanların diqqətini ətraf mühitin çirkləndirilməsi və canlı aləmin qorunub saxlanması problemlərinə cəlb etmək idi.

Yer Kürəsi Günü ilk dəfə 1970-ci il aprelin 22-də qeyd olundu. 20 milyona yaxın amerikalı müxtəlif tədbirlərdə iştirak edərək hökuməti ekoloji problemləri həll etməyə çağırdı. Həmin vaxtdan etibarən başlanan kütləvi ekoloji hərəkat təbii ehtiyatların qorunmasına və sənaye istehsalı üzərində ekoloji nəzarətə istiqamətləndi. Məhz XX əsrin 70-ci illərindən etibarən şirkətlər ətraf aləmin mühafizəsinə nə qədər vəsait ayırmaları barədə rəsmi məlumat verməyə başladılar.


1990-cı ildən başlayaraq Yer Kürəsi Günündə milli parkların salınması, ətraf mühitin əvvəlki vəziyyətinə qaytarılması mövzusu gündəmə gətirildi. Həmin vaxtdan bu bayram beynəlxalq miqyas aldı. 141 ölkəni (o cümlədən bizim ölkəni) təmsil edən 20 milyondan çox adam bu günü bayram edir.

XXI əsrin əvvəllərində Azərbaycanda da milli parkların şəbəkəsi genişləndirilir. 2003-cü ildə Respublika Prezidentinin sərəncamı ilə Bakı şəhərinin Qaradağ rayonu, Salyan və Neftçala rayonlarını əhatə edən Şirvan Milli Parkı, Ağcabədi və Beyləqan

rayonlarını əhatə edən Ağgöl Milli Parkı yaradılmışdır. 2004-cü ildə Xızı və Siyəzən rayonlarının ərazisində Altıağac Parkı, 2005-ci ildə Bakı şəhərinin Əzizbəyov rayonu ərazisində Abşeron yasaqlığı bazasında Abşeron Milli Parkı yaradılmışdır. 2006-cı il dekabrın 8-də isə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin imzaladığı sərəncam isə Şahdağ Milli Parkının yaradılması haqqındadır. Bu Park İsmayıllı və Pirqulu dövlət təbiət qoruqlarını, İsmayıllı, Quba, Qusar, Qəbələ, Oğuz, Şamaxı rayonlarının inzibati ərazisində olan dövlət meşə fondu torpaqlarını və həmin rayonların hüdudlarında yüksəkliklərdə yerləşən istifadəsiz yaylaqları əhatə edir.



23 aprel ÜMUMDÜNYA KİTAB VƏ MÜƏLLİF HÜQUQLARI GÜNÜ




Hər il aprel ayının 23-ü bütün dünyada Ümumdünya Kitab və Müəllif Hüquqları Günü kimi qeyd olunur. Bu günün qeyd olunması ideyası ilk dəfə olaraq Beynəlxalq Kitab Nəşri Assosiasiyası tərəfindən irəli sürülmüşdür. Həmin günün aprelin 23-də qeyd olunması onunla əsaslandırılırdı ki, bir sıra məşhur yazıçılar – Migel Servantes, Vilyam Şekspir, Le Veqa, M.Dryoun, M.Baleço, Nabokov və b. məhz həmin gün doğulmuş və ya vəfat etmişlər.

YUNESKO-nun Baş Konfransının 28-ci sessiyasında (25 oktyabr–16 noyabr 1995) aprelin 23-nün Ümumdünya Kitab və Müəllif Hüquqları Günü kimi qeyd olunması qərara alınmışdır.

Ümumdünya Kitab və Müəllif Hüquqları Gününün bayram edilməsində məqsəd hakimiyyət orqanlarının, kütləvi informasiya vasitələrinin, habelə geniş oxucu kütləsinin diqqətini kitab işinin təşkili və təbliğinə yönəltmək, kitabın hələ də mühüm bilik və informasiya mənbəyi kimi rolunu qoruyub saxlamaqdır. Həmin gün bir daha kitabın və müəllif hüquqlarının qorunmasının dünyada mətbuatın, tolerantlığın və beynəlxalq dialoqun inkişafında əhəmiyyəti xüsusi olaraq dəyərləndirilir.

Hər il aprelin 23-də kitab nəşri və təbliği, müəllif hüquqlarının qorunması sahəsində fərqlənmiş şəhər YUNESKO tərəfindən təsis olunmuş Beynəlxalq Kitab Paytaxtı nominasiyası ilə mükafatlandırılır. Bu ada 2006-cı ildə İtaliyanın Turin, 2007-ci ildə isə Kanadanın Monreal şəhərləri layiq görülmüşdür.

3 may BEYNƏLXALQ SÖZ VƏ MƏTBUAT AZADLIĞI GÜNÜ



Kütləvi informasiya vasitələri (KİV) hər bir ölkədə ictimai fikri formalaşdıran bir institutdur. Bu baxımdan bəzən "media" adlandırılan KİV cəmiyyətdə böyük təsir gücünə malikdir. Təsadüfi deyil ki, medianı bir çox hallarda "dördüncü hakimiyyət" adlandırırlar. Lakin KİV o zaman "dördüncü hakimiyyət" funksiyasını yerinə yetirə bilir ki, o, azad və müstəqil olsun, siyasi və iqtisadi qurumların vassalına çevrilməsin.

Söz və mətbuat azadlığı bir çox hallarda cəmiyyətdə demokratiyanın meyarı, ölçüsü rolunu oynayır. Söz azadlığının olmadığı, mətbuatın senzuraya məruz qaldığı cəmiyyətdə insan hüquqları da tez-tez pozulur. Məhz bu səbəbdən bir çox mötəbər beynəlxalq qurumlar və demokratiyanın inkişafına xidmət edən təsisatlar müxtəlif ölkələrdə söz və mətbuat azadlığını daim diqqət mərkəzində saxlayırlar.

1991-ci il mayın 3-də Namibiyanın paytaxtı Vindhukda regional seminara toplaşmış jurnalistlər azad və müstəqil informasiya vasitələrinə yardımçı olmaq məqsədilə bütün dünya hökumətlərini mətbuat azadlığının və demokratikliyinin təmin edilməsinə yardımçı olmağa çağıran "Vindhuk Bəyannaməs"ini qəbul etdilər. Bununla bağlı BMT Baş Məclisi 1993-cü ildə mayın 3-nü Beynəlxalq Söz və Mətbuat Azadlığı Günü kimi qeyd etməyi qərara almışdır.

9 may FAŞİZM ÜZƏRİNDƏ QƏLƏBƏ GÜNÜ



XX əsrdə bəşəriyyət iki dünya müharibəsi ilə üzləşdi. İkinci Dünya müharibəsi əhatə dairəsinə, iştirakçı dövlətlərin sayına və müharibənin aparılması metodları və vasitələrinə görə birincidən qat-qat dəhşətli idi. İtaliyada faşist və Almaniyada nasist diktaturaları nəinki bu ölkələrin özlərini, habelə bütün bəşəriyyəti təhlükə altına qoymuşdu. Qərb demokratiyasının, faşizmin və kommunizmin toqquşmasının labüd nəticəsi olaraq bu müharibəyə o vaxt SSRİ-nin tərkibində olan Azərbaycan SSR də qoşulmalı olmuşdu. İkinci Dünya müharibəsinin tarix ədəbiyyatında çox vaxt "Vətən müharibəsi" adlanan 1941–1945-ci illər dövründə Azərbaycan xalqı istər cəbhədə, istərsə də arxada misilsiz döyüş və əmək rəşadətləri göstərmişdi. Qısa müddət ərzində Respublikada 87 qırıcı təyyarə və 1124 özünümüdafiə batalyonları təşkil olunmuşdu. 600 mindən çox azərbaycanlı cəbhəyə səfərbər olunmuşdu. Azərbaycanlılardan ibarət 416-cı, 271-ci, 77-ci, və 223-cü milli diviziyalar təşkil edilmişdi. Bu diviziyalar Qafqaz dağlarından Berlinədək şanlı bir döyüş yolu keçmişdilər. Xalqın mərd oğullarından 47 nəfəri, Azərbaycandan cəbhəyə gedən başqa millətlərin nümayəndələrindən isə 74 nəfəri ən yüksək hərbi ada – Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdü. 30 nəfər Şöhrət ordeninin hər üç dərəcəsi ilə, 176 min nəfər isə müxtəlif orden və medallarla təltif olunmuşdu. Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş ilk azərbaycanlı döyüşçü İsrafil Məmmədov



olmuşdur. Görkəmli general Həzi Aslanov isə bu yüksək ada iki dəfə layiq görülmüşdür. Sovet İttifaqı Qəhrəmanları Adil Quliyev, Ziya Bünyadov, Gəray Əsədov, Məlik Məhərrəmov, Mehdi Hüseynzadə, generallar Mahmud Əbilov, Akim Abbasov, Tərlan Əliyarbəyov, Hacıbaba Zeynalov və başqaları öz qəhrəmanlıqları ilə xalqımızın hərb tarixinə yeni şərəfli sətirlər yazmışlar.

Respublika iqtisadiyyatının hərbi rels üzərinə keçirilnıəsi sahəsində böyük işlər görüldü. Yüngül və yeyinti sənaye sahələri hərbiləşdirildi. Az vaxt ərzində Bakı şəhəri döyüşən ordunun cəbbəxanasına çevrildi. Böyük çətinliklərə baxmayaraq, neftçilərimiz döyüşən ordunu yanacaqla təmin edirdilər. Azərbaycan alimi Yusif Məmmədəliyevin başçılıq etdiyi alimlər qrupu yüksək oktanlı təyyarə benzininin alınması üsulunu kəşf etdilər.

1941-ci ildə Azərbaycanın neft tarixində rekord miqdarda – 23,5 miyon ton neft istehsal olundu. Bu SSRİ-də istehsal olunan neftin 71,4%-ni təşkil edirdi. Ümumiyyətlə, müharibə illərində Azərbaycan neftçiləri ölkəyə 75 milyon ton neft, 22 milyon ton

benzin və başqa neft məhsulları vermişdilər. Sovet ordusunun təyyarə və tankları demək olar ki, Bakı nefti ilə işləyirdi. Azərbaycanın digər sərvətləri də cəbhə üçün sərf olunurdu. Qadınlar döyüşçülər üçün yundan corab, əlcək, köynək toxuyur, bəzək əşyalarını müdafiə fonduna verirdilər. Kolxozçular ordunu ərzaqla təchiz edirdilər. Taxıl, ət, süd, yağ son damlasınadək cəbhənin ehtiyaclarına yönəlmişdi.

Sovet dövlətinin xalqımıza qarşı etdiyi ən böyük ədalətsizliklərdən biri də Bakıya layiq olduğu adın–"Qəhrəman şəhər" adının verilməməsi idi. Alman nasizmi üzərində qələbədə misilsiz rol oynamış Bakı neftinin roluna belə münasibət əsrlərdən bəri imperiyaların xalqımıza qarşı yeritdiyi ədalətsiz münasibətin bariz nümunəsi idi.

Tarixi arayış. İkinci Dünya müharibəsi 1939–1945-ci illəri əhatə etmişdir. Bu müharibə 1939-cu il sentyabrın 1-də nasist Almaniyasının Polşa üzərinə hücumu ilə başlanmış, 1945-ci il sentyabrın 2-də Yaponiyanın təslim olması ilə başa çatmışdır. Bu müharibədə dünyanın 61 dövlətindən 120 milyon adam iştirak etmişdir. Müharibədə ideoloji və siyasi yönümündən asılı olmayaraq 50-dən çox dövlət antifaşist koalisiyasında birləşmiş, dünyanı faşizm taunundan xilas etmişdir. Faşist bloku (Almaniya, İtaliya, Yaponiya, Macarıstan, Bolqarıstan, Rumıniya, Finlandiya) məğlub edilmiş, bu bloka daxil olan ölkələrin əksəriyyəti müharibənin gedişində onun tərkibindən çıxaraq, Almaniyaya və Yaponiyaya müharibə elan etmişdilər.

Müharibə bəşəriyyətə çox böyük itkilər bahasına başa gəldi. Təqribən 50 milyon adam həlak olmuşdu. Milyonlarla insan yaralanmış, şikəst olmuş, itkin düşmüş, əsir düşərgələrində işgəncə və zülmlərə məruz qalmışdır. Minlərlə şəhər, kənd, qəsəbə xarabazarlığa çevrilmişdir. Bir daha belə dəhşətli müharibəyə yol verməmək üçün bütün dünya öz qüvvələrini səfərbər etmişdir. Ona görə də Almaniyanın təslim olması günü – 9 may bütün bəşəriyyət tərəfindən faşizm üzərində Qələbə Günü kimi qeyd olunur. Birləşmiş Millətlər Təşkilatı Baş Məclisi 17 may tarixini Ümum-

17 may

ÜMUMDÜNYA İNFORMASİYA CƏMİYYƏTİ GÜNÜ

dünya İnformasiya Cəmiyyəti Günü kimi 27 mart 2006-cı ildə elan edib. Bu günün may ayının 17-də qeyd olunmasının tarixi səbəbləri var: məhz həmin gün – 1865-ci ildə Parisdə 20 Avropa ölkəsinin nümayəndələri tərəfindən Beynəlxalq Teleqraf İttifaqının (İnternational Teleqraph Union – İTU) yaradılması haqqında müqavilə imzalanıb. Belə bir ittifaqın yaradılmasının əsas məqsədi həmin dövrə məxsus teleqraf əlaqələri üçün vahid standartları müəyyən etmək idi.

Müasir dövrdə teleqraf əlaqələri müəyyən inkişaf mərhələlərindən keçərək informasiya-kommunikasiya texnologiyalarına çevrilmişdi. Bu texnologiyaların hər bir sahədə meydana çıxan məlumatların toplanmasında, emalında və ötürülməsində rolu çox böyükdür. İnformasiya-kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi zərurəti indiki qloballaşma dövründə daha çox hiss olunur. İKT-nin sürətlə inkişafı və yayılması bəşəriyyətin inkişafı üçün geniş imkanlar yaradır. İnformasiya cəmiyyətinin əsas məqsədi, bütövlükdə cəmiyyətin və ayrı-ayrı şəxslərin informasiya tələbatını ödəmək üçün müasir informasiya texnologiyaları bazasında müxtəlif təyinatlı informasiya resurs və fəzalarının formalaşdırılmasıdır. Ölkəmizdə informasiya cəmiyyətinin qurulması dövlət siyasətinin əsas prioritetlərindən biri kimi qəbul edilmişdir. İnformasiya cəmiyyətinin qurulmasının əsas vəzifələrinə İC-nin hüquqi əsaslarının yaradılması, insan amilinin inkişafı, vətəndaşların məlumat almaq, onu yaymaq və istifadə etmək hüquqları, şəffaf dövlət və yerli özünüidarəetmənin, elektron hökumətin, elektron ticarətin formalaşması, ölkənin iqtisadi, sosial və intellektual potensialının möhkəmləndirilməsi, informasiya və biliklərə əsaslanan, rəqabətə davamlı iqtisadiyyatın qurulması, informasiya və bilik bazarının yaradılması, tarixi, ədəbi-mədəni irsin saxlanması, müasir informasiya-kommunikasiya infrastrukturunun yaradılması, vahid mili elektron informasiya məkanının



formalaşdırılması, informasiya təhlükəsizliyinin təmini, qloabl informasiya fəzasına inteqrasiya, milli İKT məhsullarının istehsalı, ölkənin elektron geriliyinin aradan qaldırılması və digər vacib məsələlər daxildir.

Dünyada baş verən qloballaşma prosesi, ölkələrarası inteqrativ münasibətlərin meydana gəlməsi və inkişafında İnformasiya Cəmiyyəti müstəsna əhəmiyyətə malikdir. Belə bir şəraitdə, bazar iqtisadiyyatının tələblərinə uyğun elmin idarə olunması, intellektual mülkiyyətin formalaşması, qorunması və kommersiyalaşdırılması, vaxtı ilə "beyin axını" – alimlərin inkişaf etmiş ölkələrə getməsi prosesinin əvəzinə onların biliklərinin İntennet üzərində miqrasiyası və digər problemlərin həlli yeni konseptual baxışlar, yanaşmalar, təşkilati və iqtisadi-hüquqi mexanizmlər tələb edir.

Ümummilli lider Heydər Əliyev 2003-cü ilin fevral ayında Respublikamızda informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiq olunması və inkişaf etdirilməsi haqqında "Azərbaycanın inkişafı naminə İKT üzrə Milli Strategiya"nı (2003–2012-ci illər) təsdiq etmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2003-cü il dekabrın 12-də Cenevrədə İnformasiya Cəmiyyəti məsələləri üzrə Dünya Sammitində iştirakı beynəlxalq aləmə Azərbaycan dövlətinin bu sahəyə xüsusi diqqət yetirdiyini bir daha nümayiş etdirdi. İlham Əliyev sammitdəki çıxışında Azərbaycanın bu sahədə dövlət siyasətinin əsas prioritetlərini

şərh etmiş, onun İKT-ni inkişaf etdirməkdə maraqlı olduğunu bəyan etmişdir.


2005-ci ilin noyabr ayında informasiya cəmiyyəti üzrə Ümumdünya Sammitinin Tunis mərhələsində Azərbaycan Respublikasının nümayəndə heyətinin iştirakı da ölkəmizin beynəlxalq əlaqələrinin genişləndirilməsinə, həmçinin ölkədə İKT sahəsində inkişaf barədə geniş ictimaiyyətə məlumat ötürülməsinə imkan yaratmışdır. Sammitdə Cenevrə mərhələsindən keçən iki il müddətində İnformasiya Cəmiyyətinin formalaşması istiqamətində əldə etdiyi uğurlara görə Azərbaycana təşəkkür elan edilmişdir.

Azərbaycanda "Elektron imza və elektron sənəd haqqında" qanunun qüvvəyə minməsi ölkədə elektron sənəd dövriyyəsinin yaradılmasına və elektron imza tətbiq edilən yeni proseslərin inkişafına şərait yaratdı. "Elektron ticarət haqqında" qanun şəbəkə mühitində alqı-satqı əməliyyatlarının həyata keçirilməsi, müxtəlif növ ticarət xidmətlərinin göstərilməsi, yerinə yetiriləcək müqavilələrin elektron üsulla bağlanılması qloballaşan dünyada ölkələrarası iqtisadi əlaqələrin inkişafına xidmət edir.

"Telekommunikasiya haqqında" qanun telekommunikasiya şəbəkələri və operatorları, onlar arasında münasibətləri, həmçinin bu sahənin idarə olunması mexanizmini özündə əks etdirir. "İnformasiya əldə etmək haqqında" Qanun vətəndaşın məlumat əldə etmək hüququnun demokratik hüquqi dövlətin prinsipləri əsasında reallaşdırılmasını tənzimləyən normativ aktdır. Qanunun tələblərinə uyğun olaraq hökumət və yerli özünüidarəetmə orqanları İnternet resurslarından istifadəni təmin etməli və öz web resursunu yaratmalıdır.

18 may

BEYNƏLXALQ MUZEYLƏR GÜNÜ




Hər il maym 18-ni dünya mədəni ictimaiyyəti Beynəlxalq Muzeylər Günü kimi qeyd edir. Bu gün 1977-ci ildə Beynəlxalq Muzeylər Şurasının 11-ci konfransında Sovet nümayəndə heyətinin təklifi ilə təsis olunmuşdur. 1978-ci ildən etibarən bu bayram hər il 150-dən çox ölkədə qeyd olunur. Həmin gün Rusiyanın bütün muzeylərində "açıq qapı" elan olunur. Arzu edənlər pulsuz olaraq sərgi və ekspozisiyalara tamaşa edirlər.

"Muzey" yunan sözü olub, "muzalar məbədi" deməkdir. Muzalar qədim yunan mifologiyasında incəsənət və elm ilahələri hesab olunurdular. Sonralar maddi və mənəvi mədəniyyət abidələrini komplektləşdirən, saxlayan, nümayiş etdirən, tədqiq və təbliğ edən elmi müəssisələr muzey adlandırılmışdır.

Dünyada ilk muzey Ellin dövründə qədim Misirin paytaxtı İsgəndəriyyə şəhərində yaradılmışdır. Burada 40.000-dən artıq eksponatlar–sikkələr, heykəllər, sarkofaqlar, gil qablar, papiruslar və bir-birindən gözəl təsviri sənət nümunələri toplanmışdır. Bu eksponatlar qədim misirlilərin həyatı, məişəti, mədəniyyəti, eləcə də yunan-roma mədəniyyətləri haqqında zəngin məlumatlar verir.

İndi dünyada muzeylər çoxdur. Onlardan ən məşhurları Parisdə Luvr muzeyi (Fransa), Londonda Viktoriya və Albert muzeyi (Böyük Britaniya), İstanbulda Topqapı muzeyi (Türkiyə) və Sankt-Peterburqda Ermitajdır (Rusiya).

Ölkəmizdə muzey işinin qədim tarixi vardır. Azərbaycan hökmdarlarının saraylarında, məbədlərdə, həmçinin digər tikililərdə mədəniyyət tariximizin ən müxtəlif dövrlərinə aid qiymətli əşyalar və



sənət nümunələri mühafizə olunmuşdur. Tarixi və bədii əhəmiyyət daşıyan eksponatların mühüm bir qismi sonrakı dövrlərdə əsas etibarilə şəxsi kolleksiyalarda qorunub saxlanmışdır. Eyni zamanda, tarixən regionda baş vermiş geosiyasi hadisələr nəticəsində Azərbaycan mədəniyyətinin bir çox unikal nümunələri yüksək estetik dəyərə malik əsil sənət möcüzələri kimi dünyanın ən məşhur muzeylərinin daimi eksponatları sırasında yer almışdır. XIX əsrin ikinci yarısından etibarən Azərbaycanın ictimai-siyasi və mədəni fikir həyatında sürətlə cərəyan edən proseslər öz növbəsində muzey işinin təşkilinə təkan vermiş və ölkəmizdə müasir tipli muzeylərin yaradılmasına başlanmışdır. İlk belə muzeylərdən biri görkəmli maarifpərvər yazıçı C.Məmmədquluzadənin təşəbbüsü və yaxından iştirakı ilə XIX əsrin sonlarında təşkil olunmuşdur.

XX əsrin əvvəllərində Bakı ticarət məktəbi nəzdində Sənaye, Xalq məktəblərinin Bakı-Dağıstan müdiriyyəti nəzdində Pedaqoji, Rus texniki cəmiyyəti Bakı şöbəsi nəzdində Texniki muzeylər fəaliyyət göstərmişdir.

İlk milli muzeyin yaradılması isə Azərbaycan Xalq Cümhuriyyəti dövrü ilə bağlıdır. 1919-cu il dekabrın 7-də "İstiqlal" muzeyi fəaliyyətə başladı. Muzeyin təsisi ilə əlaqədar "Azərbaycan" qəzeti (1919, 23 sentyabr) yazırdı: "Sənələrdən bəri bəslədiyimiz bir arzu var ki, o da vətənimiz Azərbaycanda bir milli muzey təsisidir. Sabiq Rusiya zamanında təsis edəcəyimiz muzeyin adını "milli muzey" qoymaq fikrində idiksə də, bu gün fərdimizin köksünü qabardan istiqlal şüarı olmasına görə "İstiqlal muzesi" olmasını əhəmiyyətli görürüz". Muzeydə tariximizi, milli-mənəvi dəyərlərimizi əks etdirən eksponatlar – məişət əşyaları, silah-


lar və əlyazmalar toplanmışdı. Muzeyin təşkili və fəaliyyəti ilə bağlı bütün xərclər Azərbaycan Parlamenti Rəyasət Heyətinin hesabına idi. Aprel işğalından sonra "İstiqlal" muzeyinin eksponatları yeni təşkil olunmuş Azərbaycan dövlət muzeyinə verildi. Sonralar eksponatların bir hissəsi (o cümlədən, Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı, "İstiqlal Bəyannaməsi"nin əsli, Azərbaycan Parlamentinin materialları və s.) Moskvadakı İnqilab muzeyinə aparıldı. Sovet hakimiyyəti illərində Respublikada muzey şəbəkəsi daha da genişlənmişdi: Nizami adına Ədəbiyyat muzeyi, L.Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənət Dövlət Muzeyi, Azərbaycan Tarix muzeyi, Xalq Maarifi muzeyi, əksər rayon və şəhərlərdə tarix-diyarşünaslıq muzeyləri, elm və mədəniyyət xadimlərinin ev muzeyləri və s. bu qəbildəndir. İftixar hissi ilə qeyd olunmalıdır ki, Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənət Dövlət Muzeyi dünyada yeganə belə muzeydir. Bu muzey həm də Azərbaycanda yeganə muzeydir ki, öz virtual muzeyi vardır.

Azərbaycan həm də açıq səma altında yerləşən muzeylər ölkəsidir. Bunu Qobustanda, İstisuda (Kəlbəcər), Zəngəzurda və Gəmiqayada (Naxçıvan) qayalar üzərindəki təsvirlər sübut edir. Məşhur Norveç alimi və səyyahı Tur Heyerdal Qobustanda olarkən buranı obrazlı şəkildə "səma altında muzey" adlandırmışdır.

Son illər sürətli yüksəliş dövrünü yaşayan ölkəmizdə milli-mədəni sərvətlərin qorunması və gələcək nəsillərə çatdırılması işinə qayğı və diqqət gücləndirilmişdir. Azərbaycan Tarix və Azərbaycan Ədəbiyyatı muzeylərində bərpa və yenidənqurma işləri başa çatdırılmışdır. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasınınm paytaxtı Bakı şəhərində İstiqlal muzeyinin yaradılması və İstiqlal abidəsinin ucaldılması haqqında" (18 dekabr 2006-cı il), "Müasir İncəsənət Muzeyinin yaradılması haqqında" (16 dekabr 2006-cı il) və "Azərbaycanda muzey işinin yaxşılaşdırılması haqqında" (7 mart 2007-ci il) sərəncamlar buna sübutdur. 2009-cu il martın 19-da Müasir İncəsənət Muzeyinin fəaliyyətə başlaması muzey işinə dövlət qayğısının bariz nümunəsidir.

22 may

BEYNƏLXALQ BİOMÜXTƏLİFLİK GÜNÜ





1992-ci il mayın 22-də Keniyanın Noyrabi şəhərində bioloji irsin mühafizəsi məqsədi ilə Bioloji Müxtəliflik haqqında Beynəlxalq Konvensiya qəbul olunmuşdur. Azərbaycan dövləti 2000-ci ildə bu Konvensiyaya qoşulmuşdur. 2000-ci ilin 20 dekabrında BMT Baş Məclisi Konvensiyanın qəbul edildiyi 22 may tarixini Beynəlxalq Biomüxtəliflik Günü elan etmişdir.

Bu mühüm Konvensiyanın təməl prinsiplərinin yerinə yetirilməsi Azərbaycan üçün də əhəmiyyətlidir. Həmin prinsiplərə uyğun olaraq ötən dövr ərzində Respublika ərazisində bioloji müxtəlifliyin qorunması ilə bağlı bir sıra tədbirlər həyata keçirilmiş, xüsusi mühafizə olunan təbiət ərazilərində mühafizə rejiminin gücləndirilməsi, bu sahədə hüquqi bazanın möhkəmləndirilməsi və mövcud qanunvericiliyin beynəlxalq hüquq normalarına uyğunlaşdırılması istiqamətində müvafiq tədbirlər görülmüşdür.



2008-ci ildə "Beynəlxalq Biomüxtəliflik günü" bütün dünyada "Bioloji Müxtəliflik və İqlim Dəyişiklikləri" mövzusu altında qeyd edilmişdir. Çünki iqlim dəyişiklikləri biomüxtəlifliyə ciddi təsir göstərir.

1 iyun

UŞAQLARI BEYNƏLXALQ MÜDAFİƏ GÜNÜ

XX əsrdə uşaqlar daha çox təcavüzə, zorakılığa, irqi ayrı-seçkiliyə, deportasiya və soyqırımlarına məruz qalmış insanlardır. Bu əsrdə baş vermiş iki dünya müharibəsi, lokal müharibələr, dini, irqi və etnik zəmində toqquşmalar, aparteid, soyqırımları yüz minlərlə uşağı valideyn himayəsindən məhrum etmiş, onların həyatına son qoymuş, ən adi insan hüquqları kobudcasına pozulmuşdur. İndi də dünyanın bir çox ölkələrində uşaqlar aclıqdan əziyyət çəkirlər. Uşaq alveri, uşaqların bədən orqanlarının çıxarılaraq satılması kimi insanlığa yaraşmayan hərəkətlər hələ də davam etməkdədir. Erməni faşistləri minlərlə azərbaycanlı uşağını xüsusi amansızlıqla qətlə yetirmiş, onlara qarşı misli görünməmiş zorakılıqlar törətmişlər.



Gələcəyin qurucuları olan uşaqları haqsızlıqlardan qorumaq bəşəriyyəti daim narahat edən məsələlərdəndir. İyunun 1-ni Uşaqları Beynəlxalq Müdafiə Günü elan etmək də bu zərurətdən doğmuşdur. Beynəlxalq bayramlar içərisində daha çox tarixə malik olanı da məhz bu bayramdır. Həmin günün qeyd olunması haqqında qərar Beynəlxalq Demokratik Federasiyanın 1949-cu ilin noyabrında keçirilmiş xüsusi sessiyasında qəbul edilmişdir. Uşaqların Beynəlxalq Müdafiəsi Günü ilk dəfə 1950-ci ilin 1 iyununda qeyd olunmuşdur. BMT bu təşəbbüsü bəyənmiş və uşaqların hüquqlarını, həyat və sağlamlıqlarını öz fəaliyyətinin prioritet istiqamətlərindən biri kimi elan etmişdir.

BMT-nin "Uşaq hüquqları" haqqında Konvensiya" adlı sənədi uşaqların hansı dövlətdə yaşamasından asılı olmayaraq, onların hüquqlarını tam əhatə edir. Konvensiyaya qoşulan dövlətlər onun müddəaları ilə hüquqi nöqteyi-nəzərdən razılaşdıqlarını bəyan edirlər, yəni bu müddəalardakı göstərişlərin yerinə yetirilməsi öhdəliyini öz üzərlərinə götürürlər. Onlar bu istiqamətdə görülən tədbirlər haqqında məlumatı vaxtaşırı olaraq BMT-nin İnsan Hüquqları haqqında Komitəsinə təqdim edirlər. Hazırda Konvensiyaya 189 ölkə qoşulub. Azərbaycan Respublikası bu Konvensiyanı 1992-ci ildə ratifikasiya edib.

Konvensiyanın əsas fəlsəfi ideyası uşaq şəxsiyyətidir. Konvensiyada əsas müddəa uşağın maksimum müdafiəsidir. Bununla yanaşı, Konvensiya iştirakçı ölkələri uşaqların öz ölkəsinin sosial-siyasi həyatında daha fəal və yaradıcı iştirakına imkan verən şərait yaratmağa çağırır.

Konvensiyanın mühüm prinsipi irqi ayrı-seçkiliyə yol verməməkdir. Uşaqlar irqindən, dərisinin rəngindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, özlərinin və ya valideynlərinin sağlamlıq vəziyyətindən asılı olmayaraq, öz hüquqlarından istifadə etməlidirlər.

Uşağın bütün hüquqları əhəmiyyətlidir. Bununla belə, bəzi hüquqlar daha vacib hesab edilir. Bunlar ilk növbədə uşağın yaşamaq hüququ, habelə bərabərlik və onun şəxsi rəyinə hörmət hüququdur.

YUNİSEF-in "XXI əsr üçün gündəlik" – XXI yüzillikdə ətraf mühit və inkişaf üzrə Qlobal Fəaliyyət Proqramında deyilir ki, "Uşaqların gələcəkdə yaşlıların qeyri-kamil dünyasının passiv qurbanları rolunu oynamaması üçün onlar öz hüquqlarını bilməli, gələcək üçün öz məqsədlərini başa düşməli və buna uyğun hərəkət etməlidirlər".

Azərbaycan dövləti də bu Konvensiyadan irəli gələn öhdəliklərin yerinə yetirilməsinə çalışır. Bu sahədə əsas milli sənəd olan "Uşaq Hüquqları haqqında" Azərbaycan Respublikası Qanunu qəbul olunmuşdur. Hər il iyunun 1-i günü ölkəmizdə də Uşaqların Beynəlxalq Müdafiə Günü kimi geniş qeyd olunur.

5 iyun

ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ GÜNÜ

İkinci Dünya müharibəsindən sonra bəşəriyyət bir daha yəqin etdi ki, insanı təbiətdən ayrı dərk etmək olmaz. Təbiət anadır, insan isə onun övladıdır. Övlad anasının qədrini bilməlidir. İnsanlığın əsas göstəricilərindən biri onu yaradıb bəsləyənə hörmətdir. Təbiətin qədrini bilmək, qayğısına qalmaq – insanlığın göstəricisidir. Belə bir bənzətmə var: "təbiət gözəl qadındır, insan isə onun qulaqlarından asılmış qiymətli sırğadır; sırğa qadına çox əziyyət verərsə, qadın onları açıb ata bilər". Ona görə müasir insanlar biosferi qoruyub saxlamaq üçün qlobal miqyaslı tədbirlər hazırlayıb həyata keçirməyə çalışırlar. Bu tədbirlər bəşəriyyəti bütövlükdə əhatə edir, hər kəs dünya və gələcək nəsillər qarşısında məsuliyyət daşıyır.

Bunları nəzərə alan BMT Baş Məclisi 1972-ci il dekabrın 15-də iyunun 5-ni Ətraf Mühitin Mühafizəsi Günü elan etmişdir. Bu qərarda məqsəd ictimaiyyətin diqqətini ətraf mühiti qorumaq və yaxşılaşdırmaq sahəsində təxirəsalınmaz tədbirlərin keçirilməsi-



nə yönəltməkdir. Həmin günün seçilməsi onunla əlaqədardır ki, 1972-ci il iyunun 5-də Stokholmda BMT-nin Ətraf mühitin mühafizəsi problemlərinə dair konfransı açılmış və burada BMT-nin ətraf mühit haqqında proqramı qəbul edilmişdir.

Hər bir insan özünün fəaliyyəti prosesində bu və ya digər formada təbiət və ətraf mühitlə təmasda olur. Bu baxımdan hər kəs istər məişətdə, istərsə də istirahət zamanı ətraf mühitin qorunmasına qayğı ilə yanaşmalıdır. Ətraf mühiti qorumaq vəzifəsi ilk növbədə əmək fəaliyyəti nəticəsində təbiətdən istifadə edən və ətraf mühitə təsir edə bilən hər bir şəxsin üzərinə düşür.

Hər kəsin ətraf mühiti qorumaq və ona qayğı ilə yanaşmaq vəzifəsi həm hüquqi, həm də əxlaqi dəyərlərlə ölçülür. Həyat fəaliyyəti ətraf mühit və təbiətlə bağlı olan hər kəs bu sahədə mövcud qanunvericiliyin bütün tələblərinə əməl etməlidir. Ətraf mühiti qorumaq və ona qayğı ilə yanaşmaq cəmiyyətin hər bir üzvünün mənəvi borcudur. Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra iqtisadiyyatın bütün sahələrində ekoloji mühafizə amilinə diqqət artırılmışdır. Ekologiya üzrə bir çox özəl təşkilatlar (təbiəti mühafizə cəmiyyəti, yaşıllar hərəkatı, ekoloji ittifaq, ekoloji bərpa mərkəzi və s.) fəaliyyət göstərir. Onlar ətraf mühitin mühafizəsi sahəsində dövlət təşkilatlarına kömək etməklə yanaşı, təbii mühitin sağlamlaşdırılması istiqamətində məqsədyönlü işlər görürlər.

Ətraf mühitin mühafizəsinin hüquqi, iqtisadi və sosial əsasları "Ətraf mühitin mühafizəsi haqqında" 1999-cu il 8 iyun tarixli Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilir. Ətraf mühitin ekoloji tarazlığının mühafizəsi sahəsində ekoloji təhlükəsizliyin təmin edilməsi, təbii ekoloji sistemlərə təsərrüfat və başqa fəaliyyətin zərərli təsirinin qarşısının alınması, bioloji müxtəlifliyin qorunub saxlanması və təbiətdən istifadənin səmərəli təşkili Azərbaycan dövlətinin ekologiya sahəsində qarşıya qoyduğu əsas vəzifələrdir.

20 iyun

ÜMUMDÜNYA QAÇQINLAR GÜNÜ

Qaçqın və məcburi köçkün problemi dünyanın ən ağır və ağrılı problemlərindən biridir. Böyük dövlətlər və onların başçıları, nüfuzlu beynəlxalq qurumlar və siyasi təhlilçilər bəşəriyyəti daim narahat edən bu ciddi problemin həlli istiqamətində əməli işlər görür, prespektivli layihələr həyata keçirirlər. BMT Baş Məclisi tərəfindən 4 dekabr 2000-ci ildə qəbul olunmuş qətnamə ilə 20 iyun – Ümumdünya Qaçqınlar Günü kimi qeyd edilir. O vaxtadan hər ilin bu günü dünya qaçqınlarına dəstək və ehtiram nümayiş etdirilir.

Hər il ilin bu günü müəyyən məsələyə həsr edilir. 2009-cu ildə isə bu məsələyə həsr olunmuş tədbirlər "Real insanlar, Real Ehtiyatlar" adı altında keçirilmişdir.

İkinci Dünya müharibəsindən sonra Avropa məkanında milyonlarla insanın qaçqın vəziyyətinə düşməsi və ölkə daxilində köçürülmələr beynəlxalq birliyi müharibədən əvvəlki dövr və mürəkkəb problem qarşısında qoydu. Bu insanlara yardım etmək və onların ağır vəziyyətinin uzun müddət tənzimləmə yollarını axtarib tapmaq üçün 1945-ci il dekabrın 14-də BMT Baş Məclisində BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının yaradılması haqqında qərar qəbul edildi.

BMT 1951-ci il iyulun 28-də Qaçqınların statusu haqqında Konvensiyanı qəbul etdi. Dünya dövlətlərinin çoxu bu sənədi dərhal ratifikasiya etdilər. Bununla onlar qaçqınları öz himayələri altına alır və onları təqib və ölüm təhlükəsinin gözlədiyi ölkələrə qaytarmamağa razılıq verirlər. Azərbaycan dövləti də 1992-ci ildə bu Konvensiyaya qoşulmuşdur. Ölkəmizdə bu Konvensiyanın və 1967-ci il Protokolunun tələblərinə uyğunlaşdırılmış müvafiq qanunlar qəbul edilmiş, qaydalar təsdiq olunmuşdur.

Bəs kimlərə qaçqın deyirlər? Bu barədə Konvensiyada dəqiq tərif vardır: qaçqın – irqi, dini, vətəndaşlıq, müəyyən sosial qrupa mənsubluğa və siyasi əlamətlərə görə təqiblərin qurbanı olmaq barədə tam əsaslı qorxya görə öz ölkəsini tərk etmiş və elə bu səbəbdən də oraya qayıda bilməyən, yaxud qayıtmaq istəməyən şəxsdir.

Hazırda dünyada müxtəlif səbəblər üzündən öz yurdlarından məhrum olanların sayı təqribən 42 milyon nəfərdir. Onların 16 milyonu qaçqın, sığınacaq axtaran şəxs, 26 milyon nəfəri isə məcburi köçkündür. Digər ölkələrlə müqayisədə ən yüksək nisbi göstərici Azərbaycanın payına düşür. Ermənistanın 1988–1992-ci illərdə planlı şəkildə həyata keçirdiyi etnik təmizləmə siyasəti və ölkəmizə hərbi təcavüzü nəticəsində 1 milyon nəfərədək insan öz vətənində qaçqın və məcburi köçkün həyatı yaşamağa məcbur olmuşdur. Başqa sözlə, ölkə əhalisinin hər 8 nəfərindən biri öz doğma el-obasından didərgin düşmüşdür. Bu digər ölkələrlə müqayisədə analoqu olmayan hadisədir.

Hökumətlər çox vaxt iddia edirlər ki, qaçqınların qorxuları şişirdilib və ya uydurmadır. Bu cür canqurtaran izah və dəlillərdən qaçqınları müxtəlif təşkilatlar müdafiə edirlər. Onlar qaçqınların tərk etdikləri ölkələrdə insan hüquqlarının pozulmasına dair sübutlar göstərməklə, hökumətləri qaçqınların vəziyyəti ilə yaxından məşğul olmağa, onları sığınacaqlar verilməsi barədə vəsadətlərinə qayğı ilə yanaşmağa sövq edirlər

Bu gün qaçqın və məcburi köçkünlərin qayğıları, sosial problemlərinin, münaqişənin siyasi cəhətdən həlli Azərbaycan dövlətinin yerinə yetirdiyi prioritet vəzifələrdəndir. Qaçqınlar və məcburi köçkünlərin sosial müdafiəsi ilə bağlı son beş ildə (2004–2009) 19 fərman və sərəncam verilmiş, bir Dövlət Proqramı və ona əlavələr təsdiqlənmiş, Milli Məclis tərəfindən bir qanun qəbul edilmişdir. İndi respublika ərazisindəki bütün çadır şəhərcikləri ləğv edilmiş, 41 min nəfər məcburi köçkün Ağdam, Ağcabədi, Biləsuvar, Sabirabad, Saatlı, Füzuli, Sabunçu və Dəvəçi rayonlarının ərzisində salınmış 30 qəsəbəyə köçürülmüşdür.

Qaçqın və məcburi köçkünlərin sodial-iqtisadi problemləri həll olunsa da, yurd sevgisi, doğma el-obaya qayıdış onların ən böyük arzusudur. Azərbaycan dövləti bu istiqamətdə də xeyli iş aparmış, dünya ictimaiyyətinin diqqətini bu problemin həllinə yönəltməyə nail olmuşdur.

Məcburi köçkünlərin öz doğma yerlərinə qayıdacağı zaman lazımi şəraitlə təmin edilməsini nəzərdə tutan Böyük Qayıdış proqramı da hazırdır. Torpaqlar işğaldan azad olunan kimi, Azərbaycan dövləti həmin ərazilərdə bərpa işlərinə başlayacaq.

26 iyun

NARKOMANİYA VƏ NARKOBİZNESƏ QARŞI BEYNƏLXALQ MÜBARİZƏ GÜNÜ



Narkomaniya "ağ ölüm"dür, həyatdan üz çevirməkdir. "Narkomaniya" və "ölüm" sözləri bu gün insanların təsəvvüründə sinonim sözlərə çevrilib. Müasir dövrümüzdə insanlıq üçün böyük bəla olan narkomaniya bütün dünyada geniş yayılmışdır. Bu bəla ilə mübarizə etmək bir o qədər də asan deyil. Narkotik maddə alverçiləri uşaqların çox olduğu yerlərdə olur, onlara həmin məhsulları təklif edirlər. Pul qazanmaq naminə onlar insanları, xüsusilə uşaqları ölümə aparan bu pis vərdişə alışdırırlar.

Narkotik maddələr müxtəlif çeşidlidir. Daha çox yayılanları isə xaşxaş, tiryək, marixuana, heroin, kakoin və sairdir. Son illər kimyəvi laboratoriyalarda hazırlanan yeni sintetik narkotik maddələr meydana gəlmişdir. Bunlar xüsusilə təhlükəlidir, çünki birinci dəfədən adamı özünə alışdıra bilir. Narkotiklərdən asılılıq ağır xəstəliyə – narkomaniyaya gətirib çıxarır. Narkotik maddələr insan sağlamlığına bərpaedilməz ziyan vurur, fiziki qüvvələri tükəndirir, bədənin çəkisi birdən-birə azalır, ümumi zəhərlənmə baş verir.

Narkomaniya keçici xəstəliklərin sürətlə yayılmasına səbəb olur. Narkotik maddələrin bir çoxu şprislə qana ötürüldüyündən və narkoman qrupları daxilində eyni şprisdən istifadə edildiyindən narkomanlar arasında QİÇS və başqa xəstəliklərə tutulmuş insanlar çoxdur. Narkotik maddə alverçiləri heroin və kakoinə yuyucu toz və ya şəkər tozu qatıb satırlar, ona görə də narkomanda şəkər diabeti tez inkişaf edir. Əgər "xalis mal", yəni heç bir qarışığı olmayan narkotik maddə qəbul olunarsa, zəhərin təsirindən o saat ölmək olar. Ən dəhşətlisi odur ki, bir neçə dəqiqə ərzində baş beyin zədələnə və bununla da yaşaya-yaşaya şikəstlik əmələ gələ bilər. Belə bir halda adam düşünmək, hərəkət etmək,

reaksiya vermək qabiliyyətini itirir, danışmaq və müxtəlif əşyalardan istifadə etmək imkanından məhrum olur. Bu vəziyyət illərlə davam edə bilər.

Narkotik maddələrlə ticarət böyük gəlir gətirir. Milyard dollarla qazanc əldə edən cinayətkarlar üçün bacardıqca daha çox adamı "iynəyə oturtmaq", daha çox gəncləri və uşaqları narkomaniyaya sövq etmək sərfəli işdir. Bir az "yüngül" narkotiklərdən başlayan insan tez bir zamanda çox təsiredici narkotiklərə alışır və müalicəsi mümkün olmayan xəstəliklərə düçar olur.

Nəyə görə müasir dünyamızda narkomaniya bu qədər geniş yayıla bilmişdir? 1960-cı illərdə "gənclik inqilabı" adlanan dövrdə gənc sənət adamları arasında narkotik maddələrin qəbulu dəbə düşmüş, bu, hətta özünəməxsus həyat tərzinə çevrilmişdi. Onlar bunu ictimaiyyətdən gizlətmir, bəzən sənət uğurlarını narkotik maddələrin qəbulu ilə əlaqələndirirdilər. Bu sənətçilərin pərəstişkarları da onların həyat tərzini təqlid edərək narkotik maddə qəbul edirdilər. Bu nəsildən olan bir çoxları belə məst olmaqla günlərini, həyatlarını başa vururdular. Tanınmış adamların arasıda da narkomaniyanın qurbanları olmuşdur.

O illərdən xeyli vaxt keçmişdir. Lakin narkomaniya ilə məşğul olanlar narkotiklərin insanı ağır problemlərdən uzaqlaşdırması, həyatı daha rəngarəng, maraqlı etməsi haqqındakı xülyaları yaymaqda davam edirlər.

Narkotik maddələrin gənc nəsillər arasında yayılması təhlükəsini nəzərə alaraq, bir çox ölkələr "Narkotiksiz gələcək naminə" milli proqramlar qəbul edirlər. Buraya təhsil ocaqlarında, hüquq mühafizə orqanlarında, təşkilatlarda narkomaniyanın ziyanı haqqında maarifləndirilmə kampaniyaları daxildir. Bu kampaniyalar kütləvi informasiya vasitələri, o cümlədən internet şəbəkəsi vasitəsilə aparılır.

Narkomaniya ilə bağlı problemləri daim ictimaiyyətin nəzarəti altında saxlamaq məqsədilə BMT iyun ayının 26-nı Narkomaniyaya və Narkobiznesə qarşı Beynəlxalq Mübarizə Günü elan etmişdir.

12 avqust
BEYNƏLXALQ GƏNCLƏR GÜNÜ

1998-ci il avqustun 8-dən 12-dək Lissabonda gənclərlə iş üzrə nazirlərin iştirakı ilə keçirilən beynəlxalq konfransda hər il avqustun 12-nin Beynəlxalq Gənclər Günü kimi qeyd olunması barədə qərar qəbul etmişdir.

Tarixən hər bir xalq özünün xoşbəxt gələcəyə olan ümidlərini ilk növbədə gənc nəslə bağlayır. Gəns nəslin yetişdirilməsi hər bir ölkə üçün ən başlıca məsələdir. Çünki ölkənin gələcəyi, müqəddəratı indiki gənclərdən asılı olacaqdır. Nəsillər dəyişir, ölkələr inkişaf edir. Ancaq ənənələr, milli dəyərlər yaşayır və ölkənin hərtərəfli, uğurlu inkişafına hər bir insan öz töhfəsini verməlidir.

Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması onun mənsub olduğu xalqın rifahının, ölkənin çiçəklənməsinin rəhnidir. Bu gün böyük iftixarla demək olar ki, müasir Azərbaycan gəncliyi milli-mənəvi dəyərlərimizi, doğma ana dilimizi, ata-babalardan qalan gözəl adət-ənənələrimizi göz bəbəyi kimi qoruyub yaşadır. O öz həyatını qurarkən ilk növbədə müstəqil Azərbaycanın bu günü və gələcəyi haqqında düşünür, öz fəaliyyətində yüksək vətəndaşlıq hisslərinə malik olduğunu nümayiş etdirir.

Ümummilli lider Heydər Əliyev gənclərlə bağlı məsələləri həmişə öz siyasətinin əsas tərkib hissələrindən biri hesab edir, gənclərin imkan və bacarıqlarını yüksək qiymətləndirir, onların problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərə xüsusi önəm verir, bu siyasətin müstəqil Azərbaycan dövlətinin ən mühüm fəaliyyət istiqamətindən biri kimi dəyərləndirirdi. Hələ XX əsrin 70-80-cı illərində Heydər Əliyevin diqqət və qayğısı sayəsində minlərlə azərbaycanlı gənc keçmiş SSRİ-nin aparıcı ali məktəblərinə müxtəlif ixtisaslar üzrə təhsil almağa göndərilmişdir. Gənc nəslə diqqət və qayğı dövlətin ən mühüm fəaliyyət istiqamətlərindən birinə çevrilmiş, Azərbaycan gənclərinin təşkilatlanması əsas məqsədlərdən biri kimi qarşıya

qoyulmuşdur. Ayrı-ayrı dövlət orqanlarının gənclərlə iş sahəsindəki fəaliyyətini əlaqələndirmək məqsədi ilə 1994-cü ildə yaradılmış Gənclər və İdman Nazirliyi qısa vaxtda dövlət gənclər siyasətinin istiqamətlərini müəyyənləşdirərək uğurla həyata keçirməyə başlamışdır.

O vaxtdan gənclər siyasətinin işlənib hazırlanması və həyata keçirilməsi sahəsində əməli işlər görülmüşdür. Ümummilli liderin 1995-ci ildə irəli sürdüyü Gənclər Formu ilə bağlı təşəbbüsündən sonra 1996-cı ildən başlayaraq Azərbaycan gənclərinin forumları keçirilir. Forumlarda ulu öndər Heydər Əliyevin proqram xarakterli nitqlərində gənclərin qarşısında vəziflər müəyyənləşdirilmiş, gənc nəslin hərtərəfli inkişafı, problemlərinin həlli sahəsində tədbirlərin görülməsi əlaqədar təşkilatların qarşısında mühüm vəzifə kimi qoyulmuşdur. 1996-cı il fevralın 2-də keçirilən I forumda Heydər Əliyev gənclər qarşısında tarixi bir vəzifə qoydu. Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir. Bu forum Azərbaycanda gənclər hərəkatının vüsət almasına təkan verdi. Yeri gəlmişkən indiyədək gənclərin 5 forumu keçirilmişdir.

Heydər Əliyev I Forumdan sonra gənclərlə aparılan işin nəzərəçarpacaq dərəcədə canlandığını nəzərə alaraq 1997-ci ildə imzaladığı Sərəncamla tədbirin keçirildiyi günü – fevralın 2-ni Azərbaycan Gənclər günü elan etmişdir.

Tarixdə böyük şəxsiyyətlərin əksəriyyəti gəncliyə müraciət etmişdir. II Forumda gənclərə müraciət edən ümummilli liderimiz demişdir: "Biz müstəqil Azərbaycanın taleyini gələcəkdə sizə tapşıracağıq. Ona görə Azərbaycanı, Azərbaycan dövlətini yaşatmaq, inkişaf etdirmək üçün hazır olun!"

Ulu öndərin gənclərlə bağlı imzladığı bir çox sənədlər isə respublikanın ictimai-siyasi həyatında gənclərin daha fəal iştirakı üçün şərait yaratmış, gənclər siyasətinin məqsəd, prinsip və istiqamətlərini, təşkilati-hüquqi əsaslarını müəyyən etmişdir. Bütün bunlar Heydər Əliyevin gənclərə böyük qayğısının sübutu idi.

Ümummilli lider Heydər Əliyevin uzaqgörənliklə formalaşdırdığı gənclər siyasəti bu gün yeni mərhələyə qədəm qoymuşdur. Prezident İlham Əliyev onun gənclər siyasətinə sadiqliyini qəbul etdiyi bütün qərarları ilə sübut etmişdir. Dövlətimizin başçısı gəncləri aparıcı qüvvəyə çevirmək və onların sosial-iqtisadi problemlərinin həllini təmin etmək məqsədi ilə 2005–2009-cu illəri əhatə edən Dövlət Proqramını təsdiq etmidir. Dövlət quruculuğunda gənclərin iştirakına şərait yaradılması, gənclərin mənəvi inkişafı, onların vətənpərvərlik ruhunda tərbiyəsi, Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil alması, sosial müdafiəyə ehtiyacı olanların problemlərinin həlli, gənclər təşkilatının formalaşması və inkişafı üçün yaradılan yüksək şərait böyük diqqət və qayğının nəticəsidir. 2005-ci ildə gənc ailələrə güzəştli ipoteka kreditinin verilməsi barədə Prezidentin imzaladığı Fərman Azərbaycan dövlətinin gənclərə göstərdiyi qayğının bariz nümunəsidir.

Gənclər siyasətində idmanın inkişaf etdirilməsi və onun kütləviliyinin artırılması da mühüm yer tutur. Dövlətimizin başçısının ardıcıl səyləri nəticəsində Azərbaycan dünyanın qabaqcıl idman ölkələrindən birinə çevirilmişdir. Azərbaycanın müxtəlif bölgələrində olimpiya idman komplekslərinin açılması, ölkəmizin nüfuzlu beynəlxalq idman yarışlarına ev sahibliyi etməsi, idmançılarımızın olimpiadalarda, dünya çepionatlarında uğurlu çıxışları buna əyani sübutdur.

Prezident İlham Əliyevin 2007-ci ilin Gənclər ili elan edilməsi ilə bağlı Sərəncamı gənclərin ölkə həyatındakı fəallığını daha da artırmışdır. Azərbaycanda müasir gənclər hərəkatının inkişafı üçün dövlət səviyyəsində кifayət qədər işlər görülmüş, uşaq və gənclərin qeyri-hökumət təşkilatlarının yaradılması fəaliyyətlərinin təşkili üçün sağlam mühit yaradılmış və hüquqi baza təkmilləşdirilmişdir. Hazırda öz sıralarında 200 minədək gənci birləşdirən YAP Gənclər Birliyi bu gün ABŞ, Ukrayna, Türkiyə, Moldova, Almaniya, Bolqarıstan və İtaliyanın hakim partiyalarının gənclər təşkilatları ilə sıx əməkdaşlıq edir.

Hər bir xalqın, hər bir millətin, hər bir ölkənin gəncləri onun

həm bu günüdür, həm də sabahıdır, ümididir. Ulu öndər Heydər Əliyevin bu fikri indi də aktual səslənir və gəncləri Azərbaycanın sabahı naminə səfərbər edir.

Həqiqətən də gənclik böyük qüvvədir. Bu gün Azərbaycan gəncləri öz fəaliyyəti ilə sübut etmişlər ki, onlar ölkəmizin dəyərli vətəndaşlarıdır. Müstəqillik və dövlətçiliyimizin möhkəmləndirilməsi, etibarlı gələcəyimizin təmin edilməsi gənclərin sosial-siyasi fəallığının yüksəldilməsindən çox asılıdır. Dövlət gənclər siyasətinin aparıcı xəttini də məhz bü mühüm konsepsiya təşkil edir. Bütün bunlar onu bir daha sübut edir ki, dövlət gənclərə diqqət və qayğısını əsirgəməyəcək, həm onların üzləşdikləri çətinliklərin aradan qaldırılmasını, həm də cəmiyyətin bütün sahələrində fəal iştiraklarını təmin etmək üçün bütün zəruri tədbirləri həyata keçirəcəkdir.


Bu, böyük xoşbəxtlik, böyük səadətdir ki, indiki gənclər müstəqillik dövründə formalaşırlar. Bəzi hallarda indiki gənclərin ağlına da gələ bilməz ki, vaxtilə yaşadığımız ölkədə müəyyən məhdudiyyətlər var idi, azadlıqlar yox idi. Sərbəst fikir söyləmək, ayrı fikirdə olmaq, dünyanı görmək kimi hər bir insan üçün təbii olan imkanlar mövcud deyildi. Bizim böyük xoşbəxtliyimiz ondadır ki, bu gün müstəqil ölkədə yaşayırıq. Azərbaycan xalqı müstəqilliyə qovuşmuşdur. Eyni zamanda müstəqil, açıq dövlətə xas olan bütün amillər Azərbaycanda mövcuddur. Bu gün Azərbaycan öz tarixinin şərəfli və mürəkkəb dövrünü yaşayır. Azərbaycanın dövlət müstəqilliyinin və suverenliyinin qorunub möhkəmləndirilməsi, ərazi bütövlüyünün təmin edilməsi, o cümlədən işğal olunmuş torpaqlarımızın azad olunması, ölkə iqtsadiyyatının sürətlə inkişaf etdirilməsi, əhalinin sosial problemlərinin həlli, Azərbaycanın dünya birliyində öz layiqli yerini tutması yolunda görüləsi işləri hələ çoxdur. XXI əsrdə müstəqil Azərbaycanın inkişafı naminə görüləcək bu əzəmətli işlərin həyata keçirilməsinin əsas ağırlığı və məsuliyyəti isə bugünkü gənclərin üzərinə düşür.

8 sentyabr

JURNALİSTLƏRİN HƏMRƏYLİYİ GÜNÜ

Hər il sentyabrın 8-i bütün tərəqqipərvər bəşəriyyət tərəfindən Jurnalistlərin Həmrəyliyi Günü kimi təntənəli şəkildə qeyd olunur. Beynəlxalq Jurnalistlər Təşkilatının 1958-ci ilin mayında Buxarestdə keçirilmiş IV konqresində 1943-cü il sentyabrın 8-də nasistlər tərəfindən edam edilmiş çex jurnalisti Yulius Fuçikin xatirəsini əbədiləşdirmək üçün həmin günün qeyd olunması qərara alınmışdır.

XX əsrin sonlarında isə BMT bu günü Beynəlxalq Jurnalistlərin Həmrəyliyi Günü elan etmişdir. Beləliklə bu gün sadəcə növbəti peşə bayramı deyil, həm də jurnalistlərin öz birliyini, həmrəyliyini hiss edə bildiyi bir gündür. Yulius Fuçik Praqa həbsxanasında yazdığı "Boynunda kəndirlə reportaj" kitabı ilə bütün dünyada məşhurlaşmışdı. Bu, nasiszm əleyhinə mübarizə aparan şəxsin sənədli-bədii etirafları idi. Jurnalist Fuçik üçün gestapo həbsxanasında kitab yazması onun mübarizəsinin davamı və bir çox jurnalistlər üçün nümunə idi. Kitab bu gün də jurnalistlərə təsir göstərməkdə davam edir. Təsadüfi deyil ki, "Boynunda kəndirlə reportaj" adı hələ də jurnalist materiallarının başlığı kimi bütün dünyada istifadə olunur. Fuçikin reportajında onun gestapoçulara qarşı qurduğu "əla oyun"un taktikası təsvir edilir. İlk vaxtlarda o nasistlərlə əməkdaşlıq etməyə razılıq vermiş və bununla da, öz silahdaşlarını – çex ziyalılarının qaymağını həbsdən xilas etməyə nail olmuşdur.



1 oktyabr


BEYNƏLXALQ AHILLAR GÜNÜ

Yaşadığımız cəmiyyət hamı üçündür. Gənclər, orta nəslin nümayəndələri, hətta ahıllar da cəmiyyətdə gedən inkişaf proseslərində iştirak etməlidirlər. Yaşlıların həyat təcrübəsindən, bilik və bacarıqlarından bəhrələnmək isə nəsillər arasında körpü yaratmaq, varislik əlaqəsini bərpa etmək baxımından çox zəruridir. Cəmiyyətdə yaşayıb ondan kənarda qalmaq olmaz. Ahılların məşğulluğu, onların inkişaf prosesinə cəlb edilməsi, həm də sosial-iqtisadi durumun yaxşılaşması deməkdir.

BMT-nin inkişaf proqramında son illər ərzində ahıllar problemi geniş yer tutur. 2002-ci ilin aprelində İspaniyanın paytaxtı Madrid şəhərində BMT-nin ahıllar üzrə II Ümumdünya məclisinin keçirilməsi də buna misaldır.

Bu Ümumdünya tədbirində belə bir fikir səsləndi ki, yaşlılar da cəmiyyətin bərabərhüquqlu vətəndaşlarıdır, onlara ehtiram göstərmək yüksək insani keyfiyyətdir. Adı-sanı, nəcib əməlləri ilə tanınan, bəlkə də heç tanınmayan, lakin ləyaqətlə yaşayan, həyat təcrübəsi ilə yeni nəsillərə nümunə olan ahıllar, həqiqətən, hörmətə layiqdirlər.

İnsanın qocalıq dövründə heç nəyə qadir olmadığını söyləmək səhv olardı. Lap qədim zamanlardan ağsaqqal, ahıl insanlar ən hörmətli, müdrik adamlar hesab olunurlar. Onlara cavanlar da, böyüklər də hörmətlə yanaşır, fikirləri ilə hesablaşırlar. Qocaların sərvəti onların həyat təcrübəsidir. Onlara qulaq asıb, dediklərinə əməl etməklə bu sərvətə



sahib olmaq mümkündür. Böyük Britaniyanın baş naziri U.Çörçill, Almaniyanın federal kansleri K.Adenauer, Fransanın prezidenti Şarl de Qoll, Çin islahatçılığının atası Den Syaopin və nəhayət, ümummilli liderimiz Heydər Əliyev kimi yaşa dolmuş görkəmli siyasətçi və dövlət xadimləri öz ölkələrini müvəffəqiyyətlə idarə etmişlər. Bu fakt bir daha sübut edir ki, yaşlı, ahıl insanların təcrübəsi əvəzolunmazdır.

BMT-nin Baş Məclisi 1992-ci ildə Ahılların müdafiəsi ilə bağlı Qətnamə qəbul etmişdir. Həmin Qətnamənin prinsiplərinə uğun olaraq hər il oktyabr ayının 1-i Beynəlxalq Ahıllar Günü kimi qəbul edilmiş, həmçinin 1999-cu il Beynəlxalq Ahıllar ili elan olunmuşdur.

Bu məsələyə Respublikamızda da ciddi diqqət yetirilir. 2001-ci il iyunun 22-də "Ahıllara sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Qanuna əsasən ölkədə 70 yaşına çatmış Azərbaycan Respublikası vətəndaşları, habelə Azərbaycan Respublikasında daimi yaşayan əcnəbi və vətəndaşlığı olmayan şəxslər ahıl sayılır.

1993-cü ildən başlayaraq hər il oktyabr ayının 1-i Respublikamızda "Beynəlxalq Ahıllar Günü" kimi qeyd olunur. Həmin günün keçirilməsində məqsəd ahıl vətəndaşların sosial problemləri ilə tanış olmaq, ehtiyaclarını müəyyənləşdirərək imkanlı müəssisələr, təşkilatlar və qeyri-hökumət təşkilatları ilə birlikdə əməli tədbirlər görməkdən ibarətdir.

Beynəlxalq Ahıllar Günü ərəfəsində bütün dünyada olduğu kimi, Respublikamızın şəhər və rayonlarında icra hakimiyyətləri, əmək kollektivləri, ictimai təşkilatlar və qeyri-hökumət təşkilatları rayon ərazisində yaşayan ahıl vətəndaşların ehtiyaclarını öyrənərək onlar üçün bayram süfrələri, ərzaq bağlamaları təşkil edir, müxtəlif xeyriyyə, şəfqət və mədəni-kütləvi tədbirlər həyata keçirirlər. Həmin tədbirlərdə Respublika üzrə 10 minlərlə ahıl və əlil vətəndaş bayram süfrələrinə dəvət olunur, onlara ərzaq paylanır, maddi yardım göstərilir.

5 oktyabr

MÜƏLLİM GÜNÜ



Hər il oktyabrın 5-i bütün dünyada Müəllim Günü kimi qeyd olunur. Bu günün qeyd edilməsinə dair qərar ilk dəfə 1966-cı il oktyabrın 5-də YUNESKO tərəfindən qəbul olunmuşdur. Bu gün dünyanın 100-dən artıq ölkəsində müəllimlər öz peşə bayramlarını keçirirlər. Hər kəs özünün ibtidai məktəbdə, birinci sinifdə oxuduğu illəri xoş xatirə kimi anır və bu xatirələrdə ən əziz yeri, əlbəttə ki, ona sevgi və qayğı ilə qələm tutmağı, yazı yazmağı, kitab oxumağı öyrədən müəllim tutur.

Müəllimlik dünyada ən çətin, eyni zamanda ən şərəfli və ən gözəl peşədir. Bu gözəl və şərəfli işin dəyərini bilən əcdadlarımız həmişə müəllimə hörmətlə yanaşmışlar. Müəllimlər şagirdlərin dərin və hərtərəfli bilik almaları, yaşadıqları dövrün problemlərindən baş çıxarmaları üçün bütün bilik və bacarıqlarını sərf edirlər. Valideynlə bərabər, bəlkə də, ondan daha çox, uşağın hər cür şıltaqlığına, əziyyətinə dözmək, kədəri ilə kədərlənib, sevinci ilə sevinmək müəllimlərin üzərinə düşən ağır yükdür.

Müəllim əməyinin nəticəsində cəmiyyət formalaşır, savadlı, bilikli, geniş dünyagörüşlü, nümunəvi əxlaqa malik insanlar yetişir. Bu insanlar isə cəmiyyəti daha da inkişaf etdirir. Hazırda dövlətimizin müstəqilliyinin möhkəmlənməsində fəal iştirak edən insanlar məhz müəllim əməyinin yetirmələridir. Müəllimlər yeni cəmiyyət quruculuğunun memarlarıdır. Hər birimizin layiqli vətəndaş kimi yetişməsində müəllimlərimizin əvəzsiz xidmətləri olmuşdur.



Ümummilli liderimiz Heydər Əliyev həmişə müəllim əməyini yüksək qiymətləndirmiş, müəllim haqqında xoş sözlər söyləmişdir. O, öz müəllimlərini minnətdarlıqla xatırlayar, onların xidmətləri haqqında ürəkdolusu danışardı. Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi bütün dovrlərdə həmişə müəllimə hörmət və ehtiramla yanaşmış, onların maddi vəziyyətinin, rifah halının yaxşılaşdırılması qayğısına qalmışdır. O, deyirdi: "Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi vardır. Məhz müəllim doğma yurdumuzu sevməyi, hamının rifahı naminə vicdanla işləməyi müdrikliklə və səbirlə bizə öyrətmiş və öyrədir".

9 oktyabr

ÜMÜMDÜNYA POÇT GÜNÜ

Oktyabrın 9-da bütün dünyada poçt sahəsi işçilərinin peşə bayramı – Ümumdünya Poçt Günü qeyd olunur. Bu günkü tarixi dünyada 5 milyondan çox insan bayram edir. 1874-cü il oktyabrın 9-da Ümumdünya Poçt İttifaqı yaradılmışdır. Ümumdünya Poçt İttifaqının 1969-cu ildə Yaponiyanın paytaxtı Tokioda keçirilmiş XVI konqresində isə 9 oktyabrın Ümumdünya Poçt Günü kimi qeyd olunması barədə qərar qərar qəbul edilmişdir

Azərbaycan poçtunun tarixi qədim olsa da, onun rəsmən yaradılması XVI əsrin əvvəlinə – Azərbaycan Səfəvi dövləti dövrünə təsadüf edir. Görkəmli dövlət xadimi Şah I İsmayılın göstərişi ilə yaradılmış bu mühüm rabitə vasitəsi xüsusi çaparlar vasitəsi ilə həyata keçirilimişdir. XIX əsrin əvvələrindən çaparlar poçtalyonlarla əvəz olumuşdur.

Sovetlər İttifaqı dövründə ölkəmizdə poçt rabitəsi geniş inkişaf etmişdi. Məktub və bağlamalar, pul göndərişləri, qəzet və jurnallar poçtalyonlar tərəfindən sahiblərinə çatdırılır, poçt şöbələrindəki komutatorlar vasitəsi ilə telefon rabitəsi yaradılır, uzaq məsafələrə teleqramlar göndərilirdi.


SSRİ dağıldıqdan sonra bütün sahələrdə olduğu kimi, ölkəmizdə poçt və rabitə xidməti də bir müddət tənəzzül dövrünü yaşamışdır. Lakin bu sahədə həyata keçirilən ardıcıl tədbirlər poçt xidmətinin öz fəaliyyətini bərpa etməsinə imkan yaratmışdır. Azərpoçt dövlət müəsisəsi 1993-cü ildən Ümumdünya Poçt İttifaqının bərabərhüquqlu üzvüdür. Onun 74 poçt filialı və qovşağı, 1513 poçt şöbəsi, 161 agentliyi var. Bu müəssisələrdə 6000 insan çalışır. İndi poçt vasitəsilə əhaliyə 60-a yaxın xidmət göstərilir. Azərpoçt Ermənistandan başqa dünyanın 193 ölkəsi ilə əlaqə saxlayır.

24 oktyabr

BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATI GÜNÜ



Birinci Dünya müharibəsi (1914–1918) 15 milyon insanın həyatına son qoydu. Müharibənin bütün dəhşətlərini görmüş Avropa xalqları birgə bəyanat qəbul etdilər: "Müharibə olmasın!" Birinci Dünya müharibəsinin yekunlarına həsr olunmuş Versal sülh konfransında (1919) sülhü müdafiə etmək naminə beynəlxalq birliyin yaradılması ideyası irəli sürüldü. Bu ideyanın müəllifi ABŞ prezidenti Vudro Vilson idi. Bu təklif konfrans iştirakçıları tərəfindən rəğbətlə qarşılandı və Millətlər Cəmiyyəti adlanan beynəlxalq təşkilat yaradıldı. Millətlər Cəmiyyəti yarandığı ilk gündən çətinliklərlə qarşılaşdı. ABŞ Senatı Vilsonun Millətlər Cəmiyyətinə daxil olmaq barədə təklifini rədd etdi. SSRİ yalnız 1934-cü ildə bu təşkilata daxil oldu, lakin tezliklə – 1939-cu ildə Finlandiya ilə müharibədə təqsirləndirilərək oradan qovuldu.



Millətlər Cəmiyyəti 1927-ci ildə arbitraj və təhlükəsizlik üzrə xüsusi komissiya yaratdı. Həmin dövrdə Millətlər Cəmiyyətinin üzvü olan bütün ölkələr yeni mühari-




bənin alovlanmasına yol verməmək üçün təntənəli şəkildə and içdilər. Ancaq andın mətni son dərəcə qeyri-müəyyən idi: dünyada heç bir ölkə başqa ölkəyə hücum edib müharibəyə başlaya bilməzdi. Tələb belə idi: bütün müharibələr müdafiə xarakteri daşımalı idi. Buna baxmayaraq, 1939-cu ildə Almaniya Çexoslovakiya və Polşaya soxuldu. Bununla da İkinci Dünya müharibəsi başlandı. Bu, Millətlər Cəmiyyətinin dağılması demək idi.

İkinci Dünya müharibəsi (1939–1945) başa çatanda dünya xalqları bir daha qətiyyətlə dedilər: "Müharibə olmasın!" Bu dəfə müharibə 65 milyon insanın həyatına son qoymuşdu. Əbədi sülhü bərqərar edib möhkəmləndirən yeni beynəlxalq birliyin yaradılması zərurəti meydana çıxdı.




Birləşmiş Millətlər Təşkilatı beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, eləcə də dövlətlər arasında dinc əməkdaşlığı inkişaf etdirmək məqsədi ilə müstəqil dövlətlərin könüllü birləşməsi nəticəsində təşkil edilmiş beynəlxalq təşkilatdır. BMT-nin Nizamnaməsi 1945-ci ilin aprelində ABŞ-ın San-Fransisko şəhərində keçirilən konfransda 50 dövlətin nümayəndəsi tərəfindən imzalanmış və həmin


ilin 24 oktyabrında qüvvəyə minmişdir. Odur ki, 24 oktyabr beynəlxalq aləmdə BMT Günü kimi qeyd olunur.



Beynəlxalq sülhün və təhlükəsizliyin qorunması üçün əsas məsuliyyət BMT-nin Təhlükəsizlik Şurasının üzərinə qoyulmuşdur. Burada qərar qəbul olunması zamanı TŞ-nın beş daimi üzv dövlətinin – ABŞ, Böyük Britaniya, Fransa, SSRİ (indi Rusiya) və Çinin səs birliyi prinsipləri mövcuddur. Bu o deməkdir ki, bu dövlətlərdən hər biri öz mandatına uyğun gəlməyən qərara veto



qoymaq hüququna malikdir. Bu ölkələrin daimi üzv seçilməsi BMT yarandığı vaxtda dünyada mövcud olan siyasi vəziyyətlə bağlı idi. BMT-nin Təhlükəsizlik Şurasından əlavə, əsas orqanları bunlardır: Baş Məclis, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və BMT Baş katibinin başçılıq etdiyi Katiblik. BMT sistemində 15 ixtisaslaşdırılmış təsisat da vardır. BMT-



nin iqamətgahı Nyu–Yorkda yerləşir. Azərbaycan Respublikası 1992-ci il martın 2-də BMT-nin üzvlüyünə qəbul olunmuşdur. 2000-ci ildə BMT üzvlərinin sayı 189-a çatmışdır.

BMT yarandığı vaxtdan bəri onun səkkiz baş katibi olmuşdur: Treqvi Li (Norveç), Daq Hammarskold (İsveç), U Tan (Birma), Kurt Valdhaym (Avstriya), Havyer Peres de Kuel (Peru), Butros-Butros Qali (Misir), Kofi Annan (Qana). 2007-ci ilin yanvarından bu vəzifəni Pan Qi Mun (Cənubi Koreya) daşıyır. BMT-də rəsmi olaraq ingilis, ərəb, çin, fransız, rus və ispan dilləri işlənir.


BMT yarandığı dövrdə hazırda onun üzvü olan ölkələrin üçdə biri müstəmləkə idi. BMT-nin ən çox əhalisi olan üzvü Çin dövlətidir: 1 milyard 300 milyon nəfər. Ən az əhalisi olan üzvü isə Tvinlanddır: 10000 nəfər. Ərazisindən və əhalisinin sayından asılı olmayaraq hər bir ölkə BMT-nin Baş Məclisində bir səslə təmsil olunur.

BMT-nin münaqişə zonalarında yerləşdirmək üçün müxtəlif ölkələrin hərbçilərindən təşkil olunmuş və "mavi dəbilqəlilər" adlanan sülhməramlı qoşun kontingenti də vardır. Ermənistan ordusunun torpaqlarımızı işğal etməsi məsələsi dörd dəfə BMT-də müzakirə olunmuş, bu işğalı pisləyən və işğal olunmuş əraziləri qeyd-şərtsiz tərk etməyi tələb edən 822, 853, 874 və 884 №-li qətnamələr qəbul edilmişdir. Təəssüf ki, BMT-nin bu qətnamələri indiyədək yerinə yetirilməmiş qalıb. Beynəlxalq birliyin sanksiyalarına məruz qalmayan təcavüzkar isə bu qətnamələri yerinə yetirməkdən imtina edir.

14 noyabr ÜMUMDÜNYA DİABET GÜNÜ

14 noyabr–Ümumdünya Diabet Gününün təsis olunması həkim Frederik Bantiçin adı ilə bağlıdır. O, 1921-ci ilin oktyabrında öz tələbəsi Çarlz Bestlə birlikdə ilk dəfə şəkərli diabet xəstəliyinin müalicəsi üçün insulin preparatını kəşf etmişdir. 14 noyabr bu böyük alimin doğum günüdür. Məhz onun şərəfinə Beynəlxalq Diabet Federasiyasının (İDF) və Ümumdünya Səhiyyə Təşkilatının (WNO) qərarına əsasən 14 noyabr 1991-ci ildən etibarən Ümumdünya Diabet Günü kimi qeyd olunur.

Bu tarixi günün beynəlxalq səviyyədə qeyd olunması diabet xəstəliyinin problem və qayğılarını üzə çıxarır. Hazırda dünyada



194 milyon nəfər şəkərli diabetli xəstə var. Hər on ildə bu say 2 dəfə artır. 2005-ci ilədək Azərbaycanda 60000 nəfərə yaxın şəkərli diabetli xəstə rəsmi olaraq qeydə alınıb. Bir o qədər də insanın qeydiyyatda olmaması güman edilir. Şəkərli diabet təkcə tibbi problem deyil, o həmçinin sosial, iqtisadi, psixoloji və hüquqi problemlərin də meydana çıxmasına səbəb olur.

Bu problemlərin hər birinin vaxtında həlli minlərlə insanın yararlı insan kimi həyata, cəmiyyətə qaytarılması, neçə-neçə sınıq qəlbin sevinməsi deməkdir. Şəkərli diabetlə xəstə insanlara hamı və hər kəs həm mənəvi, həm də maddi dəstək olmalı, onların problemlərinə qayğı ilə yanaşılmalıdır.

Ölkəmizdə bu xəstəliyə qarşı mübarizə üçün dövlət səviyyəsində tədbirlər həyata keçirilir. 2005-ci il iyun ayının 7-də Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Şəkərli diabet üzrə Dövlət Proqramı"nı təsdiq etməsi də buna misaldır. Azərbaycan Diabet Liqası isə diabetlə xəstə olan uşaqlar və gənclər üçün "Yantus" yay düşərgəsi yaratmışdır. Şəkərli diabet xəstəliyinin müalicəsində analoqu olmayan yüksək keyfiyyətli, həyat üçün son dərəcə vacib olan "Yantus" preparatının adı ilə adlanan bu düşərgədə insulinlə müalicə geniş tətbiq olunur. "Yantus" insulininin əvvəlki insulindən fərqi onun sutkada bir dəfə vurulması, yüksək keyfiyyətdə olması və qanda şəkərin miqdarını normada saxlamasıdır.

Belə yay düşərgələri şəkərli diabetlə xəstə olan gənc insanların həyat fəaliyyətini yüksəltmək, cəmiyyətə inteqrasiyasına kömək etmək və gələcəkdə diabetin xroniki fəsadlarının nəticəsi kimi əmək qabiliyyətini itirməsinin, əlil insana çevrilməsinin qarşısını almaq məqsədilə təşkil olunur. Burada şəkərli diabetlə xəstə olan gənc insan öz xəstəliyi haqqında yeni məlumatlar alır, özünənəzarət qaydalarını öyrənir, təlim dərsləri keçir. Təlim almış gənc öz biliklərini praktik olaraq tətbiq edir, valideyn himayəsindən kənar, sərbəst həyat vərdişləri qazanır. Diabetli uşaqların ailələrinin qısa bir müddət ərzində olsa da, diabetli xəstələrin əziyyətindən, stresindən azad olmasına imkan yaranır.

17 noyabr
BEYNƏLXALQ TƏLƏBƏ GÜNÜ


Bu beynəlxalq ilk dəfə 1946-cı ildə Çexoslovakiyanın paytaxti Praqada çox vətənpərvər tələbələrin xatirəsinə həsr olunmuş tədbir kimi qeyd olunmuşdur. Həmin tarixdə Keçirilən Beynəlxalq Tələbələr Konqresi 17 noyabrı Beynəlxalq Tələbə günü kimi təsis etmişdir. Beynəlxaq Tələbə Günü gəncliyin romantikası, şənlik günü kim qeyd edilsə də, onun yaranma tarixi qanlı hadisələrlə bağlıdır. Bu hadisələr 1939-cu il oktyabrın 28-də Çexoslovakiyada baş vermişdir. Nasist Almaniyasının işğalı altında olan bu ölkədə vətənpərvər tələbə və müəllimlər respublika gününü qeyd etmək üçün küçələrə axışmış, lakin nasist qoşunlarının amansız zorakılığına məruz qalmışlar. Tədbirin iştirakçısı olmuş 1200 tələbə həbs edilərək konslagerlərə salınmış, 9 nəfər fəal hərəkət üzvü məhkəməsiz edam olunmuşdur. Nasist başçısı A.Hitlerin göstərişi ilə Çexiyanın bütün təhsil müəssisələrinin fəaliyyəti müharibə bitənə qədər qadağan edilmişdir.

İndi bu gün həm İkinci Dünya müharibəsi dövründə demokratiya və istiqlal uğrunda mübarizə qurbanlarinin xatirəsi günü, həm də beynəlxalq tələbə hərəkatının həmrəyliyi günü kimi anılır. Bu gün ölkəmizdə də geniş şəkildə qeyd olunur.

1 dekabr


QİÇSƏ QARŞI BEYNƏLXALQ MÜBARİZƏ GÜNÜ

QİÇS – qazanılmış immunçatışmazlığı sindromu deməkdir



Hazırda müdhiş miqyas almış QİÇS (ingiliscə AİDS, rusca SPİD) epidemiyası insan həyatı üçün təhlükə törədən bəlaya çevrilib. Bu qlobal problem cəmiyyətin bütün təbəqələrini–milləti, icmanı, ailəni, hər bir fərdi əhatə edir və bütün dünya üzrə sosial-iqtisadi inkişafı sarsıdır. Bu xəstəliyə yoluxmuş şəxs orta hesabla 5-10 il ərzində sağlam görünür və hətta bəzi hallarda orqanizmində bu virusun kök salmasından heç özünün də xəbəri olmur. QİÇS o zaman inkişaf etməyə başlayır ki, immun çatışmazlığı immun sisteminin mühüm toxumalarının böyük bir hissəsinə yayılmaqla inkişaf edir. Bu zaman inkişaf sistemi o qədər zəifləyir ki, artıq orqanizmin müxtəlif yoluxucu və şiş xəstəliklərindən müdafiə imkanı tamamilə tükənir. BMT-nin QİÇS ilə Mübarizə Proqramının və Ümumdünya Səhiyyə Təşkilatının 2004-cü ilin sonunda apardığı təxmini hesablamalara görə dünyada insanın immunçatışmazlıq virusu (İİV) ilə yaşayan insanların sayı təqribən 42 milyona çatmışdır. QİÇS-dən ölənlərin sayı 24 milyonu keçmişdir. QİÇS infeksiyası keçmiş Sovet məkanında – xüsusilə Ukrayna, Rusiya, Belarus və Moldovada böyük sürətlə yayılmaqdadır. Çox təəsüf ki, bu sağalmaz xəstəliyə ölkəmizdə az da olsa (təqribən 1000 nəfər) adam yoluxmuşdur.

QİÇS-dən qorunmağın yeganə yolu sağlam həyat tərzi keçirmək və təsadüfi adamlarla münasibətlərində ehtiyatlı olmaqdır. Hələ 20 il əvvəl biz QİÇS xəstəliyinə çox uzaqda olan bir təhlükə kimi baxırdıq. Amma bugünkü reallıq başqadır. Ona görə də bu sahədə insanları maarifləndirmək üçün tədbirlər görülür.



Məktəblərin 6-cı sinfindən "Özünü QİÇS-dən qoru" devizi altında xüsusi məşğələlər təşkil olunur. Beynəlxalq qurumlar da bunun qarşısını almağa kömək edir. Alimlər "XXI əsrin vəbası" adlandırdıqları bu virusa qarşı bütün dünyada müharibə elan etmişlər. QİÇS epidemiyasını "zəmanəmizin inkişaf yolunda ən təhlükəli problem" adlandıran sabiq BMT Baş Katibi Kofi Annan bütün hökumətləri bu məsələnin həlli zəminində daha güclü və əlaqələndirilmiş bir hərəkat üzrə qlobal işlər görməyə çağırmışdır.

Azərbaycan hökuməti də bu dəhşətli xəstəliyin qarşısının alınmasına böyük əhəmiyyət verir. 1996-cı ildə Azərbaycan parlamenti "İnsanın immunçatışmazlıq virusunun törətdiyi xəstəliyin (AİDS) yayılmasının qarşısının alınması" haqqında Qanun qəbul etmişdir.

Dünyanı bu müdhiş xəstəliyə qarşı mübarizə aparmağa sövq etmək üçün BMT-nin xüsusi qərarı ilə 1 dekabr QİÇS-ə qarşı Beynəlxalq Mübarizə Günü elan edilmişdir.

3 dekabr

ÜMUMDÜNYA ƏLİLLƏR GÜNÜ

İnsanların hamısı eyni olmur. Fiziki cəhətdən sağlam olanlarla yanaşı, əlillər və şikəstlər vardır. Əlillik və şikəstlik müxtəlif yollarla yaranır: anadangəlmə, müharibələr, yol-nəqliyyat, istehsalat qəzaları, xəstəliklər nəticəsində qazanılmış əlillik və şikəstlik vardır.

Əlillik eyib sayılmamalıdır, sünki bu insanlar fiziki cəhətdən tam olmasalar da, onlarda da nəcib ürək, saf insani keyfiyyətlər, yüksək bilik, bacarıq və intellektual qabiliyyətlər vardır.

İndi dünyada xeyli əlil var. Təkcə Azərbaycanda onların sayı 360 minə çatır. Əlbəttə, onların bir hissəsi XX əsrin ən dəhşətli fəlakəti sayılan İkinci Dünya müharibəsinin, Birinci Qarabağ müharibəsinin, ermənilərin törətdikləri soyqırımların və terrorun nəticəsidir. Əlillər əhalinin başqa təbəqələri ilə müqayisədə daha çox sosial müdafiəyə, mənəvi dəstəyə, humanist münasibətə möhtacdırlar. Bu insanlar hətta maddi cəhətdən təmin olunmasalar belə, isti münasibət, doğmalardan və yadlardan qayğı, mərhəmət və diqqət umurlar.

Ölkəmizdə əlillərin sosial müdafiəsinə xüsusi diqqət yetirilir. Bu barədə bir sıra dövlət əhəmiyyətli proqramlar həyata keçirilir. Əlillər mənzil, maşın, əlil arabaları ilə təmin olunur, müxtəlif ölkələrdə dövlət vəsaiti hesabına müalicə və bərpa kursları keçirlər.

Beynəlxalq aləm də əlillərə qayğı və diqqəti artırıb. Onların hüquqlarının qorunması sahəsində bir sıra tədbirlər həyata keçirilib. Bu tədbirlərdən ən mühümü BMT tərəfindən 1983–1992-ci illərdə həyata keçirilmiş Əlillər Onilliyidir. 1992-ci il oktyabrın 14-də Onilliyin başa çatması münasibətilə BMT Baş Məclisi dekabrın 3-nü "Əlilliyi olan insanların Beynəlxalq günü" kimi qeyd olunması haqqında Bəyannamə qəbul etmişdir. Bu günün məqsədi cəmiyyəti əlillik problemlərinin həllinə cəlb etmək, əlilliyi olan bütün insanların hüquqlarını qorumaqdır.

10 dekabr

İNSAN HÜQUQLARI GÜNÜ



1948-ci il dekabnn 10-da BMT Baş Məclisi "İnsan Hüquqları haqqında Ümumi Bəyannamə" qəbul etdi. Bu sənədin qəbul edilməsində məqsəd insan hüquqlarını və bütün ölkələrin əməl etməli olduqları normaları müəyyən etmək idi. "Bəyannamə"ni qısa bir müddətdə dünya ölkələrinin böyük əksəriyyəti, hətta ən qəddar diktaturalar belə imzalamışdılar.

"İnsan Hüquqları haqqında Ümumi Bəyannamə" müxtəlif sosial-iqtisadi quruluşlu dövlətlərin insan hüquqlarının müdafiəsi sahəsində əməkdaşlıq imkanlarını nümayiş etdirmiş mühüm beynəlxalq sənəddir. O, dünya dövlətlərinin konstitusiya və qanunlarına da öz müsbət təsirini göstərir.

Dünya xalqları "Bəyannamə"nin müddəalarından öz hüquqları, sülh, demokratiya və tərəqqi uğrunda mübarizədə istifadə edirlər.

"Soyuq müharibə" illərində sosialist bloku və Qərb demokratiyası arasında qarşıdurma güclənmişdi. Mübarizə aparan ölkələr insan hüquqları və azadlıqları barədə müxtəlif mövqelərdə dururdular. Qərb demokratiyaları insanın mülki və siyasi hüquqlarının (söz, fikir azadlığı, siyasi plüralizm, ölkədən sərbəst getmək və yenidən qayıtmaq və s.) zəruriliyini təkidlə irəli sürür, sosialist ölkələri isə iqtisadi və sosial hüquqların vacibliyini ön plana çəkirdilər.

1966-cı ildə, təxminən 20 il davam edən qızğın müzakirələrdən sonra iki sənəd – Mülki və Siyasi hüquqlar haqqında Beynəlxalq Pakt və İqtisadi, Sosial və Mədəni hüquqlar haqqında Beynəlxalq Pakt qəbul edildi.

Dünya ictimaiyyəti tərəfindən tanınan yeni növ insan hüquqlarının siyahısı ilbəil artır. Bu gün dünya artıq insanın ekoloji hüququnu tanımaqdadır, gələcək nəsillərin ləyaqətlə və layiqincə yaşamaq hüququ müzakirə edilir. Bu günə qədər insan hüquqları üzrə yeni-yeni sənədlər hazırlanır və qəbul edilir.

Müasir dünyada insan hüquqları daha geniş bir anlayışdır və aşağıdakıları əhatə edir:

– Hər bir ayrı-seçkilikdən azadlıq, o cümlədən irqi, cinsi, milli, yaxud dini ayrı-seçkilikdən azadlıq;

– Qorxudan azadlıq: şəxsi təhlükəsizlik üçün qorxudan, səbəbsiz azadlıqdan məhrum edilməkdən, işgəncə və digər zorakılıqlardan azadlıq;

– Fikir və söz azadlığı, qərar qəbul etmə prosesində iştirak və birliklər yaratmaq hüququ;

– Yoxsulluqdan azadlıq, layiqli həyat sürmək hüququ;

– İnsan potensialının inkişafı və onu həyata keçirmək üçün azadlıq;

– Ədalətsizlikdən və qanun pozuntusu ilə rastlaşmaqdan azadlıq;

–İstismar olunmadan layiqli işləmək hüququ.

İnsan hüquqlarının qorunmasının əhəmiyyəti o qədər böyükdür ki, BMT Baş Məclisi 1950-ci ildə bütün dövlətlərə və maraqlı təşkilatlara dekabrın 10-u gününü İnsan Hüquqları Günü kimi qeyd etməyi tövsiyə etmişdir.

BUNLARI UNUTMAQ OLMAZ

25–26 fevral

XOCALI SOYQIRIMI



Erməni hərbi qüvvələri 1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə XX əsrin ən dəhşətli və qanlı faciəsini – Xocalı soyqırımını törətdilər. Bu, İkinci Dünya müharibəsində faşizmin törətdiyi dəhşətli qırğınlardan sonra müasir dövrdə erməni separatçı-terrorçuları ilə birlikdə Ermənistan hərbi qüvvələrinin və Rusiyanın 366-cı motoatıcı alayının əsgərlərinin törətdiyi ən kütləvi və ən dəhşətli soyqırımdır.

Azərbaycanın qədim sivilizasiya mərkəzlərindən olan Xocalı şəhəri hələ 1991–ci ilin oktyabr ayından hər tərəfdən düşmən əhatəsində idi. Oktyabrın 30–da avtomobil yolları bağlandıqdan sonra şəhərlə əlaqə saxlamaq yalnız helikopterlə mümkün idi. Sonuncu mülki helikopter 1992-ci il yanvarın 28-də Xocalıya gələ bilmişdi, lakin Şuşa şəhəri üzərində 40 nəfərlik mülki helikopterin vurulmasından sonra hava yolları da bağlanmışdı. 1992-ci il yanvarın 2-dən şəhərin elektrik enerjisi də kəsilmişdi. Xocalı əhalinin və onun müdafiəçilərinin iradəsi və dözümü sayəsində yaşaya bilirdi.

Şəhər əsasən atıcı silahlarla silahlanmış yerli könüllü dəstələr, milis və Milli Ordunun birləşmiş qüvvələri tərəfindən müdafiə olunurdu. Fevralın ikinci yarısında Xocalı erməni hərbi birləşmələrinin blokadasına alınaraq müntəzəm şəkildə hər gün artilleriya və ağır hərbi texnikadan atəşə tutulurdu.

Xocalıya hücum edən ermənilər Xankəndindəki 366-cı rus alayının hərbi texnikası ilə silahlanmışdılar. Bundan əlavə həmin alayın tərkibində "Klukin erməni cəbhəsi" adlanan "rota"da yaradılmışdı. Onun özəyini xaricdəki erməni icmalarını təmsil edən quldur birləşmələri təşkil edirdi. Fevralın 17-də isə həmin rotaya qızlardan ibarət "Şuşanik" adlı erməni snayperçiləri dəstəsi də qoşulmuşdu. Xocalıya hücum 1992-ci il fevralın 25-i axşam



başlandı. Şəhər iki saat tank və BTR-lərdən, eləcə də "Alazan" tipli raketlərdən açılan güclü atəşə tutuldu. Xocalı üç tərəfdən mühasirəyə alındığı üçün, əhali yalnız Əsgəran istiqamətində irəliləyib xilas olmağa can atırdı. Lakin tezliklə aydın oldu ki, bu, bir tələdir. Naxçıvanik kəndi yaxınlığında ermənilər əliyalın, silahsız əhalini fasiləsiz atəşə tutdular. Şaxtalı havada meşələri qət edərək taqətdən düşmüş insanların – uşaqların, qadınların, qocaların çoxu məhz Əsgəran–Naxçıvanik yolunda erməni qaniçənlərin törətdiyi vəhşiliklərin qurbanı oldular. Ermənilər bu faciədən sonra belə, helikopterlər vasitəsilə ağ xalat və maskalarda meşələri gəzərək insanları əsir götürməkdən çəkinməmişdilər. O vaxtkı Azərbaycan hökuməti isə faciəni xalqdan gizlətməyə çalışmışdı.

Fevralın 28-də Milli Qəhrəman Çingiz Mustafayevin başçılıq etdiyi yerli jurnalistlərdən ibarət qrup helikopterlə azərbaycanlıların məhv edildiyi ərazıyə gəlmişdilər. Hər tərəf avtomat güllələri və süngülərlə qətlə yetirilmiş qoca, uşaq və qadın meyitləri ilə dolu idi. Ermənilərin fasiləsiz atəşləri yalnız dörd cəsədi götürməyə imkan vermişdi. Martın 1-də xarici və yerli jurnalistlərdən ibarət qrup buraya gəldikdən sonra faciənin miqyası daha aydın görünmüşdür. Bir çox meyitlərin bədənləri süngü ilə deşik-deşik edilmiş, başlarının dərisi soyulmuş, gözləri çıxarılmış, burun və qulaqları kəsilmişdi. Bu dəhşətli mənzərə əslində erməni faşizminin bütün dünyaya bir xəbərdarlığı idi. Təəssüf ki, hələ də bu xəbərdarlıqdan nəticə çıxarmayan, erməni terrorizminin bəşəriyyətin gələcəyi üçün necə bir bəla olduğunu başa düşməyənlər vardır.

Xocalı soyqırımının dəhşətli mənzərəsi belədir: 613 nəfər öldürülmüşdür (83 nəfər uşaq, 106 nəfər qadın, 70 nəfər qoca); 8 ailə tamamilə məhv edilmişdir; 25 uşaq valideyninin hər ikisini itirmişdir; 130 uşaq valideynlərdən birini itirmişdir; 487 nəfər yaralanmışdır; 1275 nəfər əsir düşmüşdür; 150 nəfər itkin düşmüşdür; dövlətə və mülki vətəndaşlara 5 mlrd. manat (1992-ci il



qiymətləri ilə) ziyan dəymişdir.

Sonradan erməni quldurları etiraf edirdilər ki, Xocalı Əsgəranla Xankəndini birləşdirən dəhliz rolu oynadığı, həm də azərbaycanlıların nəzarətində olan hava limanı burada yerləşdiyi üçün bu qırğını törətmişlər.

Azərbaycan Respublikasının Milli Məclisi 1994-cü il fevralın 24-də qəbul etdiyi qərarla 26 fevralı "Xocalı soyqırım günü" elan etmişdir. Hər il xalqımız fevralın 26-da saat 17^{00}-da Xocalı şəhidlərinin müqəddəs ruhunu bir dəqiqəlik sükutla yad edir. Hazırda Xocalı əhalisi 48 rayonda qaçqın vəziyyətdə yaşayır. Onlar Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli, öz vətənlərinə dönmək ümidi ilə yaşayırlar. Xocalılar dünya xalqlarına, dövlətlərinə və beynəlxalq təşkilatlara öz hüquqlarının və ədalətin bərpası üçün çoxsaylı müraciətlər edir, Xocalı faciəsini ermənilər tərəfindən etnik təmizləmə, Azərbaycan türklərinə qarşı soyqırımı kimi ittiham edirlər.

Bəşəriyyət XX əsrdə bir çox müdhiş soyqırım və etnik təmizləmə cinayətlərinin şahidi olmuşdur. Xocalı onların içərisində daha dəhşətlisidir. Xocalı soyqırımının təşkilatçıları və icraçıları bəşəriyyətə qarşı ən ağır cinayətlər törətmiş canilər kimi beynəlxalq qanunlar əsasında mühakimə olunmalıdırlar. Ümummilli lider Heydər Əliyev bu faciəni belə qiymətləndirmişdir: "...Bu qəddar soyqırımı aktı bəşəriyyət tarixinə ən qorxulu kutləvi terror aktı kimi daxil olub". Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: Xocalı faciəsi təsadüfü hadisə deyildi. Bu iki yüz ildən artıq müddətdə davakar erməni millətçilərinin Azərbaycan xalqına qarşı yürütdüyü soyqırımı və etnik təmizləmə siyasətinin tərkib hissəsi idi". Azərbaycan xalqı 1918-ci ilin mart-aprel aylarında dinc əhalinin qanlı soyqırımı hadisələrini heç vaxt unutmayacaq.

31 mart

AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜ



Birinci Dünya müharibəsinin dünyada yaratdığı geosiyasi şərait Cənubi Qafqazın köklü sakinləri olan azəri türklərinin də tarixi taleyində mühüm rol oynadı. Rusiya imperiyasında baş vermiş 1917-ci il fevral burjua-demokratik inqilabı və bolşeviklərin həyata keçirdikləri oktyabr çevrilişi xalqımızın müstəqilliyə olan ümid və arzularının reallaşmasına şərait yaratdı. 1917-ci ilin payızında Bakı Sovetinə keçirilən seçkilərdə azəri türklərinin milli partiyası olan "Müsavat"ın səslərin 40%-ni toplaması isə müstəqilliyə gedən yolun yaxın olmasından xəbər verirdi.

"Müsavat" partiyasının bu gucu və nüfuzu qarşısında qorxuya düşən qeyri-milli qüvvələr, Azərbaycanın istiqlalının qəddar düşmənləri fəallaşdılar. Çox təəssüf ki, "Müsavat" partiyasının rəhbərləri səhvə yol verdilər. Onlar bolşeviklər və sol eserlərlə əməkdaşlıqdan yan keçərək yeni sovetin tərkibinə daxil olmaqdan imtina etdilər. Bununla da müsəlman seçicilərin əsas hissəsi

Bakı Sovetinə təmsilçilikdən məhrum oldular. Bakıda və qəzalarda hakimiyyət türk xalqlarının qəddar düşməni, daşnak əqidəli bolşevik S.Şaumyan başda olmaqda bolşevik-eser-daşnak gürühunun əlinə keçdi.

Ermənilərin terrorçu partiyası olan "Daşnaksütyun"un bolşeviklərlə qurduğu iş birliyinin süngüsü müsəlmanlara və onların mənafeyinin müdafiəçisi olan "Müsavat" partiyasına qarşı yönəldi. "Müsavat" partiyasının və Müsəlman Milli Komitəsinin aşkar şəkildə Azərbaycanın heç olmazsa muxtariyyət formasında müstəqilliyə can atdığını bəyan etməsi bolşevik-daşnak birliyi tərəfindən düşməncəsinə qarşılandı. Şaumyan 1918-ci ilin fevralında "Bakinski raboçi" qəzetində dərc etdirdiyi məqalədə yazırdı: "Muxtar Azərbaycan arzulayan müsavatçılar nəticədə xarabazar qazanacaqlar". Bolşeviklərin baş cəlladı V.Lenin tərəfindən Cənubi Qafqaza fövqəladə və səlahiyyətli komissar təyin edilmiş Şaumyan ələ düşmüş fürsətdən fayadalanmaq üçün dəhşətli planlar hazırlamağa başladı. Ermənilərin mənfur "Dənizdən-dənizə Böyük Ermənistan" dövləti yaratmaq planlarını reallaşdırmaq üçün münasib fürsət yaranmışdı. Bunun üçün ilk növbədə Cənubi Qafqazın bütün müsəlman əhalisini fiziki cəhətdən məhv etmək lazım idi.

1918-ci il mart hadisələrinin təşkilatçısı və icraçıları erməni millətçiləri, "Daşnaksütyun partiyası" və onun terrorçu birləşmələri, əksəriyyəti erməni və slavyan millətlərinin nümayəndələrindən təşkil olunmuş Bakı Kommunasının bolşevikləri idilər. Vəziyyətin ağırlığını hiss edən müsəlman siyasi xadimləri qanlı qırğının qarşısını ala bilmək üçün qüvvələri səfərbər edə bilmədilər.

Milli qırğına başlamaq üçün bəhanə isə martın 24-də şəxsi heyəti müsəlmanlardan ibarət olan "Evelina" gəmisinin tərksilah edilməsi oldu. Azərbaycanlılar yayşyan məhəllələrin əhalisi buna qarşı ciddi etiraz edərək, müsadirə olunmuş silahların geri qaytarılmasını tələb etdilər. Bu tələbə əməl olunmadı. Qırğının həyata keçirilməsinə rəhbərlik üçün başda Şaumyan olmaqla Bakı

Soveti yanında İnqilabi Müdafiə Komitəsi yaradıldı. Soyqırıma Bakının erməni əhalisi də qoşuldu.

Martın 30 və 31-də Bakıda ermənilər misilsiz vəhşiliklər törətdilər. Üç gün ərzində 12 mindən çox azərbaycanlı qətlə yetirildi. Erməni-bolşeviklər bununla kifayətlənmədilər. Qanlı qırğınlar Azərbaycanın ətraf bölgələrində də davam etdirildi. Hamazaspın başçılıq etdiyi erməni silahlı dəstələri Quba qəzasının 122 kəndini dağıtmış, yandırmış, təxminən 2000 nəfəri qətlə yetirmişdi. Bundan sonra terrorçular Xaçmaz, Göyçay, Ağdaş, Kürdəmir, Cavad, Salyan və Lənkəran qəzalarında talanlar və qırğınlar törətmişdilər. Atarbekovun və Lalayanın erməni hərbi hissələri Şamaxı qəzasında 8000 nəfəri qətlə yetirmişdi ki, onların da 1653 nəfəri qadın, 965 nəfəri uşaq olmuşdur. Lalayanın göstərişi ilə kəndlərin birində qadınlar məscidə doldurularaq diri-diri yandırılmışdılar. Burada 58 kənd yandırılmışdı. Kürdəmirdə quldurlar 56 ev və 2 məscid binasını yandırmışdılar. Mikoyanın başçılıq etdiyi dəstələr isə sonradan Şamaxıya soxularaq burada 20 kəndi dağıtmışdılar.



Qanlı soyqırımı İrəvan, Göyçə, Cavanşir, Zəngəzur qəzalarının müsəlman kəndlərində, Naxçıvan və Qazaxda da davam etdirilmişdi. İrəvan, Göyçə və Qazaxda 200, Qarabağ və Zəngəzurda 75 kənd yandırılmışdı.

Belə kədərli rəqəmləri daha çox sadalamaq mümkündür. Soyqırımı 1918-ci il sentyabrın ortalarınadək davam etmişdi. Bu soyqırımda 600 minə yaxın azərbaycanlı vəhşi erməni millətçiliyinin qurbanı olmuşdu.

Erməni başkəsəni S.Şaumyan 1918-ci il aprelin 18-də bolşevik cəlladlarının başçısı V.Leninə yazdığı məktubunda daşnakların milli qırğında iştirakının bolşeviklər tərəfindən qəsdən təşkil olunduğunu etiraf etmişdi. Bu faciə Bakı Sovetinin antiazərbaycan siyasətini xalqa nümayiş etdirdi. Azərbaycanda sovetləşmə ideyasına güclü zərbə vuruldu. Azərbaycan xalqı arasında milli birlik və müstəqil dövlətçilik ideyalarını gücləndirdi. Yalnız Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması və qardaş Osmanlı dövlətinin Qafqaz İslam Ordusunun köməyə gəlməsi nəticəsində bu qanlı faciələrə son qoyuldu.

AXC hökuməti mart soyqırımı hadisələrini təhqiq etmək üçün Təhqiqat Komissiyası yaratmışdı. Lakin Cümhuriyyətin süqutu bu işi başa çatdırmağa imkan vermədi. Azərbaycanda bolşevik diktaturası qurulduqdan sonra bu qanlı hadisələr tarixin arxivinə göndərilmiş, onun əsil mahiyyəti təhrif olunmuş, soyqırımı qurbanlarının dəfn olunduğu Çəmbərəkənd qəbristanlığı isə Dağüstü park adı ilə gəzinti və əyləncə yerinə çevrilmişdi. Yalnız Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra soyqırımı hadisəsi haqqında real tarixi faktlar ictimaiyyətə açıqlandı. Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 26 mart 1998-ci il tarixli fərmanı ilə mart soyqırımına ilk dəfə hüquqi-siyasi qiymət verildi, beynəlxalq ictimaiyyətin diqqəti bu antihumanist, ümumbəşəri cinayətə cəlb olundu. Həmin fərmanla 31 mart azərbaycanlıların soyqırım günü elan olunmuşdur.

3 aprel

KƏLBƏCƏRİN İŞĞALI GÜNÜ

1993-cü ilin mart ayında Ermənistan silahlı qüvvələri Kəlbəcər rayonunun işğalına dair planlarını həyata keçirməyə başladılar. Bu işdə o vaxt hakimiyyətdə olan qüvvələrin səriştəsizliyi və məsuliyyətsizliyi, "sapı özümüzdən olan baltalar"ın xəyanətkarlığı da erməni quldurlarına yardımçı oldu. Əvvəlcə Ağdərə–Kəlbəcər yolu ələ keçirildi. Martın 27-də isə erməni silahlı birləşmələri üç istiqamətdən Kəlbəcər üzərinə hücuma başladilar. Hücumdan əvvəl, Kəlbəcərə gedən yollar müəmmalı şəkildə minalardan təmizlənmiş, 3 min nəfərlik hərbi qüvvə rayon ərazisindən çıxarılmışdı.

Kəlbəcərlilərin Respublika rəhbərliyinə təkid, yalvarış və xahişlərlə dolu müraciətləri isə nəticəsiz qaldı. Vəd olunan kömək göndərilmədi. İşğalın reallığını hiss edən silahsız və köməksiz əhali ev-eşiyini, var-dövlətini qoyub qaçmağa məcbur oldu. İnsanlar qarda–boranda yeganə işlək yol olan Murov yolu ilə Gəncə istiqamətində yollandılar. Bu yolda nə qədər insan çovğuna, şaxtaya düşüb məhv oldu, əl-ayaqların şaxta vurdu. Kəlbəcər aprel ayının 3-də işğal olundu. Düşmən məqsədinə çatdı. Olduqca əlverişli hərbi-strateji əhəmiyyətli bir ərazi ələ keçirildi. Daxili xəyanətkarların əli ilə əsrlər boyu düşmənə sinə gərmiş, qalalı, səngərli Kəlbəcər torpağı yağı tapdağı altda qaldı.

BMT Təhlükəsizlik Şurası 1993-cü il aprelin 30-da Kəlbəcərin işğalını pisləyən, erməni işğalçılarından dərhal həmin ərazini tərk etməyi tələb edən 822 №-li qətnamə qəbul etsə də, bu mühüm sənəd hələ də yerinə yetirilməmişdir. İndi Respublikanın bütün rayonlarında köçkün həyatı yaşayan kəlbəcərliləri yalnız bir şey düşündürür: tezliklə doğma yurda qayıtmaq, düşmənin xarabazarlığa çevirdiyi bu cənnət diyarı yenidən öz əvvəlki görkəminə qaytarmaq.

8 may

ŞUŞANIN İŞĞALI GÜNÜ

17 may

LAÇININ İŞĞALI GÜNÜ

Xocalı soyqırımını törədən ermənilər cəzasız qaldıqlarından öz vəhşi hərəkətlərini davam etdirirdilər. Növbəti hədəf Şuşa və Laçın idi. Bu şəhərlər də siyasi oyunların, çəkişmələrin, xəyanətin qurbanı oldular.

Şuşaya ermənilərin hücumu gözlənildiyindən yaranmış vəziyyət 1992-ci ilin martında Respublika Müdafiə Şurasının iclasında müzakirə olunmuşdu. Lakin əməli iş, demək olar ki, görülmürdü. Şəhər uzun müddət idi ki, mühasirədə idi. Lazımi silah və sursatla təmin olunmurdu. Rusiyanın 336-cı polkunun 180 hərbi mütəxəssisinin 90 ağır hərbi texnika ilə ermənilər tərəfinə keçməsi faktı da məlum idi. Şuşanın müdafiəsində isə cəmi 24 ağır texnika dururdu. Düşünülmüş müdafiə planı yox idi. Xarici qüvvələrin əlində oyuncağa çevrilmiş müdafiə naziri R.Qazıyev burada vahid komandanlıq yaradılmasına mane olur, bununla da hərbi-siyasi vəziyyəti daha da gərginləşdirirdi. Hücum ərəfəsində xeyli döyüşçü qısamüddətli ezamiyyətə buraxılmışdı. Şəhərdə cəmi 500 döyüşçü qalmışdı. Belə bir şəraitdə Şuşaya gedən yollardakı minalar zərərsizləşdirildi. Mayın 8-də səhər saat 5-də şəhər ətrafında olan postların əksəriyyəti artıq tutulmuşdu. Ön mövqedə duran əsgərlər düşmənə qarşı qəhrəmanlıqla vuruşurdular. Səhərə yaxın düşmənin üç tankı şəhərə daxil olsa da, onların biri vuruldu, digərləri isə geri qayıtdı. Qayabaşı adlanan yerdə mövqe tutmuş müdafiə batalyonunun əsgərləri son nəfəsinədək vuruşdular. 40 nəfər şəhid oldu. Mühasirəyə düşmüş 38 nəfər döyüşçü düşmən əlinə keçməmək üçün özünü öldürdü. Digər müdafiə dəstələri axşama qədər müqavimət göstərdilər. Qüvvələr tükəndi və axşama yaxın Şuşa süqut etdi.

Bakıda hakimiyyət uğrunda siyasi oyunların getməsindən istifadə edən düşmən mayın 17-də Laçın rayonunu da işğal etdi. Beləliklə, Qarabağın dağlıq hissəsini Ermənistandan ayıran dəhliz açıldı. Bu isə Azərbaycanm yeni ərazilərinin işğal olunması üçün zəmin yaratdı.

23 iyul

AĞDAM RAYONUNUN İŞĞALI GÜNÜ

1993–cü ilin iyununda düşmən Azərbaycanda baş vermiş siyasi böhrandan istifadə edərək yeni hücum əməliyyatına başladı. Ermənistanın işğalçı qüvvələri bu böhrandan istifadə edərək Ağdam rayonunun Qarqarçayı, Saybalı kəndinə qədər ərazisini işğal etdi.

Cəbhə yerli özünümüdafiə batalyonlarının ümidinə qalmışdı. Düşmən sürətlə irəliləyirdi. Malıbəyli kəndində güclü döyüşlər gedirdi. "Fred" ləqəbli Asif Məhərrəmovun müdafiə batalyonlarmm döyüşçüləri iyunun 22–23-də bütün günü və gecəni düşmənlə əlbəyaxa döyüşdülər. Lakin kömək gəlmədiyi üçün geri çəkildilər. İyulun 23-də 43 gün düşmənə sinə gərmiş Ağdam şəhəri süqut etdi. Yağı düşmən evlərə od vurur, mədəniyyət abidələrini dağıdır, insanların əmlaklarını qarət edir, şəhəri tərk edə bilməyən dinc əhaliyə amansız divan tuturdu. Ağdam rayonunun 1094 kv. km–lik ərazisi hakimiyyət uğrunda gedən siyasi didişmələrin, təxribat və xəyanətlərin qurbanı oldu.

BMT Təhlükəsizlik Şurası 1993-cü il iyulun 29-da Ağdamın işğalını pisləyən və işğalçı ordunun işğal etdiyi əraziləri qeyd–şərtsiz olaraq tərk etməsini tələb edən 853-№-li qətnamə qəbul etdi. Lakin beynəlxalq birliyin təcavüzkara qarşı sərt tədbirlər görməməsi səbəbindən həmin qətnamə bu günə qədər yerinə yetirilməmişdir.

23-25 avqust

FÜZULİ VƏ CƏBRAYIL RAYONLARININ İŞĞALI GÜNÜ

31 avqust

QUBADLININ İŞĞALI GÜNÜ

27 oktyabr

ZƏNGİLANIN İŞĞALI GÜNÜ

Ağdam rayonun işğalı, ölkə daxilində separatçı qüvvələrin fəallığı, ordunun həddən artıq siyasiləşərək müxtəlif partiyaların və siyasi qrupların mənafeyinə xidmət etməsi Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarının da düşmən əlinə keçməsini sürətləndirdi. Xüsusilə Əlikram Hümmətovun qondarma "Talış-Muğan Respublikası" elan edərək, özünə sadiq silahlı qüvvələri cəbhə xəttindən çıxarması, Azərbaycan dövlətinə qarşı qiyam qaldırması bu işdə mühüm rol oynadı. Vahid hərbi əməliyyat planına malik olmayan Azərbaycan ordusu xarici qüvvələr tərəfindən gücləndirilmiş Ermənistan ordusunun hücumlarına tab gətirmədi. Bu işdə cəbhə bölgələrində müxtəlif siyasi qüvvələrin təxribatçı hərəkətləri də az rol oynamadı. Avqustun 23-də Füzuli, 25-də Cəbrayıl, 31-də Qubadlı rayonları işğal olundu. Hər tərəfdən düşmən mühasirəsində olan Zəngilan rayonunu da xilas etmək mümkün olmadı. Nəticədə oktyabrın 27-də Zəngilan rayonu da düşmən əlinə keçdi. Amansız düşmənlə üz-üzə müdafiəsiz vəziyyətdə qalmış əhali öz doğma ev-eşiyini tərk etməyə məcbur oldu. Bu rayonların müdafiəsi zamanı xalqımızın yüzlərlə igid oğlu qəhrəmanlıqla şəhid oldu.

Azərbaycana qarşı ədalətsiz müharibə aparıldığını, onun ərazi bütövlüyünün pozulduğunu və torpaqlarının ermənilər tərəfindən işğal olunduğunu BMT də təsdiq etdi. BMT Təhlükəsizlik Şurası 1993-cü il oktyabrın 14-də Füzuli, Cəbrayıl və Qubadlı rayonlarının, noyabrın 12-də isə Zəngilan rayonunun işğalını pisləyən və həmin ərazilərin tərk edilməsini tələb edən 874 və 884

№-li qətnamələr qəbul etdi. Lakin əvvəlki qətnamələr kimi, bu qətnamələr də yerinə yetirilmədi.

Tarixi arayış. Ermənistan işğalçılarına qarşı mübarizədə Azərbaycanın hərbi-iqtisadi və insan qüvvələrinin səfərbər edilməsinə böyük ehtiyac var idi. Bu məqsədlə Prezident Heydər Əliyev 1993-cü il noyabrın 2-də televiziya və radio ilə xalqa müraciət etdi, ciddi hərbi-təşkilati tədbirlər həyata keçirildi. Bunun nəticəsində Azərbaycan xalqının işğalçılara qarşı ədalətli mübarizəsində dönüş yaratmaq mümkün oldu. Noyabrın ortalarında Ermənistan silahlı qüvvələrinin Beyləqan istiqamətində hücumu dayandırıldı. Azərbaycan ordusunun müvəffəqiyyətli əməliyyatları nəticəsində 1994-cü il yanvarın 5-də Füzuli rayonunda strateji əhəmiyyətli Horadiz qəsəbəsi və 22 kənd düşməndən təmizləndi. Bunun ardınca Cəbrayıl rayonu ərazisinin bir hissəsi, Kəlbəcər rayonunda Bozlu, Təkəqaya, Babaşlar, Qanlıkənd, Çəpli, Susuzluq, Qasımbinəsi, Yanaşaq, Bağırsaq, Qamışlı, Bağırlı yaşayış məntəqələri də düşməndən azad edildi. Düşmən Çiçəkli dağdan və b. strateji yüksəkliklərdən qovuldu. Kəlbəcər-Laçın yolunun tunelə qədər olan hissəsi nəzarət altına alındı. Azərbaycanın müharibədə dönüş yaratmaq, işğal olunmuş vətən torpaqlarını azad etmək sahəsində əldə etdiyi uğurlar nəinki Ermənistanı, həmçinin onu müdafiə edən qüvvələri də ciddi təşvişə saldı. Ermənistanın himayəçilərini, onu hərbi cəhətdən möhkəmləndirməsi, müasir silahlarla təmin etməsi, bölgədə irticaçı qüvvəyə çevirməsi siyasəti daha da gücləndirildi. Azərbaycan Respublikası belə bir şəraitdə 1994-cü il mayın 8-də Bişkek protokolunu imzaladı, düşmən üzərində hərbi uğurları sayəsində mayın 12-də cəbhədə atəşkəsə nail oldu.

Azərbaycana qarşı apardığı işğalçılıq müharibəsi dövründə Ermənistan Azərbaycan sərhədlərinin 360 kilometrlik sahəsində irəli soxularaq 20%-dək Azərbaycan torpaqlarını işğal etmiş, Füzuli rayonunun Horadiz qəsəbəsindən Zəngilan rayonu da daxil olmaqla 198 kilometrlik Azərbaycan sərhədlərini nəzarət altına almışdı. Erməni təcavüzü nəticəsində Qarabağın dağlıq hissəsində

50 minədək azərbaycanlının yaşadığı 2 şəhər, 1 qəsəbə, 53 kənd işğal olundu. Qarabağın dağlıq hissəsindən kənarda aparılan işğallarla birlikdə 890 şəhər, kənd və qəsəbə ermənilərin əlinə keçdi. Dağıdılmış obyektlər, zəbt olunmuş əkin və meşə sahələrinin statistikası belədir: yaşayış evləri – 102000, ictimai binalar – 7000, ümümtəhsil məktəbləri–693, səhiyyə obyektləri-695, avtomobil yolları – 800 km, körpülər – 160, su kəməri – 2300 km, elektrik xətti–15000 km, meşə sahəsi – 250000 ha, əkin sahəsi–200000 ha, tarixi abidə va müzeylər – 464. İlkin hesablamalara görə, Azərbaycan Respublikasına 60 mlrd. ABŞ dollan həcmində zərər dəymişdir. Bundan başqa, Azərbaycanın civə, obsidian və perlit ehtiyatlarının hamısı, tikinti və üzlük materiallarının 35–60%-i, meşə fondunun 23,8%-i, su ehtiyatlarının 7,8%-i və s. işğal olunmuş torpaqların payına düşür. Burada 2 qoruq və 3 iri su anbarı da yerləşir.

28–29 fevral

SUMQAYIT HADİSƏLƏRİ

1988-ci il fevralın 28–29-da baş vermiş Sumqayıt hadisələrindən xeyli vaxt keçmişdir. Lakin təəssüf ki, bir çoxları həmin hadisələr haqqında dürüst və obyektiv məlumata malik deyillər.

Dünyada böhtan və iftiraları ilə "məşhur olan" erməni qonşularımız riyakarlıqla dünya ictimaiyyətini çaş-baş salır, tarixi faktları həyasızcasına saxtalaşdırırlar.

SSRİ-nin dağılması ərəfəsində hakimiyyətə gəlmiş ermənipərəst M.Qorbaçovun razılığı və himayəsi ilə Qarabağın dağlıq hissəsində yaşayan ermənilər Azərbaycan Respublikası əleyhinə qiyam qaldıraraq Bu ərazinin Ermənistana birləşdirilməsini tələb etməyə başladılar. Xankəndində və İrəvanın Teatr meydanında mitinq və nümayişlər başlandı. Ermənilər öz ata-baba torpaqlarında yaşayan azərbaycanlı əhalisinə qarşı zorakılıq göstərməyə başladılar. Eyni zamanda erməni təbliğat maşını bütün dünyada "vəhşi azərbaycanlı" obrazı yaratmaqla məşğul idi. Bunun üçün Azərbaycanda ermənilərə qarşı "qırğın törətmək" lazım gəlirdi. Belə bir obyekt Sumqayıt şəhəri seçildi. Bu hadisənin sifarişçisi SSRİ kommunist rəhbərliyi, xaricdəki erməni diasporu, erməni katolik kilsəsi, erməni ziyalıları idi (1905 və 1918-ci illərdə olduğu kimi).

Ermənilər təxribat törətmək üçün Sumqayıtı seçməkdə yanılmamışdılar. Çünki 260 minlik əhalisi olan Sumqayıtda yaşayanlar əksəriyyəti gənclər idilər; onları daha tez təxribata çəkmək mümkün idi. Milliyyətcə erməni olan, 3 dəfə məhkum edilib qatı cinayətkar kimi 9 il həbsdə yatmış "Paşa" ləqəbli Eduard Qriqoryan Sumqayıt hadisələrinin əsas icraçısı oldu. Qriqoryan ona tapşırılmış işin öhdəsindən bacarıqla gəldi. Ona verilmiş xüsusi siyahı əsasında "Krunk" cəmiyyətinə üzv yazılmayan və üzvlük haqqı ödəməkdən imtina edən ermənilər məhv edildilər. Bundan sonra ermənilər bütün dünyaya car çəkərək şivən qopardılar ki, azərbaycanlılarla bir dövlətdə yaşamaq mümkün deyil. İsveçdən xüsusi olaraq bu iş üçün gəlmiş Artaşes Qabirelyans adlı erməni

həmin günlər baş vermiş hadisələri videokamerası ilə lentə almış, hadisələri isə belə adlandırmışdı: "Bizi başkəsənlərdən xilas edin". Bu hadisələr nəticəsində 32 nəfər öldürülmüşdü ki, onlardan da 26 nəfəri erməni idi. Ümumiyyətlə talanlar zamanı 400 nəfərdən çox adam xəsarət almış, 200-dən çox mənzil qarət edilmiş, 50-yə yaxın mədəni-məişət obyekti dağıdılmışdı. Ermənilər isə dünya ictimaiyyətinə yalan məlumat verərək 500 nəfər ermənisinin öldürüldüyünü iddia edirdilər. Bu işin qabaqcadan planlaşdırıldığı bir də ondan görünürdü ki, ermənilər hadisədən bir neçə gün keçmiş Xankəndində tələm-tələsik "Sumqayıt genosidi" abidəsini ucaltmışdılar.

O vaxtlar SSRİ prokurorluğu 2000-ə yaxın adamı həbs etmişdi. Moskvada Sumqayıt hadisələrində günahlandırılan, əslində isə günahsız olan Ə.Əhmədov, İ.İsmayılov, O.Cəfərov saxta ittihamlarla məhkum edildilər. Əhməd Əhmədov ən ağır cəzaya – güllələnməyə məhkum olunmuşdu. Əsil qatil E.Qriqoryan isə 12 il müddətinə azadlıqdan məhrum edilmişdi.

Sumqayıt hadisələri göstərdi ki, ayıq-sayıq olmaq lazımdır, erməni fitnəkarlığına uymaq olmaz, çünki ermənilərin fitnəkarlığı təkcə bununla bitməyəcək. Hadisələrin sonrakı inkişafı bu fikrin doğruluğunu sübut etdi.

Tarixi həqiqət gec də olsa öz yerini tapdı – məlum oldu ki, Sumqayıt hadisələri heç də ermənilərı məhv etmək məqsədilə törədilməmişdi. Bu təxribat Azərbaycan torpaqlarının ermənilər tərəfindən gələcək işğalına dünya ictimaiyyəti tərəfindən haqq qazandırmaq məqsədi güdürdü.

MÜNDƏRİCAT

Ön söz 3
Orucluq bayram 4
Qurban bayramı 8
Novruz bayramı 11
Təhlükəsizlik orqanları işçiləri günü 19
Ümummilli lider Heydər Əliyevin doğum günü 21
Ekologiya və təbii sərvətlər nazirliyi işçiləri günü....27
Respublika günü 29
Mülki Aviasiya işçiləri günü....34
Meliorator günü 37
Milli qurtuluş günü 39
Səhiyyə işçiləri günü....41
Azərbaycanda insan hüquqları günü 43
Qaz təsərrüfatı işçiləri günü 47
Dövlət qulluqçuları günü 49
Azərbaycan silahlı qüvvələri günü 51
Azərbaycan polisi günü....54
Azərbaycan diplomatiyası günü 55
Milli mətbuat və jurnalistika günü 59
Azərbaycan əlifbası və Azərbaycan dili günü....62
Milli kino günü 64
Hərbi dəniz donanması günü....67
Sərhəd qoşunları günü 69
Xüsusi dövlət mühafizəsi xidməti işçiləri günü....72
Bilik günü 74
Türk qardaşlığının zəfər günü 75
Neftçilər günü....77
Prokurorluq işçiləri günü 80
Dəmiryolu işçiləri günü 82
Müstəqillik günü 84
Kənd təsərrüfatı işçiləri günü....87
Televiziya və radio işçiləri günü 89
Bakı Metropoliteni işçiləri günü 91
Dövlət bayrağı günü....93
Konstitusiya günü 95
Milli Dirçəliş günü....100

Ədliyyə işçiləri günü 102
Rabitə və informasiya texnologiyaları işçiləri günü 105
Fövqəladə Hallar Nazirliyi işçiləri günü 108
Dünya Azərbaycanlılarının həmrəyliyi günü 110
Ümumxalq hüzn günü 117
Gömrük işçiləri günü 121
Respublika gəncləri günü 122
Vergi xidməti işçiləri günü 124
Avtomobil yol işçirləri günü 126
Bədən tərbiyəsi və idman günü 128
Milli teatr günü 130
Daxili qoşunlar günü 132
Yeni il bayramı 136
Ümumdünya su bataqlıq əraziləri günü 139
Sevgililər günü 140
Beynəlxalq ana dili günü 141
Beynəlxalq qadınlar günü 143
Ümumdünya istehlakçılar günü 146
İrqi ayrı–seçkiliyin (diskriminasiya) ləğv edilməsi uğrunda beynəlxalq mübarizə günü 148
Ümumdünya metereologiya günü 150
Beynəlxalq teatr günü 152
Ümumdünya gülüş günü 154
Beynəlxalq uşaq kitabı günü 155
Ümumdünya aviasiya və kosmonavtika günü 156
Tarixi abidələrin mühafizəsi günü 158
Beynəlxalq yer kürəsi günü 161
Ümumdünya kitab və müəllif hüquqları günü 163
Beynəlxalq söz və mətbuat azadlığı günü 164
Faşizm üzərində qələbə günü 165
Ümumdünya informasiya cəmiyyəti günü 168
Beynəlxalq müzeylər günü 171
Beynəlxalq biomüxtəliflik günü 174
Uşaqları beynəlxalq müdafiə günü 175
Ətraf mühitin mühafizəsi günü 177
Ümumdünya qaçqınlar günü 179
Narkomaniya və narkobiznesə qarşı beynəlxalq mübarizə günü 181
Beynəlxalq gənclər günü 183

Jurnalistləri həmrəyliyi günü 187
Beynəlxalq ahıllar günü 188
Müəllim günü 190
Ümumdünya poçt günü 192
Birləşmiş Millətlər Təşkilatı günü 193
Ümumdünya diabet günü 197
Beynəlxalq tələbə günü 199
QİÇS–ə qarşı beynəlxalq mübarizə günü 200
Ümumdünya əlillər günü 202
İnsan hüquqları günü 203
Xocalı soyqırımı 206
Azərbaycanlıların soyqırımı günü 209
Kəlbəcərin işğalı günü 213
Şuşa və Laçın rayonlarının işğalı günü 214
Ağdam rayonunun işğalı günü 215
Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan rayonlarının işğal tarixləri 216
Sumqayıt hadisələri 219

Əkbər Əlixan oğlu QOCAYEV
Fəxrəddin Vəli oğlu VƏLİYEV

BAYRAMLAR VƏ TARİXİ GÜNLƏR

Nəşriyyatın direktoru Eldar Əliyev
Texniki redaktoru Mehri Xanbabayeva
Kompyuter dizaynı Samir Qocayev

Yığılmağa verilib. 23.11.2009. Çapa imzalanıb. 08.01.2010.
Formatı 70x100 1/16. F.ç.v.14. Ş.ç.v. 18,06. Ş.r.o. 72,24.
Məktəb qarnituru. Ofset kağızı. Sayı 500

"Çaşıoğlu" nəşriyyatı.
"Çaşıoğlu" mətbəəsi.
Bakı ş., M.Müşfiq küç., 2a



QOCAYEV ƏKBƏR
Ədilxan oğlu

1956-cı ildə Qərbi Azərbaycanın (indiki Ermənistan) Amasiya bölgəsinin Çaybasar kəndində anadan olmuşdur. 1978-ci ildə H.Zərdabi adına Kirovabad (indiki Gəncə) Dövlət Pedaqoji institutunun tarix fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir.

1978-1991-ci illərdə Oğuz (keçmiş Vartaşen) rayonunun məktəblərində müəllim, tədris işləri üzrə direktor müavini və direktor, 1992-2000-ci illərdə Sumqayıt şəhərinin liseylərində tədris işləri üzrə direktor müavini, 2001-2007-ci illərdə Bakı şəhərindəki H.Əliyev adına Müasir Təhsil Kompleksində tarix kafedrasının müdiri vəzifələrində işləmişdir. 2008-ci ilin yanvarından Bakı şəhərindəki A.Hüseynzadə adına 20№li məktəb-liseyin direktoru işləmişdir. Keçmiş SSRİ-nin nüfuzlu pedaqoji mükafatı olan N.Krupskaya adına pedaqoji mükafat laureatıdır. Orta ümumtəhsil məktəblərinin VII-XI sinifləri üçün 14 adda «Azərbaycan tarixi», «Ümumdünya tarixi» və «İnsan və cəmiyyət» dərsliklərinin, 4 adda proqramın, 30-dan çox elmi-metodik dərs vəsaitlərinin həmmüəllifidir. Azərbaycan təhsil tarixində ilk dəfə olaraq VI-XI siniflər üçün Azərbaycan tarixi fənnindən 10 diskdən ibarət elektron dərs vəsaitinin və divar xəritələrinin müəllifidir. «Əməkdar müəllim», «Qızıl qələm» mükafatı laureatıdır.

Ə. Ə. Qocayev 2009-cu il dekabrın 12-də vəfat etmişdir.

Üç oğlu, iki nəvəsi var.



VƏLİYEV FƏXRƏDDİN
Vəli oğlu

1955-ci ildə Şəmkir rayonunun Bitdili kəndində anadan olmuşdur. 1978-ci ildə H.Zərdabi adına Kirovabad (indiki Gəncə) Dövlət Pedaqoji institutunun tarix fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. Kənd Təsərrüfatı Akademiyasının İqtisadiyyatın idarə olunması fakültəsinin məzunudur. Müxtəlif vaxtlarda Şəmkir rayonunun ümumtəhsil məktəblərində müəllim, direktor müavini, R.Əliyev adına sovxoz partiya komitəsinin katibi, sovxoz direktorunun müavini vəzifələrində işləmişdir. 1993-cü ildən Şəmkir rayon icra hakimiyyətində məsul vəzifədə çalışır. Hazırda Şəmkir rayon icra hakimiyyəti başçısının təhsil, səhiyyə və mədəniyyət sahələri üzrə müavini, Yeni Azərbaycan Partiyası Şəmkir rayon təşkilatının sədridir.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 22.06.2009-cu il tarixli sərəncamı ilə «Dövlət qulluğunda fərqlənməyə görə» medalı ilə təltif olunmuşdur.

Ailəlidir, üç oğlu var.